SƏFDƏR EMİNOV

# 213-CÜ GÜN

Bakı - 2023

***Təmənnasız köməyə görə Qarabağ müharibəsi iştirakçıları polkovnik-leytenant Afin Yəhyayeva, Rauf Qafarova və hərbi jurnalist Lalə Hüseynovaya təşəkkür edirəm.***

**Redaktor:** **Nəcibə İlkin**
*Şair-publisist, yazıçı,*
*AYB-nin, AJB-nin üzvü,*
*"Azad Qələm" qəzeti və jurnalının*
*baş redaktoru, Prezident mükafatçısı,*
*İctimai xadim.*

***Səfdər Eminov, "213-cü gün"***
***Bakı, «İmza» nəşrlər evi, 2023, 216 səh.***

*Müharibə veteranı, dəyərli yazıçımız Səfdər Eminovun yazdığı əsərlərin hamısı müharibə mövzusundadır. İnanırıq ku, onun yazdığı hər bir əsər Azərbaycan ədəbiyyatına ən gözəl töhvə olmaqla bərabər, gələcək nəsilimizə kişilik, igidlik məktəbidir. «213-gün» əsəri ermənilərə əsir düşən və erməni cəlladlarının işğəncəsinə məruz qalan əsgərlərimizin faciəli həyatından bəhs edir.*

**İSBN 978-9952-37-440-1**

**© Səfdər Eminov, 2023**

## REDAKTORDAN

*Müharibə veteranı, yazıçı Səfdər Eminovun eyni adlı əsəri haqqında düşüncələrim...*

Çoxlu sayda kitabların redaktoru olmağıma baxmayaraq, hər kitab məni özünə çəkə bilməyib. İstər şeir, olsun, istər nəsr. Amma elə kitablar var ki, məni önündə saatlarla saxlayır, ruhuma hakim kəsilir. "213-cü gün"əsəri ürəyimin cəlladı olsa da, ömrümün yaşamı oldu. O əsərlər yaddaşlara əbədi həkk olunur ki, onlar dünənimizin, bu günümüzün aktuallğını özündə əks etdirir. O əsərlər əbədiyyətin sakini olur ki, onlar xalqın tarixini özündə yaşadır. Əslində yazıçı xalqı qaranlıq dünyadan  aydınlığa aparan insan olmalıdır. Məhz Səfdər Eminov belə yazıçı təsiri bağışladı mənə...

Müharibə...Əsirlik həyatı...Dəhşətli və dözülməz bir insan həyatı ilə üz-üzə qalmaq nə qədər ağır və keçilməzdir. U.Folkner yazırdı ki, "Böyük əsərlər dəhşətli əzablar içində doğulur". Və başqa bir fikrində isə qeyd edirdi ki, "Yazıçı həqqəti yazmalıdır. Yalan kitablara yol tapa bilər, amma heç vaxt əsl ədəbiyyat ola bilməz".  Bu mənada əsl həqiqət üzərində qanlı keçmişimizi özündə əks etdirən bu əsər mənə müharibədəki atışmanı xatırlatdı. Güllələr birbaşa beynimdən keçdi. İçimi doğradı...

Tariximizin qanlı keçmişi bir anlıq gözlərimin önündən keçdi.

200 ildən artıqdır ki,  erməni siyasətbazları, insanlıqlarını itirmiş erməni-rus hərbi birləşmələri  "Böyük Ermə-

nistan" yaratmaq uğrunda mənfur ideyalarını həyata keçirmək üçün Azərbaycan torpaqlarında Qafqaz türklərinə qarşı misli görünməmiş faciələr törətmişlər. Onlar dənizdən dənizə Böyük Ermənistan niyyətini reallaşdırmaq üçün Çar Rusiaysının vasitəsi ilə İrandan və Türkiyədən erməniləri kütləvi şəkildə Qafqaza köçürmüş, o cümlədən Azərbaycanda onların məskunlaşamasına nail olmuşdur. Məlumdur ki, Rusiya-İran, Rusiya- Türkiyə arasında 1828-1829-cu il müharibələrindən dərhal sonra bu köçürülmələr baş verdi. 1 milyon 300 min ermənin Qafqazda yerləşdirilməsi mərhələnin başlanğıcı idi. Erməni əhalisi arasında geniş təbliğat aparmaq, Qafqaz türklərinə qarşı nifrət hissi oyadır, öz mənfi məqsədlərinə çatmaq üçün hər cür plandan istifadə edliridi. 1890-cı ildə onlar bu məqsədlə "Daşnaksutyun" partiyası yaratdılar. Bu partiya tezliklə Qafqazı və Rusyanı əhatə etdi. Nəhayət, 1905-ci ildə həmin partiya böyük səylə hazırladığı soyqrımı həyata keçirməyə başladı. Yaxşı silahlanmış ermənilər 1905-ci il fevralın 6-da əlverişli şəraitdən istifadə edərək Bakıda soyqırım siyasəti həyata keçirdi. Azərbaycanda yüzlərlə evlər yandırıldı, qarət olundu. Gəncə, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, İrəvan, Şirvan, Naxçıvan mahallarında bu qırğınlar davam etdi.

Beləlikə, 75 kənd yandırıldı, 3431 ailə hadisələrin qurbanı oldu. Yaxşı silahlanmış erməni daşnakları 1915-1918-1920-ciilədək həmin ərazilərdə bu soyqırımı həyata keçirməyə davam etmişlər.

1935-40 –cı ildə Ermənistanda nə qədər soydaşlarımızın taleyinə fərman verilmişdi. Nəhayət, 1947-51 ci ildə rus havadarlarının köməyi ilə Qərbi Azərbaycandan- İrə-

vandan 150 mindən artıq azərbaycanlılar Azərbaycanın isti aran yerlərinə köçürülmüşdü.Tarixin hansı səhifəsini varaqlasaq ermənilərin Anadolu və Azərbaycan türklərinə qarşı apardığı terrorla rastlaşarıq. 1918-ci ildə isə Azərbaycanda ilk demokratik dövlət qurulan zaman ermənilər Qarabağda üsyan qaldırmış, dinc əhalini öz yuvalarından didərgin salmışdır. O zaman Ağdam-Əsgəran-Şuşa yolunu ermənilər bağlaya bilmişdi. Müstəqil dövlətin hərbi generalı Həbib bəy Səlimov beş polku birləşdirərək Ağdam istiqamətində ermənilərin üstünə yeritmişdi. Ermənilər yalnız bundan sonra qorxaraq geriyə çəkilmişdi.

1988-ci ildə ermənilər rus havadarlarının vasitəsilə Qarabağda yendiən üsyan qaldırdı. Bu üsyan dalğası sürətlə böyüməyə başladı. 1990-cı ilin noyabrın 24-də üç nəfər Qaradağlı sakinini Xocavənd-Xankəndi yolunun yaxınlığında ermənilər qətlə yetirdi. 1991-ciilədək Qarabağın dağlıq hissəsində baş verən hadisələr gərginləşdi. Artıq baş verən hadisələr böyük fəlakətin yaxınlaşmasından xəbər verirdi. Keçmiş SSRİ-nin tərkibindən yenicə çıxmış müstəqil Azərbaycanın səmasını qara buludlar almışdı.

İgid oğullarımızın silaha sarılaraq döyüş meydanına atılması, vətəni çaqqal-quzğun yığnağından azad etməsi arzuları hər gün reallığa çevrildi. Ancaq nizami ordumuz olmadığı üçün nizami döyüş də yox idi. Hər şey kor-koranə aparılırdı. Buna baxmayaraq döyüş meydanına atılan oğullarımızın, igidlərimizin sayı-hesabı yox idi. Azadlıq eşqi, vətən eşqi hər kəsin qəlbində alova çevrilmişdi. Azərbaycanın ərazi bütövlüyü, torpaqlarımızın erməni vandallarından təmizlənməsi uğrunda böyük döyüşlər gedirdi. Lakin düşmənin arxası güclü idi. Bizim mükəm-

məl ordumuzun olmadığı bir dövrdə düşmənin güclü olması bizi məğlubiyyətə aparırdı. Rus şovinistlərinin, iran farslarının dəstəyi düşməni gücləndirmişdi. Neçə illərdi doğma torpaqlarımızda rahat yaşayan haylar yenidən nahaq qanlar axıtmağa başladı. Bu bağışlanılmaz idi. Hiyləgər düşmənin mənfur niyyəti aydın idi. Biz haqq uğrunda, torpaqlarımızın azadlığı uğrunda savaşa qalxmaqla nəhayət ki, bu qana son qoymaq qərarını verdik.

Dörd il Qarabağ torpaqlarımızda qan su yerinə axdı. Minlərlə oğullarımız şəhid oldu. Nə qədər qız-gəlinlərimiz əsir aparıldı. Nə qədər döyüşçülərimiz əsir düşdü. Nəhayət, 1992-ci ildə erməni və rus terrorçuları misli görünməmiş “Xocalı soyqımı” nı həyata keçirdi. Şərəfsiz düşmənin bu iyrəncliiyinə dözə bilməyən igidlərimiz yenidən ölüm-dirim savaşına başladı. Zəif və pərakəndə ordu, silah çatışmamazlığı əsgərlərimizi daxilən sarsıtsa da, vətən eşqi onları irəli apardı. Daxildə gedən xəyanətkarlıq, satqınlıq planlı şəkildə həyata keçirilirdi. Üstəlik də paytaxtda kreslo davası.

Az silahla irəli gedən döyüşçülərimizin düşmən üstünə gedərək onlara sarsıdıcı zərbələr vurması düşməni çaş-baş salmışdı.

Lakin.... şərəfsiz qalibliyə yol alan düşmən artıq azğınlaşmışdı...

Nəhayət Qarabağ torpaqlarımız vəhşi, mənfur erməni terroristləri tərəfindən işğal olundu. Bu işğal 2020-ci ilə qədər çəkdi....Müharibənin də öz qanunları var...

Birinci Qarabağ Vətən müharibəsindən qələm əhli çox yazdı, şəhid oğullarımzdan, onların həyat yolundan, qəhrəman döyüşçülərimizin igidliyindən bəhs edən nəsr əsər-

ləri yaradıldı. Bu, bir tarixdi. Bu tarixi gələcək nəsillərə ötürmək üçün məhz bunlar yazılmalıdı. Belə əsərlərdən biri də "213- cü gün" romanıdı.

Müəllif Səfdər Eminov ehtiyatda olan zabit, müharibə veteranıdır. Ömrünü hərbi sahəyə bağlayan və Birinci Qarabağ Müharibəsində tankçı kimi döyüş yolu keçən S.Eminov müharibədə baş vermiş hadisələri, igid oğullarımızın qəhrəmanlığını, əsirlik həyatını ustalıqla qələmə almaqla qanlı tariximizin qəhrəmanlıq səhifələrini gələcək nəsillərə, oxuculara çox böyük məharətlə çatdırmağı bacarmışdır. Onun "Cəsus ovu", "Rəngsiz ölüm", "Sayrşan ulduzlar" kimi müharibə həyatından bəhs edən əsərləri ədəbiyyatımıza ən böyük töhvədir. Burda Q.Markesin sözü yadıma düşür: "Biz yazıçılar nəcib, xeyirxah məqsədlər güdən əsərlər deyil, həm də yüksək səviyyəli əsərlər yaratmağa çalışırıq. Hər bir yazıçının inqilabi borcu yaxşı yazmaqdır". Bəli, yaxşı yazmaq...

"213-cü gün" əsəri mərdliklə döyüşən və hətta əsir düşəndə belə düşmən qarşısında sınmayan, əyilməyən oğullarımızın mərdliyindən bəhs edir. Türk oğlu heç zaman düşmənə əyilməz!

Əsərin qayəsi erməni işğalına mətinliklə sinə gərən, yalın əllə düşmən üzərinə gedən igidlərimizin, torpaqlarımızın hər qarış uğrundakı mübarizəsi və xəyanət nəticəsində ermənilərə əsir düşməsi, lakin əyilmədən, sınmadan vətənə olan sevglərini qorumasıdır.

Erməni əsirliyində olan vətən oğullarımıza verilən işgəncələr və bu işgəncələrin müqabilində həyatını itirən oğullarımız... Lakin şərəfli ölümü hər şeydən üstün tutan oğullarımızın düşmən qarşısında da məğrur dayanmağı,

satqınlıqdan, xainlikdən uzaq olaraq onların qarşısında sınmamağı bizə qürur verir. Bu, bir daha Azərbaycan oğlunun nəyə qadir olduğunu aydın göstərir. Məhz müəllif peşəkar döyüşçü olmaqla bərabər, yazıçı peşəkarlığını da gözəl nümayiş etdirib.

Döyüş səhnələrində, eləcə də döyüşçülərimizin əsir götürülməsindəki epizodlardan tam aydınlıqla bilinir ki, döyüşdə rus əsgərlərinin daha çoxluq təşkil etməsi və fəal olması qaçılmazdır. Bu da onu bir daha sübut edir ki, bizimlə müharibəni edən tək erməni deyil, onların arxasında duran və havadarlıq edən, keçmişdən üzü bəri Azərbaycan torpaqlarına göz dikən, erməni əliylə onları ələ keçirmək istəyən elə ruslardır. Hansı ki, fikrimin əvvəlində Rusiya İmperiyasının neçə illərdi apardığı antitürk siyasəti buna əyani sübutdur.

Əsərdə son damla qanına qədər düşmən qabağından qaçmayan oğullarımızın düşmənin ağır artileriyası nəticəsində yaralı halda əsir düşmələri səhnəsi acınacaqlı olsa da, ölümdən qaçmayan oğullarımızın yaralı, əsir düşən zaman belə düşməni qorxutması bizdə fərəh hissi oyadır. Müəllif əsərdə həm döyüşçüdü, həm də yazıçı....

S.Eminov bir yazıçı olaraq təbiəti rahatlıq bilməyən, dinclik tanımayan yazıçıdır.

18 nəfərdən ibarət əsgərin və iki zabitin olduğu döyüşçü komandasının komandiri, əsas qəhrəmanlarından biri Asimdir. Onun döyüş sahəsindəki bacarığı, əsgərlərinin ona olan inam və sevgisi aydın görünür. Müəllif onların qorxmazlığını, silahın az olmasına baxmayaraq vətən sevgilərini əldə bayraq edərək düşməni sarsıtmağa, onları çaş-baş salmağa can atmaqla döyüş ruhunu daha da güc-

ləndirməsi səhnəsini elə gözəl yaradıb ki, bir anda əsgər olmaq istəyirsən. Belə oğulları əsirlik həyatı da sındırmır...

Əsərin birinci qəhrəmanı əsirlikdə inanılmaz dəhşətlərin şahidi olan Asim hər an ölümlə üz-üzə qalır. Hər gün yeni-yeni işgəncələrə məruz qalan əsir oğullarımızın çoxu erməni qəddarlığının, erməni vəhşiliyinin qurbanı olurdular. Böyük ermənistan yaratmaq iddiasında olan erməni hərbi birləşmlərinin əsirlərin qarşısında qaliblikdən, Qarabağın alınmasından ürək dolu danışmasına dözməyən əsir, milliyətcə ləzgi olan Xəlil təcridxananın şüşəsini sındıraraq:

– Alçaqlar, axırınıza az qalıb, layiq olduğunuzu alacaqsız,-deməsi düşməni qorxuya salır. Xəlilə işğəncə vermək üçün qollarını və ayaqlarını bağlayırlar. Onu işğəncə ilə öldürüb, başını kəsirlər. İnsanlığını itirmiş düşmənin qəddarlığı aydındır, ancaq əsirin əl-qolunu bağlayaraq ona işgəncə vermək, öləndən sonra isə başını kəsmək düşmənin qorxaqlığının əlamətidir. Xəlilin parçalanmış cəsədinin belə dərhal götürülməsini tələb edən düşmənin türk oğlunun cəsədindən belə necə qorxmasını sübut edir. Bəli, ermənilər cəllad kimi cəllad olsalar da, ölümümüzdən belə qorxurlar... Müəllif səhnəni gözəl yaradır və qeyd edir:

"Xəlil hətta yaralı və can üstə olduğu halda ermənilər üçün qorxulu idi və illər sonra da bu belə qalacaqdı. Onu xatırlayan hər bir "yan" üçün belə təhlükəli olacaqdı."

Belə epizodlar əsərdə çoxdur. Bününla da müəllif düşmənin iç üzünü açır, onun qəddarlığı ilə bərabər qorxaqlığını ortaya qoyur. Belə bir atalar məsəli var, deyir itdən soruşurlar ki, niyə hürürsən, deyir qorxuduram, deyir bəs quyruğunu niyə bulayırsan, deyir qorxuram. Bax,

ermənilər də eyni itin günündədir. Həqiqətən düşmən qorxaqdır, çünki oğrudur, torpaq oğrusu. Düşmən haqsızdır, çünki onlara yaşamaq üçün veridiyimiz torpaqlara xəyanət etdilər. Bu isə onların ən şərəfsiz bir məxluq olduğunu təsdiq edir.

Hər gün ölüm səhnələri ilə üz-üzə qalan Asim daha da bərkiyir və düşmənə nifrət, qisas hissi ilə yaşamaqla xəyallarını arzulara çevirir. Xəlilin ölümü bir çox əsirlərə mərdlik dərsi olur. Onların iradə əzmi daha da artır.

Əsirlərə işgəncə verənlərin içərisində xaricdən Ermənistana gətirilmiş Manvelyan, qatı daşnakçı Malxazyan Armenak, təcridxana rəisi Kamo kimi insanlığını itirmiş qaniçənlərin əsirlərimizə qarşı dözülməz işgəncələri ustalıqla verilib. Bu acı həqiqəti şahidlər əsasında qələmə alan müəllif hər kəsin, hər gəncin bilməsinin vacibliyini, erməninin murdar xislətini və bir millət adına ləkə olduğunu əslində üzə çıxarır.

Əsirlərin varlı ermənilər tərəfindən alınaraq onların qul kimi işlədilməsi, yaxud müharibədə ölən övladlarının qəbrinin üstündə başlarının kəsilməsi məsələsi də əsərdə öz yerini alıb. Bu da heç bir insanlığa sığmayan bir əməldir ki, ermənilər keçmişdə olduğu kimi bunu məharətlə həyata keçirir. Asimin gördüyü ikinci ən dəhşətli faciə kənddə ad-san qazanmış tarix müəllimi Qaraxanın əsir düşmüş arvadı və iki qızının əsirlik həyatıdır. Erməni əsilli Əzizin satqınlığı nəticəsində əsir düşən və bundan xəbəri olan Sitarə ərinin verdiyi silahla onu öldürür. Sitarə və qızlarından erməni Malxazyan Qaraxanın qisasını almaq üçün onu heç kəsə vermir. Yalnız Kamoya etibar edir. Sabah onları hansı aqibət, biabırçılıq gözləyəcəyini bilən

Sitarə gecə ikən qızlarını kəndirlə boğub öldürür. Doğma balalarını öz əliylə asıb öldürən və ölüm meydanında tək qalan ana pələngə dönüb Kamonun üstünə atılır, onun iti dırnaqları ilə gözünü çıxarır. Burda kişilərin namus-qeyrət rəmzi olan Azərbaycan qadının son anda özünü necə müdafiə etməsi və düşmən üzərinə şığıması Tomris anamızdan bizə qalan qəhrəmalığın mirasıdır, desəm yanılmaram. Bir qadına gücləri çata bilməyən düşmən onu silahla qətlə yetirir. Bax, budur türk qadının cəsarəti...Bu səhnəni görən təcridxananın pəncərəsindən ürək ağrısıyla müşahidə edən Asim: -Qeyrətinə qurban olum bacı, kaş biz də sən qeyrətdə olardıq, deyə sızlayır.

Asim və kamera yoldaşları Rüstəm, Bəxtiyar, Vahid, Alim, Azər və s. hər gün belə ölüm səhnəsini görürdülər. Dəfələrlə özünü öldürmək fikrinə düşsə də Asimin içində özünə bir inam hissi də baş qaldırmışdır. O, nə vaxtsa bu ölümdən qurtaracağına içində əminlik yaratmışdır. Nəhayət, bir gün Asim, Alim və Azər qondarma Qarabağ respublikasının müdafiə naziri Samvel Babayanın Xocalı rayonunun Həsənabad kəndində olan daçasına məxsus maşınla əhəng gətirmək əmrini yerinə yetirmək üçün göndərilir. Asim planını həyata keçirmək üçün çox düşünür və çətin də olsa bunu əldə edə bilirlər. Onları gətirən erməniləri öldürüb maşını özləri müəyyən yerə qədər idarə edərək postlardan keçməklə, irəli gedirlər. Üstündə qondarma "Artsax"ın bayrağı olan maşın bütün erməni postlarından keçərək Qarqar çayının yaxınlığında dayanır...

Yalnız çayla üzü kəndlərinə doğru axmağa başlayırlar... Əsirliyin 213-cü günündə azadlığın dadını Qarqar çayının qoynunda dadırlar.

Əsərin ikinci süjet xətti, ikinci qəhrəmanı kənddə tarix müəllimi işləyən, savadı, bacarığı ilə seçilən Qaraxandır. Yaxın dostu Abbas uzun zamandır ki, erməni təxribatlarına qarşı üsyankar mövqe tutur. Abbasın ermənilər tərəfindən öldürülməsi Qaraxana pis təsir edir. Tarixi gözəl bilən Qaraxan hər gün kənd əhalisi ilə, ermənilərlə söhbətlər aparır, səngər qazdırıb qohumları və kəndin gəncləri ilə keşik çəkməyə başlayırlar. Ermənilərə qənim kəsilən Qaraxan hələ sovet dövründə ermənilərlə dəfələrlə söz-sözə gəlmişdi. Onların haqsız, harın, murdar olduğunu üzlərinə deməkdən çəkinməmiş, törədikləri qanlı faciələri, soyqırımları üzlərinə söyləmişdi. Beləcə, ermənilər üçün arzu olunmayan adam olmuşdu Qaraxan.

Qaniçən Mixanın kənddə quldur dəstələri ilə bir azərbaycanlı ailəsini qəddarcasına öldürməsi, körpələri süngüyə keçirməsi, diri-diri ananın qarnından körpəsini çıxarması Qaraxan və kənd əhalisininin möhkəm qəzəbinə səbəb olur. Bu cinayət işini sovet ermənistanı ört-basdır eməklə bir azərbaycanlının üzərinə qoyur.. . Belə hadisələr son iki ildə daha çox baş verirdi. Azğınlaşmış erməni sürüsü türkün qəddar düşməni olduğunu hər əməlində sübut edirdi. Bütün bu olanlara göz yuma bilməyən Qaraxan ermənilərə yeri gələndə divan tutmaqdan çəkinməmiş, bildiyini etmişdir. Qaraxanın bir şilləsini unutmayan erməni Malxazyan nə vaxtsa Qaraxandan bu qisası almaq fikrində qalır. Bu da erməninin nə qədər kinli, küdurətli olmasını göstərir.

Qaraxan da Asim kimi öz könüllü dəstəsi ilə birlikdə döyüş zamanı mühasirəyə düşür. Lakin mühasirəyə düşməmişdən öncə əsgərlərini tam rahat şəkildə dağılmasına

imkan yaradır. Özü isə ailəsi barədə dəqiq məlumat almaq üçün yola düzəlir. Qaraxan heç bir çətinlikdən qorxmur. Yollara gözəl bələd olan Qaraxanın yolda terrorçu Mixana rast gəlməsi və onu öldürməsi özü də bir qələbədir. O, tam dəqiq məlumatları almaq üçün qonşusu Karapetlə görüşməyi fikirləşir. Hansı ki, Karapetin də iki oğlunu ermənilər öldürüb bir azərbaycanlının üzərinə qoymuşlar. Karapet onun üçün öz millətinə qarşı nifrətli idi. Ailəsinin öldürüldüyünü tam yəqin edən Qaraxan bu işin başında duran Malxazyandan qisas almaq fikrinə düşərək Şuşa, Zəngilan yollarında onun olduğu mövqelərə baş çəkir. Və təsadüf elə gətirir ki, onunla üzbəüz gəlir. Hadisələrin reallığı, orijinallığı və müəllifin bədii təxəyyülü oxucuya xoş təsir bağışlayır. Vətən qisası, vətən qalibliyi deyilən bir ruhi dinclik təsiri yaradır.

Bu mənada S.Eminovun bir yazıçı kimi qisas hissi ilə yaşayan qəhrəmanını qalib əsgər kimi oxucu gözündə ucaltması onun profesional yazıçı olmasını ortaya qoymaqla onu bizlərə bir daha sevdirir.

Bu kitabda "Əsirlikdən gələn səs" adlı povest də yer alıb. Əsər Birinci Qarabağ Müharibəsinin qəhrəman döyüşçü zabiti Nurəddin Ağayevin əsirlik həyatından bəhs edir. Povest romanla eyni mövzu, eyni mahiyyət daşısa da, ayrı-ayrı süjet xətləri ilə, dolğun və maraqlı epizodlarla qələmə alınıb. Tanınmış, nüfuzlu bir atanın əsirlikdə olan oğlunun çəkdiyi iztirablar və bu iztirabların sonu... Lakin Nurəddinin əsirlik həyatında gördükləri də erməni vəhşiliyinin bir ayrı sonluğu kimi qələmə alınıb.

Əsər çox təsirlidir. Ümumiyyətlə, Səfdər Eminovun əsərlərinin hamısı təsirlidir. O, müsbət obrazlar silsiləsi

yaratmır, həm də insanı müxtəlif dolanbaclardan çətin, olduqca ağır yollardan keçirir. Ən xırda epizodlarda belə obrazlar yaddaqalan müsbət keyfiyyətləri ilə seçilir. F.Bekon yazırdı ki, "Bəzi kitabları dadmaq, bəzilərini birdən udmaq olar, amma çox az kitab var ki, onları yaxşı-yaxşı çeynəmək və həzm etmək azımdır".

Müəllifin peşəkar hərbiçi olmaqla bərabər, peşəkar yazıçılıq qabiliyyəti, nəsr dili, bədii-təfəkkürü, bədii təxəyyülü, obrazların danışıq dili, oxucunun qəlbinə, ruhuna rahat yol tapır. Bu, yazıçının qələbəsdir. Kitabların da öz taleyi var. Əldən-ələ keçib müəllifə əbədiyyət gətirən kitab var, bircə dəfə də əl dəyilməyib kitabxanaçılara əziyyət gətirən kitab da... Düşünüəm ki, nəinki "213-cü gün" əsəri, S.Eminovun bütün əsərləri sahibinə əbədiyyət qazandıran kitablardan olacaq. Çünki əsl həqiqətləri özündə əks etdirən əsərlər tarixin silinməz yaddaşıdır. Əslində yazıçı kitabın yaradıcsı, cəmiyyət isə o kitabların taleyinin yaradıcısıdır. Keçmiş həyatımızı geri qaytara bilmərik, amma kitabın köməyi ilə dünyanın ən böyük alimlərinin ömür boyu əldə etdikləri təcrübəni qazana bilərik. Həm də adama elə gəlir ki, kitablar dərd çəkən insanlara təsəlli vermək üçündür. Lakin, bəzən təsəllidən çox bizdən xəbərsiz baş verən hadisələrin, faciələrin ağrılarına sarınırıq.

Həyatda ən dəhşətli şey diri ikən ölməkdir. Bu ölümü görən əsərin qəhrəmanları müəllifin yaratdığı obraz xatirinə deyil, həqiqətin güzgüsündə özünü görənlərdir..

Səfdər Eminovun əsərlərinin hamısı çox təsirlidir. O, müsbət obrazlar silsiləsi yaratmır, həm də insanı müxtəlif dolanbaclardan çətin, olduqca ağır yollardan keçirir. Ən xırda epizodlarda belə obrazlar yaddaqalan müsbət key-

fiyyətləri ilə seçilir. Müəllifin peşəkar hərbiçi olmaqla bərabər, peşəkar yazıçılıq qabiliyyəti, nəsr dili, bədii-təfəkkürü, bədii təxəyyülü, obrazların danışıq dili, oxucunun qəlbinə, ruhuna rahat yol tapır. Bu, yazıçının qələbəsidir.

M.Hadinin bir beyti yadıma düşdü:

***Bəşər tarixi matəmdir, bəşər tarixi möhnətdir,***
***Yazılmış qissələr başdan ayağə həp müsibətdir.***

Bəli, bəşəriyyət tarixi ideyalar və mənafelər arasında gedən fasiləsiz mübarizədir. Bu müddətdə mənafelər ötəri, ideyalar isə uzun müddətə qələbə çalır. Biz bir bir ölkə olaraq mənafeyimiz uğrunda deyil, işğal olumuş torpaqlarımız, haqqımız uğrunda mübarizə apardıq. Və qələbə çaldıq. Qələbəmiz əbədi olsun!

Sonda müharibə veteranı, dəyərli yazıçı Səfdər Eminova yaradıcılıq uğurları diləyir və yazdığı əsərlərindəki qəhrəmanları kimi azadlığın, qələbənin daim sevincini yaşamağını arzu edirəm. İnanıram ki, onun əsərləri ədəbiyyatımızda xüsusi yer tutacaq, gələcək nəsillərimizə ən böyük Vətən sevgisini aşılayacaq.

Mən müharibə veteranı, yazıçı Səfdər Eminova yaradıcılıq uğurları diləyir və yazdığı əsərlərindəki bəzi qəhrəmanları kimi azadlığın, qələbənin daim sevincini yaşamağı arzu edirəm.

**Hörmətlə Nəcibə İlkin**

**213-cü gün**
***Sənədli bədii roman***

*Müdrik əcdadlarımızdan*
*miras qalmış üç şeyi sizə*
*vəsiyyət edirəm: Ana dilimizi,*
*qürurumuzu, Vətənimizi...*

**Şah İsmayıl Xətai**

## Proloq

Paytaxtdan qərbə doğru şütüyən maşının arxa oturacağında tək oturmuşdu. Maşın nə qədər yumşaq, yol nə qədər rahat olsa da, otuz il əvvəl əsirlikdə keçirdiyi ağır və işgəncəli həyat, son zamanlar səhətində kəskin ağrıların yaranmasına səbəb olurdu. Hər dəfə kəndə gedəndə bu yoldan istifadə edirdi. Yolu genişləndirib, asfalt döşəməsini dəyişmişdilər. Gürcüstan vasitəsi ilə Azərbaycanın yeganə qərbə çıxışı olan bu yol Yevlaxda ikiyə ayrılırdı.

İki yol ayrıcı... Əslində bu hamı üçün olduğu kimi adi yol ayrıcı deyildi, həm də onun həyatını iki yerə parçalayan anın başlanğıcı idi. Məhz bu yol ayrıcında zaman dayandı və tam mənasında tərsinə işləməyə başladı. Düz 213 gün nə qədər çalışsa da onu dayandıra bilmədi.

Ömür nədir ki, hətta yüz il olsa belə.., iki yüz il yaşayan Loğmanın hekayəsi yadına düşdü. Görəsən, son anda kimsə ona düşən ömürdən razı qalıbmı?...

Hər dəfə doğulduğu kəndə gəlib qayıdanda bu yol ayrıcında dayanıb bir anlıq dərin fikrə dalardı. Ömrünün

213 gününün hər anı gözlərinin önündən kino lentı kimi keçərdi. Bu yol ayrıcında 213 günün acı xatirəsi var idi.

Əslində yollar, hətta cığır olsa belə insanı ali məqsədinə aparan bir vasitədir. Bəzən elə olur ki, uzanıb gedən yolların dönüşü də olmur, düz bir ömür uzanır və sonda məchulluğa qovuşur.

Lakin əzablı olsa da Asimin getdiyi yolun dönüşü oldu... Əfsus ki, həyatına zəhər qatdı, ömrünü küt qayçı ilə doğradı... Nələr görmədi, nəyin şahidi olmadı... İlahi, heç düşmənə də rəva görülməyən əzablı günlər idi. Hər şey isə bu yol ayrıcından başlandı... 213 gün davam etdi.

Lakin 213-cü gün...

## I fəsil

Yolun kələ-kötürlü olmasına baxmayaraq "Ural" markalı hərbi maşın sürətlə şərqə tərəf irəliləyirdi. Ağdamdan Novruzlu kəndinə tərəf şütüyən maşının içində üç nəfər bir az əvvəl iki erməni quldurunu öldürərək əsirlikdən qaçmağa çalışan Azərbaycan hərbçisi vardı. Onlar 213 gün əvvəl Ağdam uğrunda gedən döyüşlər zamanı əsir düşmüşdülər. Ötən bu ağır günlərin hər anı onların bütün həyatına bərabər keçmiş və zəhərə döndərmişdi. Dirigözlü cəhənnəm əzabını görmüşdülər. O ağır günlərin hər anında bu günü düşünmüşdülər, bu gün üçün can atmışdılar...

Gündüz hava günəşli olsa da uzaqdan səmada görünən qara buludlar yağış yağacağından xəbər verirdi. Maşının kabinasının üstünə qondarma rejimin  bayrağı çəkilmiş, böyük hərflərlə erməni dilində "Artsax" sözü yazılmışdı. Maşın Qondarma Qarabağ Respublikasının müdafiə

naziri Samvel Babayanın Xocalı rayonunun Həsənabad kəndində olan daçasına məxsus idi. Buna görə də üzbəüz gələn erməni hərbçiləri maşını tanıyıb silahlarını yuxarı qaldırmaqla onları salamlayırdılar. Asim də onların şübhələnməməsi üçün işıqları yandırıb söndürməklə cavab verirdi. Məqsəd təhlükəli ərazidən bacardıqca tez uzaqlaşmaq idi.

Əsirlikdə olarkən ermənilər hər gün səhər onlara yalan məlumatlar verir, erməni ordusunun yeni qələbələrindən danışırdılar. Bu gün səhər isə erməni ordusunun Bakı ətrafında döyüşdüyünü elan etdilər.

Asim bunun növbəti erməni siyasəti olduğunu anlayırdı. Bilirdi ki, bu informasiyalar ermənilər tərəfindən məqsədli şəkildə əsirlərə çatdırılır ki, onlar qaçmaq haqqında düşünməsinlər. Azərbaycan adlı bir dövlətin sonu olduğunu anlayaraq, taleyin onlara nəsib etdiyi əsir həyatı ilə barışıb ermənilərə boyun əysinlər. Asim bunun yalan olduğuna bütün varlığı ilə inanırdı və cəbhə xəttinin çox da uzaq olmadığına əmin idi.

Novruzluya çatmamış şərab zavodunun yaxınlığında maşının yanacağı qurtardı. Yolun qalanını piyada getməli idilər. Qarqar çayının sahilində köhnə fermada gizlənib gecənin düşməsini gözlədilər. Artıq hava qaralırdı, çiskin yağış başladı. Asim bu yerlərin hər daşına bələd olduğu üçün buralarda azmayacağına əmin idi.

Yorğunluq və aclıq onları əldən salsa da daxilən çox məmnun idilər. Getdikcə yağış daha da şiddətləndi, Qarqar çayı sahillərinə meydan oxuyurdu...

***

Asim əvvəllər qaçmağa cəhd edən əsirlərdən eşitmişdi ki, meşənin ən dərin yerində gizlənsələr də ermənilər onları öyrədilmiş itlər vasitəsi ilə tapıb geri qaytarıblar. Bundan sonra isə onların əsirlik həyatı daha sərt və dözülməz olub. Qaçmaq istəyən əsirlərin ən yaxşı halda geriyə olan dönüş imkanları bütünlüklə bağlanırdı. Ağır işgəncələrə məruz qalır, beynəlxalq təşkilatlardan uzaq saxlanılırdı. Bu isə onların ölənə qədər qul kimi istismar olunmasına gətirib çıxarırdı. Ən pis halda isə o biri əsirlərə dərs olsun deyə onların gözləri qarşısında işgəncə ilə öldürülürdülər.

Digər əsirləri isə bir müddət ağır işgəncələr altında ac və susuz saxlayırdılar. Beləliklə iradəsi zəif olan əsirləri su, çörək və müəyyən qədər işgəncələrdən azad etmək müqabilində özlərinə "işləməyə" məcbur edir, onları nəzarətdə saxlamaq üçün, elə özlərindən də istifadə edirdilər.

Ermənilər əsirlər arasında elə bir vəziyyət yaratmışdılar ki, hətta əsirlikdən yüz faiz qaçmaq imkanı olsaydı belə, onların bəziləri bunu etməyə cürət etməz və yoldaşlarına da mane olmağa çalışardılar.

Belə olduqda hamı bir-birindən şübhələnər, ehtiyat edər, heç kim dərdini başqa biri ilə bölməzdi.

Heç bir dərd dərmansız deyil, lakin bütün dərdlərin dərmanı, müşküllərin çarəsi, biz insanların əksər halda nəzərə almadığımız, qiymətləndirmədiyimiz bir amildə cəmlənib – Zaman... Hər şey onun daxilində baş verir, ondan kənarda heç nə yoxdur, hər şeyi o qəsb edir. Bütün kainatın yaşamı, həyatı, inkişafı, məhvi – nəyi görürüksə, nəyi duyuruqsa, nəyi düşünürüksə onun əhatəsindədir. Əfsus, həyatda ən acımasız şey də zamandır, ya səni, ya da ətrafında olan sevdiklərini heç bir rəhm etmədən alır.

Lakin hər şeyi özündə cəmləyən zaman da özbaşına deyil, o da uca Allahın qüsursuz nəzarətindədir. Bəlkə də uca Rəbbimiz hər şeyi nəzarətdə saxlasın deyə belə yaratmışdır yaradılışı.

İnsan! Gəlişi və gedişi məchul, müəmma olan varlıq. Nəyin, nə zaman, nə üçün baş verəcəyindən xəbərsiz olsa da, hər şeyi idarə edirmiş kimi yaşayır. Yalnız ölüm mələyinin başının üstünü aldığı zaman, elə bil əbədi yuxudan oyanıb səksənir, heç nəyin kömək edə bilməyəcəyi anda varlığını və yaradılışda olan missiyasını dərk edir. Qazandıqlarının əvəzində itirdiyi zamanın hər anına təəssüf edir, özünü qınayır. Yalnız indi, həyatda ən qiymətli olanı anlayır. Əfsus ki, gecdir...

Çayın sahilinə çatan kimi izi itirmək üçün suya girdilər. Getdikcə artan su soyuq və bulanıq idi. Dərin yerlərdə su boy verməsə də kənara çıxmaq təhlükəli idi. Sahilboyu həm ayaq izlərinin qalması, həm də mina təhlükəsi ola bilərdi. Çayın içində bu təhlükələr az olsa da, hərəkət etmək çətinləşirdi. Bütün çətinliklərə baxmayaraq, Qarqar onları ağuşuna alıb doğmalarına tərəf aparırdı...

***

Bir gün əvvəl yenə də axşam yoxlanışına düzülmüşdülər. Əsirlərin həyatında daha bir ağır gün geridə qalmışdı. Payız özünü göstərirdi, çiskin və soyuq hava əsirlər üçün arzuolunmaz idi.

Əsirləri siyahı ilə yoxladıqdan sonra həyətə ağ rəngli "Niva" daxil oldu. Növbətçi cəld qaçaraq hərbi salamla gələnləri qarşıladı. Onlar maşından düşüb meydançanın o biri başında uzun müddət söhbət etdilər. Ağır və işgən-

cəli gündən sonra əksər əsirlər ayaq üstə yatırdılar. Lakin növbətçi zabitin məşğul olmasından istifadə edən əsgərlər özləri üçün əyləncəli olan işgəncələrdən istifadə edirdilər.

Etiraz etdiyinə görə yaşlı bir əsiri irəli çıxarıb hamının gözləri önündə döyərək öldürdülər. Sanki belə də olmalı imiş kimi sırada olanlardan heç bir narazılıq eşidilmədi.

Bir azdan növbətçi zabit sıranın önünə gəlib üç nəfərin adını oxudu və kənarda dayanan nəzarətçiyə dedi:

– Samocan, səhər tezdən bu üç nəfəri götürüb əhəng gətirmək üçün gedərsən. Səhər hava açılanda əhəng burda olsun. Burdakı əsirlər ağartma işlərini görər, siz isə bir maşın da mişar daşı gətirərsiz.

Samvel Şuşa türməsində nəzarətçi işləyirdi, əsirlərin üstündə gəlmişdi. O arıq, balacaboy bir adam idi. Lakin balacaboy və çəlimsiz olmasına baxmayaraq türklərə qarşı xüsusi nifrəti ilə başqalarından seçilirdi. Sürücü Volodya isə tam əksinə olaraq boyca çox hündür, fiziki cəhətdən də həddən artıq güclü idi. Bir neçə dəfə əsirlərin gözləri önündə "KAMAZ"ın təkərini çətinlik çəkmədən təkcə qaldırıb yük yerinə atmışdı. O həm də Qarabağın işğalında, azərbaycanlı əhaliyə qarşı xüsusi amansızlığına görə fərqlənənlərdən biri idi.

Səhər saat beşdə arxasında qoşqu olan "KAMAZ"la Ağdama daş və əhəng gətirmək üçün üç əsir yola düşdü. Bu onların Ağdama əsir kimi son gedişi olmalı idi. Əgər bu dəfə də qaça bilməsəydilər, deməli bir daha qaçmaq mövzusunda düşünməyə dəyməzdi. Onların hər biri üçün bu son şans idi.

Yola yenicə çıxmışdılar ki, yağış yağmağa başladı. Çiskin yağış getdikcə güclənirdi. Lakin nə qədər güclənsə də,

qaçmaq həvəsi ilə coşan qəlblərə təsir edə bilməzdi. Əsirlər maşının yük yerində ön tərəfdə dayanmışdılar. Güzgüdə onları müşahidə edən Valodya nəzarətçiyə dedi:

– Ara, Samocan! Bu gün bunlardan heç gözüm su içmir, nəsə gözümə birtəhər dəyirlər, bir az ehtiyatlı ol. Əgər şübhələnsən, üçünü də güllələ.

– Valodcan, sən narahat olma, eli...

Qırx beş dəqiqədən sonra onlar artıq Ağdamda idilər. Qoşqunu ət kombinatının yaxınlığındakı həyətlərdən birində əhəng quyusunun yanında açdılar. Maşını daşla yükləyib yola saldılar. O qədər vərdiş etmişdilər ki, işləyən zaman artıq bir hərəkət hiss olunmaz, artıq bir söz eşidilməzdi...

***

Az sonra əhəng quyusunun yanında idilər. Asim quyunun içindən əhəngi vedrəyə yığır, bayaqdan susmaq bilməyən Azər vedrəni qoşqunun üstündə olan Alimə ötürürdü. Alim isə əhəng dolu vedrələri qoşqunun üstündəki çəlləklərə boşaldırdı. Beləliklə zəncirvari şəkildə ardıcıl gələn vedrələr boşalıb yenidən quyuya qayıdırdı. Havanın yağışlı və soyuq olmasına baxmayaraq onlar tərləmişdilər. Tərləməyin ən başlıca səbəbi uzun müddət gözlədikləri planı bu gün həyata keçirməyin həyəcanı idi. Hər şeydən xəbərsiz nəzarətçi Samvel isə hərbi gödəkçəyə bürünüb əllərini cibinə qoymuşdu. Soyuqdan uzun, nazik boynunu gödəkçənin yaxalığı arasında yığmışdı. Avtomatı lüləsi aşağı çiyninə keçirmişdi. Birdən Azər vedrəni quyuda olan Asimə ötürüb dayandı.

– Hə-ə, uşaqlar bir az dincələk, – dedi və dərhal bir neçə

metr aralıda dayanan Samvelə tərəf getdi. – Nə deyirsən Samo, bəlkə bir siqaret çəkək!?...

Siqareti ağzına qoyub ona yaxınlaşdı. Həyəcandan bütün bədəni titrəyirdi. Samvel alışqanı çıxaxıb yandırdı və ona tərəf uzatdı. Hər şey də elə bundan sonra başladı. Azər bir an içində onu silahı ilə birlikdə qucaqladı. Samvelin çəlimsiz, arıq bədəni qorxudan onun qolları arasında titrəyirdi. Bu halı ilə tələyə düşən siçanı xatırladırdı Samvel. Qəfildən başına dəyən kəllə zərbəsindən dizləri üstə yerə çökdü. Azər dərhal silahı onun çiynindən götürdü və yenicə quyudan çıxan Asimə ötürdü. Azər Alimlə birlikdə Samvelin qollarını arxasında yanmış məftillə bağladılar.

– Bax, Samvel, deyirəm eşit!... Özünü yaxşı aparmasan, səs-küy salsan səni öldürəcəm. Yox, əgər sakit olsan, sərhəddə kimi birlikdə gedirik, tam neytralda sən geriyə, biz isə o biri tərəfə gedirik. Səni gözləyən olduğu kimi bizi də gözləyənlər var. Hə, nə deyirsən danışdıq!?...

Samvel titrəyə-titrəyə onun dedikləri ilə razı olduğunu bildirdi, lakin yenə də erməni xisləti özünü göstərdi.

– Axper, çavıtdanım! Məftil qollarımı kəsir, bir az boşalda bilərsən?

Azər onun qollarında olan məftili açıb bir az boşaltdı, yenidən bağlayan zaman məftilin qırıldığını hiss etsə də Samvellə razılaşdığına görə dərinə getmədi. Uzaqdan “KAMAZ”ın səsi eşidildi. Azər Samveli darvazanın arxasına – görünməyən yerə çəkdi. Alim qoşquya qalxdı. Bütün bunlar sürücünün kənardan görüb şübhələnməməsi üçün idi.

Hələlik hər şey onların düşündükləri kimi gedirdi. Sürücü maşından düşəndə Samvel qışqırıb erməni dilində

nəsə dedi. Valodya geri qayıtmaq istəyəndə qarşısında Asimi əlisilahlı görüb duruxdu.

– Əllərini qaldır, sizi öldürmək fikrimiz yoxdur. Siz bizi görməmisiniz, biz də sizi.

Sürücü vəhşi ayıya oxşayırdı, qollarını geniş açıb onun üstünə yeridi.

– Ara, dali musurman, mana da yox da!...

Bir neçə addım ona tərəf atdı. Asim tətiyi çəkdi. Güllə onun sağ buduna dəlib keçsə də sürücü silahın lüləsindən tuta bildi. Asim daha bir neçə dəfə atəş açsa da lüləni özündən kənara yönəltməklə güllələrdən yayına bilirdi sürücü. Alim qoşqunun üstündən onun boynuna tullandı və yumruqları ilə harası gəldi vurmağa başladı.

Lakin nə etsələr də sürücünü ram edə bilmirdilər. Bir az da belə davam etsəydi onların hər ikisini şil-küt edəcəkdi. Son anda atılan güllələrdən biri onun qarın boşluğuna dəydi və o dizləri üstə çökdü. Alim yerdəki daş parçasını götürüb onun başına vurdu. Yalnız bundan sonra sürücü yerə yıxıldı.

Bu arada Azər Samvellə əlbəyaxada idi. Sürücünü duyuq salan Samvel azərbaycanlıların etibarından istifadə edərək qollarını açdı. Yaxında olan taxta parçası ilə Asimgilə köməyə getmək istəyən Azəri vurdu. Son anda ağır zərbədən canını qurtaran Azər onun üstünə atıldı və ölüm-dirim mübarizəsi başlandı. Bu həqiqətən də hər iki tərəf üçün ölüm-dirim mübarizəsi idi. Bir-birinin qanına susayan tərəflərdən hər biri necə olursa olsun sağ qalmaq istəyirdi. Sanki təbiətdə yaşamaq uğrunda mübarizə gedirdi. Kim güclü idisə, kim yaşamağı daha çox istəyirdisə, o da qalib gəlməli idi. Tülküdən də hiyləgər Samvel və

qürurunu hər şeydən üstün tutan Azər...

Atılan güllələrin səsini eşitdikcə, o biri tərəfdə nə baş verdiyini öyrənmək məqsədi ilə çox narahat idi Azər. Asim və Alimin vəziyyətindən xəbər tutmağa çalışırdı. Nəhayət ki, yaxında olan daşla Samvelin başına bir neçə zərbə endirdi. Yalnız bundan sonra qan içində olan Samvelin ayağından tutub divarın o biri tərəfinə doğru sürüdü. Bu zaman Asimlə Alim sürücünün işini bitirib ona tərəf gəlirdilər.

– Ay qardaş, hardasız!? Gəlin çıxın da... Mən öldüm axı maraqdan.

– Getdik daha... Ya Allah!!!

– Dayanın bu alçağı da öldürək, sonra...

– Patron heyifdir, bizə lazım olar, – deyə Asim dedi.

– Bunu sağ buraxmaq olmaz, bu halda özümüzlə də apara bilmərik – deyə Azər inad etdi. Asim dönüb hələ də yerdə qan içində çabalayan, "Yalvarıram, məni öldürməyin." deyə dayanmadan təkrar edən Samvelin başına bir güllə vurdu. "KAMAZ"a oturub Novruzlu yoluna çıxdılar, yağış daha da güclənmişdi...

Maşını Novruzlu fermasının yanında saxlayıb Qarqar çayına tərəf getdilər.

– Bizdə Füzulidən bir kişi vardı, Rəşid kişi. Cavanlıqda çoban işləmişdi Qarabağda, hər yeri ovcunun içi kimi tanıyırdı. Əsirlikdə çox əziyyətlər çəkdi, sonralar onu dəyişdilər. O həmişə deyərdi ki, bu çaydan çıxmadan getsən əsirlikdən qurtara bilərsən, – deyə Azər onu xatırladı. – Bizim bir yolumuz var, o da bu çayla getməkdir.

Soyuq və lil su onları əldən salmışdı. Zülmət qaranlıqda yalnız fəhmlə erməni mövqelərini keçdiklərini hiss

etdilər, sonra isə öz mövqelərini keçdilər. Hacıməmmədli kəndinin yaxınlığında sudan çıxdılar. Havanın soyuq, yağışlı və çayın suyunun buz kimi soyuq olmasına baxmayaraq bədənlərindən par çıxırdı. Sahildə qumun üstünə uzanıb dərindən nəfəs aldılar.

Az sonra üç nəfər uzun və məşəqqətli əsirlik həyatına son qoyub qarşıdakı işıqları sayrışan kəndə tərəf gedirdilər...

## II fəsil

"Dünya gümüşü rəngdə idi, göydən gümüşü yağış yağıb hər tərəfi öz rənginə boyamışdı. Ağaclar, kollar, daşlar hamısı gümüşü rəngə boyanmışdı. Bu yeknəsək dünyada nəyisə seçmək mümkün deyildi. Gümüşü rəng fonunda gecə ilə gündüz də bir-birindən seçilmirdi. Başının üstündəki göy də, ayağının altındakı yer də gümüşü rəngdə idi, yalnız ətrafında olan adamların silueti seçilirdi. Bəziləri o qədər qara idi ki, yanmış kösövə bənzəyir, bəziləri də ağappaq, gözqamaşdırıcı nurla əhatə olunaraq parlaq işıq saçırdı. İşıq o qədər güclü idi ki, kainatı bürüyən gümüşü rəngin fonunda daha da güclənir ətrafı daha da parlaq edirdi."

Asim diksinib oyandı, gözlərini ovub ətrafına baxdı. "İlahi bu nə yuxudur... Allah xeyir eləsin", -deyə düşündü. Bir neçə gün idi ki, buna bənzər yuxular səhərə qədər onu əldən salırdı. Gördüyü yuxunun kabus əzabından oyanır, yorğunluğun təsirindən yenidən yuxuya gedirdi. Gözünü yuman kimi yenidən bu kabusa bənzər yuxunun

davamını görürdü. Gecənin düşməsi, yatmaq komandasının verilməsi onun üçün böyük bir əzaba çevrilirdi. Yorğun olmasına baxmayaraq daha yata bilmədi.

Yanında uzanıb yatan kamera yoldaşı Rüstəmin necə də mışıl-mışıl yatdığına paxıllığı tutdu. Dirsəyi ilə onu dümsükləyib oyatmağa çalışdı. Əsir düşdüyü gündən bir kamerada idilər. İlk gördüyü vaxtdan qanı ona qaynamışdı. Vaxt tapdıqca onunla bölüşürdü dərd-sərini, lakin vaxt tapmaq belə çox az olurdu.

– Rüstəm, yatmısan?...

– Noolub, yorulmamısan? Niyə yatmırsan? Sabah Allah bilir nə gözləyir bizi... çalış yat, – gözlərini açmadan pıçıltılı səslə cavab verdi.

Asim dərindən köks ötürdü.

– Neçə gecədir yata bilmirəm, yuxular kabusa dönüb rahatlıq vermir mənə. İnan ki, gözlərimi yummağa qorxuram.

Rüstəm yerində dirsəklənib qaranlıqda onun üzündəki ifadəni görmək istədi, nəfəsini üzündə hiss etsə də içərinin məşum qaranlığında heç nə görə bilmədi.

– Dediklərini başqa birisindən eşitsəydim təəccüblənməzdim – sanki nə deyəcəyini qərarlaşdırırmış kimi bir anlıq susdu, daha asta səslə pıçıldadı. – Sən mənim idealımsan Asim. Səni tanıyandan inan ki, sənə oxşamağa çalışıram. Düşünürəm ki, səni tanıyanların hamısı mənim kimi edərdi. Səndə heç bir eyib görmək istəmirəm. Qorxaqlıq isə kişilər üçün ən böyük eyibdir. Bunu sənə yaraşdıra bilmirəm. Mənim idealım qorxaq ola bilməz.

– Qorxaq deyiləm, qorxu hissi elə bir hisdir ki, hamıda var qardaş, hamı nədənsə qorxur. Mənim də qorxacaq ye-

rim budur, çünki əksər vaxt yuxularım çin olur.

Kameranın o biri başında kimsə deyindi, bəlkə də sayıqlayırdı. Yenidən susdular. Onlar hərbi əsir olduğu üçün digər əsirlərdən ayrı saxlanılır, xüsusi nəzarət altında sorğu-sual olunur və tam fərqli, ağlagəlməz işgəncələrə məruz qalırdılar. Heç bir beynəlxalq təşkilatın onlardan xəbəri yox idi. Burada olan əsirlərin həyat tərzini heyvanların həyat tərzi ilə də müqayisə etmək olmazdı. Xəstələri və zəifləri öldürür, meyidlərini o biri əsirlərin köməyi ilə sürüyüb dərin dərələrə atırdılar. Buradan çıxış yolu yalnız ölümlə mümkün idi. Bura Xankəndi yaxınlığında hərbi əsirlər üçün nəzərdə tutulmuş xüsusi rejimli təcridxana idi.

Bütün gün dayanmadan kötəkləndiyinə görə bədəni sızıldayırdı, kəsik-kəsik olmuş ayaqlarını hiss etmirdi.

Üfunət qoxuyan zirzəminin ağır havası elə bil bir düyməni basmaqla içəri girənlərin beynini söndürürdü. Səhərlər verilən komandaya gecikənləri düşmən əsgərləri əllərində olan dəyənəklə oyadır, həyətə çıxana qədər dayanmadan döyürdülər. Sonra sıraya düzərək hərəsinə bir tikə qurumuş, rəngi torpaqdan seçilməyən çörək və bəlkə də aylarla yuyulmayan dəmir qabda su verir, saata baxıb bir dəqiqə ərzində yemələrini tələb edirdilər. Verilən vaxtda yeməklərini çatdırmayanların əllərindən alır, əvəzində isə yenə dəyənəklə təkrar döyürdülər. Burada döyülmək üçün bəhanə lazım deyildi. İstədikləri zaman istədikləri qədər döyürdülər. Hətta döymək üçün xüsusi adamlar da saxlayırdılar. Bədənlərini şişirtmiş gədələr özlərinə sərsəm adlar qoymuşdular. Biri Rembo, digərləri Kobra, Vandam...

Sonra hər gün olduğu kimi maşının qabağında iş yerinə kimi qaçırdırdılar. Qaça bilməyənlər, geri qalanlar maşının təkərləri altında qalır, arxadan gələn əsgərlər isə onları yığıb harasa aparırdılar.

Burada olan nəzarətçilər bəlkə də dünyanın ən qəddar insanları idilər, onların heç kimə yazığı gəlmirdi. Əsirlik həyatını belə təsəvvür etmək mümkün deyildi.

Küçədə olan quduz it burada olan əsirlərdən dəyərli idi. Hər gün gördüyü mənzərə yenidən gözləri önündə canlandı. Əsgərlər üçün bişirilən yeməkləri, küçə itlərinə və donuzlara tökür, əsirlərə isə bir tikə çörəkdən və bir qab sudan başqa heç nə vermirdilər.

Əsir düşəndə onun zabit olduğunu öyrəndilər, elə buna görə də həddən artıq döyürdülər. Onu öldürmək üçün döyürdülər, iz qalmasın deyə sifətindən başqa hər yerinə vururdular. Daxili orqanları dağılmışdı.

Artıq yaşamaq üçün canında güc, ürəyində təpər qalmamışdı, həyata – yaşamağa ümidini itirmişdi. Nə zamansa yenidən əvvəlki həyatına dönəcəyini təsəvvürünə gətirə bilmirdi. Bəzən ona elə gəlirdi ki, əsir kimi doğulub, bu dünyaya elə əsir olmaq üçün gəlibdir. Verilən dəhşətli işgəncələrdən sonra ruhuna hopan laqeydlik, biganəlik hissi varlığını sökür, darmadağın edirdi. Gecələr gördüyü yuxular kabusa dönüb, ruhunu titrədirdi. Bilirdi ki, həyatı bundan sonra heç zaman bir daha əvvəlki kimi olmayacaq.

Qarabağ qarnizonunun komendantı Aşot Babayan idi. O, qondarma Qarabağ respublikasının Müdafiə Naziri Samvel Babayanın qardaşı idi. Onlar Qarabağdan – Xocavənd rayonunun Mıçmına kəndindən idilər. Aşot Ba-

bayan hər gün əsirlərə baş çəkər, xüsusi qayğı ilə onların əhvalı ilə maraqlanar, təzə çörək, balıq və ət məhsullarına qonaq etmək üçün hamıya azərbaycanlı kimi təqdim olunan Vidadi Aşurovu sıranın önünə çağırardı. Gah rus dilində, gah da azərbaycan dilində qayğıkeşliklə deyərdi.

– Aşurov, onlar sənin zemliyaklarındır, onlara yaxşı qulluq elə. Pis günün ömrü az olar. Əsirlik əbədi deyil, sonra üz-üzə gələndə xəcalət çəkməyəsiniz...

Aşot Babayan gedəndən sonra isə Aşurov onları işgəncə vermək üçün hazırlanmış binaya aparır və burada əsirlər əsil cəhənnəmi gözləri ilə görürdülər. Sonradan öyrəndilər ki, onlara azərbaycanlı kimi təqdim olunan bu ünsür əslində Vitali Aşuryan adlı erməni imiş.

Əsirliyin ilk günlərində buradan necə çıxmaq haqqında düşünə bilirdi, yatanda, hətta döyüləndə belə düşündüyü yalnız bu idi. Zaman keçdikcə, əsirliyin müddəti uzandıqca ümidləri azalır, artıq buradan qurtara biləcəyi haqqında düşünməməyə çalışırdı. İndi yalnız keçmişlə, xatirələrlə yaşayır, ötən günlərindən yadda qalan xatirələrini anbaan təkrar-təkrar xatırlayırdı.

Orta məktəb illəri, kəndləri, hərbi məktəbdə keçirdiyi günlər, başına gələn ən kiçik hadisələr – ağlı kəsəndən əsir düşdüyü günə kimi baş verənlər əziz xatirəyə dönüb qəlbini göynədirdi. Bir gün azad olacağına ümid edirdi. Lakin hələlik ümidləri reallaşmırdı. Sanki yuxuda idi, oyana bilmirdi.

Əsir düşdüyü gün nə olmuşdusa hamısı yadında idi. Əgər o gün əsir düşəcəyini bilsəydi, düşünmədən özünü öldürərdi. İndi isə əlində belə bir imkan olsaydı da, özünə qəsd edə bilməzdi.

İnsan məğrur olduqca heç nədən qoxmur, hər şey gözündə adiləşir. Qüruru, vüqarı onun üçün ən vacib şərt olur. Döyülən, əzilən, mənəvi cəhətdən alçalan insanlar isə zaman keçdikcə mütiləşir və qürur hissi onlara yadlaşır. Əzalara dəyən zərbələr artıqca insan ruhən sınır və zaman keçdikcə bu onun qüruruna da təsir edir. İnsan ruhən müti olarsa, o nə ətrafındakılar üçün, nə də özü üçün təhlükəli olmur. Onların əsirlikdəki halı sınmış ruhun, tapdalanmış qururun vəhşilər qarşısında aşkar nümayişi idi.

***

1987-ci ildə,  kənd məktəbində orta təhsilini tamamlayıb böyük SSRİ-də hərbi məktəblərdən birinə daxil oldu. Dörd illik hərbi təhsildən sonra təyinatla Rusiyanın Astarxan vilayətinin Axtubinsk şəhərində 93822 saylı hərbi hissədə xidmətə başladı.

1992-ci ildə könüllü olaraq qan bahasına müstəqillik qazanan vətəninə qayıtdı. Gəldiyi gündən döyüşən hərbi hissələrin birində Siyasi işlər üzrə Tabor komandirinin müavini kimi işə başladı. Çox keçmədi ki, taborun şəxsi heyəti arasında hörmət qazandı. Həm əsgərlərin sevimli zabiti, həm də onlarla birlikdə səngərdə döyüşən komandir oldu.

Bütün əsgərlər onunla birlikdə döyüşə getməyə can atırdılar. Bilirdilər ki, komandirləri bir güllənin də boşa atılmasına imkan verməz, heç kimi darda qoymaz. Komandanlıq bunu görür və qiymətləndirirdi. Dörd il idi hərbi məktəbi bitirdiyi, artıq kapitan rütbəsinə qalxmışdı. Bu isə onu daha da fərəhləndirirdi.

Azərbaycan torpaqlarının hər qarışı uğrunda gedən döyüşlərdə son patrona qədər döyüşməyə, bir addım da geri çəkilməməyə and içmişdi. Günlərin birində düşmənin mühasirəsinə düşdülər. Cəmi iyirmi nəfər idilər, on səkkiz əsgər və iki zabit. Bir yolları var idi ki, son güllələri qalana kimi döyüşsünlər. Artıq iki gün idi ki, mühasirədə idilər, düşmənin "təslim olun" çağırışlarına dəfələrlə rədd cavabı verildi. İki günün sonunda onların olduğu mövqelər daha da daraldı və düşmən artileriyası dayanmadan onları vurmağa başladı.

Artıq əldən düşürdülər. Arada sakitlik olan kimi sağ qalanları bir yerə yığdı.

– Həmid, nə qədər sursatımız qaldığını dəqiqləşdir, nə qədər patron və qumbaralarımız var, bilək. Bizim indi özümüzdən başqa güvənəcəyimiz heç nə yoxdur. Nəyin bahasına olursa olsun bu gecə buranı tərk etməliyik.

– Komandir, silah-sursat bir yana, içməyə bir udum suyumuz da yoxdur, bir azdan ilan kimi mələyəcəyik bu dağlarda.

Asim Həmidlə bir ilə yaxın idi ki bir yerdə idi, onu yaxşı tanıyırdı. Əvvəlki döyüşlərdə sınaqdan yaxşı keçmişdi, gözündə qorxu yox idi.

– Həmid, hər şeyi başa düşürəm, elə ona görə də deyirəm ki, nə olursa olsun bu gecə mühasirədən çıxmalıyıq. Burada qalmaq özünə sui-qəsd etmək kimidir.

– Mühasirədən çıxmaq... Bu bir az qəliz məsələdir.., ancaq düz deyirsən, başqa yolumuz da yoxdur.

– Komandir sizə məsləhət kimi demirəm, belə bir vəziyyətdə bu mümkünsüz görünür, nəzərə alsaq ki, altı yaralımızdan dördünün daşınmağa ehtiyacı var, onları bu-

rada ata bilmərik, – deyə Samir söhbətə qarışdı.

Asim mübahisə etməyi sevmirdi, ona görə də söhbətdən yayındı.

– Yaxşı, hərə öz yerinə getsin, axşam görüşərik. Komandamı gözləyin.

Bir azdan özü Həmidin yanına getdi. Həmid durbinlə ətrafa diqqətlə baxırdı. Onun gəldiyinin fərqinə varmadı, çiyninə toxunan əlin təmasından sonra durbini gözündən araladı.

– Nə görürsən?

– Heç nə. Qəbir kimi səssizdir hər tərəf.

– Yəqin sürpriz hazırlayırlar bizə.

– Niyə də yox. Bu iki gündə nə qədər mərmi, patron atıblar...

– Hə ə.., toplardan, minaatanlardan bir şey çıxmadığını görüb, bir azdan yeni taktikaya əl atacaqlar, bu rus köpək uşaqları... Sayıqlığı əldən vermək olmaz.

Həmid durbini ona tərəf uzatdı.

– Mən gedim mövqelərə baş çəkim, sən ətrafı bir daha saf-çürük elə, bir azdan görüşüb fikirlərimizi bölüşərik.

Asim başı ilə razılıq verdi. Həmid sürünərək geri – səngərə çəkildi. Asim durbini gözlərinə yaxınlaşdırdı. Bu gecəki “tərketmə planı” artıq beynində hazır idi, onu Həmidlə müzakirə etməli idi. Olduğu mövqedən hər tərəf ovcunun içi kimi görünürdü.

Bir gün əvvəl şərqdə düşmənin çoxsaylı qoşun birləşmələri ruslarla birləşərək Ağdamı işğal etdi, bitişik və ətrafda olan kəndlər tüstülənirdi. Qərbdə isə tam sakitlik idi. Güllə və mərmi səsləri yox idi. Bu sükutu qərbdən şərqə doğru irəliləyən hərbi maşınların səsi pozurdu. Qa-

rışqa sürüsünü xatırladan saysız-hesabsız əsgər və sursat dolu hərbi maşınlar dayanmadan Şuşa Ağdam yolu ilə irəliləyirdi.

Dağın qərb tərəfində onların durduğu mövqedən bir az aşağıda dərin və uzun bir dərə düzənliyə qədər uzanıb gedirdi. Asim dərəyə xilas yolu kimi baxırdı. Durbinlə dərəyə diqqətlə baxdı, nədənsə dərə, ağzını açıb onları udmağa hazırlaşan əğdahanı xatırlatdı ona. Özündən asılı olmadan əli silahına doğru getdi. Bütün əsəbləri gərilmişdi. Həmidin gəlişi elə bil onu əjdahanın dişləri arasından qurtardı. Gərginliyi azaldı.

– Həə, cənab Kapitan! Görünür bizimki də bura qədərmiş, yazımız belə yazılıbmış. – Barmağı ilə alnına sağdan sola xətt çəkirmiş kimi işarə etdi. – Deyirlər yazıya pozu yoxdur. Deməli, düz deyirmişlər.

Asim ona tərəf döndü, göz-gözə gəldilər, iti baxışları ilə onu sındırmaq, özünə tabe etmək istədi. Lakin daxilindən gələn sabaha ümidsizlik hissinin təsirindən bacarmadı. Boynundan tutub ona tərəf dartındı.

– Bu qədər ümidsiz olma, qardaş. Allah kərimdir, bizə bir yol açar.

– Ümidsiz deyiləm, qaqaş. Bilirəm ki, hər çətinliyin sonunda bir rahatlıq var. Məni yandıran torpaqların işğalıdır, əhalinin didərgin düşməsidir. Bir də rusların bu qədər satqın və dönük olması... Bəzən mənə elə gəlir ki, bu torpaq, burada yaşayan insanlar, elə biz özümüz də lənətlənmişik. Ona görə də Allahın qəzəbinə tuş gəlmişik... – xeyli susdu, sonra fikirli-fikirli əlavə etdi. – Deyirəm görəsən bir də Şuşaya, Laçına, Kəlbəcərə gedə biləcəyikmi?

– Əlbəttə, gedə biləcəyik, – Asim əminliklə dedi. – Hər

şey yoluna düşəcək, dünya xali deyil. Bir də, biz böyük millətik, bizim haqqımızda belə bədbin düşünmə...

Susdular, baxışları uzaqlara, üfüqdə göylə yeri birləşdirən Şuşaya, Laçına, Kəlbəcərə tərəf yönəldi. Getdikcə region daha böyük güclərin maraqlarının toqquşduğu bölgəyə çevrilir və yerli əhali, xüsusən də Azərbaycan xalqı çətin vəziyyətə düşürdü, evləri talan edilir, özləri isə səfil vəziyyətdə ayrı-ayrı şəhər və rayonlara üz tuturdular. Tarixən rusların ayağı dəydiyi ölkələr xaraba qalıb, mədəniyyətləri məhv olub. Ruslar olduğu yerlərdə sabitliyi pozaraq xaosla istəklərinə çatmaq üçün cəsus ordusu yetişdiriblər. İşğal etdikləri ölkələrdə əsasən dövlətçilik ənənələrini məhv etmək üçün bütün vasitələrdən istifadə ediblər. Bunu çox zaman əllərinin altında forpost kimi saxladıqları dövlətlərin vasitəsi ilə edərək özlərini işğal etdikləri ölkələrə dost kimi sırıyıb və bundan istifadə edərək baha qiymətə vaxtı keçmiş silahlarını satıb, onları özlərindən asılı vəziyyətə salıblar. Müqavimət göstərənləri "cəsus ordusu" vasitəsi ilə cəzalandırıblar. Bunu o qədər bacarıqla ediblər ki, sonda istədiklərindən də artıq məqsədlərinə çatıblar. Rus "KQB"-si dünyanın hər yerində fitnə-fəsad törətməklə belə işlərin öhdəsindən lazım olduğundan da artıq gəlib. Yüzillərlə farslar və ruslar tərəfindən Azərbaycan xalqının başına gələn bəlalar buna ən yaxşı sübutdur.

Asim böyük bir narahatlıq içində bundan sonra daha nələr olacağı haqqında düşündü. Artıq günəş quruba enirdi. Bir azdan gecə düşəcək və onlar buranı tərk edəcəkdilər.

O, Həmidlə bir saata yaxın mübahisə etdi, nəhayət ki,

on dörd nəfərlə birlikdə xəritədə qeyd olunmuş marşrutla getməyə razı saldı. Gedənlərin altısı yaralı idi və onların dördü yoldaşlarının köməyi ilə gedə bilərdi. Özü isə dörd nəfərlə birlikdə düşmənin başını qatmaq üçün hələlik burada qalmalı idi. Artıq hava qaralmışdı.

## III fəsil

O gecə çox qaranlıq idi, elə bil gecənin bağrındakı nuru zülmətdən ayırıb özləri ilə aparmışdılar gedənlər. Ay da çıxmamışdı o gecə, ulduzlar da sönük idi. İnsanların vəhşiliyi kainatın qəzəbinə səbəb olmuşdu sanki. Qəzəbdən rəngi qaralmış səma, öz işığını yer üzündən çəkmiş, qapılarını vəhşilərin üzünə bağlamışdı.

– Bilirsənmi Allah ulduzları niyə yaradıb?

– Bilmirəm komandir. Əgər yaradıbsa demək onda da bir hikmət var.

– Göylərə baxsan onun hikmətini başa düşərsən. Görürsən, ulduzlar olmayanda necə də vahiməli olur kainat!? Lap adamın əti ürpənir, daxilinə hopur vahimə...

– Hə elədir, – susdu, özü ilə danışırmış kimi az sonra əlavə etdi. – Görəsən ulduzlar harda gizlənib?

Hər ikisi arxası üstə yanaşı uzanıb göyə baxırdılar. Gecənin sehrinə düşmüşdülər. Bəlkə də yoldaşlarından ayrıldıqlarına görə onlara belə gəlirdi. “Kainat sirlərlə doludur” deyə Asim düşündü. Bu dar məqamda yadına düşən şeiri özündən asılı olmadan pıçıldadı. Pıçıltı getdikcə artdı və ətrafdakılar da onun dediyi şeiri eşitdilər.

*Ulduzlar havanın bağrını dəlir,*
*Qayalı dağlardan duman yüksəlir,*
*Xəyalım gecəni salama gəlir,*
*Çapdırır atını birbaşa dünya.*

*Yerlərə baxıram bağçalı, bağlı,*
*Göylərə baxıram qapısı bağlı,*
*Kainat ixtiyar, sirli, soraqlı,*
*Əzəldən yaranıb tamaşa dünya.*

*Bir də görürsən ki, açılan solur,*
*Düşünən bir beyin bir torpaq olur.*
*Bir yandan boşalır, bir yandan dolur,*
*Sirrini verməyir sirdaşa dünya.*

*Əzəldən belədir çünki kainat,*
*Cahan daimidir, ömur amanat.*
*Əldən-ələ keçir vəfasız həyat,*
*Biz gəldi-gedərik, sən yaşa, dünya!*

Şeir bitəndən sonra Samir özündən asılı olmadan şerin son iki misrasını təkrar etdi və heyranlıqla dedi.

– Komandir, əsl bizim indiki halımız üçün yazılıb bu şeir, yalnız, havanın bağrını dələn ulduzlar gizlənib...

Yenidən susdular, lal sükut ətrafı ağuşuna alıb vahimə yaradırdı. "Görəsən uşaqlar indi harada olarlar, bircə gedib sağ-salamat o tərəfə çıxsaydılar," – deyə düşündü. Birazdan onlar da buranı tərk edəcəkdilər, bu torpağın son həqiqi sahibləri buraları tərk edəcəkdi. Bir də bu yerlərə

qayıda biləcəkdilərmi, kim bilir?...

Yadına bir neçə ay əvvəl baş verən bir hadisə düşdü. Onların taboru ilk dəfə həmin bu yüksəklik uğrunda hücuma keçmişdilər, düşmənin müqavimətini qırmaq üçün əlavə canlı qüvvə lazım idi. Dəfələrlə radio vasitəsi ilə deyilməsinə baxmayaraq, əlavə canlı qüvvə gecikirdi.

O, itki çox verməsinlər deyə uşaqlara mövqe tutub dincəlmək əmrini verdi. Bir az sonra kiminsə həzin səslə mahnı oxuduğunu eşidib qulaq asdı.

***Bəlkə bu yerlərə bir də gəlmədim,***
***Duman salamat qal, dağ salamat qal.***

Oxuyanın avazı o qədər gözəl idi ki, hamı sakitcə ona qulaq asırdı, mahnının təsiri altında hər kəs öz aləminə dalmışdı. Ən təsirlisi isə döyüş başa çatandan sonra həmin mahnını oxuyanı axtararkən, bir az əvvəl Ələkbərin şəhid olduğunu demişdilər.

– Samir, sən Ələkbəri tanıyırdın?

– Hansı Ələkbəri deyirsən, meyxanaçı Ələkbəri? Buranı alan zaman şəhid olanı deyirsən?

– Hə, meyxana da deyirdi o?.. – deyə Asim təəccüblə soruşdu. Onu təəcübləndirən əsgərlərini yaxşı tanımaması idi. – Deməli o həm də meyxana deyirdi?...

– Bəli, komandir, rəhmətlik gözəl meyxana deyirdi, əməlli şair idi, həm də gözəl səsi vardı. O hardan yadına düşdü?

– He-eç... Allah rəhmət eləsin.

***

Yer-göy lərzəyə gəldi, bir anda dağlara çökən sükut pozuldu. Elə bil göylərin qəzəbi pik həddinə çatdı və parçalanıb onların üstünə tökülürdü. Gurultunun içində Asimin səsi eşidildi.

– Uzanın səngərə, cəld olun.

Lakin səngərə uzanmağın da elə xeyri olmadı. Ruslar ən yaxşı minaatanlar vasitəsi ilə səngərlərin içərisini vururdular. Elə ilk yaylım atəşi zamanı mərminin biri Asimin lap yaxınlığına düşdü, partlayışın dalğası o qədər güclü oldu ki, qalın torpaq kütləsi onun üstünü örtdü. Bədəninə dəyən daş-kəsəklərinin partlayan mərmi qəlpələri olduğunu zənn etdi. Ağrıdan huşunu itirdi. Sonrakı hadisələrdən xəbəri olmadı.

Düşmən bir saata yaxın onların yerləşdiyi mövqeləri minaatanlar və toplar vasitəsi ilə atəşə tutdu. Sonra pusquda olanlar sürünə-sürünə altı üstünə çevrilmiş mövqelərə doldular. Burada isə canlı bir kimsə yox idi. Samirlə Fikrətin üstünə düşən mərmi onları parça-parça etmişdi. Vahid ağır yaralanmış halda zarıyırdı. Düşmən əsgərləri ona yaxınlaşıb fənərlə üzünü işıqlandırdılar, o qan içində olsa da huşu özündə idi. Əsgərin biri yaralı çiyninə təpiklə vürdu. Vahid yerində qıvrıldı. Başından axan qan gözlərini tutduğu üçün ətrafında neçə nəfərin olduğunu ayırd edə bilmirdi. Bir rus zabiti ona yaxınlaşıb üzünə diqqətlə baxdı və rus dilində soruşdu.

– Ey-y! Sən rus dilində bilirsən?...

Vahid diqqətlə ona baxdı və başı ilə rus dilini bildiyini təsdiqlədi. Zabit sallağı oturub ona daha da yaxınlaşdı.

– Əgər suallarıma düzgün cavab versən, söz verirəm

ki, heç kim sənə toxunmayacaq. Razılaşdıq?... – Sonra isə daha da yaxınlaşıb qan içində olan üzünə diqqətlə baxdı, – Sən danışa bilirsən?...

Vahid bu dəfə də razılıq əlaməti olaraq başını tərpətdi.

– Burada neçə nəfər idiniz və yoldaşların harada gizləniblər.

O, bütün gücünü toplayıb zabitə tərəf dartındı. Zabit əli ilə onun başının arxasından tutub rahat dayanmasına kömək etdi. Vahid ağzını qanlı tüpürcəklə doldurub nifrətlə onun üzünə tüpürdü. Bunu gözləməyən zabit diksindi, geri tullanıb dikəldi və əsəbi şəkildə ayağı ilə onun yaralı çiynini yerə sıxdı.

– Sizi son nəfərinizə qədər qırmaq lazımdır...

Ağrıdan qıvrılan Vahid bundan sonra onu nəyin gözlədiyini yaxşı bilirdi, yaralı halda əsir düşməsin deyə və ağrılarına son qoymaq üçün bir az əvvəl çətinliklə də olsa sol əlində hazır saxladığı qumbaranı onun ayaqları altına atdı. Gecənin qaranlığında zabit bunu duydu, qışqıraraq özünü yerə atdı. Bir neçə saniyə sonra gecənin sükutunu güclü partlayış səsi pozdu, ətrafda olanlar yerə sərildi.

Bir anlıq araya sükut çökdü. Vahid bütün gücünü toplayıb ayağa qalxmaq istədi. Rus zabiti əlində tapança onun başının üstündə dayanmışdı. Fənərlə onun üzünü işıqlandırıb qorxmuş halda bir addım geri çəkildi. Cəld bir hərəkətlə tapançanı yerinə qoydu, çiynindəki avtomatı irəli çəkib bütün sandıqçanı onun bədəninə boşaltdı. Heç nə olmayıbmış kimi, sakit tərzdə cibindən dəsmalı çıxarıb üzündəki qanlı tüpürcəyi sildi.

– Hər tərəfi axtarın, onlar burda üç nəfər ola bilməzlər, – deyə qışqırdı.

Asim torpağın altında olsa da ətrafda nə baş verdiyini hiss edir, danışıqları eşidirdi. Bütün bədəni gərgin vəziyyətdə idi, torpağın ağırlığı onu sıxır, nəfəs almasına çətinlik yaradırdı. Təhlükəli olsa da bir az rahat uzanmaq üçün yerində fırlanmaq istədi. Lakin bacarmadı, sanki əzaları bir-birindən ayrılmışdı. Ağrıları getdikcə artırdı, huşunu itirdi.

Özünə gələndə iki əsgərin onu dağın yamacı ilə üzü aşağı sürüdüyünü anladı. Kiteli sürüşüb əynindən çıxmışdı, yalın kürəkləri daş-kəsək üstündə sürünürdü. Ağrı hiss etməsə də, kürəyində acı göynərti vardı və bu göynərti onun bütün hissiyatını məhv edirdi. Əvvəlcə elə bildi ki, öz əsgərləridir. Onları çağırmaq istədi. lakin ağzını açmağa gücü çatmadı. Yenidən huşunu itirdi.

Növbəti dəfə ayılanda üstü açıq yük maşınının yük yerində harasa aparıldığını başa düşdü. Bir əsgər əlində silah bir az aralıda oturmuşdu. Hər şeyin arxada qaldığını zənn etdi. Daxilində elə bil ocaq qalanmışdı, susuzuqdan dodaqları qurumuşdu. Başını qaldırıb zəif səslə inildədi.

– Əsgər, mənə bir az su ver.

Əsgər ona yaxınlaşdı, silahın qundağı ilə alnına güclü bir zərbə endirdi.

***

Özünə gələndə hər tərəf zülmət içində idi, su deyib zarıyırdı. O gözlərini geniş açıb yenidən baxdı, elə bildi ki, gözləri tutulub. Başında küt ağrı var idi, alnından axan qan üzündə quruyub qalmışdı. Bütün bədəni ağrıyırdı. Susuzluq onu əldən salmışdı. Hənirti eşitdi, qalxmaq istə-

di, bacarmadı. Sanki üstündə olan böyük bir qaya parçası bütün ağırlığı ilə onu torpağa sıxırdı. Nə qədər çalışsa da, kürəyini yerdən qaldıra bilmədi. Kürəyinin göynərtisini bütün varlığı ilə hiss edirdi. Elə bil qor üstündə uzanmışdı. Kimsə ona yaxınlaşdı, çiyninə kiminsə toxunduğunu hiss etdi.

– Ay yazıq, burda su var?...

Səs elə bil o biri dünyadan gəlirdi. Bəlkə də ölmüşdü, üstündəki ağır torpaq sinəsindən sıxıb tərpənməyə qoymurdu. Bəs danışan, çiyninə toxunan kim idi?... Niyə ayağa qalxa bilmirdi, niyə heç nə görmürdü? Axı gözləri açıq idi. Yox, ölməmişdi. Nəfəs aldığını hiss edirdi.

Sonra başqaları da gəldi, ona kömək edib oturaq vəziyyətə gətirdilər, elə bil ağrıları bir az azaldı. Doğma əllərin nəvazişi canında olan ağrılara məlhəm kimi gəldi ona. Əsir düşdüyünü yalnız indi anladı. Qarşıda dözülməz əzablı günlərin acısını hiss etdi.

Müharibə başlayan zaman iki il idi ki, hərbi məktəbi bitirmişdi. Astarxan vilayətində Sovet Ordusunun tərkibində xidmət edirdi. Erməni faşistlərinin Rusiya və İrandan dəstək alaraq azərbaycanlılara qarşı başladığı elan olunmamış müharibəsi onu vətənə dönməyə məcbur etdi. Elə gəldiyi gündən də yeni yaranmış Müdafiə Nazirliyi tərəfindən cəbhə bölgəsinə göndərildi. Yeni müstəqillik qazanmış vətəni ağır günlərini yaşayırdı. Nizami ordu yox idi, yalnız könüllülərdən təşkil olunmuş özünümüdafiə dəstələri mövcud idi ki, onlar da başıpozuq şəkildə idarə olunurdu. Onun kimi hərbi təhsilli mütəxəssislərə böyük ehtiyac var idi.

Ümumi vəziyyət dərk olunmayan dərəcədə ağır idi.

Ətrafı sarmış güclü düşmənlər qarşısında xalq əliyalın dayanmışdı. Sovet dönəmində məqsədyönlü şəkildə ov tüfəngləri əhalinin əllərindən alınmış, orta məktəblərdə olan tir tüfəngləri də yığılmışdı. Bu azmış kimi rus və iran dövləti bütün gücü ilə ermənilərin yanında idi. Havadarları tərəfindən təpədən dırnağa qədər silahlandırılmış ermənilərin və saysız-hesabsız casus ordusu qarşısında əliyalın azərbaycanlılar dayanmışdı.

Nə zamansa əsir düşəcəyi haqqında heç vaxt düşünməmişdi. Özünə və tabeliyində olanlara çox güvənirdi. Lakin.., "kaş ki, öləydim, əsir düşməyəydim," deyə düşündü. Nə zamansa, əsirlikdən sonra bəlkə qarşılaşmaq ümidi ilə kömək edənlərin kim olduğunu bilmək həvəsi oyandı daxilində. Gənc və fiziki cəhətdən güclü idi, özünə güvənirdi.

– Siz kimsiniz?... – deyə pıçıltıya bənzər bir səslə soruşdu. Bundan artığına gücü çatmadı Asimin. Sanki səsi də batmışdı.

– Səninçün fərqi varmı? Hamımız sənin kimi qurbanlıq quzuyuq.

Bu həmin səs idi, eyni ilə əvvəlki tərzdə cavab verdi. Söz onun ürəyinə bıçaq kimi sancıldı. Qıvrılıb ayağa durmaq istədi, bacarmadı, ağrıdan daha da qısıldı.

– Sən kimsən? Deyəsən burada yaşamaq çox xoşuna gəlib – əsəbdən səsi xırıldayırdı.

Həmin adam onun əsəbləşdiyini hiss etmirmiş kimi istehza ilə gülümsədi:

– Bəs necə? Çox xoşuma gəlib. – Ona tərəf əyilib qulağına pıçıdadı. – Əmin edirəm ki, sənin də çox xoşuna gələcək. Lap çox gələcək, özün görəcəksən, cənab zabit.

Səsindəki istehzadan əti ürpəndi Asimin, bu halda mübahisə etməyin yersiz olduğunu düşünüb əsəblərini cilovladı, dişi ilə dodağını sıxdı. İndi elə bir halda idi ki, istəsəydi də heç nə edə bilməzdi. Içəridə olanlardan kimsə həmin adamı qınadı.

– Utanmırsan? Görmürsən nə gündədir yazıq?

Yenidən darıxdırıcı sükut çökdü ətrafa, daha heç kim danışmadı. Hərə öz yerinə çəkilib nəm betonun üstündə büzüşdü, səhərin açılmasını və gecə düşənə qədər çeşidli əzabların başlanacağı anı gözlədilər. Artıq bu bir vərdiş idi...

## IV fəsil

Səhər həmişəki kimi açıldı, adi bahar səhəri idi. Qarabağda hər səhərin ayrı bir ləzzəti olur, xüsusən də bahar səhəri ola. Günəşin doğması ilə hər şey canlanır. Qarabağda hər fəslin öz yeri, öz gözəlliyi olur. Qışı qış kimi, yayı da öz yerində. İnsan burada qışda soyuqdan üşümür, yayda istidən boğulmur. Yazda çiçəklərin, payızda meyvələrin ətrindən doymaq olmur. İlahi bu torpaqdan heç nəyi əsirgəməyib. Günün hər bir anından cildlərlə kitab yazmaq olar, bəlkə bu da azlıq edər. Lakin əsirlikdə bunların heç birinin ləzzətini duymursan, əsirin gözlərinə hər tərəf boz-bulanıq görünür. Bəlkə də, bu insanın yaradılışında, təbiətindədir, altşüurunun məhsuludur...

Asim poetik ruhlu olmasına baxmayaraq Qarabağın baharının çılpaq gözəlliyi qəlbini oxşamırdı. Hər tərəfdə sanki bir ölgünlük hökm sürürdü. Əbədi məhkumluq və edam kürsüsündə dayanaraq hər an hökm gözləyən bir

gözəli xatırladırdı Qarabağ. Qəlbi buza dönür, ruhu üşüyürdü. "İlahi torpağın da canı varmış, ruhu varmış sən demə," -deyə düşündü.

Qəfildən sol böyrünə dəyən güclü təpik zərbəsindən özünü saxlaya bilmədi, sağ tərəfində dayanan əsirə dəydi. Hər ikisi beton döşəmənin üstünə sərildilər. Sonra isə dəyənəklər işə düşdü. Bir, iki, üç.., daha saya bilmədi, huşunu itirdi. Özünə gələndə arxası üstə yarıya qədər su ilə dolu arxın içində uzanmışdı. Buz kəsmişdi bədənini, daxilində isə çılğın bir atəş vardı, susuzluqdan ciyəri yanırdı. Çirkli olsa da, daxilindəki atəşi söndürmək üçün içində uzandığı sudan doyunca içmək istədi. Lakin yerindən tərpənə bilmədi. Əzaları iradəsinə tabe olmaq istəmirdi. Artıq günortaya yaxın idi. İki əsgər yaxınlaşıb ayaqlarından tutdu, döyə-döyə sürüyüb meydançanın ortasına gətirdilər. Dəyən zərbələri hiss etmirdi. Növbəti dəfə huşunu itirdi. Özünə gələndə qaranlıq kamerada idi. Asim zabit olduğu üçün ona verilən işgəncələr də, fərqli idi. Əsir düşdüyü ilk gün belə başladı...

Asim elə bir halda idi ki, səhərə sağ çıxacağına ümidi yox idi, lakin canı çox möhkəm imiş. Səhərə yaxın özünə gəldi. Beton döşəmənin üstündə sürünüb divara çatdı, oturub kürəyini söykədi. Artıq əzaları ona tabe olmağa başlamışdı. Lakin yeni səhər yeni sürpriz işgəncələrlə açıldı. Uşaq çağlarından eşitdiyi bir sözü xatırladı. Canı möhkəm olanlara "elə bil canı it canıdır" deyərdilər. İndi ona gün kimi aydın oldu ki, insanın canı itin canından da möhkəmdir.

Əzablı günlər bir-birini əvəzlədikcə, daxilində elə bil bir-birini əvəzləşdirmə baş verirdi. Verilən işgəncələr

daxilində təbiətinə yad olan vəhşi xislətli qəddar, qaniçən, rəhmsiz birinin yetişməsinə səbəb olurdu. Yalnız arabir gördüyü yuxularda əvvəlki halına qayıdır, lakin yuxudan ayıldıqdan sonra yenidən özgələşirdi.

Əsirlikdə daha nələrin şahidi olmadı ki...

İki yoldaşın bir-birinin üzünə durması, əsirləri bir-birinə qəddarcasına döydürmək, yemək müqabilində şəxsiyyətlərini alçaltmaq... İnsanın ağlına gəlməyən fiziki və mənəvi əzablar... İlahi, bu ki, dəhşət idi.

Növbəti gün gördükləri, həyatının ən qorxulu yuxusuna döndü. Gecə onların olduğu kameraya daha üç nəfər gətirdilər. Gətirilənlərdən biri bayılmış halda idi, arabir özünə gəlir nə isə danışır və yenidən özündən gedirdi. Özlərinin pis gündə olmasına baxmayaraq içəridəkilərdən bir neçəsi kömək məqsədi ilə onun yanına getdilər. Dirçəldib kürəyini divara söykədilər. Səhərə yaxın özünə gəldi və özü haqqında bəzi məlumatları verdi. Hərbi əsir idi. Fərrux dağında əsir düşmüşdü. Üç günlük əsirlikdən sonra mühafizəçini döyüb qaçmaq istəmişdilər, lakin yenidən tutularaq bura gətirilmişdilər. Yazığın dırnaqlarını çıxarmışdılar, sağ biləyini və barmaqlarını qırmışdılar, sağ ayağına küt alətlə vurmuşdular, şişib qapqara qaralmışdı, elə hey zarıyırdı. Kameradakılardan biri ona yaxınlaşdı.

– Sən kimsən, adın nədir!?

– Siz kimsiniz?...

– Biz də sənin kimi əsirik, qaqa.

Zarıyan adam bir az toxtadı, özüylə danışırmış kimi qırıq səslə əlavə etdi:

– Adım Xəlildir, ləzgiyəm, Bakıda yaşayıram. Bölük komandiri idim. Bir neçə gün əvvəl Fərruxda mühasirəyə

düşdük, bütün bölük qırıldı. Mənimlə bir-iki nəfər huşsuz halda əsir düşdük. Bizi Əsgəranda saxlayırdılar, mühafizəçinin silahını alıb qaçmaq istədik, lakin yolu itirdik. İki gün sonra bizi yenidən tutdular. Yoldaşlarımı güllələdilər, məni isə bura gətirdilər... Bilirəm mənim üçün yaxşı olmayacaq, sabah nə gözləyir, Allah bilir?...

Xəlil ağrıların təsirindən zarıdı, susdu, bir daha heç nə danışmaq istəmədi.

Səhər tezdən bizi yenə də həmişəki kimi səhər düzülüşünə çıxardılar, amma Xəlilə dəymədilər. Yenə həmin üzlər, əllərində dəyənək. Donuzu xatırladan lopabığ erməni bizi göstərib öz dillərində mühafizəçilərə tapşırıqlar verdi, sonra üzünü bizə tutub bərkdən qalın səslə, azərbaycan dilində danışmağa başladı. O, bizim dilimizdə səlis danışırdı.

– Hamınız dediklərimi yaxşı başa düşəsiniz deyə türk dilində danışıram. Bilin ki, Artsaxın azad olunmasına başlamışıq və bu yöndə işlərimiz bizim zənn etdiklərimizdən də rahat gedir. Artsaxın azad olunması "Böyük Ermənistan" ideyasının ilk mərhələsidir. Bunlar hamısı Artsaxın qəhrəman oğulları sayəsindədir. Türklər heç də bəzilərinin dedikləri kimi deyilmiş. Biz onları hərtərəfli məğlub edirik. Döyüş meydanında rəzil etmişik onları. Eşq olsun şanlı erməni əsgərinə! Yaşasın Böyük Ermənistan!

Əsgərlər əllərini və silahlarını göyə qaldırıb qışqıraraq onun dediklərini təkrar etdilər. Sonra sırada olan əsirlərin üstünə cumub dəyənəklə döyərək təkrar etmələrini istədilər. Elə bu zaman təcridxananın zirzəmisinin meydançaya baxan kiçik pəncərəsi çilik-çilik oldu, içəridən Xəlilin xırıltılı səsi eşidildi.

– Alçaqlar, axırınıza az qalıb, layiq olduğunuzu alacaqsız.

Sınan pəncərənin səsindən qorxuya düşən əsgərlər yerə uzanıb zirzəmiyə tərəf atəş açmağa başladılar. Bayaqdan qəhrəman erməni əsgərlərindən danışan lopabığ erməni də uzandığı palçıqlı yerdən durub atəş açanlara qışqıraraq dayanmağı əmr etdi.

– O iti bura gətirin.

Əsgərlər cəld zirzəmiyə tərəf qaçdılar. Bir azdan Xəlili sürüyərək meydançanın ortasına gətirdilər. Onun boynunun sağ tərəfindən güllə yalayıb keçmişdi, çiynindən axan qan əynindəki nazik paltarını al renginə boyamışdı. Xəlil bütün gücünü toplayıb ayağa qalxmaq istəyirdi. Onun məğrur üzünü ətrafdakılar ilk dəfə idi görürdülər. Asimə elə gəldi ki, onun üzü hamıda olduğu kimi ətdən deyil, mərmərdən ya da qranitdəndir. İti və nifrət dolu baxışları, üzünün gərgin əzələləri qarşısında olan hər kəsi diz çökdürərdi. Onun ayağa qalxdığını görən lopabığ, aşkar həyəcan və qorxu ilə əsgərlərin üstünə qışqırdı.

– Fərsiz köpək uşaqları, onun əllərini bağlayın!...

Əsgərlər cəld onun üstünə tullandılar, müqavimət göstərməsinə baxmayaraq yerə yıxıb əllərini arxasında bağladılar. Sonra dəyənəklə harası gəldi vurmağa başladılar. Artıq heç bir zərbəyə reaksiya vermədiyini görüb lopabığ əsgərləri saxladı.

– Dayanın! O, belə rahatlıqla ölməyə layiq deyil. Onun bir ayağını ağaca bağlayın.

Xəlil hətta yaralı və can üstə olduğu halda ermənilər üçün qorxulu idi və illər sonra da bu belə qalacaqdı. Onu xatırlayan hər bir "yan" üçün belə təhlükəli olacaqdı.

Lopabığ, sürücüsünü yanına çağırıb göstəriş verdi. Sürücü aralıda saxladığı maşını arxaya verib huşsuz vəziyyətdə yerə uzanmış Xəlilin yanında saxladı. Lopabığın göstərişi ilə Xəlilin sağ ayağını maşının arxasına bağladılar və maşın asta-asta irəliyə hərəkət etdi. Hələ də yaşamaqda davam edən Xəlil bütün gücü ilə çığırdı. Səs o qədər vahiməli və qorxunc idi ki.., hətta Asimə elə gəldi ki, ətrafdakı ağacların budaqları titrədi, quşlar vahimə ilə çığırışıb pırıltı ilə uçuşdular. Bu da təbiətin zülmə etirazı idi.

Vahimədən gözləri hədəqədən çıxmış lopabığ üzünü əsgərlərə tutub uca səslə dedi:

– Onun başını kəsin, cəsədini isə tullamayın, qurd-quş yesə onlar da bunun kimi olar. Parçalarını bir yerə yığıb yandırın, elə yandırın ki, külü də qalmasın – əlini hələ də sırada dayanan və daha da mütiləşən əsirlərə uzadıb barmağını havada yellədi – hər bir türkü bu aqibət gözləyir. Əgər qaçmaq istəsəniz sizi də belə parça-parça etdirəcəyəm.

Əsirlərə tərəf nifrətlə baxdı, hələ də vahimə tökülən gözlərini gizlədərək Xəlilin parçalanmış cəsədinə tərəf tüpürdü, dönüb maşınına tərəf getdi. Əsgərlərdən biri əlindəki bıçaqla parçalanmış meyitin başını kəsdi. Əsirlərə qarşı qəddar olanları erməni və ruslar daha tez yüksək vəzifəyə qaldırdıqları üçün bu xüsusda daha çox canfəşanlıq edənlər olurdu.

Xəlilin parçalarını meydançanın ortasında üstünə neft səpib yandırdılar, əsirləri isə döyə-döyə təcridxanaya apardılar. Bir azdan qapı açıldı əsgər Xəlilin başını kameranın ortasına atdı.

– Sabah futbol yarışı olacaq, bir az məşq eləyin. Ud-

sanız da, uduzsanız da nəticə eynidir. Sizin hamınızın aqibəti belə olacaq.

Asim uzun müddət bu dəhşətin təsirindən qurtula bilmədi və yəqin ki, ömrünün sonuna kimi belə olacaqdı. Hər gün eyni işgəncələrlə qarşılaşırdılar, sadəcə motivlər və işgəncə verənlər dəyişirdi. Onlar insan deyil, quduzlaşmış vəhşi idilər. Xəlilin məğrur sifəti və parçalanma anında son harayı əbədi olaraq yaddaşına yazıldı.

## V fəsil

Günlər sürətlə bir-birini əvəz edirdi. O qədər sürətli idi ki, səhərin nə zaman açıldığını, axşamın nə zaman düşdüyünü anlamaq olmurdu. Nə qədər çətin olsa da dözürdülər. Dəmiri döyüb, almazı cilalayıb istənilən formaya salmaq mümkün olursa, deməli istənilən varlığı istənilən istiqamətə yönəltmək də mümkündür. Möhkəm iradə azad insanlarda olur. Köləlikdə iradə arzuya çevrilir. İnsan həmişə nəyinsə arzusunda olur. Əlçatmaz, ideal və xəyali duyğular instinkt olaraq insana nütfədən gəlir. Elə bir insan yoxdur ki, əlçatmaz arzusu olmasın, insan yaşa dolduqca arzuları da artır və böyüyür. Bunlar hamısı insanın düşdüyü mühitin yaşadığı zamanın və məkanın sərhədlərindən kənarda olur. Nə qədər çalışsa da həmin zamanda, həmin məkanda ola bilmir. Arzuların əlçatmaz olmasının səbəbi də elə budur.

Bir də insanın daxili aləmində ümid deyilən bir duyğu var, bu da onun arzularının gerçəkləşəcəyinə inam, arxayınlıq yaradır. Ümid olmasa, arzu da mənasızdır. Ümid

istədiyinin nə zamansa həyatda reallaşacağına inamdır. İnsanı yaşadan arzular və onun bir gün reallaşacağına olan ümididir. Belə olmasaydı, həyat mənasını itirər, yaşamaq lüzumsuz olardı. Ən çətin anda hansısa bir möcüzənin baş verəcəyinə ümid edir, düşdüyü çətin vəziyyətdən qurtulacağına inanır insan. Son nəfəsin verildiyi anda da ümid yaşayır, son ölən də ümid olur...

Asim bir neçə dəfə özünü öldürmək istəsə də bacarmamışdı, son anda fikrindən vaz keçmişdi. Bir gün hər şeyin dəyişəcəyinə əmin idi. İndiki zamanda ən böyük arzusu buradan – dünyanın füsunkar gözəlliklərini özündə əks etdirən "Qarabağ adlı cəhənnəm"dən qurtarmaq idi. Xarı bülbülün sarı qoynundan qopub istidən qovrulan Şirvan düzənliklərində təbii günəş vannası qəbul etmək idi. Burnunun ucu göynəyirdi qışda soyuq, yayda isti olan kəndləri üçün, ilin bütün fəsillərində yovşan ətri verən düzənlikləri üçün, doğmaları, əzizləri üçün... Əsirin bundan böyük arzusu ola bilərdimi!?...

Bir azdan yeni bir səhər açılacaqdı, "kaş açılmaz olardı," deyə düşündü. Bədənində elə bir yer yox idi ki, öz rəngində olsun, bütün əzaları ağrıyırdı. Əsəb sistemi sıradan çıxmış, hər şeyə biganə olmuşdu. Dinindən, dilindən asılı olmadan insan cildində olan hər kəsə nifrət edirdi.

Əsir düşdüyü qısa zamanda çox şey öyrəndi Asim. Xüsusən də sirrini başqa biri ilə bölüşməməyi.., beləcə qaraqabaq oldu, özünə qapıldı. Başa düşdü ki, iki nəfərin bildiyi söz sirr deyil. Sirr insanın dilinə gətirmədiyi, özü ilə məzara daşıdığı düşüncələridir.

Xəlilin bura qısa müddətli gəlişi əsirlərin həyatında böyük bir dönüş yaratdı. Ölümü ilə hamıya görk oldu Xə-

lil. Onun gəlişinə qədər əzablara dözməyənlər kamerada olan söz-söhbəti hər gün təkrar olan "istintaq" zamanı açıb deyərdilər. Xəlilin ölümündən sonra buna az da olsa son qoyuldu.

– Asim, yatmamısan?

Səsindən Bəxtiyara oxşatdı. Onu yaxşı tanıyırdı, Goranboydan idi. Uzun müddət idi ki, əsirlik həyatı yaşayırdı. Xənkəndidə, Şuşa türməsində yatmışdı, çox əziyyətlər çəkmişdi. Iki ay əvvəl Şuşa türməsində olarkən, əsir mübadiləsi zamanı onun da adı siyahıda olmuşdu. Rusların vasitəçiliyi ilə ermənilər yüz nəfər azərbaycanlı əsiri, Bakıda olan beş nəfər xaricdən gəlmiş erməni "boyaviki" ilə dəyişməli idilər. Üstəlik Azərbaycan tərəfi doxsan beş nəfərin əvəzinə dizel yanacağı və benzin verəcəkdi. Mübadilə Ağdam cəbhəsində olacaqdı. Son anda yekəpər bir erməni Bəxtiyara yaxınlaşıb kinayə ilə soruşur.

– Ara, turk. Sən bir də erməniyə güllə atarsan, ha?...

Bəxtiyar onun gözlərinin içinə nifrətlə baxıb cavab verir.

– Son damla qanıma, son nəfəsimə qədər sizinlə varam.

– Ara, yüz il əvvəl mənim babam Andronik – qoltuq cibindən əzilmiş bir şəkil çıxarıb ona göstərdi – bax bu kişi ha, sizi qırıp, indi də mən qırıram, ha, yüz il sonra da mənim nəvəm, nəticəm qırajax. Başa duşdun?

– Başa düşməyinə düşdüm, amma sən də başa düş ki, vaxtilə sənin həmin baban Andranikin qulağını mənim türk babam kəsib tayqulaq edib. Çox çəkməz ki, sənin də qulağını mən kəsərəm. Siz öyrəşmisiniz tayqulaq gəzməyə.

Bəxtiyarın sözü ermənilər arasında bomba kimi partla-

yıb. Dərhal onun adını mübadilə siyahısından çıxardaraq radio vasitəsi ilə qarşı tərəfə mübadilədə doxsan doqquz nəfərin olacağını bildiriblər. Qəddarlığı ilə seçilən dörd nəfər erməni, rus vasitəçilərinin və xarici jurnalistlərin gözləri önündə Bəxtiyarın əllərini və ayaqlarını bağlayıb "NİVA" maşınının yük yerinə soxub buraya, təcridxanaya gətiriblər. Bu təcridxanadakı əsirlərin adları isə heç bir beynəlxalq təşkilatlarda qeydə alınmayanlar idi. Onlar əsasən hərbi əsirlər idi və ömürlük əsirliyə məhkum olunmuşdular.

Bəxtiyarı bura gətirən kimi nəfəsi kəsilənə qədər döyüb, sonra isə əl barmaqlarını qıraraq qulağının birini dibindən kəsmişdilər. Özünü isə sürüyüb həmin bu kameraya atmışdılar. Bəxtiyar üç gün sonra özünə gələ bildi. O gündən Bəxtiyar bu kameranın üzvlərindən biri olaraq hər gün verilən ən şiddətli cəzaları qəbul etmək üçün namizədlər siyahısına başçılıq edirdi. Əsirlərin çoxu ona baxıb özlərinə şükür edirdilər. Yenidən həmin səs gəldi.

– Asim...

Lakin cavab gəlmədiyini görüb susdu. Asim bilmirdi ki, cavab versin, ya yox. Son anda gözlərini bərk-bərk yumub cavab verməməyə qərar verdi. Lakin yata bilmədi, səhəri dirigözlü açdı. Asimdən cavab almayan Bəxtiyar gözlərini qaranlıqda onsuz da heç nə seçilməyən tavana dikdi. Əsirlikdə olduğu hər an bir ilə dönüb gözlərinin önündən keçdi. Şuşa türməsində yatan zaman kamera yoldaşı Nurəddini və Heydəri xatırladı, Ağayev Nurəddin Yaşar oğlunu və Heydərov Heydər Zabud oğlunu... Onlar hər ikisi Yardımlı rayonundan idilər.

***

Ertəsi gün  Bəxtiyar onun yanında dayanmışdı. Arada imkan tapan kimi dirsəyi ilə ona toxundu.

– Gecə yatmadığını bilirdim, səninlə söhbətim var...

Asim başının hərəkəti ilə razılıq işarəsi verdi. Əsirlər bir-bir "istintaq"a gedirdilər. Əslində istintaq deyilən elə bir şey yox idi. Onları tək-tək təcridxananın komendantı Manvelyanın otağına aparıb hərgünki eyni sualları təkrar verir, cavab qane etmədikcə (onsuz da heç bir cavab onları qane etmirdi) işgəncə metodları işə düşürdü. Sanki insan orqanizmasının hansı işgəncəyə nə qədər dözəcəyini, necə reaksiya verəcəyini öyrənirdilər. Elə bil əsirlərin üzərində eksperiment aparırdılar, masanın üstündə eksperimentə aid hər cür ləvazimatlar sıra ilə düzülmüşdü. Döyülmə zamanı huşunu itirən əsirlərin mismar kəlbətini ilə dırnaqlarını və dişlərini çıxarırdılar. Ağrıdan özünə gələnləri yenidən döyür, yenidən işlərinə davam edirdilər.

Döyülmək adi hal olsa da Manvelyanın əsirləri hansı metodla döymək məsləhəti dəhşətli idi. Rezin dəyənəklərlə döyüləndə sevinirdilər, dəmir parçaları, armatur, ağac və taxta parçaları artıq adiləşmişdi. Ən pisi mis kabellərlə döyülmək idi, Bu zaman əsirlərin dərisi kabellə birlikdə qopurdu. Onlar insan deyil, vəhşi idilər.

Manvelyan yerli ermənilərdən deyildi, Yerevandan bəlkə də xaricdən gəlmişdi. Arıq, hündürboylu adam idi, iri qulaqları və donqar burnu başına sonradan yapışdırılmış kimi görünürdü. Batmış ovurdları və irəli çıxmış yanaqları üzünün eybəcərliyini daha da artırırdı. Əsirlər onu yalnız kabinetində görə bilərdilər. Sifəti donuq və ifa-

dəsiz idi. Az danışar, yalnız işgəncəyə aid əmrlər verərdi. Səsi də qəribə idi, uzun müddət siqaret çəkən qadınların səsinə bənzəyirdi. Orada olan bütün zabit və əsgərlər ondan çəkinirdi. Hər kəsin ondan xoşu gəlmədiyi dərhal hiss olunurdu.

Manvelyanın düşündüyü işgəncələrə davam gətirən hər bir əsir qəhrəman sayıla bilərdi. Ötən gün “istintaq” zamanı Manvelyan oturduğu yerdən qalxaraq onunla üzbəüz dayandı, kəskin baxışlar toqquşdu. Rinqdə olan rəqiblər kimi baxışları ilə bir-birini məğlub etməyə çalışdılar. Sonda Manvelyan gözlərini çəkib yanındakı əsgərlərə qəzəblə baxdı və onları söyərək öz dillərində göstərişlər verdi.

– Sizin ananızı.., bunların nazı ilə oynayırsınız?... Siz onların əlinə keçsəniz elə bilirsiz sizünçün yaxşı olacax? Sizin darinizi soyacaxlar, ətinizi parçax-parçax kəsip kuçax itlərinə yedirdacaxlar. Bunlar turkdurlar...

Manvelyan qışqıraraq o qədər həyəcanlı danışırdı ki, içəridəki əsgərlər Asimi parçalamağa hazır idilər. Giriş qapısından solda üzərinə aşağıdan və yuxarıdan yumru həlqələr bərkidilmiş iki dirək görünürdü. Döymək istədikləri əsirlərin əllərinə bağladıqları kəndirləri həlqələrdən keçirib dartır, sonra isə istədikləri qədər döyürdülər. Otağa daxil olan əsir başqa yerdə dayana bilməzdi, dayandığı yer həmin iki dirəyin arasında idi. Əsgərlər dirəkdən əsiri yalnız huşsuz halda açıb sürüyə-sürüyə kameraya aparırdılar. Kameraya qayıtmayanların aqibəti isə artıq məlum idi...

Bir gün işləməyə gedərkən Bəxtiyarın əsir düşərgəsində tanış olduğu Nurəddin Ağayev və Heydər Heydərovun başına gələn hadisə sadəcə qorxulu nağıla bənzəyirdi.

## VI fəsil

Ayılanda hər tərəf qaranlıq idi, bir anlıq nə baş verdiyini anlaya bilməsə də zirzəminin kəskin iyindən kamerada olduğunu anladı. Bayırda qar yağırdı, şüşəsiz pəncərələrdən içəri dolur, şaxta adamın iliyini dondururdu. Büzüşüb yumağa dönmüşdü.

Əsirliyin ilk iki gününü Əsgəranda saxladılar onları. Dar kamerada dörd nəfər qalırdılar, üçü yeniyetmələr idi, birinin on bir, o birinin on iki, digərinin isə on dörd yaşı var idi. Kəlbəcər rayonundan Gəncəyə gedərkən yolda hücum edib əsir almışdılar. İki gün ərzində onların üçünü də Xankəndi əhalisindən olan varlılar pul müqabilində alıb apardılar. Sonuncu yeniyetməni apardıqdan sonra tək qaldığı üçün darıxırdı, qapıda dayanan nəzarətçini çağırıb:

– Onları hara apardılar? Qayıdacaqlarmı?

Nəzarətçi donuq baxışlarla bir müddət Asimin üzünə baxdı, yazığı gəlirmiş kimi dedi:

– Onları varlı adamlar pulnan alırlar ki, müharibədə ölən övladlarının qəbrinin üstündə kəssinlər. Əgər indi gedən oğlan olmasaydı, səni alıb aparacaqdılar. Bu dəfə bəxtin gətirdi, amma sənin də vaxtın çatacaq...

Eşitdiyi sözlərdən dili tutuldu, danışa bilmədi, yerində donub qaldı. "Dəhşət!... Doğrudan da dəhşət idi, adam ağlını itirmək dərəcəsinə gəlir. Bunlar xəstədirlər. Vallah xəstədirlər. İnsanlar yarım əsrdir kosmosa qalxır, dünyanı çiplərlə idarə edir. Bunlar isə hələ də öz vəhşi, murdar adətlərindən əl çəkmirlər."

Daxilində kin və nifrət vulkanı qaynadı, bir az da yazığı gəldi erməni vəhşilərinə. Elə həmin gün axşamüstü onu növbəti sorğuya apardılar. İçəridə iki yeniyetmə qız və bir orta yaşlı qadın var idi. Qızlar qadına çox oxşadığından Asim onların ana-bala olduğunu düşündü. Qızlar qorxudan sağ və sol tərəfdən analarına sığınmışdılar. Verilən suallara ancaq ana cavab verirdi. Təcridxananın rəisi donuz sifətli Kamo ləqəbli erməni azərbaycan və rus dilini bilməsinə baxmayaraq, tərcüməçi vasitəsi ilə onlarla danışırdı. İçəridə rus zabiti də var idi. Tərcüməçi həm də onların danışıqlarını rus dilinə tərcümə edirdi. Görünür Kamo ruslara tərcümə etməyi özünə sığışdırmırdı. Bu isə masanın ətrafında oturan rus mayorunun xoşuna gəlmədi. Arxada əlində şallaq dayanan mülki geyimli, cüssəli erməni gözlərini bir-birinə sığınıb qorxudan titrəyən qadınlardan çəkmirdi. Kamo onun üstünə çəmkirdi.

– Ara Surik, mama kunem! Nə maddım-maddım baxırsan, arvad görməmisən!? Bax budur deyirəm sənə, bunlarla işin olmasın, bu da keçən dəfəki deyil... Qonağım gələcək bu gün-sabah. Bu onun əmanətidir Başa duşdun?...

– Kamo, çavıtdanım! Mənim onlarla nə işim var!? Dəymə deyirsən, dəymərəm. Mən bir əsgərəm, hansı əmri versən, onu da dərhal yerinə yetirirəm...

– Nə əmr, hansı əmr!? Adamın ürəyində az da olsa mərhəmət olmaz? Sənə bir deməmiş, beşini eləyirsən. Keçən dəfəki qadınları o hala salanda məndən soruşmuşdun?... Nadürüst köpəy oğlu, bacın kimi adamın üzünə durursan... Əgər bir də belə etsən, səni burdan itirəcəyəm pramoy ön cəbhəyə, axtalatdırandan sonra... Baxmayacam ki, səni kim tapşırıb, kimin adamısan. İndi isə rədd ol çölə,

çağıranda gələrsən.

Surik deyilən boynuyoğun əlindəki şallağı yerinə asıb qapıdan çıxdı. Rus zabiti onun çıxdığını görüb soruşdu:

– Bunu kim tapşırıb, kimin adamıdır?

– Marinanın qardaşıdır, yanımda saxlamağa məcburam. Yoxsa qancıq düşünmədən bizi qara qəpiyə satar. Bir də ki, gecələr onu əvəz edən ayrısını tapmaq müşküldür. Elə deyil? Axı sən də onunla gecələmisən.

Zabit gülümsəyib razılıqla başını yırğaladı. Donuzsifət Kamo elə bil Asimi indicə gördü. Ayağa qalxıb rus dilində söyə-söyə ona yaxınlaşdı, bütün gücü ilə gicgahına bir yumruq vurdu.

– Koppax oğlu, sən nə vaxt soxuldun içarı!?

Asim səndələdi, zərbəni gözləmədiyindən bir anlıq nə baş verdiyini başa düşmədi, gözlərininin önündə qığılcımlar uçuşdu, huşunu itirib yerə yıxıldı. Kamo heç nə olmayıbmış kimi bir-birinə sığınıb qorxudan əsən qadınlara tərəf döndü. Arxadan onların hər üçünü diqqətlə süzdü, əlini sağdakı qızın yanına çəkdi. Qız içini çəkib qorxudan anasına daha da sıxıldı. Kamo fırlanıb onların qarşısında dayandı. Başını aşağı salıb həyasız baxışlarla onların hər üçünü bir daha süzdü. Yenidən əlini həmin qızın sinəsinə tərəf uzatdı. Ana instinkt olaraq qızını geri çəkib özü qabağa keçdi.

– Əlini çək, namussuz!...

Kamonun gözləri hədəqəsindən çıxdı.

– Belə kobuddux heç xoşuma gəlmir, bir az mülayim olsan, kobuddux etməsən sənin və körpə qızların üçün yaxşı olacax.

Rus zabiti vəziyyətin qəlizləşdiyini görüb ayağa qalxdı,

əsirlərə yaxınlaşıb tərcüməçi vasitəsi ilə danışdı.

– Adın nədir?

– Sitarə.

– Sitara.., Sitara... – o donuq baxışlarla çarəsiz qalan ana və qızları bir neçə dəfə başdan ayağadək süzdü. Çarəsiz qalan Sitarə yalvarışla dolu gözlərini onun üzünə dikmişdi, elə bil indicə hansısa bir möcüzənin baş verəcəyini gözləyirdi. Nədənsə zabitin ona yazığı gəldi, daxilində baş qaldıran hansısa bir hissin təsiri ilə baxışlarını onlardan ayırıb Kamoya tərəf döndü: – Sənə dəfələrlə demişəm, mənim yanımda qadınlarla belə kobud rəftar etmə. Sənsə hər dəfə daha sərt metodlara əl atırsan, – səsini qaldırıb əmr etdi. – Denən bunları oturtsunlar bizim maşına, özümlə aparacam, – deyə əsəbi halda dönüb qapıya tərəf getdi.

Kamo geri dönüb onu arxadan tərs-tərs süzdü və özündən asılı olmayaraq sözləri uzada-uzada dedi:

– Yo-o-ox, təkcə bunu istəmə. Bu sadəcə mümkün deyil.

Zabit dayanıb geri döndü, baxışlarını əsirlərdən ayırmadan bir az da əsəbi şəkildə davam etdi.

– Deməli, mənim əmrimi saymırsan!?

– Yox, yox, yox... Bilsəydin onlar kimin adamıdır, belə danışmazdın.

Zabitin onsuz da qırmızı olan sifəti daha da qızardı. İncik və acıqlı halda qapıya tərəf getdi. Kamo inciyən rus zabitinin könlünü almaq məqsədi ilə dodağnın altında mızıldadı.

– Nədi xoşuna gəlmədi, bir qancıqdan ötrü hər şeyə tüpürdün?... Sizə onsuz da söykənmək olmur, dar ayaqda əliniz yoxdur.

Qapıdan çıxmaq istəyən rus zabiti onun mızıldayaraq dediyi sözləri eşitdi, dayanıb geri döndü, qeyri-ixtiyari əli silahına getdi.

– Ey sən! İt oğlu it, nə mızıldanırsan dodağının altında!... Biz olmasaydıq hələ də cəngəllikdə yaşayırdınız. Nə dövlətiniz, nə də millətiniz olardı, qaraçı kimi küçələrdə qalmışdınız, gətirib sizə dövlət qurduq. Deyəsən, ipinizi boş buraxmışıq, daha bizi də qapırsınız...

Kamo elə bil yuxudan oyandı, qollarını açıb bic-bic güldü, rus dilində tipik erməni ləhcəsində:

– Ara, bunlar hamısı sənə qurban olsun. İndi bunlara görə məndən inciyəcəksən?... – deyib zabitin könlünü almaq istədi. Onun yaltaq və ikiüzlü hərəkəti, onsuz da, əsəbləşən mayorun heç də xoşuna gəlmədi.

– Bəsdir, kişi ol. Cilddən-cildə girmə. Danışanda da həddini bil. Səndən heç də incimirəm, günah səndə yox, bizdədir. Xainliklə vəhşilik sizin xislətinizdədir.

Zabit geri çəkilmək fikrində deyildi, sağollaşmadan qapını çırpdı. Kamo qapının səsinə diksindi, bir müddət özünə gələ bilmədi, mayorun sözləri şapalaq kimi tutmuşdu onu. Öz-özünə danışırmış kimi əl-qolunu ölçdü. Yerinə keçərkən hələ də bir-birinə sığınan qadınları görüb bağırdı. Surik və əli silahlı əsgərlər içəri daxil oldular.

– Aparın bunları, – sonra nə fikirləşdisə əlavə etdi, – kimsə onlara toxunmasın...

Sonra isə şallağı götürüb hələ də yerdə uzanan Asimi yorulana qədər döydü. Yorulub dayananda şallağı yerə atıb Suriki çağırdı.

– Döy!... Bunların qırx canı olur, döyülməklə ölən deyillər.

Bir azdan Asim artıq heç nə hiss eləmirdi. Nə zaman onu sürüyüb rütubətli kameraya gətirmişdilər, xatırlamırdı. Gecənin bir çağında öz zarıltısına oyandı. ətrafda zülmətə bürünmüş ölü bir sükut var idi. Qulaq batıran sükutun içində ürəyinin döyüntüsünü, qanının damarlarında necə axmasını, hətta yaralarının sızıltısını eşidirdi. Ayağa qalxmaq istədi, axşamdan nə qədər döyülmüşdüsə, qalxa bilmədi. bədənini ağrılara təslim edib tərpənmədi. Təkcə gözləri açıq idi, gecənin qaranlığında heç nə görmədiyindən onların da salamat olması şübhəli idi. İndiki halına qəlbən acıdı, özünə yazığı gəldi, ağlamaq istəsə də bacarmadı...

## VII fəsil

Kamonun otağından çıxandan sonra Sitarə və qızlarını dünən saxladıqları yerə, donuz fermasına gətirdilər. Bu böyük bir tövlə idi, əsirlərin çox olduğunu nəzərə alaraq tövləni taxta arakəsmə vasitəsi ilə iki yerə bölmüş, arxa tərəfdən yeni qapı açmışdılar. Bir tərəfdə donuzları, digər tərəfdə isə əsirləri saxlayırdılar. Əsirlər olmayanda Rusiyadan gətirilmiş cins danaları kökəltmək məqsədi ilə burada saxlayırdılar. Divardan çıxan dəmirlərdə kəndirlərin olması bunu göstərirdi. Tövlənin tikildiyi yer maili olduğu üçün əsirlər üçün açılan giriş qapısı metr yarım aşağıda yerləşirdi. İçəri maili olaraq beton verilmişdi, donuzların bütün çirkabı əsirlər olan tərəfə axırdı. Xüsusən də, giriş qapısından keçərkən topuğa qədər çirkaba batmamaq mümkün deyildi. Donuz peyininin günlərlə yığılıb qal-

ması dözülməz üfunət yaradırdı.

Əsir düşdükləri andan yalnız Qaraxan haqqında düşünə bilirdi. Ona elə gəlirdi ki, Qaraxan harda olsa, özünü yetirəcək, onları əsirlikdən qurtaracaq. Sitarənin tanıdığı Qaraxanı kimsə saxlaya bilməzdi. Yorğunluqdan arabir gözləri qapananda da onu görürdü. Artıq iki sutkaya yaxın idi ki, ümidini kəsmirdi. Arabir də ürəyində qınayırdı onu. "Hardasan Qara, səbrimiz tükəndi axı..." Evdən çıxanda Qaraxan təklikdə ona yaxınlaşdı, qəhərlənmiş və boğulmuş halda idi. Başını kəssəydilər bir damla qanı yerə düşməzdi. Belindəki naqanı çıxarıb ona uzatdı. "Sizi tək olan Allaha əmanət edirəm, burda cəmi üç patron var, çalışın əsir düşməyin. Görsən ki, başqa bir yol yoxdur, qızları və özünü güllələ. Abbasla işin olmasın..." Daha danışa bilmədi.

Onlar elə həmin gecə səhərə yaxın meşəni çıxarkən pusquya düşdülər. On beş nəfər əli silahlı erməni quldurú dərənin içərisində onları mühasirəyə aldı. Qaçıb qurtarmaq istəyən iki nəfəri güllələdilər. Kəndin sakinlərindən dörd nəfər – iki on yeddi yaşında olan qız və iki gəlin özünü qayadan atıb öldürdülər. Hamı başının hayında idi. Dəstəni yolboyu mühafizə edən üç nəfərin ikisi müqavimət göstərmək üçün mövqe tutsalar da kiçik atışmadan sonra hər ikisi öldürüldü. Onları arxadan vurdular. Düşmən hər tərəfdə idi. Mühafizəçilərdən Əziz silahını atıb təslim oldu. Qarşıdakı qayanın üstündə hündürboy, saqqallı bir nəfər göründü. Alatoranlıqda üzü tam görünməsə də seçmək olurdu. Təmiz Azərbaycan dilində dedi.

– Qorxmayın, sizi öldürməyəcəyik, təslim olun. Əbəs yerə müqavimət göstərməyin. Sizin əksəriyyətiniz məni

yaxşı tanıyırsız. Müqavimət göstərsəniz hamınızı öldürəcəklər.

Bu qatı daşnakçı Malxazyan Armenak idi. Moskvada partiya məktəbini bitirəndən sonra bütün ömrünü Azərbaycanın ayrı-ayrı bölgələrində "partiya xəttində" yüksək vəzifələrdə işləmişdi. Əziz uzun illər onun tabeliyində işlədiyi üçün yaxşı tanıyırdı. Çox "bacarıqlı adam" idi, əsl erməni idi və qatı daşnakçı olduğunu da heç zaman gizlətmirdi.

Malxazyanın və onun kimilərin başlıca məqsədi iyrənc ideyalarla erməni gənclərinin beynini zəhərləmək, nəticədə böyük qazanc əldə etmək idi. Onlar nəyin bahasına olursa-olsun, öz məqsədlərinə doğru gedir və bu məqsədin uğrunda hər şeyi, hətta ailələrini qurban verirdilər.

Hələ sovet dönəmində Əzizin pula hərisliyini anlayan Armenak onu öz "caynağına" kecirdi. Sovet hakimiyyəti dağılandan sonra da əlini onun üstündən götürmədi, "payını" kəsmədi və Əziz özü də istəmədən onun casusuna çevrildi.

Bir neçə gün öncə Qaraxan kənd camaatının təxliyəsini təmin etmək üçün yığıncaq keçirdi. Yığıncaqda qərara aldılar ki, kənddə qalanların siyahısı hazırlansın və sabahdan bütün əhali təxliyyə edilsin. Yığıncaqda Qaraxanın göstərişi ilə kəndin müdafiəçilərinin ən yaşlısı olan Əziz də iştirak edirdi. Elə həmin gün bu xəbəri Malxazyana çatdıran da Əziz oldu.

***

Malxazyan təmiz Azərbaycan dilində danışa-danışa qayanın üstündən əsirlərə tərəf endi, gəlib sağ qalan müha-

fizəçi ilə üz-üzə dayandı. Sitarə oğlunu sinəsinə sıxıb qızları ilə birgə bir neçə metrlikdə daşın arxasına sığınmışdı. Onları yaxşı eşidirdi.

– Hamı burdadır?

Mühafizəçi başının işarəsi ilə təsdiq etdi. Əzizin bu hərəkəti Armenakın xoşuna gəlmədi.

– Dilini udmusan, Əziz!? Başınla niyə cavab verirsən? Yoxsa, başın bədəninə ağırlıq eləyir?...

Əziz dərhal cavab verdi, səsinin titrəyişindən qorxduğu aşkar hiss olunurdu.

– Hə-hə. Hamı burdadır.

– Neçə nəfərdirlər?

– Kənddən çıxanda otuz beş nəfər idik, iki nəfər yolda fikrini dəyişdi, geri, kəndə qayıtdılar.

– Kimlər idi qayıdanlar?

– Iki yeniyetmə cavan uşaqlar idi, heç mən də yaxşı tanımıram, Bakıdan gəlmişdilər qohumlarıgilə.

– Hm.m... Kəndə qayıtmalarının eybi yoxdur. Artıq kəndi götürmüşük, bir azdan qayıdanda xarabalıqlarını öz gözlərinlə görəcəksən.

Malxazyanın özündən razı halda verdiyi xəbərdən Əzizin dili tutuldu. Heyrətini gizlədə bilmədi.

– Ne-ne-ne-cə??? Kəndi götürmüsüz? Bəs, bəs, biz... bizim uşaqlar...

– Nooldu sənə? Dilin tutuldu? Kəkələyirsən, sizin-bizim daha yoxdur, hamısı bizimdir... – deyə fəxrlə öyündü.

Əziz kimsənin eşidəcəyindən ehtiyat edərək ona bir az da yaxınlaşdı.

– Bəs Qaraxan?... Onu da?...

– Sizin qəhrəmanınız hələlik siçan kimi hansısa deşik-

də gizlənib, amma söz verirəm onun boğazını bu əllərimlə üzəcəm, az qalıb. Kstati, onun ailəsi burdadır?

– Hə-hə. Dörd nəfərdilər, arvadı, iki qızı və oğlu...

– Dilin topuq vurmasın. Get, onlardan muğayat ol, kimsə toxunmasın onlara. Başa düşdün? – deyib kinli sərt baxışlarla Əzizi süzdü.

– Baş üstə.

– Qaraxan mənim düşmənimdir, o olmasaydı düşündüyüm planların hamısını çoxdan həyata keçirmişdim. Bir də onun əlləri çox uzundur, hətta mənim kimi bir adama şapalaq vurmaq qədər... Mən onu elə həmin gün öldürə bilərdim. Amma bunu etmədim. İllərlə səbr etdim, gözlədim, bu plan üzərində işlədim. – bir anlıq susub əlavə etdi. – Bilirsən niyə Əziz? Hər bir millətin xarakterində incə bir nöqtə var, sizin ən incə xüsusiyyətiniz namusdur. Sizdə kişiləri öldürmək lazım deyil, namusuna toxunsan bəs edər.

O bu sözləri deyəndə Əziz onun üzündəki ifadədən daxilindəki iyrənc eybəcərlikləri görürdü. Bu günə qədər belə bir adama xidmət etdiyi üçün özünə nifrət etdi. Malxazyan illərlə qurduğu planlardan ayrılıb ona çəmkirdi.

– Nə gözlərini döyürsən!? Get işinlə məşğul ol. Onların başından bir tük əskik olsa sənin ən böyük tikəni qulağın boyda edəcəm...

Əziz ondan aralandı, nə edəcəyini bilmirdi. Kəndin işğalı ilə barışa bilərdi, lakin bu əclafın Qaraxanın ailəsi üçün düşündüyü plan... "Bəs Qaraxanın ailəsini buradan necə qurtarmaq, bunlardan necə qorumaq? Özün kömək ol, ya Rəbbim." Bu fikirlər bir anlıq ağlından keçdi. Əslində Əziz Qaraxanın alacağı qisasdan qorxurdu. "Bunlar-

dan birtəhər qurtarmaq olar, Qaraxandan isə çətin." Dərhal da Armenakın sərt üzü gözlərinin önündə canlandı. "Bu namussuz heç sovet dövründə kimsədən çəkinməz, qorxmazdı. Qaldı indiki dərəbəylik dövrünə. Ya Rəbbim özün qoru məni," deyə fikrindən keçirdi.

Hava artıq işıqlanırdı, quldurlar camaatın hamısını bir yerə yığırdılar, Armenak dərənin o biri tərəfində dayanıb əsirlərə baxırdı. Əziz onlara fikir vermədən Malxazyanın əmrini yerinə yetirmək üçün Sitarəgili axtarmağa başladı. Quldurlardan biri avtomatın qundağı ilə onu əsirlərə tərəf itələdi. Əziz müqavimət göstərmək istədi, başqa bir quldur silahın qundağı ilə onun kürəyindən vurdu. Əzizin ayağı daşa ilişib üzü üstə yerə sərildi. Durmaq istəyərkən quldur silahını ayağa çəkib üzünə qaldırdı. Bu zaman Armenakın səsi dərədə əks-səda verdi.

– Ona dəyməyin, o bizimkidir.

Quldur silahını aşağı saldı, Əziz ayağa qalxıb sıyrılmış əllərinə baxdı, üstünü çırpıb qızlarını və kiçik Abbası qucaqlayıb dayanan Sitarəyə tərəf getdi.

– Bacı, narahat olma, sizi burdan çıxaracam.

Sitarə bayaqdan uşaqların paltarlarını yığdığı çantanın içində hazır vəziyyətə gətirdiyi naqanı çıxarıb Əzizin alnına dirədi.

– Sən bizi qurtaracaqsan, satqın köpəy oğlu!?

Əzizin gözləri böyüdü, nəsə demək istədi, lakin gec idi. Sitarə tətiyi sıxdı, güllələr Əzizin alnını deşib keçdi. Kimsədən səs çıxmadı, hamı sakitliklə bu səhnəni izləyirdi. Səsə diksinən quldurlar silahını Sitarəyə tuşladı. Armenak sağ əlini yuxarı qaldırıb sakitlik işarəsi verdi, heç nə olmayıbmış kimi asta addımlarla Əzizin yıxıldığı yerə gəldi, əyilib diqqətlə onun üzünə baxdı. Əzizin gözləri bərələ

qalmışdı. Başının arxası darmadağın idi. Qəddini düzəldib ayağı ilə meyiti yarğandan aşağı itələdi. Geri döndü, hələ də əlindəki silahı sıxıb saxlayan qadını süzdü. Sitarə gözlərini yumub silahı bərk-bərk sıxıb dayanmışdı, bəlkə heç nəfəs də almırdı. Armenak onun əlindəki silahın lüləsindən tutub sakitcə götürdü, silaha baxa-baxa yenidən dərənin o biri tərəfinə, əvvəlcə dayandığı yerə getdi.

– Hamını bir yerə yığın, çantalarını və üstlərini yoxlayın, böyüklərin əllərini arxada bağlayın. Yaşlıları və uşaqları ayırıb dərənin o biri tərəfinə keçirin.

Quldurlar işə başladı, əksəriyyəti qadın və uşaqlardan olan əsirləri bir yerə yığıb əllərini bağladılar, üstlərini yoxlamağa başladılar. Bu bir dəhşət idi. Sitarəyə növbə çatanda hələ də əlindəki naqana vurğunluqla baxan Armenakın səsi eşidildi.

– Onlara toxunmayın.

Sonra naqanı kürkün altından belinə bağladığı kəmərə keçirdi. Az sonra maşınlar gəldi. Armenakın göstərişi ilə körpələri və yaşlıları bir maşına, qadınları digər maşınlara yığıb apardılar. Abbası da Sitarənin əlindən zorla aldılar. Sitarə Abbası bir daha görmədi. Ürəyi param-parça idi. "Məni bağışla Qara, dediyini yerinə yetirə bilmədim, o şərəfsizin ölməsi daha vacib idi," deyə düşündü. Kənd işğal olunsa da, təkcə təsəllisi Qaraxanın hələ də sağ olması idi. İnanırdı ki, Qaraxan heç kimin gözləmədiyi bir anda gələcək və onları əsirlikdən xilas edəcək.

Elə həmin gün onları Şuşa türməsinə, ertəsi gün isə beynəlxalq qurumlardan gizlətmək üçün başqa bir maşınla Əsgərana gətirdilər. Burada isə Sitarəni və iki qızını hamıdan ayırıb donuz fermasına gətirdilər. Ən böyük faciə də elə burada baş verdi.

## VIII fəsil

Əsgəranda rus zabitinin iştirakı ilə Kamonun yanına ilk sorğuya aparılandan sonra hər şeyin bitdiyini, daha Qaraxanın da yetişə bilməyəcəyini anladı Sitarə. Anladı ki, Qaraxan naqanı əbəs yerə verməmişdi ona, söz xatirinə deməmişdi ki, "Burda cəmi üç patron var, çalışın əsir düşməyin. Görsən ki, başqa bir yol yoxdur, qızları və özünü güllələ. Abbasla işin olmasın." Sitarə inanırdı ki, əgər dörd patron olsaydı Abbası da deyəcəkdi Qaraxan.

Armenak kimi, Kamo kimi, Əziz kimi namussuzların nəyə qadir olduqlarını indi anladı, Suren kimi bacısının tumanının altında gizlənən şərəfsizlərin əsir qadınlara necə zülm etdiyini qulaqları ilə eşitdi. Onların başına gətirilən oyunlar Sitarəni və qızlarını da gözləyirdi. Qapıdan təcridxanaya daxil olan kimi onları gətirən əsgər həyasızlıqla dedi:

– Bu gecəni birtəhər burda keçirin, sabahdan daha bura gəlməzsiniz. Gecələriniz bir-birindən maraqlı olacax. Görünür rəisin sizdən çox xoşu gəlip, ona görə bərk-bərk tapşırıp ki, sizə toxunmayax. Tapşırmasaydı sizi heç indi də bu zibilxanaya salmazdıx. Bu balaca gözəli özüm aparardım. Hi-hi-hi.

Içəridə bir az quru yer tapdılar. Iradə və Sara hərəsi bir tərəfdən onu qucaqlayıb ağlayırdılar. Sitarə nə edəcəyini bilmirdi. Artıq düşünmə qabiliyyətini itirmişdi. Kim bilir sabah bu körpələri nə gözləyirdi? Iradə anasından ayrılıb bağlanmış iplərdən birini açdı, yenidən yerinə qayıdıb Sara eşitməsin deyə anasının qulağına pıçıldadı.

– Ana, sənə qurban olum, bilirəm sənin üçün çətindir, amma başqa əlacımız yoxdur, Sara balacadır, ona toxunmazlar... – Iradə fikrini çatdırmağa çətinlik cəkirdi.

Sitarə onun nə dediyini başa düşmədi.

– Nə deyirsən qız, bərkdən danış. Onsuz da qulaqlarım eşitmir.

Iradə qaranlıqda kəndiri anasına verdi.

– Ana! Kəndirlə məni boğ.

– Nə!? – Sitarə az qala qışqıracaqdı, – Övlad qatili olum? Abbası itirmişəm, sinəm dağlanıb, sizi itirsəm, necə olaram, qız!?

– Bu gün bunu etməsən, sabah gec olacaq, ana. Onsuz da öldürəcəklər, düşmən əlində ləkələnib ölməkdənsə, təmiz ölmək daha yaxşıdır.

Sitarə qızlarını bərk-bərk özünə sıxdı. Göz yaşları selə dönüb axdı. Sara anasına daha da sığındı.

– Ana, mən ölmək istəmirəm, məni öldürmə, ana!... Atam gələcək, o, mütləq gələcək ana.

İradə kəndiri boğazına keçirmişdi.

– Ana, vaxt keçir, kəndiri dart, boğ məni.

Sitarə ağlayaraq onu daha da özünə tərəf sıxdı, göz yaşlarını silmək üçün əlini yanaqlarına çəkdi. İradə ağlamırdı.

– Bacarmaram, mənim balam. Bir də ki, harda olsa atanız gələcək.

– Ana, məni qaldır, kəndirin ucunu taxtaya bağlayım, sonra məni burax. Sənə qurban olum ana, məni eşit. Sabah onlar sənin gözlərin önündə başımıza oyun açacaqlar. O zaman sənin də əlindən heç nə gəlməyəcək...

Sitarə sanki yuxudan ayıldı, eşitdikləri əks-səda verib

qulaqlarında təkrar-təkrar cingildədi, qəlbini daşa döndərdi. İradə  kiçik olmasına baxmayaraq düz deyirdi. Bir azdan hava işıqlaşacaq, onların həyatına isə qaranlıq, zülmət çökəcəkdi. Analı, balalı iyrənc ermənilərin əllərində oyuncağa dönəcəkdilər. “Yox, Qaraxanın ailəsi kimlərinsə əllərində oyuncaq ola bilməz.” Analıq hisslərini qəlbində basdırdı. Kəndiri götürüb ayağa qalxdı, tavana əli çatmırdı. İradəni qaldırdı, qız kəndiri tavanda olan pərdiyə bağladı.

– Bir kəndir də gətir, qızım.

Kəndirlər hazır olandan sonra Saranın yanına gəldi, qız şirin-şirin yatırdı. “Yazıq balam,” deyə düşündü. Qucağına alıb damdan sallanan kəndirin altına gətirdi. Gücü çatdıqca onu bağrına basdı, nəfəs dolusu körpə balasının ətrini ciyərlərinə çəkdi. Huşunu itirmək vəziyyətində idi, hönkürüb ağlamaq istəyirdi. Sabah baş verəcək rüsvayçılıq yenidən gözləri önündə canlandı, hər şeyi unutdu, ürəyinin yerində sanki bir daş parçası idi. Saranı son dəfə bağrına basıb yuxarı qaldırdı, düyünlü həlqəni boynuna keçirib buraxdı. Sonra İradəni yuxarı qaldırdı. İradə özü kəndiri boğazına keçirdi. Sitarə ayaq üstə dayana bilmədi, çirkli döşəmənin üstünə uzanıb hönkürdü. Zaman-zaman varlığını bürüyən, boğazında düyünlənib qalan qəhər vulkan kimi püskürdü. İndi növbə onun idi. Nə qədər çalışsa da ayağa qalxa bilmirdi, etdiyi hərəkət bütün orqanlarını şoka salmışdı, beyni isə sürətlə, həm də saat dəqiqliyi ilə işləyirdi. Sabah nə edəcəyini qərarlaşdırdı. Nə olursa-olsun bədənini beyninə, ağlına tabe etdirməli idi, əks halda düşündüklərini yerinə yetirə bilməyəcəkdi.

Bu vəziyyətdə nə qədər qaldığından xəbəri yox idi. Ar-

tıq səhər açılırdı. Bayırda isə hələ də yağış yağırdı.

Səhərin alatoranlığında Sitarə başını qaldırıb yuxarı baxdı. Qızlar sanki yelləncəkdə idilər, elə bil bir cüt ağ göyərçin havada süzürdü. Daha ağlaya da bilmirdi, sanki göz yaşları qurumuşdu.

***

Gecədən yağmağa başlayan yağış hələ də yağırdı. Bu yerlərdə belə yağışa "qara yağış" deyirlər. Bəlkə də dünyanın heç bir yerində yağışın buna bənzər növü yoxdur, təkcə Qarabağda yağır belə yağışlar.

Qara yağışın nə zaman yağacağı bəlli olmaz, ilin istənilən fəslində yağa bilər. Heç bir şeyə faydası olmaz bu yağışın. Əksinə çox yağarsa təbiətdə olan içməli suyun miqdarı aşağı düşər, əkin-biçin məhv olar, yaşıllıqlar azalar, torpaq erroziyaya məruz qalar, bir sözlə yerin bərəkətini götürər bu yağış. Deyirlər qara yağış özü ilə qara yel də gətirər. Qara yağışla qara yel birləşib qarşılarına keçən hər şeyi yandırıb qapqara qaraldar. Bəlkə də, yağışın və küləyin "Qara" adlanması da məhz bundan irəli gəlir.

Asim həyətdəki səs-küyə oyandı. Ayağa qalxmaq istədi, lakin dünənki döyülmədən sonra bütün əzaları sızıldayırdı. Səhərə kimi huşsuz halda yaş beton döşəmənin üstünə sərilib qalmışdı. Gecə bir neçə dəfə özünə gəlsə də yerindən tərpənməyə çalışsa da gücü çatmadı, yenidən huşunu itirib səhəri gözlədi. Səhər bayırda qopan səs-küyün nə olduğunu öyrənmək marağı daha üstün oldu. Bütün gücünü toplayıb üzü üstə döndü. Sürünərək kiçik, şüşəsiz pəncərənin önünə gəldi. Divardan tutub yuxarı qalxdı.

Əsgərlərin və nəzarətçilərin təlaş içində yağışın altında ora-bura qaçdıqlarını gördü. Həyətin ortasındakı meydançada qarışmış saçları üzünə dağılan Sitarə dayanmışdı. Əynindəki çirkaba bulaşmış ağ paltarı yağışdan islanıb bədəninə yapışmışdı. Çirkli və islanmış nazik geyiminin altından qabarmış əzaları görkəmli bir heykəltaraşın böyük bacarıqla yonub hazırladığı möhtəşəm əsərinə bənzədirdi onu. Qadın qranitdən yonulmuş heykəli xatırladırdı, həyətin ortasında hərəkətsiz halda dayanmışdı.

Az sonra donuzu xatırladan Kamo gəldi. Nəzarətçilərin əhatəsində tez-tez Sitarəyə baxaraq qızların asıldığı yerə yaxınlaşdı. Lakin qorxudan içəri keçmədi. Bir müddət qapıda dayandı, dönüb düşdüyü pilləkənlərlə meydançaya çıxdı. Dünən Malxazyanın onun yanına gələndə dediyi sözləri xatırladı, sifətindəki ifadə gözləri önündə canlandı.

– Kamo, bunlara toxunanın əlini yox başını kəsərəm. Anladın?...

Kamo həyasızca qımışıb dişlərini ağartdı. Malxazyan ayağa qalxdı kitelin yaxalığından tutub onu da oturduğu yerdən qaldırdı.

– Onlara toxunsan səni dörd parça edib hər tikəni Böyük Hayastanın bir tərəfinə ataram. Anladın, kopay oğlu!?...

Üzündəki sərt və dəhşətli ifadədən Kamonun nitqi tutuldu, başının hərəkəti ilə anladığını bildirdi. İndi Sitarəni görəndə həmin dəhşətli anı xatırlamışdı, qorxu və həyəcandan əsməyə başladı.

– Onu aparın, onu rədd eləyin, o qadın deyil, dişi canavardır. Bunlar hamısı vəhşidirlər, qurddan törəyiblər.

Nəzarətçilər qızların asıldığı kameradan yenicə çıxırdı-

lar. Hamı gərgin vəziyyətdə idi. Ananın iki doğma balasını necə asması onları keyləşdirmişdi. Bir yandan da Kamo kimi əzazil bir adamın əmrinin yerinə yetirilməməsi nəzarətçiləri və əsgərləri çətin vəziyyətə salmışdı.

Bu zaman heç kimin gözləmədiyi bir hadisə baş verdi. Qadın Kamonu gözləyirmiş kimi onun səsinə döndü. Vəhşi bir çığırtı ilə onun üstünə şığıdı. Qorxudan nə edəcəyini bilməyən Kamo geriyə dönüb qaçmaq istədi. Lakin gözlərini qan örtmüş qadın ona macal vermədi. Arxadan başından tutub bütün gücü ilə özünə tərəf çəkdi. Kamo nə edəcəyini bilmədən çırpınırdı. Nəzarətçilər və silahlı əsgərlər çaşıb qalmışdılar. Sitarə iti dırnaqlarını onun ətli və toppuş sifətinə batırıb bütün gücü ilə özünə tərəf çəkdi. Sifətini qan bürüyən Kamo dəli inək kimi qaçır, özünü hara gəldi çırpırdı. Qadın onu buraxdı, bir anlıq dayandı, sonra ovunu qaçırmış pələng kimi qəzəblə hələ də bu səhnəni seyr edən nəzarətçilərin üstünə hücum etdi. Nəzarətçilər qorxudan pərən-pərən düşdülər. Avtomat şaqqıldadı, güllələr onun sinəsinə sancıldı, qadın arxası üstə beton döşəmənin üstünə düşdü. Suren cəld divarın dibində yıxılıb qalan, dəli kimi bağıran Kamonun yanına qaçdı.

– Kamocan, biz onu öldürdük, güllələdik onu...

– Həkim, həkim... Məni həkimə aparın. Vax, vax, vax... Gözlərim...

Sifəti qan içində idi, qolundan tutub qaldırdılar, həkimin otağı yerləşən binaya tərəf apardılar, kiçik meydançaya sükut çökdü. Meydançanın tən ortasında Sitarənin həyat və ölüm arasında çabalayan bədəni qaldı, sinəsindən axan qan qara yağışa qarışıb meydançanın tən ortasında qırmızı qan gölməçəsi yaradırdı. Bədənini dəlib deşən

güllələrin yanğısı onu geriyə, Qaraxanla yaşadığı qayğısız illərə qaytardı. Son nəfəsində də "Qa-ra, har-da-san!?" deyərək fəryad etmək istədi, ağzını bir neçə dəfə açıb yumdu, gücü qalmadığı üçün səsi çıxmadı. Ömür yolu bir neçə saniyədə kino lentinə dönüb gözləri önündə canlandı.

Bu səhnəni seyr edən Asim hönkürdü, başını əlləri arasına alıb heyrətlə pıçıldadı.

– Qeyrətinə qurban olum, bacı, sənin qədər də ola bilmədik...

Bu insanlığın son həddi idi. Bundan o tərəfdə keçilməz sədd, insanlığı məhvə aparan sonu görünməyən dərin bir yarğan var idi. Zaman keçdikcə bu yarğan daha da dərinləşir və böyüyürdü.

Qara yağış isə elə bil bir-birinə düşmən kəsilən insanların etdikləri pis əməlləri təmizləmək üçün hələ də yağırdı...

## IX fəsil

Yamyaşıl xalı kimi meşələrin qoynuna aldığı bir kənd vardı. Bir-birinə söykənən, başı buludlara dirənən uca dağların yamaclarında yerləşirdi bu kənd. İki çay qovuşurdu bu kənddə, bol suyu, bol balığı ilə məşhur olan Həkəri və Zabux çayı...

Mehriban, qonaqpərvər camaatı ayrı bir gözəllik qatırdı təbiətin bu gözəl mənzərəsinə. Əhalinin məşğuliyyəti əkinçilik və maldarlıq idi. Bu dağların qoynunda yaşayanlar mərd, məğrur camaat idi. Hündürboy cəsur oğlanları, almayanaq gözəl qızları vardı bu mahalın. Elə bil dağ-

lar qürurunu, təbiət gözəlliyini bu əhalidən alırdı. İnsan doğulduğu torpağın, su içdiyi bulaqların məhsuludur.

Sitarə bu kənddə göz açmışdı dünyaya, bu kənddə böyüyüb boya-başa çatmışdı, orta məktəbi bu kənddə bitirmişdi, bu kənddə sevmişdi, sevilmişdi. Bu kənd onun üçün həyatının mənası, ömrünün bir parçası idi. Yayı isti, qışı qarlı, soyuq olardı. Yazı, payızı yağışlı, çiskinli olurdu bu kəndin. Bağları barlı-bəhərli, çəmənləri güllü-çiçəkli olurdu. Yaradan hər şeyi bol və gözəl yaratmışdı bu kənddə, təkcə qonşunu pis, xəbis vermişdi. Bu da onun hikmətlərindən biri idi.

Dağın qərb tərəfində çox fitnəkar camaatı olan erməni kəndi yerləşirdi. Tez-tez qonşu Azərbaycan kəndlərinin mal-qarasını oğurlayır, taxıl və otlaq sahələrini yandırırdılar. Münaqişəni özləri üçün sevimli peşə sayan ermənilər üzdə özlərini dost kimi göstərir, arxada isə məkrli əməllərindən əl çəkmirdilər. Qonşu Azərbaycan kəndlərinə gedən yollarda tez-tez soyğunçuluq hadisələri olur, otlaq sahələrindən mal-qara oğurlanıb aparılırdı. Qəribəsi bu idi ki, bütün bunlar hüquq mühafizə orqanlarının gözü qarşısında baş verirdi...

Sitarənin indiki kimi yadında idi. On-on bir yaşı olardı. Kəndlərində Abbas adlı dəli-dolu bir oğlan var idi. Uzaqdan qohumları sayılırdı. Abbas bütün ətraf kəndlərdə sayılıb seçilən cavanlardan idi. Bir gün ermənilərdən üç nəfərini kəndin taxıl sahəsini yandırdıqlarına görə əllərini bağlayıb kəndin ortasında yerləşən kolxoz idarəsinə gətirmişdi. Axşam erməni kəndinin "ağsaqqalları" yığılıb gəldilər, yalvarıb-yaxarandan sonra adamlarını götürüb getdilər.

Lakin təxribatlar dayanmadı, daha da artdı. Abbas da dayanmadı, onu bir neçə dəfə rayon milisləri çağırıb tənbeh etsələr də, öz bildiyini etdi. Bu minvalla iyirmi ilə qədər Abbas və onun kiçik "dəstəsi" ermənilərin hətta dövlət orqanlarında müdafiə olunan təxribatçı quldur dəstəsi ilə mübarizə apardı. Kəndin işğalından bir neçə il öncə onun doğranmış cəsədini yol kənarındakı tarladan tapdılar. Milis və prakratura orqanları cinayət işi açsalar da işi sona çatdıra bilmədilər. Günahkarlar məlum olsa da cəzasız qaldılar. İndi onlar yerli və beynəlxaq qanunlara tabe olmayan, heç bir şərtlə ipə-sapa yatmayan terrorçu bir "dövlət"in vətəndaşları idilər.

Qaraxan Abbasla çox yaxın idi. Bir neçə il öncə BDU-nin tarix fakültəsini bitirib kəndə qayıtmışdı. Kəndin orta məktəbində tarix müəllimi işləyirdi. Azərbaycan və dünya tarixini yaxşı bilirdi. Dağılan Sovet imperiyasının fonunda hələ çox qanlar axacağını anlayırdı. Abbasın ölümündən sonra kəndin ağsaqqalları kiçik dəstəyə rəhbərlik etməyi ona həvalə etdilər. Bu kiçik dəstə Abbasın vaxtında olduğu kimi erməni quldurlarının kəndə basqınlarının qarşısını alır, əhalinin rahatlığını, mülkiyyətinin və örüşlərinin təhlükəsizliyini təmin edirdi.

Qaraxan Abbasın ölümündən sonra doğulan oğluna dostunun adını qoydu.

Sitarənin otuz beş yaşı olanda artıq sərhəd boyu özünümüdafiə dəstələri dayanırdı. İndi kəndin bütün kişiləri növbə ilə gecələr silahlı, silahsız olsalar belə, erməni kəndi ilə sərhəddə dayanırdılar. Qardaşı da həyat yoldaşı və əmisi uşaqları ilə birlikdə ermənilərlə sərhəddə, "Kömür basdırılan" örüşündə keşik çəkirdilər. İlk günlər kəndi qo-

rumaq məqsədi ilə yalnız gecələr bu örüşə gəlirdilər, lakin getdikcə vəziyyət gərginləşdi və kənd camaatı səngər qazıb gecə-gündüz keşik çəkməyə məcbur oldular. Zaman keçdikcə vəziyyət daha da gərginləşdi. Tez bir zamanda ruslar və farslar tərəfindən müasir silahlarla təzhiz olunan ermənilər daha da quduzlaşdılar. Artıq düşmən toplarla, zirehli texnikalarla, minaatanlarla, raketlərlə kəndləri atəşə tuturdular.

Belə günlərin birində Sitarə qardaşını, iki əmisi oğlunu və qaynını itirdi. Müharibənin ilk acısını daddı. İndi kənddə onların yaxınlarının yalnız məzarları var idi. Kəndlərində qəhrəmanlığı ilə seçilən cavanların çoxu əlil arabasına möhtac idi. Düşmən artıq nizami ordu ilə onların kiçik özünümüdafiə dəstəsinin üstünə gəlirdi. Günbəgün vəziyyət ağırlaşırdı. Ayrı-ayrı şəhər və rayonlardan könüllülər gəlsə də nə fayda, silah və sursat yox idi. Ov tüfəngləri ilə təpədən dırnağa qədər silahlanmış arxalı köpəyin – düşmənin qarşısında dayanmaq mümkün deyildi.

1992-ci il onun və onunla bərabər kənddə qalan bütün əhalinin həyatına qara xətt çəkdi. Sanki dəhşətli bir yuxu idi. Görənlərin bəziləri ölüb canlarını qurtardılar, bəziləri isə ya əsir kimi, ya da qaçqın kimi bir ömür ruhi sarsıntı içində yaşadılar.

***

Axşamüstü Qaraxan çox yorğun halda evə gəldi. Silahını pəncərənin qarşısına qoyub elə pəncərənin qarşısında da oturdu. Qızları və  beş yaşlı oğlu hərəsi bir tərəfində dayandı. Sitarə evin ortasında dayanıb sual dolu gözlərini

ərinin üzünə dikmişdi. Sanki onun pis xəbərlə gəldiyini hiss etmişdi, lakin uşaqlar macal vermir, Qaraxan da xəbəri deməyə tələsmirdi. Balaca Abbas bacılarını kənara itələyib özünə yer edərək atasının qarşısında dayandı.

– Ata, gedəndə məni də özünlə apar. O silahdan bir az balacasını, yüngülünü mənə ver ki, düşmənləri qırım. Axı onlar mənim dayımı, əmimi öldürüblər...

Qaraxan oğlunun saçlarını qarışdırdı.

– Bu dəfə yox, söz verirəm ki, bir gün səni də özümlə aparacam. Hələlik mən evdə olmadıqca sənsən evin kişisi, bacılarından və anandan muğayat ol, onları qoru. Razılaşdıq?...

Balaca Abbas başını yırğalayıb atası ilə razılaşdığını bildirdi. Yalnız bundan sonra evin ortasında dayanan Sitarəyə tərəf döndü, sakit səslə dedi:

– Yola hazırlaş, uşaqlar üçün pal-paltar, bir az da yemək götür. Ola bilər ki, yolda gecələyəsiniz, uşaqlara soyuq olmasın. Bizim uşaqlar sizi Cəbrayıla kimi aparacaqlar.

– Başa düşmədim, sən bizimlə getmirsən ki?... Bu körpələrlə məni tək buraxırsan? Qara...

– Sitarə, sən tək deyisən. Bütün kənd, bütün rayon eyni dərddədir.

– Kim qalıb ki, kənddə, bu boyda kəndi yığsan iyirmi-otuz nəfər olar, ya olmaz...

– Hər neçə nəfərdir.., bu axşam hamı çıxmalıdır, mövqedə olanlardan başqa.

– Sənsiz bir addım da qırağa qoymaram. Gedək bir yerdə, ölsək də, qalsaq da bir yerdə olaq. Qurban olum Qara, məni üç körpə uşaqla çöllərə salma...

Qaraxan onun yalvarışlarına baxmayıb səsini qaldırdı.

– Sitarə...

Bu günə qədər Qaraxan səsini onun üstünə qaldırmamışdı. Bu günə qədər belə bir vəziyyət də olmamışdı. İndi olum və ölüm məsələsi idi. Kəndi də müdafiəsiz qoymaq olmazdı. Bu kəndsiz, bu torpaqsız, elsiz, elatsız yaşamaq yoxdur onlara. Qaraxanın fikri ciddi idi, görünür vəziyyət belə tələb edirdi. Sitarə səsini çıxarmasa da, için-için ağladı, göz yaşlarını gizlədə bilmədi. Göz yaşları içində lazım olan əşyaları qablaşdırmağa başladı. Az sonra Sitarə üç uşaqla kənddə qalanlarla birlikdə Həkəri körpüsünün yanından meşəyə üz tutdular. Qaraxan son dəfə qızlarını bağrına basdı, Abbası qucağına aldı.

– Möhkəm ol, sən əsl kişisən... – daha danışa bilmədi.

Gedənlərin sonuncu adamı meşədə gözdən itənə kimi dayandığı yerdən tərpənmədi, sanki daşdan yonulmuş heykəl idi. Sitarənin yaddaşında da belə qaldı Qaraxan, Həkərinin sağ sahilində körpünün sahilə birləşdiyi yerdə daşdan yonulmuş heykəl kimi. "Müharibə onun qəlbini daş kimi möhkəm buz kimi soyuq etdi. Belə olmasaydı, Qara nə məni, nə qızları İradəni və Saranı, nə də çox sevdiyi Abbası heç zaman tək buraxmazdı" deyə düşündü Sitarə.

***

Qaraxan Sitarəyə əvvəllər də uşaqlarla birlikdə İmişlidəki tələbə yoldaşıgilə getməsini demişdi, lakin Sitarə onun sözünü ciddiyə almamışdı.

– Qara, bu dünyada heç kim özbaşına deyil. Deyirsən indi bir ovuc erməni bizi qırıb batıracaq?...

– Nə bilim ay qız!... Hamı danışır, deyirlər ki, arvad uşağı çıxarmaq lazımdır.

– Hamı özüyçün deyir, sabah hər şey qaydasına düşəndən sonra bu torpağın üstündə necə gəzəcəklər, belə deyənlər?... Öləndə onları torpaq qəbul edəcək?... Bir də ki, sənsiz bir addım da kənara atmaram, Qara.

Aralarındakı söhbət beləcə bitmişdi. O zaman Qaraxan Sitarənin heç yerə getməyəcəyini bildiyi üçün susmuşdu, əslində ailəsinin harasa getməyi özünün də ürəyindən deyildi. Üzdə olmasa da, daxilən kəndi tərk edənləri qınayırdı. Hadisələrin belə inkişaf edəcəyini heç təsəvvürünə də gətirmirdi. Bu gün baş verən hadisələrin fonunda nəyinsə haqqında düşünmək, sabahkı gün üçün proqnoz vermək mümkün deyildi.

Tarixən rus, erməni və farsların yüz illər ərzində kütləvi cinayətlər, soyqırımlar törətmələrinə baxmayaraq unutqanlığımız sayəsində yenidən yaxınlaşmışıq. Sanki heç nə olmayıbmış kimi bağışlamışıq. “Yaradan bizə hər şeyi bol verib, bir də daxildə və xaricdə bizə belə mənfur düşmənlər verib ki, bir-birimizin qədrini bilək, bir-birimizə xor baxmayaq. Allahın bizə doğru uzatdığı ipdən tutaraq ona şükür edək. Şükür edək ki, bizi onlar kimi paxıl və xain yaratmayıb. Şükür edək ki, dünyanın ən gözəl guşəsində yerləşdirib bizi. Qəlbimizi geniş, ruhumuzu sərhədsiz edib. Bir də bizə bərəkətli torpaq bəxş edib. Bu torpağı qoruyaq, onun qədrini bilək. Babalarımızın bizə miras qoyduğu kimi gələcək nəsillərimizə çatdıraq.” deyə düşündü. Dərhal qeyri-iradi olaraq əllərini göyə açıb şükür etdi. Lakin son günlər nədənsə özünü narahat hiss edirdi.

Dostu Abbasın ölümündən sonra kəndin ağsaqqalları kiçik dəstəyə rəhbərlik etməyi ona həvalə etdilər. Abbas və kiçik dəstəsi erməni quldurlarının kəndə basqınlarının qarşısını alır, əhalinin rahatlığını, mülkiyyətinin, mal-qarasının və örüşlərinin təhlükəsizliyini təmin edirdi.

Az sonra Sovet İttifaqı dağıldı və Qaraxan kəndin özünümüdafiə dəstəsinə komandir təyin olundu. İndi məsuliyyəti daha da artmışdı, kəndin müdafiəsi ondan asılı idi.

Qonşu Dığ kəndində Karapet adlı yaşlı bir kişi vardı, Dığın və ətraf kəndlərin ağsaqqalı sayılırdı. Ağıllı, uzaqgörən, dünyanın gəlişindən, gedişindən baş çıxardan adam idi. Əvvəllər kənd camaatı onu eşidirdi. Sovet hökuməti dağılandan sonra Dığdakı Karapetin ağsaqqallığı da darmadağın oldu. Artıq bu kəndlərdə onu eşidən yox idi. Sovet rejiminin dağılması sanki bu mahala daha çox təsir etdi. Dığlılar kiçik dəstələrlə qəfəsdən azad olan vəhşi heyvanlar kimi ətraf müsəlman kəndlərinə hücuma başladılar. Həm də həmkəndliləri arasında bu işə mane olanları da cəzasız qoymadılar.

1989-cu ilin fevral ayında Dığ kəndindən altı nəfər əli silahlı quldur, kəndin örüş yeri olan Qızılqaya və Qaraqayadan qoyun sürülərini yığıb Dığa və Gorunzur kəndinə tərəf aparan zaman kənd camaatı ilə toqquşma oldu. Bu zaman Qaraxanın ora təsadüfən gəlişi hər şeyi dəyişdi. Lopabığ erməni mal-qaranın onların olduğunu və dünəndən keçib burada otladığını iddia edərək geri çəkilmək fikrində deyildi. Qaraxan camaatı sakitləşdirib erməniyə yaxınlaşdı.

– Ayə, Mixan, bu sənsən!? Öz kəndləriniz sizə bəs eləmədi, indi də cumdunuz müsəlman kəndlərinə? Deyir-

sən bu heyvanlar sizindir?...

Mixan Qaraxanı uzaqdan gələndə tanıdığı üçün kürkünə bit düşmüşdü, nə edəcəyini bilmirdi.

– Bali, bizimdir. Dünən axşam keçip siz tərəfə və qayıtmayıp.

– Yaxşı, səninlə razıyam. Bu heyvanların sizin olduğunu necə sübut edə bilərsən?

Vəziyyətin getdikcə gərginləşdiyini görən erməni özü ilə gələnləri şahid kimi göstərdi.

– Kirvə, mən heyvanlarımı tanıyıram, bunlar da ki, Allah şahididirlər. Ara duz demiram, eli?...

Bir az aralıda dayanan ermənilər onun dediklərini təsdiqlədilər. Qaraxan gülə-gülə Mixana yüngül bir şapalaq vurdu və əlindəki qoşalülə tüfəngini dartıb aldı.

– Ayə, erməni! Məni dolamısan, nə vaxtdan Allaha iman gətirmisiz!? Yoxsa bizi avam sayırsan?... Oğurluğa gətirdiyin gədələri şahid tutursan özünə?... Onlar da canı dildən sənin dediklərini təsdiqləyir. Hardan öyrənmisiz bu biclikləri? Yoxsa bizi o qədər avam və sadəlöv sayırsız?... – Yaxasından tutub geri itələdi, ciddiləşdi. – Nə qədər ki, əl bulamamışam sizə, küçüklərini də götür itil burdan.

Dığlı erməni özünü itirdi, üstünü düzəldə-düzəldə dedi:

– Get deyirsən gedim da.., amma vallah bu heyvanlar bizimdir, mən səni aldatmıram, ha... İstəyirsən onları sənə peşkəş eləyim, ha?...

– Ayə, sən nə həyasız adamsan. Gündüz günorta çağı camaatın malını örüşdən aparırsan, hələ həyasızlıq edib deyirsən ki, "Vallah bu heyvanlar bizimdir."

– Heç nə... Tüfəngimi ver, biz gedax.

Qaraxan ermənidən aldığı tüfəngi çiyninə aşırdı, üzünü o biri ermənilərə tutdu.

– Hamınız tüfəngləri yerə qoyun, heç yerə də getmirsiniz. Hava qaralanda heyvanlar sizə tərəf getsə, deməli sizindir, tüfənglərinizi qaytarıb sizi yola salacam. Yox əgər heyvanlar bu camaatın həyətlərinə getsə.., görüm onda nə deyəcəksiniz?...

Ermənilər vəziyyətin ciddiləşdiyini başa düşdülər, Qaraxan onlar üçün arzu olunmayan adam idi. Nə qədər ki, Qaraxan sağ idi, ermənilərə bu kəndlərdə yer yox idi. Lakin onlar silahlarını yerə atmaq istəmirdilər, kənd camaatının əhatəsində olduqlarını və üstəlik də Qaraxanın qarşılarında olduğunu düşünüb əlacsız qaldılar. Lopabığ Qaraxana yaxınlaşıb ətrafdakıların eşidə bilməyəcəyi tərzdə dedi:

– Silahlarımızı ver, bizi burax gedax, mal-qara qalsın sana, kirva. Istəsən bu, beş nəfərin hərəsinə görə də pul verərik sana. Nə deyirsən, ha?..

– Yox Mixan, məndən sənə kirvə olmaz. Əgər heyvanlar siz tərəfə getməsə, işin fırıqdır. Mənə verəcəyin pulları xərcləməyə də vaxtın olmayacaq. Başa düşdün?

– İşim niyə pırıq olur, Qaracan!? Beş-üç qotur davara gora bizi öldürmayacaxsan ki?...

– Söhbət davarda deyil, Mixan. Bu küçükləri yığıb başına son zamanlar yaman at oynadırsan bu ətrafda. Elə bilirsən qulağıma çatmır? Hamısından xəbərim var. Təkcə sən olsaydın, nə vardı ki?... Bütün erməni cavanlarının beyinlərini zəhərləmisiz, hamınız bizi düşmən kimi görürsüz. Bu qədər torpaq vermişik sizə, dövlət də qurdunuz bizim torpaqlarda, bəs deyil?... Bir ovuc ermənisiz də. Niyə dinc

dayanmırsız? Böyük Hayastan iddiasındasız... Yazıqlar olsun sizə...

Silahlarını təhvil verən ermənilər peşman olubmuş kimi başlarını aşağı salıb dayanmışdılar. Qaraxan onların qarşısında var-gəl edib danışırdı. Mixan lopa bığlarını çeynəyə-çeynəyə ona bir az da yaxınlaşdı.

– Ara axper, çavıtdanım! Biz neyləsax da xeyri yoxdur. O yuxarıdakı "ağqulaqlar" var ha, rusları deyirəm axper, onlar imkan verməzlər ki, biz mehriban olax.

– Mixan məndən sənə axper olmaz. Çətinliyə düşən kimi axper oluruq, elə ki, çətinlikdən qurtardız, gözünüz ayağınızın altını görmür. Məkrli əməllərinizi yerinə yetirmək üçün əzizlərinizi də qurban verirsiz. Elə bilirsiz ki, baş verənlərdən xəbərsizik. O yazıq Karapetin iki oğlunu niyə öldürdüz? Sizə mane olurdu, eləmi?... Çirkin əməllərinizi, pis niyyətlərinizi həyata keçirməyə imkan vermirdi?... Sizə sərf eləmir Karapet kimilərin arxasınca getmək. Sizin kimilərə Şahnazaryan, Zori Balayan lazımdır...

İki il öncə baş verən həmin hadisəni heç kim unutmamışdı, həmin hadisədə Mixanın da əli var idi. O zaman ilk "karyera"sına yenicə başlamışdı, irəli getmək üçün əlinə düşən fürsəti qaçıra bilməzdi. Son illərdə buralarda baş verən bütün işlərə Malxazyan Armenak adlı Qarabağ ermənisi rəhbərlik edirdi.

İki il əvvəl sovetin dağıldığı zaman hadisələr daha kəskinləşdi. Gorusdan Azərbaycana məcburi köç edən bir azəri ailəsini Gorunzur kəndi yaxınlığında erməni quldurları saxlamış, bütün ailəni xüsusi qəddarlıqla öldürmüş, hətta körpələri süngüdən keçirmiş, hamilə gəlinin qarnını yararaq bətndəki körpəni çıxarmış, sonra isə hamısını

gəldikləri maşınla birlikdə yandırmışdılar. Bu dəhşətli və insanlığa layiq olmayan cinayəti rus və erməni elitaları gizlətdilər, caniləri qanun qarşısında cavab verməkdən yayındırmaqla özləri də cinayətin iştirakçısına çevrildilər. Qətli xüsusi canfəşanlıq və qəddarlıqla icra edənlərin arasında Mixan da var idi. Bu əməliyyatdan sonra Malxazyan onu irəli çəkib quldur dəstəsinə başçı təyin etdi.

Tezliklə xəbər ildırım sürəti ilə hər tərəfə yayıldı. Ermənilər qətlin azərbaycanlı sürücü tərəfindən törədildiyini dedilər. İstintaqı aparan ruslar da onların dediklərini təsdiq etdilər. Əslində sürücü erməni əsilli Roman adlı Ermənistan vətəndaşı idi və onu şərti olaraq üç il müddətinə azadlıqdan məhrum etdilər.

Kəndin ağsaqqalı Karapet elə həmin gün bir neçə ağsaqqalla qonşu azərbaycan kəndinə gəldi, tezliklə cinayətin açılacağaına və canilərin tutulub cəzalandırılacağına söz verdi. Lakin həmin gecə bir qrup quldur onun mal-qara ilə dolu tövləsini və iki ot tayasını yandırdılar. Quldurlar Karapeti yaxşı tanıyır, tədbirli və inadkar adam olduğunu bilirdilər. Evini nəzarətə götürdülər.

Gecə sakitlik olduğunu görüb Karapet iki oğlunu qonşu azəri kəndinə yola saldı. “Gedin İbrahim kişinin yanına, sizə sığınacaq versin. Nə qədər ki, buralarda sakitlik yoxdur, orada qalın. Nə zaman qayıdacağınızı xəbər verəcəm.” Ertəsi gün hər iki oğlunun cəsədini iki kəndin arasından tapdılar. Istintaqı aparan ruslardan ibarət Moskvadan gəlmiş xüsusi komissiya qətlin qisas məqsədi ilə azərbaycanlılar tərəfindən törədildiyinə qərar verdi. Əslində isə bu hadisəni də Mixanın başçılıq etdiyi quldur dəstəsi yerinə yetirmişdi.

Quldurbaşı Mixan lopa bığlarını çeynəyə-çeynəyə həmin hadisəni xatırladı, qulaqlarına kimi qızardı. Eyhamla Qaraxana dedi:

– Səndən yaxşı mustantiğ olardı, ya da keqebeşnik, – sonra astadan fikrini tamamladı.– Onları biz yox müsürmanlar öldürdü.

Qaraxan dabanı üstə fırlandı, Mixanın ətli sifətinə tutarlı bir şapalaq vurdu.

– Ayə, yaramaz koppay oğlu, yalan danışmağın bəs deyil, böhtan da atırsan?...

Mixan üzünü tutub aşağı əyildi, qəzəbdən dişi bağırsağını kəssə də gülümsədi.

– Ara, məni niyə döyürsən axı?... Moskvadan gələnlər dedilər də bunu.

Artıq axşam düşür, sürü örüşdən kəndə axışırdı. Ermənilər, xüsusən də dəstədə yeni olanlar bu anı maraqla izləyirdilər.

– Aparın bunları salın İbrahim kişinin pəyəsinə.

Mixan üsyan edirmiş kimi etiraz etdi, lakin onun etirazını kimsə eşitmədi. Ertəsi gün ermənilər tərəfdən üç nəfər nümayəndə gəldi, Mixan və onun quldur dəstəsinə zamin durdular. Kənd ağsaqqallarının xahiş və təkidi ilə Qaraxan onların buraxılmasına razılıq verdi.

Sitarənin indiyə kimi yadında idi, həmin gecə kəndin bir çox özünü ağsaqqal sayanları ürəyiyumşaqlıq edib quldurları tövlədə saxlamamağı xahiş etmək üçün Qaraxanın yanına gəlmişdilər, hətta kəndin samballı kişilərindən sayılan İbrahim və Mehralı kişini də özləri ilə gətirmişdilər.

– Qaraxan, ay oğul! kənddə boş evlər çoxdur, bəlkə hörmət xatirinə onları bu evlərdən birində yerləşdirək, nə

deyirsən?,,,

Qaraxan yerində qıvrıldı.

– Hörmət?... Bəlkə qu tükündən yorğan-döşək də sərək, ayaqlarının altına dəvə yunundan xalça ataq?... – dayanıb oturanları bir-bir hiddətlə süzdü. – Nə tez unutdunuz!?... Həmin bu dəstə, iki il əvvəl Kərbəlayı Muxtarın ailəsini tikə-tikə doğradı, adını da qoydular ki, yol haqqı barədə sürücü ilə mübahisə zəminində olub. Sürücü kim idi, atası məlum olmayan fahişə Haykanuşun oğlu Roman. Sizcə Roman Muxtarın iki cavan oğlunu və kürəkənini qətlə yetirə bilərdi?,,, Hələ Muxtarı və qalanlarını demirəm. Muxtarı hamımız tanıyırdıq, bu mahalda heç kim ondan qoçaq ola bilməzdi. Bu qaniçənlər bir nəsli yer üzündən siliblər. Biz isə onları əziz qonaq kimi qəbul etmək haqqında düşünürük.

– Axı biz erməni deyilik...

– Düşmənə qarşı qəddar olmaq lazımdır, dayılar, ən azı onların bizə nifrət etdikləri qədər. Dünyanı görə-görə gəlmisiz, bir elin ağsaqqalısız... – deyəcəyi sözlərlə kiminsə xətrinə dəyməkdən çəkinirmiş kimi bir anlıq duruxdu. Başını qaldırmadan yerə baxa-baxa aram-aram davam etdi. – Əlbəttə biz erməni deyilik, heç onlar kimi ola da bilmərik. Onlar vəhşidirlər, insanlıqdan xəbərləri yoxdur, lakin övladlarımızı öldürüb yurdlarımızı xaraba qoyurlarsa, əllərimizi sallayıb otura bilmərik. Dostumuza daha yaxın, düşmənimizə daha qəddar olmasaq, tapdaq altında qalacağıq.

Qaraxan ayağa qalxdı, belindəki naqanı tarazlayıb həyətə endi, bununla da söhbətin bitdiyinə işarə etdi.

Naqan ona dostu Abbasdan yadigar idi.

## X fəsil

İlahi, yaratdıqlarının ən alisi olan insan necə də mürəkkəb varlıqdır. "Sən bizi sevərək yaratdın. Bizə bütün yaratdıqlarından fərqli olaraq ağıl və şüur verdin və bizi yer kürəsinə hakim təyin etdin. Bizi bütün yaratdıqlarından, hətta mələklərdən də üstün yaratdın, mələkləri bizim qarşımızda baş əydirdin."

Bu insan övladına Rəbbi tərəfindən verilən ən böyük hədiyyədir. Hər bir "Adəm övladı" yaşadığı bu qısa ömürdə əməlləri ilə qazandıqları mükafat düz mütənasibdir, əməllər nə qədər gözəldirsə, qazandığı mükafat da bir o qədər dəyərlidir və ya əksinə...

İki yol ayrıcı.., bir-birindən seçilməyən, sonu bilinməyən, enişli-yoxuşlu, şirinli-acılı, illuziyalı yollar. Yolların biri işığa, digəri zülmət qaranlığa.., biri parıltısı göz qamaşdıran mərmər kimi düz, digəri isə kələ-kötürlü, tikanlı, çınqıllı dağ yolu kimi enişli-yoxuşlu.., biri Rəbbimizin sevdiyi bəndələri üçün hazırladığı əbədi diriliş və ölməzlik yeri olan cənnətə, digəri isə əbədi zülmətə məhkum olan cəhənnəmə aparır.

Doğulduğu andan kölgə kimi arxasınca gəzən ölümün nə zaman gələcəyini bilmədən bu yolların arasında dayanıb əbədi seçimini edir insan. Əslində bu seçim ona doğulduğu andan verilir. Unutqan olduğu üçün hər şey yalnız bu yol ayrıcında düşür yadına, bütün həyatı kino lenti kimi gözlərinin önünə gəlir, dünyaya gəldiyinə peşman olur insan.

Perronda dayanıb əbədi yolçuluq üçün nə zaman gələ-

cəyi məlum olmayan qatarı gözləyən sərnişinə bənzəyir insan. Çiynindəki xurcunda, yola tədarük üçün topladığı azuqə – yaxşı və pis əməlləri.., özü, bir də uzun bir yol, dönüşü olmayan əbədi həyat yolu... Kim üçünsə rahat, kim üçünsə əzablı, sonu cənnət və cəhənnəm...

"İlahi!!! Əgər sən istəsəydin mən burda olmazdım. Bu dar, şüşəsiz pəncərədə dayanıb həyatımın ən çətin və əzablı epizodunu seyr etməzdim, o gün o səngərdə ölənlərin də biri mən olardım. Nədir mənim günahım? Niyə məni seçdin?... Axı niyə mə-ə-ən?... Ən çətin anda sığındığım varlıq, Sənsən. Səbrimin tükəndiyi, ümidlərimin bitdiyi yerdə Səni axtarıram, Səni çağırıram, Səndən kömək umuram... Bəs hardasan?... Cavab ver!!! Nə olar!!!..."

Kiçik şüşəsiz pəncərənin arxasında dayanıb bayırdakı inanılmaz mənzərəni seyr edən Asimin yaddaşından süzülüb ağlına gələn bu fikirlər insanın fitrətindədir. O, asi olduğunun fərqində idi, nə etsin ki, daha dözə bilmirdi...

Meydançanın ortasında uzanıb can verən ana, donuz fermasında hələ də asılı qalan iki məsum qız, zirzəmidə kiçik şüşəsiz pəncərədən bayırda baş verənləri seyr edən Asim və bu dünyada minlərlə, milyonlarla insanlar.., hətta dillərində ölümü arzulasalar belə, əslində heç kim ölmək istəmir. Bir neçə gün əvvəl Asimin ayaq barmaqlarından dırnaqlarını çıxardılar. Dişlərini dülgər kəlbətini ilə çəkdilər, huşunu itirənə qədər döydülər. Bədənində barmaq qoymağa salamat yer yox idi. Verilən əzablar qarşısında yenə də Rəbbindən özünə yaşamaq diləyirdi, buradan qurtulmaq arzulayırdı.

Həyətdəki kiçik meydançada uzanıb son anlarını yaşayan qadına baxdı. Dünən iki qızı ilə Kamonun otağında

olan qadın idi bu. "Bəs qızları haradadır?" deyə Asimi maraq bürüdü. "İlahi görəsən o indi nəyin haqqında düşünür, ümumiyyətlə düşünə bilirmi?" Asim nə biləydi ki, həyatda elə bir an olur ki, bütöv bir ömür qısa zaman kəsiyi olan saniyəyə və hətta onun mində birinə sığışır. Bu zamanın kiçik bir anı, müvəqqəti həyatla əbədi həyatın birləşdiyi, məhz bu qısa zaman kəsiyi insanın bütün həyatına bərabər, hətta ondan da qiymətli olur. Bu anı yaşamadan, onda olan həzzi duymaq mümkün deyil. Hətta mümkün olsa belə hər kəsə qismət olmur.

Bir azdan əsgərlər qızların meyitlərini boğazlarındakı kəndirlərdən tutaraq sürüyüb kiçik meydançaya, analarının yanına gətirdilər. Asim bu səhnəni dəhşət içində seyr edirdi...

***

Camaat gözdən itənə kimi Qaraxan yerindən tərpənmədi, elə bil ruhu gedənlərlə birlikdə onu tərk etdi. Kənddə böyük bir nəsil olsalar da bu çətin gündə Qaraxan yaxınlarından bir nəfər tapıb ailəsini arxayınlıqla yola sala bilmədi. Hamı kəndi ya çoxdan tərk etmiş, ya da düşmənlə üzüzə səngərdə idilər. Əslində bütün kənd bir-birinə qohum idi. İlk dəfə idi ki, özünü zəif, köməksiz hiss edirdi, ona elə gəldi ki, kənd qara qüvvələr tərəfindən lənətlənmişdir. Sonda "hamı necə, bizimkilər də elə" düşünsə də, daxilində bir narahatlıq var idi. Ürəyi sıxıntıdan yerindən qopmaq üzrəydi. Bir anlıq onlarla birlikdə gedib təhlükəsiz yerə qədər ötürmək istədi. Ailəsi ilə birlikdə lənətlənmiş kəndi tərk etmək istədi. Dönüb geriyə bağ-bağatlı kəndə

baxdı, tez də bu fikri başından qovdu. Ayaqları onu kəndin müdafiəçilərinin yanına, "Kömür basdırılan" örüşündə olan mövqelərə qaytardı.

Nə zaman gəlib mövqelərə çıxdığından xəbəri olmadı, başını qaldıranda o qədər də dərin olmayan səngərlərin yanında olduğunu gördü. "Görəsən indi harada olarlar, bircə gedib çatsaydılar" deyə düşündü. Çox narahat idi. Elə də dərin olmayan səngərin başlanğıcında arxası düşmənə tərəf oturdu, kürəyini daşa söykəyib son zamanlar arabir çəkdiyi siqaretdən birini yandırdı. Sanki, qullab-qullab udub havaya buraxdığı tüstü beynində dolaşan qara-qura düşüncələri də özü ilə aparırdı.

Qaraxan kənddə satqın olduğunu bilmirdi. Əhalinin kənddən təxliyyə olunması qərarından sonra Əziz elə həmin gecə Armenaka məlumatı çatdırmışdı. Malxazyan dərhal hazırlıq görüb bu vacib əməliyyata rəhbərliyi öz üzərinə götürdü. Belə bir məqamı əldən vermək olmazdı. Dərhal on beş nəfər seçdi. Ən qəddar döyüşçülərdən ibarət dəstəyə hazırlıq əmri verdi.

Hələ zaman var idi, sıldırım aşırımlardan keçərək vaxtından əvvəl kəndin yaxınlığındakı meşədə yerləşdilər. Malxazyan iki nəfər ən yaxın bildiyi adamları yanına çağırdı.

– Dediklərimi hamıya çatdırın, bütün əsirlərlə necə istəsəniz rəftar edə bilərsiniz. Bir neçəsindən başqa.

– Ara matağım, yenə nə düşünmüsən!? O bir neçəsi dediyin kimlərdir? – deyə dəstə üzvülərindən ən yaşlısı və özünü daha yaxın sayan Sokrat gülərək onun sözünü kəsdi. Lakin Malxazyanın qəzəbi ilə qarşılaşıb peşman oldu.

– Sözümü kəsmə, donuz!... Bura zarafat etməyə, deyib

gülməyə gəlməmisən. Əsirlərin arasında dörd nəfər var. Qaraxanın ailəsi... onları qorumağı sizə tapşırıram. Anladın?...

Sonra isə durbini götürüb dağın yalı ilə yuxarı qalxdı.

## XI fəsil

Günortadan sonra başlayan güclü qərb küləyi uzaqlarda olan topa buludları qovub bir yerə yığırdı. Qaraxan başını qaldırıb sərhədin o üzündən küləyin gətirdiyi qara buludları seyr etdi. Güclü külək qaldırdığı toz-torpağı onun üzünə çırpdı. "Elə külələri də özlərinə oxşayır əclafların," deyə düşündü. Bu tərəflərdə qərb küləyinə "erməni küləyi" deyirdilər. Sonra səngər boyu uşaqların yanına getməyə başladı. Nədənsə dünəndən tam sakitlik idi, sərhəd boyu düşmən tərəfdə texnika və canlı qüvvə yığılmasına baxmayaraq, bir güllə də atılmamışdı. Lakin Qaraxanın daxilində kənd camaatını yola salandan sonra böyük bir təlatüm başlamışdı, çox narahat idi. Dayandığı yerdən kənd görünməsə də, kəndin üstündəki dağın yamacı ilə uzanıb gedən meşə aydın görünürdü. Üstünü qara buludlar alan meşə sonu görünməyən qara bir zolağa bənzəyirdi. Qarışıq fikirlərlərdən qurtarmaq üçün yoldaşlarının yanına tələsdi.

Səngər boyu irəliləyən Qaraxanın qarşısına ilk çıxan Bəhrəm oldu. Bəhrəm kürəyini daşa söykəyib fikrə getmişdi. İndi hamı qanıqara və fikirli idi.

Qaraxan sakitcə Bəhrəmin yanında üzü kəndə sarı dayandı, buradan kənd və yamac boyu uzanıb gedən meşə

daha aydın görünürdü. Gördüyü mənzərədən qanı damarlarında dondu. Bu günə qədər bunun fərqində olmamışdı, bəlkə də, bu tablonu ondan başqa kimsə görməmişdi. Ilahi, meşə ağzını açıb öz ovunu udmağa hazırlaşan ikibaşlı əjdahaya bənzəyirdi. Kefi bir az da pozuldu. Bir neçə dəfə diqqətlə baxdı. Yox, o səhv eləmirdi. Meşə, məşhur bir rəssamın yağlı boya ilə böyük tabloda çəkdiyi əsəri xatırladırdı. Əjdahanın ovu isə onların kəndi idi. Bu mənzərəni məhz indi görmək bəlkə də təsadüf idi, lakin illər boyu bu təsadüfü görməməsi də çox təəccüblü gəldi ona.

Səngərdə dayananları bir yerə toplayıb son vəziyyəti müzakirə etmək istəsə də, həvəsi olmadı. "Hamının qanı qaradır bu gün, heç kimlə danışmağa dəyməz." deyə düşündü və yaxınlıqdakı daşın üstündə oturub növbəti siqareti yandırdı.

Axşamüstü düşmən aktivləşdi, sərhədi keçib daha da yaxınlaşdılar, bir neçə dəfə mərkəzdən cəbhəni yarmaq istəsələr də güclü müqavimətlə qarşılaşıb geri çəkilməyə məcbur oldular. Minaatanlar və iri çaplı silahlar işə düşdü. İki tank və iki "PDM"  düşmən tərəfdə üzbəüz mövqelərdə göründü. Bir anın içində yer-göy lərzəyə gəldi, əvvəlki sakitlikdən əsər-əlamət qalmadı. Kiçik dəstədən iki nəfər yaralandı, yoldaşları elə yerindəcə onlara ilk tibbi yardım etdilər və onlar yaralı halda yenidən döyüşə atıldılar. Qaraxan arxada olan topçularla əlaqə saxlamaq istədi, köməyə canlı qüvvə lazım idi. Lakin heç bir kömək gəlməyəcəyini anlayıb özü qərar verdi.

Dəstədə onunla birlikdə on yeddi nəfər idilər. On üç nəfəri öz kəndlərindən idi və orta məktəbdə onun şagirdləri olmuşdular. Qalan üç nəfər isə könüllü olaraq Ba-

kıdan gəlmişdilər. Politexnik İnsititunun sonuncu kurs tələbələri idilər. Gənc olmalarına baxmayaraq, texnika və silahlardan çox yaxşı istifadə edirdilər. Komandir üçün dəstə üzvülərinin hər biri əziz və doğma idi. Hər biri bir orduya bərabər cəngavər idi. Onlar əsil qəhrəman idilər, ən azı Qaraxanın fikrincə bu belə idi, hətta aralarında fiziki cəhətdən zəifləri olsa belə. Qaraxan yanında olanların hər birinə inanırdı.

Ölkədə gedən proseslərdən hamı kimi o da xəbərdar idi. Heç bir kömək gəlməyəcəyini bilirdi. Hakimiyyətdə olanların başı özlərinə və kreslolarına qarışmışdı, güc sturukturlarında qruplaşmalar, tabesizlik hökm sürürdü. Yenicə peyda olan "liderlər" silahlı qruplar yaradıb hakimiyyətə qarşı çıxırdılar. Paytaxtı bürüyən mitinq dalğası hər şeyi iflic etmişdi. Bundan istifadə edən Rusiya, İran, Fransa kimi dövlətlərin xüsusi xidmət orqanları açıq şəkildə çirkin əməllərini yerinə yetirir, havadarlıq etdikləri ermənilər isə onların iştirakı ilə davamlı olaraq yeni kənd və rayonları işğal edirdi. İşğal olunmuş yaşayış məntəqələrindən yalnız canını götürüb paytaxta axışan qaçqınlar elə bir xaos yaratmışdılar ki, ən ağıllı adamlar belə çaşıb qalmışdılar.

Bütün bunları ürəyində götür-qoy edən Qaraxan bu bəlanın boş yerə başlarına gəlmədiyini də yaxşı bilirdi. Qara buludların getdikcə daha çox sıxlaşdığı səmaya baxdı. Əllərini yuxarı qaldırıb "Ya Rəbbim günahlarımızı bağışla, bizi yeni günahlar etməkdən çəkindir. Hiyləgər düşmənə qalib gəlmək üçün bizi gücləndir." Dualarını bitirib uzun müddət bu vəziyyətdə dayandı. Hardansa beyninə dolan şübhələrdən buludlu səmada iynənin keçəcəyi qədər

açıq yer axtardı, tapmayınca ümidsizcəsinə qolları yanına düşdü, yenidən baxışları kəndi udmaq istəyən "əjdaha"ya dikildi. Ona elə gəldi ki, duaları buludlara dəyib həmin "əjdaha"nın qarşısında yerə düşdü, sanki buludlar onunla Rəbbi arasında keçilməz sədd çəkmişdilər. Gedənlərdən isə hələ də xəbər yox idi. "Görəsən indi hardadırlar?" deyə düşündü.

Geri çəkilməyə məcbur edilən düşmən daha da azğınlaşdı, artilleriya hazırlığından sonra bütün cəbhə boyu hücuma keçdi. Qaraxan duruş gətirə bilməyəcəklərini başa düşürdü, o qədər də dərin olmayan səngərlə Bəhrəmin yanına getdi.

– Kərəmlə yaralıları aparın geriyə, kəndin üstündəki meşəyə çəkilin. Qızıl qaya yaxınlığında mövqe tutub bizi gözləyin. Bir az ayıq olun, arxada əclafların kəşfiyyatı ola bilər.

Bəhrəm çaşıb qalmışdı, kəndi tərk edirdilər!?... Onun hələ də dayanıb fikrə getdiyini görüb səsini qaldırdı.

– Bəhrəm, sən hələ burdasan!? Tələs, vaxt itirmək olmaz.

Səsi partlayan top mərmilərinin səsinə qarışıb eşidilməz oldu. Bəhrəm nə isə demək istəyirdi, komandirin qınaq dolu baxışlarından getmək lazım olduğunu anlayıb Kərəmi axtarmağa getdi. Düşmən artıq bütün cəbhə boyu hücuma keçmişdi. Güclərin qeyri-bərabər nisbətində duruş gətirmək getdikcə ağırlaşırdı. Qaraxan bütün səngər boyu qaçıb bir-bir döyüşçülərini ruhlandırırdı. Düşmən tankı mövqeyini tərk edib onlara tərəf gələndə qətiyyətlə yanında olan iki nəfərə onunla getmələrini dedi. Səngərdən bir az aralıda olan yeraltı sığınacaqdan üç ədəd tank

əleyhinə qumbara götürdülər. Sürətlə aşağıdakı hər iki tərəfdən sıldırım qayalarla əhatə olunmuş dərəyə endilər. Sonra dərənin içi ilə körpüyə tərəf qaçdılar. Dərə boyu qaçmaq o qədər də asan deyildi, qalın kolluqlar və selin yaratdığı dərin çuxurlar sürətlə getməyə mane olurdu, lakin başqa çıxış yolu da yox idi. Dərənin yuxarı tərəfində Azərbaycanla Ermənistanı birləşdirən yolun üstündə qarşı tərəfə yeganə keçid olan körpü var idi.

Körpü görünəndə Qaraxan dayandı və arxasınca gələnləri də saxladı.

– Dayanın, belə getmək olmaz. Əclaflar pusqu qura bilərlər. Qədir, sən dərənin o biri tərəfinə keçib körpünün yaxşı göründüyü yerdə pusqu qur, sən isə – o Rizvana tərəf döndü – burda dayanırsan. Körpünü patlatmağa mən gedəcəm. Körpü partlayan kimi uşaqların yanına qayıdırıq. Məni gözləməyin, ola bilər ki, mən bu yolla qayıtmayım. İnşallah uşaqların yanında görüşərik.

Qədir və Rizvan bir-birinə baxdılar.

– Komandir, icazə ver körpünü partlatmağa mən gedim, – tez Qədir dedi.

Qaraxan əsəbi baxışlarla onları süzdü.

– Axı mən dedim, daha komandir yoxdur, hamımız eyniyik. Körpüyə isə özüm gedəcəm. Sizsə silahdan bacardıqca az istifadə edin. Haydı, yerinizə...

Mübahisə etmək zamanı deyildi. Onsuz da Qaraxanı fikrindən döndərə bilməyəcəkdilər. Bir necə dəqiqədən sonra Qaraxan körpünün yaxınlığında kolluqda gizlənib düşmən tankının gəlməsini gözləyirdi. Zaman isə elə bil dayanmışdı...

***

Qaraxan körpünün on-on beş metrliyində qalın kollarla örtülmüş dərənin yamacında uzanıb gözləyirdi. Qalın böyürtkən kolları onu elə gizlətmişdi ki, üstündən tapdayıb keçən olsaydı belə kolların altında kiminsə gizləndiyinin fərqində olmazdı. Son günlərin gərginliyi və yuxusuzluğu az qalırdı ki, onu ağuşuna alsın. Bədəninə batan böyürtkən tikanlarının acı göynərtisi də yuxusunu dağıtmağa mane ola bilmirdi. Dərə boyu uzun bir yolu qaçdığı üçün tərləmişdi. Torpağın sərin nəmliyi qızdırmalı adama soyuq kompresi xatırladırdı. Yenidən günün birinci yarısını xatırladı. "Görəsən hardadırlar?" deyə düşündü. "Allah eləməsin, birdən əsir düşərlər..." tez də bu fikirləri beynindən çıxardı. "Yox, bu mümkün deyil." Birdən-birə kövrəldi, ailəsi üçün darıxdı, qeyri-ixtiyari göz yaşları yanağından süzülüb saqqalını islatdı.

Xəyallar onu çox da uzaq olmayan keçmişinə apardı. Nədənsə ona elə gəldi ki, ailəsi ilə aralarında keçilməz sədd var, Qaraxan bu keçilməz səddi aşıb bir daha onları görə bilməyəcək. "Yox onlar indi etibarlı adamların yanındadırlar," deyə düşündü və az da olsa, rahatlandı. Bəs bu qara fikirlər niyə onun beynindən çıxmır, bəlkə onun özünə nəsə olacaqdı. "Nə olursa mənə olsun, mən dözərəm." Qeyri-iradi olaraq pıçıldadı. Artıq təri soyumuşdu, nəm torpağın, bəlkə də ağlına gələn fikirlərin təsirindən bədəni titrəməyə başladı. Mərmilərin və kiçik çaplı silahların səsləri arasında yaxınlaşmaqda olan tankın səsi açıq-aydın eşidilirdi. Sıx kolların arasından qarşıdakı yola baxdı, tankın səsi gəlsə də, özü görünmürdü. Yenidən xə-

yala daldı, Laçın-Şuşa yolunda baş verən bir hadisəni xatırladı.

Təxminən iki il öncə baş vermişdi bu hadisə. Erməni separatçıları Qarabağda və onun ətrafında çaxnaşma salmışdılar. Rusiya və İranla gizli danışıqlar aparan ermənilər Azərbaycan kəndlərinə vəhşicəsinə basqınlar edirdilər. Əhalini öldürür və əsir götürür, evləri talan edib yandırır, mal-qaranı yığıb aparırdılar. Erməni quldurları o qədər qudurmuşdular ki, hətta guya sülhü qoruyan ruslara da əhəmiyyət vermir, onlara da hücum edirdilər. Belə günlərin birində azərbaycanlı jurnalist Salatın Əsgərovanı Şuşaya müşayiət edən rus zabitlərinin maşınını gülləbaran edərək azərbaycanlı jurnalisti, iki rus zabitini və bir əsgərini vəhşiliklə qətlə yetirmişdilər. Canilər məlum olsa da, daha böyük cinayətlər törətmək üçün həbs edilmədilər. Zaman keçdikcə çaxnaşma daha da qızışdı və əməlli-başlı müharibəyə çevrildi.

Erməni quldurları guya münaqişəni sakitləşdirən rus qoşun hissələrinin zabit və əsgərlərini rüşvətlə və öz fahişə qadınları vasitəsi ilə şirnikləşdirir, ipə-sapa yatmayanları qorxudur, qorxmayanları isə ən primitiv üsullarla aradan götürürdülər.

O zaman Qaraxangilin kəndində rusların tam tərkibdə bölüyü olsa da, onlar əsasən errmənilləri dəstəkləyirdilər. Müvəqqəti olaraq üç "T-72" markalı tank, bir neçə "BMP-2," "BTR" və avtomobillərlə ermənistanla sərhəd kəndlərdə olan əhalini "qorumaq" məqsədi ilə ən əlverişli yer kimi kəndin uşaq bağçasında yerləşmişdilər. Şəxsi heyət heç bir qayda-qanuna tabe olmur, sanki dövlət içində yeni bir dövlət qurmuşdular. Günün istənilən vaxtında içkili

vəziyyətdə kəndə çıxır, yerli əhaliyə sataşırdılar. Onların bu hərəkəti hətta kənd camaatı ilə bir neçə dəfə az qala toqquşma həddinə qalxan münaqişəyə də səbəb olmuşdu. Ruslar əllərində olan silah və texnikanı qaçıraraq sərhədin o üzündə ermənilərə dəyər-dəyməzinə satırdılar.

Belə günlərin birində texnika üzrə komandir müavini əslən Stavropoldan olan baş leytenant Yevgeni Nikolayeviç Bıkov içkili vəziyyətdə olduğu halda “T-72” tankını ermənilərə satmaq məqsədi ilə sərhədi keçmək istəyərkən idarəetməni itirmiş və tankı yarğandan aşırmışdı. Tank aşan zaman altında qalaraq başı bədənindən ayrılmışdı. Yalnız ertəsi gün Qaraxanın vasitəsilə xəbər tutan rus hərbçiləri Bıkovun başsız meyitini tankdan çıxarıb “366-cı motoatıcı polk”a apardılar və Stavropola ailəsinə göndərdilər. Tank isə uzun müddət yarğanın üstündə, sərhədin bir neçə metrliyində – Azərbaycan hissəsində qaldı.

Ruslar Azərbaycanı tərk edəndən sonra bu məsələ də öz həllini asanlıqla tapdı. 1992-ci ilin yanvarın sonu idi. Qışın oğlan çağı olmasına baxmayaraq, havalar yaz fəslini xatırladırdı. Dəstə üzvlərindən olan Namiq və Cümşüd rayon mərkəzində ailələrinə baş çəkib yenicə gəlmişdilər ki, Qaraxanla rastlaşdılar.

– Hə uşaqlar! Evdə vəziyyət necədir, rayonda təzə nə var?

– Heç komandir, necə deyərlər “köhnə hamam, köhnə tas.” Hər şey qaydasındadır. Şəhərdən bir dəstə tankçılar gəlib, əmoğlu da onlarladır, Şuşaya gedəcəklər, bizim internatda qalıblar gecə. Əmoğlu dünən axşam məni görmək üçün bizdə olub, görüşə bilmədim, dedim qalsın başqa vaxta, – Namiq dedi.

– Niyə?... Görüşərdin də.., bir də nə vaxt görəcəksən onu?

– Nə bilim, – deyib çiyinlərini çəkdi. Qaraxan fikirli halda dönüb getmək istəyirdi ki, yadına nəsə düşdü və geri döndü.

– Namiq, deyirsən tankçıdır onlar?...

– Hə komandir, elədir ki, var. Əmoğlu əsgərlikdə tankçı olub, təxminən altı il əvvəl. Məndə çoxlu şəkilləri də var. Səhv etmirəmsə, tank komandiri olub.

– Bizim maşını tap, qayıt rayona, həm əmoğlunla görüş, həm də sərhəddə aşıb qalan tank haqqında məlumat ver onlara. İmkan olsa, gəlib baxsınlar, mümkün olsa çıxaraq. – Sonra öz-özünə danışırmış kimi fikirli-fikirli əlavə etdi. – O tank bizim əlimizdə olsa, kimsə bizə qarşı gələ bilməz.

Namiq qərargahın qarşısında dayanan maşına tərəf getdi.

## XII fəsil

Tələt rayonun ucqar kəndlərindən birindən idi. O hələ uşaq olanda əmisi işlə əlaqədar olaraq rayon mərkəzinə köçmüşdü. Əmisi tarix müəllimi idi və rayon "Maarif şöbəsin"də işləyirdi, sayılıb-seçilən kişilərdən idi.

Əmisi oğlu Namiqlə həmyaş olduğu üçün uşaq çağları bir yerdə keçmişdi, ailələri rayonda yaşasa da, Namiq kənddə babasının yanında böyümüşdü. Orta məktəbi də Tələtlə bir sinifdə oxumuşdular. Gecələr yaxşı gördüyünə görə Tələt ona "Yarasa" adı vermişdi. Məktəbi bitirəndən sonra Namiq rayona atasıgilin yanına, Tələt isə Bakıya

köçdü. Bakıda yaşamasına baxmayaraq bir ayağı kənddə idi. Hər dəfə də kəndə gedib-gələndə əmisigilə baş çəkər, hal-əhval tutardı. Namiqlə birlikdə kəndə gedər, ötən günlərini yada salardılar. "Yarasa" ləqəbi Namiqin xoşuna gəlmədiyi üçün məktəbi bitirəndən sonra Tələt daha bu adı dilinə gətirməzdi...

Qarabağda ermənilər tərəfindən vəziyyət qarışan zaman, Tələt ordu sıralarına yazılmağı qərara aldı və "Səbail Tank taboru"na yazıldı. İlk döyüşə getməsi üçün çox gözləmədi. 1991-ci ilin dekabrında Xəqani Sultanovun komandirliyi ilə tabordan on altı nəfərlə birlikdə Şuşanın Malıbəyli kəndinin müdafiəsində iştirak etdi. Bir neçə gün əvvəl onları Malıbəyli kəndinin müdafiəsindən dəyişdilər. Bu gün isə, ruslardan götürülmüş hərbi texnika ilə Şuşaya gedirdilər. Onlar Şuşaya ilk hərbi zirehli texnikanı aparırdılar. Rayon mərkəzinə az qalmış komandir onu yanına çağırdı.

– Tələt biz bir neçə gün burada qalmalıyıq, texnikanın və bizim qalmağımız üçün yer tapmalıyıq.

– Komandir, rayona çatan kimi hər şeyi yoluna qoyarıq, buna görə narahat olma.

– Narahat deyiləm, bilirəm ki, sən burdasan, problemimiz olmaz.

Komandirin tərifi ürəyinə yağ kimi yayıldı, həm də bir az narahat oldu. Deməli komandir ona inanır və etibar edirdi."Əslində belə də olmalıdır, ətrafında əminliklə arxalandıqların olmazsa döyüşə bilməzsən. Müharibənin hər anı fərqli sürprizlərlə doludur," deyə düşündü.

Lakin hər şey onun gözlədiyindən də artıq rahatlıqla həllini tapdı. Rayon mərkəzinə çatıb yerbəyer olandan

sonra axşamüstü Tələt əmisigili ziyarət etmək üçün komandirdən icazə aldı.

Namiqlə görüşə bilməməsi keyfini pozsa da əmisi ilə xeyli söhbət etdi. Rayonun ümumi vəziyyətini detalları ilə öyrəndi. Əmisinin narahatlığı onu da narahat etməyə başladı.

– Ay oğul! Bu erməni köpək uşağının ipinin üstünə odun yığılası deyil. Bizim millət onları hələ də yaxşı tanımır. Əfi ilan kimidirlər, qarşılarına çıxan hər şeyi zəhərləyirlər. Sovet ideologiyası yetmiş ildə onları düzəldə bilmədi. Onlar paslı mıx kimidirlər, nə qədər düzəltmək istəsən də əksinə daha çox əyilirlər. Onların Allahdan, Allahın da onlardan xəbəri yoxdu bala. Mən bunu neçə il əvvəl bizimkilərə deyirdim, mənə gülürdülər. Indi daha demirəm. Desəm, elə indi də gülənlər tapılar. Çünki, tariximizi bilmirlər, erməninin necə alçaq bir millət olduğunu başa düşmürlər. Bu "yan"lar pis yola gedən hamilə qadınlar kimi insan ətinə, qana yerikləyirlər, bala. Bizim millət də ki.., – dayanıb Tələti diqqətlə süzdü, sözlərinin ona necə təsir edəcəyini yoxlayırmış kimi saf-çürük etdi. Millət haqqında söz deməyin, onun adından danışmağın ağır məsuliyyət olduğunu düşünüb, fikrini daha yumşaq sözlərlə ifadə etməyə çalışdı.

– Əmi! Hər şey yaxşı olacaq, sadəcə olaraq zaman lazımdır. Bizim millət güclü, dözümlüdür.

– Qardaş oğlu, millət, millət deyirik, amma özümüz də bir az bir təhərik e-e. Əvvəllər günün çoxunu rayonda keçirdirdim, hər şeydən xəbərim olurdu. İndi isə az-az çıxıram bayıra, amma yenə az-çox nələrin olduğunu eşidirəm. Bir balaca imkanı olanlar hər şeyini götürüb gediblər, bə-

zileri güya vətənpərvərlik edib, həm də el qınağından qaçmaq üçün qocalarını saxlayıblar burda. Evlərini axtarsan diş qurtalamağa bir çöp də tapılmaz. Arabir əsəbləşirəm, ancaq onları da qınamalı deyil Vallah. Bu boyda dövlət qalıb yiyəsiz...

– Əmi! Zaman lazımdır, bir az səbirli ola bilsək, hər şey qaydasına düşəcək.

– Başa düşürəm, yetmiş il sovet rejimi bizdən çox şeyi alıb, kökümüzə qayıda bilmirik. Sovetdən qalan nə vardısa hamısını taladılar. Güya yeni qurulan hökumətə lazım olmayacaqdı bunlar. Bir-iki dılğır var elə günü bu gün də əllərinə nə keçirsə daşıyıb su qiymətinə İranda satırlar...

Tələt əmisinin dedikərini eşitsə də, daha ona qulaq asa bilmədi, xəyalı onu çox da uzaq olmayan keçmişə apardı. Qansız-qadasız illərə, müharibələrin olmadığı, ölüm-itimin nə olduğunu bilmədiyi uşaqlıq çağlarına qayıtmışdı, hətta daxilən əmisini qınayırdı da. Yadına Bukovskinin bir neçə il əvvəl oxuduğu sözləri düşdü. “Insan – keçmişin həsrətini çəkən, gələcəyi üçün darıxan, yaşadığı andan şikayət edən varlıqdır.” İndiki vəziyyətdə, həqiqətən də, belə idi.

O, insan psixologiyası barədə spesifik düşüncəyə malik idi. “İnsan yaranandan bu günə qədər inkişafdadır. İlk insan ailələri tayfa şəklində birləşib, yaxın tayfalar icma, icmaların birləşməsi isə toplum yaradıb. Eyni zamanda onlar yer kürəsinə yayılıblar. Bəziləri toplumu millətlə qarışdırır, əslində isə bu iki məfhumun bir-birindən çox böyük fərqli xüsusiyyətləri var. Zaman keçdikcə toplumlar birləşərək millət kimi formalaşıb, köçəri həyatdan daimi məskunlaşıb oturaq həyata başlayıblar. Özlərinə dövlət

qurub, bayraq qaldırıblar, müdafiəsini yaradıb, sərhədlərini təyin ediblər. Vətən, millət, torpaq anlayışı üstün tutulub, müqəddəsləşib. Onu ucaldan, müqəddəs edən uğrunda düşünmədən canını qurban edənlərin al-qırmızı qanı olub.

İcma və toplumlar isə istədikləri yerlərdə müvəqqəti yaşayır, tez-tez yerlərini dəyişir, olduqları ərazilərdə təbii ehtiyatlar tükəndikdə daha münbit ərazilərə köç edirlər. Millət kimi formalaşmadıqları üçün millətə xas olan quruculuq, yaradıcılıq kimi “vətən,” ”millət” anlamı da onlara yaddır. Dünyada ermənilər və bir neçə belə toplumlar ”vətən” anlayışından kənarda qalaraq “sərhədsiz” yaşamağa üstünlük veriblər. Yaradıcılıq, quruculuq onlara aid deyil. Heç nəyin doğma, müqəddəs olmadığı üçün onların şüuraltında dağıdıcılıq daha üstünlük təşkil edir. Psixologiyada doğma olmayan hər bir şeyə ögey münasibət bəsləmək, dağıdıcılıq, məhv etmək prinsipi öndə olur. Onlar əksər halda tayfa prinsiplərinə uyğun olaraq köçəri həyat keçirir, güclü dövlətlərin təsiri altında yaşayır, bəzən də, onlardan istifadə edərək müvəqqəti olsa belə öz dövlətlərini qururlar.”

Tələtin fikrincə “ermənilər bu toplumların ən həyasızıdır, onların altşüurunda insan psixologiyasına layiq olmayan bütün mənfilikləri tapmaq mümkündür. Onlar üçün ali, müqəddəs heç nə yoxdur. Millət kimi formalaşa bilmədikləri halda özlərini yer kürəsinin ən ağıllı, ən üstün xalqı hesab edirlər. Yalnız kiməsə arxalanıb hay-küy sala bilirlər.Anlamaq istəmirlər ki, dünyanın belə bir vaxtında xəritələrin dəyişilməsi mümkün deyil və ermənilər bunu heç cür edə bilməzlər.”

Söhbətdən ürəyi sıxılırdı, əmisinin pessimist düşüncələri çiyinlərinə ağır yük kimi yüklənirdi, düşündükləri onu yordu, sağollaşıb ayağa qalxdı, artıq hava qaralırdı. Dar cığırla internata tərəf getməyə başladı. Gecənin yenicə düşməsinə baxmayaraq rayonda sakitlik idi, əvvəlki qələbəlikdən əsər-əlamət yox idi. Azca imkanı olanlar əmisinin dediyi kimi artıq köçmüşdülər, qalanlar isə hava qaralan kimi qapıları bağlayıb girirdilər evə. Deməli, əmisi haqlı idi. "Hər kəs öz başının milçəyini qoruyur. Bəs görəsən bu "it sürüsünü" kim qovacaq sərhədlərimizdən?.. İndi Azərbaycan müstəqil dövlətdir, bunun ordusu, filanı olmalıdır, sərhədləri, sərhəd qoşunları olmalıdır," deyə düşünsə də, beyninə gələn yeni fikirdən kefi pozuldu. "Ruslar bizim kimi dövlətləri heç vaxt əllərindən buraxmazlar." Dərhal da bu fikri başından qovmağa çalışdı.

Artıq gec idi, paltarını soyunmadan yerinə uzanıb gözlərini tavana zillədi, nədənsə narahat idi, yuxusu ərşə çəkilmişdi. Özünə də məlum olmayan səbəbdən yata bilmirdi.

Dəhlizdə növbətçi ilə kiminsə sakitcə danışdığını və adının çəkildiyini eşidib cəld yerindən qalxdı. Qaranlıqda birtəhər qapını tapıb özünü uzun dəhlizə atdı. Dəhlizin sonunda elektrik lampası olduğu üçün alatoranlıq idi. Üzü ona tərəf olan əmisi oğlunun növbətçi ilə söhbət etdiyini görəndə sevincini gizlədə bilmədi.

– Namiq!!!...

Sakit dəhlizdə səsinin əks-sədası gecənin məşum sükutunu pozdu.

## XIII fəsil

Tələt komandirə aşan tank haqqında məlumat verdi. Kapitan Sultanov cəld yerindən qalxdı. Üst-başını səliqəyə salıb tam silahlanmış halda dəhlizə çıxdı. Uzun dəhlizin sonunda dayanıb onu gözləyən Tələtlə Namiqə yaxınlaşdı. Məsələdən hali olandan sonra növbətçiyə Pənahı oyatmasını deyib boş otaqlardan birinə keçdilər. Uzun müzakirələrdən sonra Namiq üç tankçı ilə birlikdə Qaraxanın yanına yola düşdü. Səhərin alatoranlığında artıq onlar Qaraxanla birlikdə aşan tankı müşahidə edirdilər.

Kapitan Sultanov Qaraxanla birlikdə sərhədin o tayında yerləşən düşmən mövqelərini müşahidə etdi. Məlum oldu ki, düşmən tərəfdə üç nöqtədən snayper postları qurulub tankı daima nəzarətdə saxlayır. Gündüz ora yaxınlaşmaq çox təhlükəli olardı, gecənin düşməsini gözləmək lazım idi.

Ertəsi gün düşmən snayperinin harada yerləşdiyini öyrənmək üçün mövqe tutdular. Lakin bunu öyrənmək elə də çətin olmadı. Snayperlər azərbaycanlıların uzun zaman tankla maraqlanmadığını görüb sərbəst hərəkət edib yerlərini bildirirdilər.

Kapitan Sultanov və onunla gələnlər həmin gecə tankı yoxladılar, tank aşmasına baxmayaraq tam salamat idi. Lakin həmin vaxt yarğandan aşan tankı çıxarmağa icazə verilmədi. O zaman Qaraxan da komandanlıqla arasında olan soyuqluğu daha da dərinləşdirməməyə xatir susdu və onlarla razılaşdı. Bir neçə gündən sonra isə başqa bir qrup gəldi, tankı heç bir maneə olmadan çıxardı, guya

yoxlamaq məqsədiylə harasa apardılar və bir daha geri qaytarmadılar. Bu hadisədən sonra Qaraxan uzun müddət özünə gələ bilmədi.

Tikanlı kolların arasında uzanıb o zaman baş verənləri xatırlayan Qaraxan dərindən köks ötürdü. ″Bu gün o tank burada olsaydı... "At təpiyinə at dayanar" deyiblər, indi biz dayandoldurumla bunun öhdəsindən necə gələk?..." – deyə təəssüf hissi ilə düşündü. Üstündə altı nəfər olan tankı dağın yamacı ilə çəkilmiş yolla asta sürətlə dərəyə tərəf gəldiyini görüb toxtadı. Bədəninə batan tikanların acı göynərtisi keçdi.

Tank yaxınlaşdıqca dərənin sakitliyi pozulurdu, vahiməli səsi bir an içində hər şeyi dəyişdi. Bir neçə il olardı ki, bu yoldan heç minik maşınları da keçmirdi. Artıq yolun asfalt hissəsinin əksər yerlərində ot bitmişdi. Onun səsindən döyüşə tam yararlı olmadığı açıq-aşkar hiss olunurdu, bəlkə də, bu ekipajın təcrübəsizliyindən irəli gəlirdi.

Hər nə idisə, çox vahiməli bədheybətə bənzəyirdi. İndi bu bədheybət onunla təkbətək döyüşə çıxmışdı. Sanki dünya yaranandan ikisi bir-birinə qarşı idi, Qaraxan və bu bədheybət, xeyir və şər, bir-birinin tam əksi olan iki qütb. Səsi artıqca anbaan yaxınlaşırdı, addım-addım, ləngər vura-vura... Qaraxanın bu zaman keçirdiyi hissi yalnız onun vəziyyətində olanlar başa düşə bilərdilər.

Zaman keçdikcə onun gözlədiyi an da yaxınlaşırdı. Beyni elə bir sürətlə işləyirdi ki, ən sürətli elektron cihazlarını kölgədə qoyardı. "İlk növbədə piyadaları aradan götürməliyəm, sonra isə bu bədheybəti," deyə ani olaraq düşündü.

Avtomatını hazır vəziyyətə gətirdi, qumbaraları sıra

ilə önünə düzdü. Budur onun gözlədiyi an. Ayağa qalxdı, əlində hazır saxladığı piyada əleyhinə qumbaranı tankın üstünə atdı, ikinci və üçüncü atdığı qumbaralar tank əleyhinə idi. İlk partlayış və ardınca daha ikisi... sonuncu qumbara tankın açıq lyukundan içəri düşdü. Partlayışın dalğası o qədər güclü idi ki, onu kolların içindən on metrə qədər kənara – dərənin dibinə, daha qalın kolların arasına atdı. Dalğanın və zərbənin təsirindən huşunu itirdi.

Özünə gələndə hava qaralmışdı. Heç nə yadında deyidi. Başında küt ağrı, qulaqlarında güclü uğultu vardı. Göz qapaqlarından daş sallanmışdı elə bil. Durmaq istədi, bədəninə sancılan tikanların göynərtisini bütün ruhunda hiss edib inildədi. Bura necə düşdüyünü xatırlaya bilmirdi. Yenidən huşunu itirdi.

***

Partlayış pusquda dayanan Qədirlə Rizvanın gözləri önündə baş verdi. Tank dərənin döşü ilə uzanan yolda asta sürətlə irəlilədi, körpünün bir neçə metrliyinə çatanda Qaraxan onların təhmin etdiyi yerdə göründü, dalbadal üç partlayış, sonra isə sanki qısa atəşfəşanlıq oldu. Partlayışın səsi dağların arasında əks-səda verdi, yer titrədi, dalğası qayalarda olan daşları oynatdı. Tapşırıq yerinə yetirilmişdi. Qədir dərəni keçib kolların arası ilə Rizvanın yanına gəldi. Razılıqla bir-birinə baxdılar.

– Nə edək?

Hər ikisi intizarla Qaraxanın getdiyi yola baxırdı.

– Komandiri gözləyək.

Partlayışdan sonra ermənilər dərəni atəşə tutdular, bö-

yük bir dəstə yamac boyu tankın vurulduğu yerə doğru irəlilədi. Meyitləri götürüb qorxu içində geri qayıtdılar. Tankı udan dərə onlar üçün qorxunc kabusa dönmüşdü.

– Bəlkə gedək!? Komandir demişdi ki, məni gözləməyin...

– Gedək, – hələ də Qaraxanın gələ biləcəyi yola tərəf baxan Rizvan razılaşdı.

Onlar dərə ilə aşağı enib dayandıqları mövqelərə tərəf getdilər, hələ də ermənilər toplarla buranı vururdular.

– Görünür, yalları artıq düşüb it uşaqlarının, bütün gün dayanmayıblar, – deyə Qədir deyindi.

Artıq günəş qüruba enirdi. Qaraxandan isə xəbər yox idi. Hava qaralanda səkkiz nəfərdən ibarət qrup onu axtarmaq üçün geri qayıtdı. Əməliyyata Rizvan başçılıq edirdi.

İki nəfərdən ibarət kiçik dəstələrlə dərə boyu yuxarıya doğru qalxırdılar. Öndə Rizvanla Namiq gedirdi. Bədirlənmiş ay hər tərəfi süd rənginə boyasa da, dərənin içi qaranlıq idi. Onlar iki qrupa bölünüb dərənin hər iki tərəfi ilə yuxarıya doğru irəliləyirdilər. Dərə boyu bitən qalın kollar və selin yaratdığı yarğanlar sürətli hərəkət etməyə imkan vermirdi. Ölü bir sükut hakim idi, nədənsə silahlar da susmuşdu, arabir ayaqları altından çıxan daşlar dərəyə dığırlanır, bir-birinə dəyib sükutu pozurdu.

Qaraxanın olduğu yer yolun üst tərəfində olan sıx böyürtkən kollarının arasında idi. Onlar səhv edə bilməzdilər. Körpünün altından keçmək mümkün olmadı, daha doğrusu əslində bu körpü yox, diametri bir metr olan beton dairələrin birləşməsindən suyun axması üçün nəzərdə tutulan keçid idi. Uzun zaman təmizlənmədiyi üçün selin gətirdiyi daşlarla, demək olar ki, bağlanmışdı. Arxadan

gələnləri gözlədilər. Hamı gələndən sonra yolu tək-tək keçməyi qərarlaşdırdılar.

– Hamının yolu keçməsi vacib deyil. Hər ehtimala görə siz burada, yolun alt tərəfində mövqe tutursuz. Bu əclaflar tülküdən də bir gün əvvəl dünyaya gəliblər, yolu nəzarətdə saxlaya bilərlər. Komandirin olduğu  yerə Qədirlə mən gedəcəm, onu tapandan sonra verilən işarəni gözləyin, – yanında uzanan Qədirə toxundu, – getdik.

Yolun kənarında Qədir yerə uzanıb hər ehtimala görə mövqeləndi, Rizvan qacaraq yolu keçdi, yolun üst tərəfində kolların arasında gözdən itən kimi Qədir də yolu keçdi. Birlikdə Qaraxanın son dəfə göründüyü yerə gəldilər. Qaraxan yox idi. Hər ikisi yerə çöküb sakitcə dayandılar, bir neçə dəqiqə keçdi, vaxt itirmək olmazdı. Burada kimisə axtarmaq ağılsızlıq idi. O birilərinin yanına qayıtmaq üçün qalxdılar, iki-üç addımdan sonra təsadüfən ayağına ilişən avtomat silahını qaldırdı və həyəcanla irəlidə gedən Rizvanı çağırdı.

– Rizvan!

Özündən asılı olmadan qışqırdı, səsini yolun altındakılar da eşitdilər. Onlar yenidən silahın tapıldığı yerdə sallağı oturub nə edəcəkləri barədə düşünməyə başladılar.

– Silahı burdadır, bəs özü?... Bəlkə əsir aparıblar?

– Bəlkə uşaqları çağıraq, ətrafı yaxşı-yaxşı yoxlayaq, nə deyirsən!?

– Bu qaranlıqda?... Bilmirəm. Amma nəsə etmək lazımdır.

Hər ikisi çıxılmaz vəziyyətdə idilər, nə edəcəklərini bilmirdilər. Qədir canavar səsi ilə yolun alt tərəfində olanları köməyə çağırdı. Çox keçmədi ki, əlavə dörd nəfər də gəl-

di. Rizvan vəziyyəti qısaca olaraq izah etdi.

– Komandirin silahını tapmışıq, özü isə yoxdur. Hələlik heç bir fərziyyə yürütməyək. Ətrafı yaxşı-yaxşı axtarmaq lazımdır, ola bilər ki, yaralıdır, buralardadır. Onu tapmalıyıq. Vaxt itirmək olmaz, haydı uşaqlar...

Rizvan sözünü bitirməmiş yaxında inilti səsi eşidildi. Namiq özünü inilti gələn tərəfə atdı. İnilti getdikcə daha da artırdı. Onlar dərənin içinə endilər. Səs dərənin o biri tərəfindən qalın kolların arasından gəlirdi. Rizvan hamıdan qabaqda gedən Namiqi saxladı.

– Rizvan, komandirin səsidir!...

– Dayan!... Ola bilər ki, tələ olsun...

Namiq onun nə dediyini eşitmədi, özünü irəli atdı. İnilti kəsilsə də, səmti tutduğu üçün dərəni keçib düz Qaraxanın yanına getdi və yoldaşlarını səslədi.

– Harda qaldınız, bir az tez olun.

Onları gözləməyib Qaraxanı çıxarmağa başladı. Səhərə yaxın dəstə öz mövqelərində idi. Qaraxan artıq özünə gəlmişdi.

İki saatlıq fasilədən sonra düşmən kəndi və mövqeləri yenidən atəşə tutmağa başladı.

## XIV fəsil

Vurulan tankdan sonra düşmən daha da quduzlaşdı. Artilleriya ilə mövqeləri və kəndi dayanmadan vurmağa başladı. Artıq mövqelərdə dayanmaq mümkün deyildi. Əvvəllər düşünürdü ki, ermənilər dövlət sərhəddini pozmağa cürət etməz, dünyanın böyük dövlətlərindən çə-

kinər. Lakin zaman keçdikcə, dünya dövlətlərinin erməni həyasızlığı və yalanları qarşısında susduğunu görüncə səhv etdiyini anladı.

Geri çəkilmək lazım idi. Lakin hara qədər?... Qaraxan dəfələrlə bu barədə düşünmüşdü. Növbəti ən yaxşı mövqe kənddən sonra meşənin başlanğıcında idi. Düşmən kəndi ələ keçirsə də, meşəyə girməyə cürət etməzdi. Canlı qüvvənin, silah-sursatın və təminatın olmaması hər şeyi çətinləşdirirdi. Düşmən qarşısına çıxarmağa nə bir texnika, nə də bir artilleriya qurğusu var idi. Təkcə avtomat silahları və əl qumbaraları ilə silahlansalar da, bunlar da tükənmək üzrəydi. Kəndin və dövlət sərhədinin qorunması müşkülə dönürdü.

Həmin gün daha bir ağır xəbər müdafiəçiləri sarsıtdı. Təxliyə olunanlarla gedən və yolun yarısından qayıdan iki yeniyetmə qayıdıb gəldi, onların gəlişi ilə hər şey dəyişdi. Qaraxan onlarla söhbət etdikdən sonra uzun müddət yerində dondu, onsuz da yaxşı olmayan səhhəti daha da pisləşdi. Bütün ağrıları üzə çıxdı, tez-tez qusmağa başladı. Nə qədər çalışsa da özünü ələ ala bilmirdi. Qayıdanların dedikləri maqnitafon lenti kimi təkrar-təkrar qulaqlarında səslənirdi.

"Kənddən xeyli aralanmışdıq, fikirləşdik ki, şəhərə gedib nə edəcəyik, qayıdıb sizin yanınızda olsaq, kömək etsək, daha yaxşı olar. Elə bu fikirlə də, camaatdan ayrılıb geri qayıtmağı qərara aldıq. Ac olduğumuz üçün yolumuzu meşədən saldıq ki, qarşımıza çıxan meyvələrdən yeyək. Həm də axşama qədər kəndə çata bilməyəcəyimizi və meşədə qalmağın daha təhlükəsiz olacağını düşünüb gəldiyimiz yolla qayıtmadıq. Meşənin içində qarşımıza

bulaq çıxdı, yuyunduq, yığdığımız meyvələrdən yedik və burada gecələmək üçün yer hazırlamağa başladıq, növbəylə yatıb dincələcəkdik. Bilirdik ki, kənd camaatından çox da aralanmamışıq. Bir az keçmişdi ki, atışma səsi eşitdik. Dağın yalı ilə  səs gələn tərəfə qaçdıq. Arabir meşənin seyrək yerlərində getdiyimiz yolu görə bilirdik. Dərələrin birində silahlı ermənilərin kənd camaatını mühasirəyə aldığını gördük. Bizimlə gedən mühafizəçilər yox idi, yəqin ki, artıq onları öldürmüşdülər. Sağ qalanların əllərini bağlayıb sıraya düzürdülər. Sonra hərbi yük maşınları gəldi və camaatı yığıb harasa apardılar."

Bu bir dəhşət idi. Sanki Qaraxanın gözləri qanla dolub qızarmışdı, həm də keyləşmişdi, elə bir halda idi ki, düşünmək, fikirləşmək qabiliyyətini də itirmişdi. Bir müddət oturduğu yerdən qalxa bilmədi. İxtiyarsız olaraq göz yaşları çənəsindən süzülürdü. Döyüş yoldaşları bir-bir, iki-iki yeraltı sığınacağa daxil olurdular. Içəri girənləri mənasız baxışlarla süzdü, onun üçün həyat öz mənasını itirmişdi. "Artıq heç kimi saxlamaq olmayacaq, döyüşçülərin hamısının ən əziz adamları əsirlikdədir," – deyə düşündü.

Kimsəyə bir söz demədən bayıra çıxdı, səngərin başladığı yerdə üzü kəndə tərəf dayanıb kürəyini daşa söykədi. Suyu sovulmuş dəyirmanı xatırladan kəndə, onu udan ikibaşlı əjdahaya bənzəyən meşəyə baxdı. Nə qədər çalışsa da, ürəyi ilə bacarmadı, başını sinəsinə əyib əlləri ilə üzünü qapadı, hönkürüb ağladı. Həmişə qürur duyduğu kəndə, meşəyə, dağlara nifrət edirdi. Onun doğmalarını, əzizlərini bu dünyada yeganə təsəllisi olan ailəsini udmuşdu. Üç körpə balasını, ömür-gün yoldaşını udmuşdu bu əjdaha. İçində qaynayan vulkanı söndürmək üçün

qışqırmaq, haray salmaq istədi. Ürəyi göynədi, axşamın sərin mehindən üşüdü. Başını qaldıranda döyüş yoldaşlarını qarşısında diz çöküb oturduğunu gördü, bir neçə il əvvəl məktəbdə parta arxasında olduğu kimi...

Kədərli sükut çökdü araya. Elə bil sözləri bitmişdi, kimsə danışmaq istəmirdi. Nədən danışaydılar axı. Xeyli belə dayandılar. Qaraxan özünü ələ alıb kədərli səslə sükutu pozdu:

– Qardaşlar! Burda qalmaq mənasızdır. Yeni mövqelərimiz kənddən sonra, meşənin başlandığı yerdə olacaq, nəyimiz varsa, hələlik ora daşımalıyıq. Vaxt itirmək olmaz. Ora gedəndən sonra bəzi vacib məsələləri birlikdə həll etməliyik.

Düşmən isə hələ də gah kəndi, gah da onların olduğu mövqeləri artilleriya atəşi ilə vururdu...

***

Səhətinin pisləşməsinə baxmayaraq, Qaraxan ayaq üstə idi. Axşama qədər artıq meşənin kənarında mövqe tutmuşdular. Qaraxan bilirdi ki, ölkədəki siyasi vəziyyət düzəlməsə, ermənilərə və onlara dəstək verənlərə layiqli çavab verilməsə, bura da müvəqqətidir, lakin hər necə olsa da, əvvəlki mövqelərdən üstün cəhətləri çox idi. Düşmən kəndi nəzarətə götürsə də, meşəyə girməyə cürət etməyəcəkdi. Bu isə kəndin müdafiəçilərinə üstünlük və zaman qazanmağa imkan verirdi.

Elə həmin gecə Qaraxan üç nəfərlə camaatın əsir götürüldüyü yerə baxmaq üçün getdi. Onlardan biri dünən yarıyoldan qayıdanlardan biri idi. Ona elə gəlirdi ki, ölənlərin arasında doğmalarını da tapacaq. Qaranlıq gecədə

dayanmadan getdilər. Səhərə yaxın həmin yerdə – "Qanlı dərə"də idilər. Bura, doğrudan da, qanlı dərə idi. Pusqu qurmaq üçün çox əlverişli yer idi.

Dərədə üç nəfər müşaiyətçinin meyitini tapdılar. Rövşən və İslamın meyiti dərənin qərb tərəfində daşın arxasında idi. Onlar arxadan vurulmuşdular. Görünür, quldurlar dinc əhalini mühasirəyə alıblar. Alnından vurulan Əzizin meyiti isə dərənin içində idi, başının arxa hissəsi yox idi. Quldurlar onların silahlarını götürmüşdülər. Artıq hava açılırdı. Ətrafı diqqətlə axtarsalar da, əlavə heç nə tapa bilmədilər. Meyitləri aparıb yolun kənarında meşədə dəfn edib kəndə qayıtdılar.

Qaraxanı fikir götürmüşdü. Axşama qədər heç kimlə kəlmə kəsmədi. Ağlına qəribə fikirlər gəlirdi. Bir tərəfdən ailəsinin sağ qalmasına sevinsə də, digər tərəfdən kədərlənirdi. Ermənilərə əsir düşməyin ölümdən betər olduğunu yaxşı bilirdi. Nəsə bir yol tapıb əsirlikdə olanları xilas etmək lazım idi. Amma necə?... Bu fikirlər onu əldən salırdı. Dünənki partlayışdan sonra səhhətinin getdikcə pisləşməsi, başındakı ağrıların daha da kəskinləşməsi hərtərəfli əngəl olurdu ona. Ağlına gələn fikirdən ürəyi bir az rahatlandı. Günortadan sonra hamını bir yerə yığdı.

– Qardaşlar, daha burda qalmağın heç bir mənası yoxdur. Onsuz da biz mühasirədəyik, nəyisə dəyişmək gücümüz yoxdur. Digər tərəfdən də buradakıların, demək olar ki, hamısının ən yaxın adamları... – səsi qırıldı, gözləri doldu, danışa bilmədi. Bir siqaret yandırdı, acı tüstünü ciyərlərinə çəkib öskürdü, – bu zəhrimara da heç cür öyrəşə bilmirəm, – dedi və siqareti yerə atıb dabanı ilə əzdi.

Başını qaldırıb döyüşçülərə baxdı. Hamısının üzündə

ölüm kölgəsi vardı. Sanki canlı meyit idilər. Dərin və hüznlü sükut bu mənzərəni daha da ağırlaşdırırdı. Ən böyük dərd isə iki gün öncə əsir düşənlərin xilası üçün heç nə edə bilməmələri, əllərini sallayıb oturmaları idi. Nədən başlayacaqları, ümumiyyətlə nəsə edə biləcəkləri barədə heç kim fikir deyə bilmirdi.

– Bu günə qədər nə olubsa hamının xəbəri var, hamımızın gözləri önündə olub, kimin nə fikri varsa desin. – Bir anlıq dayanıb döyüşçüləri soyuq baxışlarla süzdü, onların da əhvalının ürəkaçan olmadığını görüb sözünə aram-aram davam etdi; – Dövlət sərhədini qoruya bilmədik, kəndi də, ailəmizi də itirdik. Daha itirməyə heç nəyimiz yoxdur. İndi əslində heç bizə də lazım olmayan təkcə canımız qalıb. Bu andan etibarən biz hər birimiz müstəqil döyüşçüyük, olum-ölüm qərarını da hər kəs özü üçün özü verməlidir. Mühasirədən çıxmaq üçün kiçik dəstələrlə şərqə tərəf getmək olar. Bundan sonra buralarda qalmaq mənasızdır.

Hamı hərəkətsiz və susqun halda dayanmışdı, daşdan yonulmuş heykəllərə bənzəyirdilər. bir müddət belə qaldılar. Xeyli sonra Bəhrəm sükutu pozdu.

– Anladığım qədərilə bir azdan buranı tərk etməliyik?... – deyə çaşqın halda dedi.

Hamı onun üzünə baxdı və müəmma içində verilən sualına cavab verən olmadı. Üzlərində donmuş bir ifadə vardı.

Bir azdan sursatları öz aralarında böldülər, nəyi aparmaq mümkün idisə götürdülər, aparmaq mümkün olmayanları meşədə yeri qazıb basdırdılar. Hava qaralanda meşənin dərinliyində gözdən itdilər. Düşmən hələ də artilleriya ilə kəndi və onların əvvəlki mövqelərini vururdu.

## XV fəsil

Gecənin müdhiş qaranlığı, ikibaşlı əjdahaya bənzər meşənin kəndin son sakinlərini udmağa hazırlaşması çox dəhşətli gəlirdi ona. Zülmətin və sükutun vahiməsi nəfəs kəsirdi. Ayaqları altında qalan quru budaqların sınmasından yaranan səslər sükutu pozur və arxadan gələnlərə istiqamət verirdi. Öndə gecələr xüsusi görmə qabiliyyətinə malik olan "yarasa" Namiq arxasınca isə qalanları gəlirdi. Növbə ilə yaralılara kömək etsələr də, sıldırımlı keçidlər, gecənin zülmət qaranlığı və tez-tez qarşılarına çıxan qalın kolluqlar onların hərəkətini ləngidirdi. İki saata yaxın dayanmadan yol getdilər. Artıq yorğunluq özünü göstərirdi. Ərazini tanıdıqları üçün səmti tutub gedirdilər, yolu azmaları mümkün deyildi. Səhər açılana qədər yol getməli, hava işıqlaşandan sonra dincəlməli idilər. Gündüz hərəkətdə olmaq təhlükəli idi. Qaraxan canavar səsi ilə dayanmalarına işarə verdi.

Haradasa itlər hürdü, görünür yaxında ferma var idi. Tərk edilmiş ərazilərdə yiyəsiz qalan itlər onların gəlişindən duyuq düşmüşdülər. Qaraxan döyüşçülərdən birini başçı təyin edib geri qayıtmalı idi. Namiqi yanına çağırıb sakit səslə dedi:

– Uşaqlar, burda yollarımız ayrılır. Namiqi sizə başçı təyin edirəm. Gündüzlər dincəlin, gecələr isə şərqə tərəf hərəkət edin, yaşayış məntəqələrindən aralı keçməyiniz yaxşıdır. Gecələr gedəcəyiniz yeri gündüz müşahidə etsəniz düşmənin harada olduğunu bilərsiniz, bu da sizi hiyləgər düşmənin məkrindən uzaq tutar. Sizə başqa sözüm

yoxdur, ömür vəfa etsə, görüşərik...

Onun sözləri sanki, hamının üstünə su çilədi. Elə bil iki-üç dəqiqəlik zaman dayandı, onsuz da qulaqbatıran sükut, daha da kəskinləşdi.

– Məni də apar, Qaraxan!...

Hamının ürəkdən və xorla dediyi sözlər meşəyə hakim olan sükutu pozdu, ağacdan ağaca, daşdan daşa dəyib dərələrdə əks-səda verdi. Bu səsi təkcə Qaraxan eşitmədi. Bu zaman o bütün gücü ilə qərbə tərəf qaçırdı. İçindəki hikkəni, nifrəti, vulkana bənzər qəzəbini boğmaq üçün qaçırdı. Özündən – bu günündən, gələcəyindən qaçırdı. Keçmişinə qaçırdı Qaraxan, üzlərini doyunca görə bilmədiyi əzizlərini tapmaq üçün qaçırdı. Daxilindəki daha qəzəbli, daha hikkəli Qaraxandan qaçırdı. Yeganə təsəllisi olan silahını bütün gücü ilə bağrına basıb qalın kolları yarıb qaçırdı.

Ailəsini tapmaq ümidi ilə səhər açılana qədər dövlət sərhədini keçməliydi, düşünürdü ki, əsirləri Ermənistana apararlar. Düşmənin məkrindən xəbərsiz idi, qarşıda onu nələr gözləyirdi bilmirdi. Yoğun budağa dəyib arxası üstə yerə dəydi. Zərbədən silahı əlindən düşdü. Zərbə o qədər güclü və gözlənilməz oldu ki, bir anlıq huşunu itirdi. Özünə gələndə bir müddət harada olduğunu anlaya bilmədi. Meşənin səssiz  qaranlığından üşəndi. Silahını axtarmaq üçün qalxdı, lakin bu qaranlıq otaqda qara pişiyi axtarmaq kimi idi. Qalın kolluqların içində bir müddət eşələndi, yorulub dayandığı yerdə oturdu. Qollarını dizlərinin üstünə çarpaz qoyub alnını söykədi. Yerə bərk dəydiyi üçün bədəninin sızıltısını hiss edirdi. Elə bu vəziyyətdə yuxuya getdi.

***

Meşədə səhərin açılması tam başqa bir mənzərə yaradır, quşların səsi bir-birinə qarışıb bu mənzərəni daha da əsrarəngiz edir. Budaqların arasından süzülən şəfəqlər yarpaqlarda məxsusi rənglərə boyanıb çalarlanır. İnsanlardan fərqli olaraq təbiət heç bir sünilik olmadan öz gözəlliyini bütün çılpaqlığı ilə təqdim edir. Bu günkü səhərin açılması isə tam başqa bir məcradan başlandı.

Başına dəyən küt zərbədən oyandı, durmaq istəyəndə müvazinətini saxlaya bilməyib yıxıldı. Yamac boyu aşağıya doğru yumalandı, on-on beş metr aşağıda olan ağaca sağ böyrü ilə dəyib dayandı. Qarnında olan ağrıdan nəfəsi kəsilirdi, ağrıdan qıvrılıb yamacın üstündə duran iki quldura baxdı. Hər ikisini tanıyırdı.

– Ara, Qaraxan bu sənsən?...

Bu Mixan idi. SSRİ dağılandan sonra quldurbaşı kimi ətrafına özü kimi quldurları yığıb ətrafda olan Azərbaycan kəndlərini talayır, camaata zülm eləyirdi. Qaraxanla dəfələrlə üz-üzə gəlmişdi. Bir anda daxilindəki ağrı yoxa çıxdı. Qəzəbli baxışlarla aşağıdan yuxarı quldurları süzdü. İki-üç metr aralıda axşam əlindən düşən və qaranlıqda tapa bilmədiyi avtomat silahının daşın dalında olduğunu gördü. Mixan silahını yerə qoyub siqaret çıxardı, tələsmədən alışqanla yandırıb dərin bir qullab vurdu.

– Qara, sən yaxşı adamsan, amma mənim üçün yox, mənə çox zülm etmisən, indi haqq-hesab zamanı çatıb. Elə bilirdin daha görüşməyəcəyıx?... Sizdə bir söz var e e e deyirlər, dağ dağa rast gəlmir, insanlar isə görüşürlər, əgər o

zaman sən mənə hurmat etsəydin, indi mən də sənə hurmat edərdim, eli... – dayanıb qəzəbli baxışlarla Qaraxanı süzdü. Növbəti dəfə siqareti sümürüb atdı, əsəbi halda dabanı ilə tapdadı, silahını yerdən qaldırıb amiranə səslə dedi.

– Yaxın gəl, kopay oğlu.

Qaraxan başına dəyən zərbəni unutmuşdu, donuz sifətli Mixanın təhqirlərinə dözə bilməyəcəkdi. Gözucu yerdə olan silahına baxdı, ağır-ağır Mixana tərəf iki addım atıb dayandı.

– Mixan, aramızda nə olubsa, keçib, nə sən məni görmüsən, nə də mən səni.., unudaq hər şeyi.

Mixan təkəbbürlə gülümsədi.

– Quyruğun qapı arasında qalanda başlamısan yalvarmağa? – Nəsə fikirləşib əlavə etdi. – Lap tutaq ki, mən səni buraxdım, əl çəkəcəksən bu işdən? Yox. Mən səni tanıyıram, bilirəm ki, əl çəkən deyilsən. Mən də sənin yerinə olsam əl çəkməzdim. – Başını ona tərəf əyib səsini aşağı saldı. – Ailən əsirlikdədir, başım açılan kimi sənin hayfını onlardan alacam.

Yanındakı quldur silahını çiyninə aşırıb siqaret yandırdı, sallağı oturub tüstülətdi. Qaraxan daha heç nə düşünə bilmirdi, silahına tərəf tullandı. Mixan və yanındakı quldur tərpənməyə macal tapmadılar. Avtomat iki dəfə qısa atəşlə şaqqıldadı. Quldurların hər ikisi yerdə idi. Ayağa durub onlara yaxınlaşdı, ikisi də ölmüşdü. Mixan sağ tərəfi üstə idi. Əsirlərin olduğu yeri öyrənmək məqsədi ilə Qaraxan onu yaralamaq istəsə də güllə ürəyinə dəymişdi. Meyitlərin üstünü axtardı, sürüyüb yaxındakı dərədə olan kolluğa atdı, silah və sursatları götürüb meşənin içində gözdən itdi.

## XVI fəsil

Gündüz vaxtı hərəkət etmək təhlükəli olduğu üçün çox ehtiyatlı olmaq lazım idi. Kəndin üstündə meşənin qurtaracağına çatıb dayandı. Buradan kənd və kənddən keçən Azərbaycanla Ermənistanı birləşdirən yeganə yol açıq-aydın görünürdü. Yolda əməlli-başlı canlanma vardı. Sərhədin o biri tərəfindən gələn hərbi texnikanın sayı-hesabı yox idi. Kənddə də silahlı mülki ermənilər vardı, onlar hətta bir neçə dəfə meşənin kənarına, onun gizləndiyi yerin lap yaxınlığına qədər gəldilər. Onlar arxayın halda nə barədəsə sakitcə söhbət edirdilər. Tam qorxusuz və rahat idilər. Qalın kolluqda oturub gözləri qarşısında baş verənləri müşahidə edir, arabir durbindən istifadə edirdi.

Axşam hava qaralan kimi kolluqdan çıxdı. İki gün öncə buranı tərk edərkən sursatları gizlətdikləri yerə gəldi. Torpağı eşib bir neçə tank əleyhinə mina və qumbara götürdü. Kəndin sol tərəfindən keçib körpüyə yaxınlaşdı. Korpünün üstündəki pavilyonun qarşısında iki hərbi maşın və bir mülki ağ rəngli "Jiquli" markalı maşın dayanmışdı, generator vasitəsi ilə pavilyon ərazisini işıqlandırsalar da ətraf qaranlıq idi. Erməni hərbçilər pavilyonun qarşısında yeyib içirdilər, Qaraxan da acmışdı, iki gün idi ki, dilinə heç nə dəymirdi. Bir az aralıda kolların arasında oturub onları müşahidə etdi. Səbri tükənirdi, səhərə qədər onların yatmasını gözləmək fikrində deyildi. Yaxşı bələd olduğu üçün körpüyə ən yaxın yolu seçmişdi. Ehtiyatla körpünün altına keçdi, götürdüyü mina və partlayıcıları yerləşdirib qayıtdı. Pavilyonun içində daha kimlərin ol-

masını öyrənmək məqsədi ilə bir az da gözlədi. Mixanın sözləri yenidən qulaqlarında səsləndi. Qalxıb pavilyona yaxınlaşdı. Onlara az qalmış işığa çıxanda ona tərəf oturan mayor qışqırıb nəsə dedi, ayağa qalxıb silahına əl atdı. Lakin gec idi. Qaraxan yaxın məsafədən onların dördünü də yerə sərdi və dərhal pavilyona girdi. İçəridə olan kök erməni daxıldan tapançanı götürüb geri dönəndə qapıda hazır vəziyyətdə dayanan Qaraxanı görüb silahını yerə atdı, Azərbaycan dilində yalvarmağa başladı.

– Sana kurban olum, mani öldurma, nə desən edəram axper...

Sözü ağzında qaldı, üzünə dəyən solaxay şillədən yıxıldı. Qaraxan tapançanı götürüb belinə taxdı. Erməni qapıya tərəf sürünürdü.

– Ayağa qalx!

O, bədəninə yaraşmayan cəldliklə qalxdı.

– De görüm, iki gün əvvəl bu kənddən tutulan əsirləri harada saxlayırlar?

– Bılmıram axper, vallax bılmıram. Man stalovoy işladan adamam, hardan bılım?

Qaraxan vaxtını itirib sorğu-sualı uzatmadı.

– Əgər bilmirsənsə, mən niyə səni sağ buraxım?... İlanın ağına da lənət, qarasına da, siz hamınız eyni zibilsiz, – deyib tətiyi sıxdı. İlk dəfə idi ki, mülki əhaliyə atəş açırdı...

***

Səhərə yaxın heç bir maneəyə rast gəlmədən sərhədi keçdi, qarşıda Dığ və Gorunzur kəndlərinin işıqları görünürdü. Yamac boyu yuxarı qalxıb dağın döşündəki mağa-

raya çatdı. Son zamanlar mağaralarla maraqlanan olmadığına görə düşünürdü ki, bura onun üçün təhlükəsiz olar. Düşündüyü kimi də oldu.

Mağaranın girişi qalın qaratikən kolları ilə bağlanmışdı, çətinliklə olsa da içəri keçdi. Üzü Dığ kəndinə sarı bir yer tapıb oturdu. Buradan qədim Zəngəzurun böyük bir hissəsinə gözəl mənzərə açılırdı. Kənddə pavilyondan götürdüyü rusların hərbçilər üçün istehsal etdiyi qarabaşaq bankasını açıb soyuq halda yedi və silahını əlinə dolayıb, kürəyini sal daşa söykədi, elə oturduğu yerdə də yatdı...

Gördüyü qorxunc yuxunun təsirindən yerindən dik atıldı. Günəş bütün hərarətiylə mağaranın içərisini isidirdi. Bəlkə də gördüyü yuxu elə buna görə idi. Yuxusunu xatırladı. "Görür ki, döyüşçüləri ilə birlikdə əvvəlki mövqelərdə döyüşürlər. Yoldaşlarına meşəyə çəkilməyi əmr edir, özü isə döyüşə-döyüşə həmin bu mağaraya girir. Düşmən nə qədər çalışsa da mağaraya yaxınlaşa bilmir. Dərəyə od vururlar, alov və tüstü hər tərəfi bürüyür. Tüstünün içində ailəsini görür, ermənilər qızlarını alışmaqda olan ağaclardan asmışdılar. Sitarə isə "Hardasan Qara, kömək elə," deyərək fəryad içində onları xilas etməyə çalışır."

Sitarənin tükürpədən fəryadına oyandı. Özünü saxlaya bilmədi, mağaranın içində üzü üstə düşüb ağladı. Həyatda nə zamansa bu qədər köməksiz, çarəsiz, aciz olacağı ağlına gəlməzdi...

Hava qaralan kimi mağaradan çıxıb Dığ kəndinə tərəf yol aldı. Karapetlə görüşmək qərarına gəlmişdi. Bəlkə ondan əsirlər haqqında nəsə öyrənə bilərdi. Ümidi yalnız buna idi...

Dığa çatanda gecədən xeyli keçmiş, kəndin küçələrin-

dən əl-ayaq çəkilmişdi. Lakin hər etimala görə ehtiyatlı olmalı idi, camaatın əksəriyyəti onu tanıyırdı. Karapetin evi kəndin ortasında olduğundan evə yaxınlaşmaq elə də asan olmadı. Arabir qarşısına çıxan adamlardan yayınaraq Karapetin evinə çatdı. İkimərtəbəli ev yarğanın üstündə tikilmişdi, arxa tərəfində böyük baxçası və meyvə bağı, şərq tərəfdə olan dərənin üstündə tövlə və ot tayası vardı. Həyət tamamilə məftillə çəpərə alınmış, sıx böyürtkən və moruq kolları ilə əhatə olunmuşdu. Kiçik həyətdən bir neçə metr aralıdan kəndin mərkəzi yolu kecirdi. Arabir mülki və hərbi maşınlar görünür diqqət çəkməsin deyə həyətin iç tərəfində qalın böyürtkən kollarının arxasında gizlənirdi. Özü üçün kolların arasında yer açdı. Səhərə kimi olsa da Karapetin bayıra çıxmasını gözləməli idi.

İkinci mərtəbənin ona tərəf olan pəncərəsinin pərdəsi azca aralandı və tez də bağlandı. Bu nə qədər ehtiyatla olsa da Qaraxanın gözündən qaçmadı. Bilirdi ki, Karapet düşmənli olmaqla həm də tədbirli adamdır, gecələr canavar kimi bir gözü açıq yatır. Az sonra Karapet ikinci mərtəbənin eyvanına çıxdı. Qaranlıqda sürahidən tutaraq ağır-ağır həyətə endi. Başına gələn müsibətdən sonra nəzərə çarpacaq dərəcədə qocalmış, həm də çox düşmüşdü. Onun gizləndiyi yerə yaxınlaşıb erməni dilində sakit səslə dedi:

– Ay adam kimsən?... Bəri çıx görüm...

– Karapet kişi mənəm, – kolların arasından səs gəldi.

– Ara, sən kimsən? Gözüm yaxşı seçmir, – dönüb evin birinci mərtəbəsinə tərəf getdi, – dalımca gəl.

İçəri keçib qapını yarıaçıq saxladı, Qaraxan kolların arasından çıxıb çəpərin dibi ilə həyətə qədər getdi, kiçik

həyətdən keçib yarıaçıq qapıdan evə daxil oldu. Qaranlıq otaqda iki addım atıb dayandı, ərimiş parafinin tünd iyi boğazını qıcıqlandırdı, arxada kimsə qapını bağladı, kobudluqla dirənən silahın soyuqluğunu kürəyində hiss etdi. Otağın o biri başında kibrit yandı, Karapet ləng hərəkətlə şamları yandırırdı. Geri dönüb onun qarşısına gəldi.

– Qa-ra-xan!?... Dəli müsürman buralara necə gəlmisən... – təəccüblə bir neçə dəfə başdan-ayağadək süzdü.

– Hə-ə, mənəm Karapet kişi.

– Bəs deyirlər səni öldürüblər, kəndin sağ qalanlarını əsir aparıblar?

Araya yenidən sükut çökdü. Karapet silahlılara işarə verib getmələrini bildirdi. Onun qoluna girib deyinə-deyinə işığa tərəf apardı. Önündə masa qoyulan köhnə divanın üstündə oturtdu, danışa-danışa kətili çəkib onunla üz-üzə oturdu. Çörək, sarmısaq, soğan və kolbasadan ibarət yeməyi onun qarşısına itələdi.

– Yəqin ki, acsan, bir tikə ye... – öz-özünə danışırmış kimi davam etdi, – Bunlar kimdir, hardan çıxdılar, nəyə və kimə qulluq edirlər baş açmaq olmur, eli. Öz doğmalarına da rəhm eləmirlər. Əvvəllər də beləleri olurdu, ancaq bir-iki dəfə başa salandan sonra azğınlıqdan əl çəkərdilər. İndikilərəsə heç nəyi başa salmaq olmur, daha da quduzlaşırlar. O gün o quldurbaşı Mixan əmisini camaatın gözləri önündə güllələdi. Nədi-nədi, buralara təzə bir quldurbaşını rəis təyin ediblər, özünü ona göstərmək üçün...

– Kimdir ki, təzə rəis?...

– Malxazyan Armenak. Əvvəllər siz tərəfdə işləyib, türk dilini erməni dilindən də yaxşı bilir. Anasının əmcə-

yini kəsənin biridir. De görüm, uşaqların hardadır, bura niyə gəlmisən?...

– Onları sizinkilər tutub, harda olduqlarından xəbərim yoxdur. Düşündüm ki, bəlkə sənin xəbərin olar...

– Burda vəziyyət düşündüyündün də ağırdır. Malxazyan bütün səlahiyyəti verib Mixana, o da kimdən şübhələnirsə, həmən öldürür. Bütün evlərə nəzarətçilər qoyub. Özü isə ortalıqda pırpıra kimi pırlanır, kimi istəyirsə, sorğu-sualsız güllələyir. Bizim ev də nəzarətdədir. Bəlkə qoruna bilək deyə şəhərdən qardaşımın iki oğlunu gətirmişəm, bizdə qalırlar.

– Daha Mixan yoxdur, bir az rahat nəfəs ala bilərsiz.

– O yoxdur, ondan betərini qoyacaqlar, sən bu Malxazyanı tanımırsan...

– Karapet kişi, bizim əsirləri hara apardıqlarını öyrənə bilərsən!?...

Karapet kişi çiyinlərini çəkib dedi:

– Nə bilim, sabah baxarıq.

Qaraxan çox yorulmuşdu, köhnə olsa da, divanın rahatlığı onu yuxu aləminə çəkirdi. Karapet qalxıb otaqdan çıxdı.

***

Qaraxan yatsa da, qarışıq yuxular ona rahatlıq vermədi. Durub yerində oturdu. Münaqişə başlanandan sonra otağın pəncərələri hörüldüyündən içəri işıq düşmürdü. Böyük pəncərənin əvəzinə yuxarıda kiçik nəfəslik qoyulmasına baxmayaraq bayırdan işıq görünməsin deyə qalın parça ilə örtmüşdülər. Qaranlıqda vaxtı təyin etmək çətin

olsa da, axşama yaxın olduğunu təxmin edirdi. Arxa qapı açıldı, Karapet özünəməxsus ləngliyi ilə içəri daxil oldu. Qaraxan ona tərəf baxmasa da, hərəkətlərindən içəri girənin kim olduğunu və gəliş tərzindən heç də yaxşı xəbərlə gəlmədiyini anladı. Susub onun nə deyəcəyini gözlədi.

Karapet ağır-ağır masaya yaxınlaşıb şamları yandırmağa başladı. Sanki eşitdiklərini ona necə çatdırmaq üçün vaxt qazanırdı. Qaraxanın səbir kasası dolsa da, Karapetin ləng hərəkətlərini izləməklə kifayətləndi. O şamları yandırıb kətili çəkib oturdu.

– Yəqin ki, başa düşdün, heç bir xoşagələn məlumat yoxdur. O dəstədə olanların biri ilə danışdım. Siz camaatın təxliyəsini hazırlayanda artıq bunların xəbəri varmış. Bir gün əvvəl "Qanlı dərə"də pusqu qurublar. Ora çatan kimi camaatın mühafizəsi üçün göndərdiyiniz iki nəfəri dərhal aradan götürüblər.

– Iki yox üç nəfəri...

– Sözümü kəsmə. Mühafizəçinin birini sənin arvadın güllələyib, o satqın olub, siz camaatı təxliyə etməyə qərar verən kimi, burdakıların xəbəri olub.

– Öyrənmədin o it oğlu satqın kim olub?

– Yox. Ancaq belə başa düşdüm ki, bu sizin təyin etdiyiniz mühafizəçilərdən biri olub. O sənin ailəni Malxazyana nişan verib. Sənin arvadın da onun alnına üç güllə vurub, tapança ilə. Arvadında tapança var idi?...

Qaraxan başını tərpətməklə onun sözünü təsdiqlədi. Artıq onda heç bir şübhə qalmamışdı. Qəzəbdən qan dolmuş gözləri böyümüşdü, oturduğu yerdə qıvrılıb başını buladı.

– Satğın! Əziz!.., it oğlu it!... – Qaraxan susdu, dalağı

sancdı, özünə acığı tutdu. Axı o Əzizin soy kökünü tanıyırdı, o alçağın erməni qarışığı olduğunu bilirdi. Bəs niyə unutmuşdu bunu? "Kəndin qız-gəlininin namusunu zatında qarışıq olan bir nəfərə həvalə etmək olardımı? Of-f-f, Qaraxan of-f-f! Bu işdə günahkar yalnız özünsən. Başqalarında günah axtarma. Fahişə Siranuşun nəvəsindən bundan artıq nə gözləyə bilərdin axı?"

Karapet "Qanlı dərə"də baş verənləri təfərrüatı ilə danışmağa başladı.

– Dəstəyə başçılıq edən Malxazyan olub, Mixan da onun yanında olub. Onun göstərişi ilə oğlan uşaqlarını ayırıb Yerevana, qalanlarını isə Şuşa türməsinə aparıblar. Məlumatı verən adam, uşaqları Yerevana aparanlardan biridir. Şuşaya aparılanların üstündə isə Malxazyan özü gedib. Bu qədər. Bir də dəstə üzvləri bir gün sonra qayıtsalar da, nə Mixan nə də Malxazyan o vaxtdan hələ də bu tərəflərə qayıtmayıblar. Malxazyanın göstərişi ilə Mixan işğal olunan kəndlərdə təmizlik işləri ilə məşğuldur.

Qaraxanın ürəyi az da olsa rahatlandı. Heç olmasa ailəsini harada axtarmağı öyrənmişdi, belə olmasaydı nəticəsiz bütün Ermənistanı ələk-fələk edəcəkdi. Karapet kişiyə necə təşəkkür edəcəyini düşünürdü ki, qoca elə bil onun ürəyini oxudu.

– Qaraxan, mənə təşəkkür, filan lazım deyil, biz qonşuyuq, gor qonşusu, bu dünyada biz necə qonşuyuqsa, ölülərimiz də o dünyada əbədi olaraq qonşudurlar. Dünən sən mənim qapımı döydün, bir müddət əvvəl isə mən sizin qapını döymək üçün iki oğlumu göndərmişdim. Onları bu məlunlar yarı yolda qanına qəltan eləyib adını qoydular ki, milli münaqişənin qurbanı olublar. Atdılar sizin

üstünüzə. Düşündülər ki, məni aldada bilərlər. – Danışa bilmədi, udqunub göz yaşlarını sildi. – Bunların beyinlərini necə yeyiblərsə doğmalarının da qanına susayıblar. Bu millət, torpaq davası deyil, arada böyük oyunlar gedir, böyük dövlətlər imperiyalarını saxlamaq üçün bizim kimi kiçik dövlətlərdən tarixən istifadə ediblər, bu gün də edirlər. Bizim axmaqlar isə öz evlərində ağa olmaqdansa, onların qapısında nökər olmağı özlərinə şərəf bilirlər. Bu tarixən belə olub, olacaq da...

Durub divardakı rəfdən siqaret qutusunu götürdü, ağır addımlarla yerinə qayıtdı. Bir siqaret yandırıb qutunu masanın üstünə atdı. Dərin bir qullab vurub başını yırğaladı. Qaraxan da qutudan siqaret götürüb yandırdı.

– Arada bizimkimilər əziyət çəkir. Qohumlar bir-birini görmək istəmir, qardaşı qardaşa düşmən eləyiblər. Bu yaşımda iki oğul dağı çəkiblər sinəmə... Onları bağışlaya bilərəm?... Heç vaxt... İmkan düşən kimi baş götürüb çıxacam bu xarabadan, elə yerə gedəcəm ki, bu millətdən bircə nəfər də olmasın...

Siqareti kötüyünə kimi çəkib əsəbi halda külqabına basdı, elə bil günahkar bu siqaret kötüyü idi, qisasını ondan alırdı. Qaraxan isə sakitləşmişdi, heç bir şey haqqında düşünmürdü, ya da düşünə bilmirdi. Bir azdan hava qaralan kimi buranı tərk edəcəkdi. Hələlik hara gedəcəyini tam dəqiqləşdirməmişdi. Qarışıq fikirlər beynini dumanlandırır, qəti qərar verə bilmirdi. ağlına gələn ilk fikri Karapetə dedi.

– Nə deyirsən, bəlkə onlarla danışasan, məni əsir alsınlar, ailəmi buraxsınlar...

Karapet təəccüblə onun üzünə baxdı.

– Nə danışırsan, dəli müsürman?... Onlar bilsələr ki, sən burada olmusan, nəinki məni hətta yüz il əvvəl ölənlərimi də gorbagor edərlər. sən onları yaxşı tanımırsan, insanlıqdan xəbərləri yoxdur onların. Onlarla heç bir danışığa getmək olmaz, danışığa getsən, səni də aldadıb tutacaqlar, amma dedikləri heç bir sözün arxasında durmayacaqlar.

Karapet bir siqaret də yandırıb ağır addımlarla otaqdan çıxdı, bir müddət sonra əlində salafan torba içəri daxil oldu. Qaraxan hələ də divanda oturmuşdu.

– Bunları özünlə götürərsən. Yolda çətinliyin çox olacaq.

Yalnız indi yerindən qalxdı, Karapetə yaxınlaşıb üz-üzə dayandı. Gözlərindəki həyəcan və narahatlıq açıq-aydın görünürdü.

– Karapet! Yerevana aparılan uşaqların arasında oğlum Abbas da var...

***

Günortadan başlayaraq gecəyarıya qədər hərbi maşınlar dayanmadan şərqə tərəf müxtəlif növ silah-sursat və canlı qüvvə daşıdılar. Hərbi maşınların səsindən və qaldırdığı toz-dumandan kənddə dayanmaq mümkün deyidi.

– Ruslardır. Deyəsən bütün ordusunu yeridib bura. Gör neçə saatdır dayanmadan gedir. Adını da qoyurlar ki, "Azad Artsax ordusu" təhlükəsizliyini təmin etmək üçün ətraf yaşayış məntəqələrini öz nəzarəti altına alır. Guya bu müharibəni onlar özləri aparır... Dünyada necə alçaq və ikiüzlü siyasətin aparıldığını görürsənmi? Ən dəhşətlisi

isə dünya xalqlarının buna göz yummasıdır. Kimə lazımdır axı Karapet burda nələr çəkir...

Əsəbi halda əllərini havada yellədi, ermənicə rusların qarasına bir neçə yağlı söyüş də söydü. Bayıra çıxıb tez də qayıtdı. Rəfdən bir neçə qutu siqaret və kibrit gətirib masanın üstünə qoydu.

– Bunları da götür. Yığış, daha gedə bilərsən. Uşaqlar səni arxa qapıdan ötürəcəklər. Buralara yaxşı bələdsən, dərə yuxarı çıxıb meşənin ətəyi ilə şərqə tərəf get. Abbasdan da nigaran qalma. Elə günü sabahdan tapşıracam uşaqlara, bu işlə məşğul olsunlar.

– Hər şeyə görə sağ ol, Karapet kişi.

– Allah bədxahların tifaqını dağıtsın. Get, uğurlu yollar!

Hər ikisi bir anlıq da olsa keçmişə qayıtdılar. Firavan yaşadıqları, ailələri ilə birlikdə olduqları illərə. İndi hər ikisi o illəri kədərlə xatırlayırdılar. Əgər kənardan onları görən olsaydı, bunu anlamaq o qədər də çətin olmazdı.

## XVII fəsil

İki gün əvvəl gəldiyi yolu geri qayıdırdı. Əvvəlki dövlət sərhədi boyu şimala tərəf üz tutdu. Indi burada sərhəddən əsər-əlamət belə yox idi. Yerində çox da dərin olmayan xəndəklər qalmışdı.

Dığdan çıxandan sonra hara gedəcəyini, ailəsini harada axtaracağını bilməsə də gedirdi. Dayanmaq onun üçün məhv olmaq kimi bir şey idi. Hərəkətdə olmalı idi, lakin nəticəsiz hərəkət özünü fiziki cəhətdən yormaqdan başqa bir şey deyildi.

Bu yerlərə yaxşı bələd idi, yolu itirmək təhlükəsi yox idi. Dərəni keçib meşənin girişində ayaq saxladı, yaşıl otların üstünə uzanıb səmaya baxdı. İlk dəfə görürmüş kimi ulduzların ilahi düzülüşünə heyranlıqla baxdı. Arabir bəzilərinin axıb səmanın ənginliyində görünməz olması bu mənzərəni daha canlı və cəlbedici edirdi. Səma, üzərində bir-birindən nur alıb sayrışan ulduzlar və onlardan da sonra sonsuz bir boşluq. Gördükləri necə də gözəl idi, bir neçə dəqiqə belə uzanıb bu gözəlliyə tamaşa etdi. Səma ulduzlu və açıq olsa da ay görünmürdü. Dərindən ah çəkdi. Ona elə gəldi ki, qəlbi də ulduzlardan sonra boş olan səma kimidir.

Bəzən insan gözləri önündə olan gözəlliyi duymur, onu adi qəbul edir. Göydə ulduzların düzülüşünü birinci dəfə görmürdü Qaraxan. Bu yaşa çatana qədər bəlkə də, min dəfə görmüşdü bu mənzərəni, lakin indi duyduğu gözəlliyi duymamışdı.

Birdən-birə ağlına gələn fikirdən qalxıb yerində oturdu. Ailəsinin harada olduğunu öyrənmək üçün Malxazyanı tapmalı idi. Onu tapmaq isə o qədər də asan olmayacaqdı. Cəld yerindən qalxıb o qədər də sıx olmayan meşəyə girdi.

Artıq gecələr yol getməyə alışmışdı. Karapetin zirzəmi evindəki kəskin parafin ətri bütün bədəninə və paltarına hopmuşdu. Hər dəfə nəfəs alıb verəndə həmin kəskin parafinin ətrini və dadını ağız-burun boşluğunda hiss edirdi.

Şimal tərəfdən dağları keçib Turşsu kəndində Şuşa yolunun üstünə çıxdı. Yolda arabir maşınlar Şuşa və əks istiqamətdə hərəkət edirdi. İki maşın Laçın yolunda göründü, yəqin ki, hərbi maşınlar idi. Onlar ağır-ağır döngəni dönüb kəndə çıxan yoxuşla irəliləyirdi. Qaraxan maşınla-

rı daha yaxından izləmək üçün yola daha da yaxınlaşdı. Maşınlar sərt yoxuşu qalxıb yolun kənarında meydançada dayandılar. Maşınları söndürüb aşağı endilər. Hər maşında üç nəfər olmaqla altı nəfər hərbi geyimli şəxslər idi. Görünür buralara yaxşı bələd idilər. Söhbət edə-edə dərədə yolun kənarında olan bulağa tərəf getdilər. Qaraxan onlara o qədər yaxın idi ki, hətta pıçıltıyla danışsaydılar da nə dediklərini eşidə bilərdi. Onlar həm ermənicə, həm də rus dilində, arabir də azərbaycan dilində danışırdılar.

– Ara, deyirəm əgər ruslar olmasaydı, bu dəli müsürmanı buralardan çıxarmaq mümkün olmayacaqdı.

– Ara, çavıtdanım! Rus olmasaydı, İran bizimlə olacaqdı, bu ağqulaqlar onlara imkan vermirlər. Bizimçün ruslardansa iranlıların olması daha yaxşı olar...

– Elə demə, axmaq. Ağqulaq deyib bəyənmədiyin ruslar tarixən bizim arxamızda dayanıb, bizimçün dövlət qurublar. Yoxsa türklərin torpağında dövlət qura bilərdik biz?...

– Axpercan, xvatit də.., onların maraqları olmasa, bizə gözlərinin ucu ilə də baxmazlar. Axı sən onları yaxşı tanıyırsan...

– Pust vse oni poydyot dolşe, qlavnoe, çto mı dobilis svoey çeli. Eto oçen vajno dlya nas.

– Da, eto verna.

Bulaqdan ayrılıb maşınlara tərəf getdilər. Sürücülər maşınları işə saldı, yüklü maşınlar Şuşaya doğru irəlilədi. Qaraxan yolu keçib evlərin arası ilə kəndin mərkəzinə tərəf getdi. Kənddən heç kimi tanımasa da bu tərəflərin camaatına yaxşı bələd idi.

Hələ ermənilərin söhbətinə qulaq asarkən ocaq qoxu-

sunu hiss etmişdi. Tüstünün iyi ilə gəlib dərənin kənarında olan birmərtəbəli evin önündə dayandı. O yanıla bilməzdi, tüstü bu evdən çıxırdı. Lakin içəridə kimin olması maraqlı idi. Onun fikrincə, kənd camaatından kimsə belə səhlənkarlıq edib ocaq qalamazdı.

Ehtiyatla ensiz həyət qapısından içəri keçib həyətdəki böyük tut ağacının arxasında daldalandı. Həyətə baxan pəncərə qalın parça ilə bağlansa da, parçanın süzülmüş yerlərindən içəridə şam ya da neft lampasının yandığı açıq-aydın görünürdü. Işıq o qədər zəif idi ki, yalnız həyətə girəndən sonra bunu sezmək mümkün idi.

Qaraxan silahını hazırlayıb eyvana çıxdı, sakitcə qapıya yaxınlaşdı. Bir anda qapını açıb içəri keçdi və hökmlü səslə:

– Tərpənməyin!

Heyrətdən yerində quruyub qaldı. Kifayət qədər qoca, cılız bədənli bir kişi yataqda olan ağ saçlı xanımına qaşıqla yemək yedizdirirdi. Elə bil hər ikisi kar idilər, onun komandasına heç məhəl də qoymadılar. Silahını aşağı salıb onlara yaxınlaşdı. Evin ortasında kətilin üstünə qoyulmuş neft lampasının yanında dizləri üstə çökdü, silahını döşəmənin üstünə qoyub oturdu. Kişi o qədər arıq idi ki, geyindiyi paltarın altından sümükləri aydın görünürdü. Ona tərəf baxmadan özünəməxsus səslə dedi:

– Cəhənnəmə xoş gəlmisən, bala. – Qaraxan duruxub qaldı. Araya dərin sükut çökdü, xeyli sonra qoca yenidən sükutu pozdu. – Bir zamanlar buralar əsl cənnət idi, qədrini bilmədik, öz əllərimizlə, əməllərimizlə cəhənnəmə çevirdik. Indi cəhənnəm boşdur, çünki bütün şeytanlar burdadır... Çox yaşamaq da bir şey deyil, oğul.., dünya-

nın hər üzünü görürsən. Eşitmişdik ki, cənnət, cəhənnəm o dünyada olur, sən demə hamısı bu dünyadaymış, – qoca susdu, qabı kətilin üstünə qoyub ilk dəfə onun üzünə baxdı. – Sən kimsən!?... Hansı rüzgar səni bura atdı?

– Sizi atan rüzgar mənə də rəhm etmədi, baba... Kənd camaatı niyə sizi aparmayıb? Bu yaşda adamları köməksiz tərk edib getmək olar?.. Bəs sizin qohumlarınız, övladlarınız?...

– Camaatı qınama oğul. Heç kimin günahı yoxdur. Dəfələrlə təkid etdilər, etiraz etdim. – Qoca üzünü döndərib kədərli gözlərini gizlətdi, başı ilə yataq xəstəsi olan xanımını göstərdi. – Üç ildir, yataq xəstəsidir, bir ildən çoxdur danışa bilmir, heç kimi də tanımır. Artıq son günlərini yaşayır. Bunu götürüb hara gedim axı!?...

– İt kimi qapıları sülənirlər baba. Qorxmursan ki, gəlib bura da çıxarlar?...

Qoca yenidən ona tərəf döndü, üzündə acı təbəssüm var idi.

– Gec, ya tez... gəlib tapacaqlar... – Bir anlıq duruxdu, nəsihət verirmiş kimi davam etdi. – Bu dünyada itirməkdən qorxma, oğul. Birini itirmədən, digərini tapa bilməzsən. Bir də ki, döyüşdə yox, təslim olanda məğlub olur insan. Heç zaman yaxşı insan olmağa çalışma, onsuz da ilk səhvində insanların ən pisi sən olacaqsan. Həyat keşməkeşlərlə doludur, lakin ən mənalı həyatda belə cəmi üç böyük hadisə olur, doğulmaq, yaşamaq və ölmək. Qalan nə varsa hamısı göz qamaşdıran illuziyadır, bir az acı, bir az şirin... Biz də doğulduq, yaşadıq.., təkcə ölmək qalır. Ondan qorxmaq isə namərdlikdir. İstəsən də, istəməsən də bir gün öləcəksən.., necə yaşamısansa elə o cür də ölə-

cəksən. Dünyaya gəlimlə gedimin arasından nazik, tükdən də nazik bir xətt keçir. Az yaşayanla çox yaşayanın arasında heç bir fərq yoxdur. Yüz il yaşasan da bu xətti qalınlaşdıra bilməzsən...

Kişi yaşlı olduğu qədər də müdrik idi. Üzündəki cizgilər ağır həyat tərzinin nişanəsi idi. Bunların yanında qalıb onlara yardım etmək istəsə də, getməliydi, nə qədər tez çıxsaydı, o qədər yaxşı idi. Gecə vaxt itirmək istəmirdi.

– Mənim sizə nə köməyim dəyə bilər, baba?

Qoca onun getmək istədiyini anlayıb vəziyyətini dəyişmədən ağır-ağır danışmağa başladı.

– Getmək istəyirsən?... Deyəsən səni yordum, başını ağrıtdım, çoxdandır dərdimi bölməyə adam tapa bilmirdim. İnsan tək olanda daha dərin düşünür, ağıllı qərarlar verir. Tək qalmağı bacaranlar böyük adamlardır, oğul. Sənin kimi.., – bir az susub əlavə etdi. – Nə zamansa, buralara yolun düşsə, bizə baş çəkməyi unutma.

Qaraxan Karapetin onun üçün yola qoyduğu yeyəcəkləri kətilin üstünə qoydu, ayağa qalxdı, silahını çiyninə keçirib qapıya yaxınlaşdı.

– Ocaq qalama, baba, onun iyi ilə tapdım sizi. Salamat qalın.

– Uğur olsun!

Bir azdan səhər açılacaq və onun hərəkəti dayanacaqdı, burada meşə seyrək olduğu üçün gündüz hərəkət etmək təhlükəli idi.

## XVIII fəsil

Yol ilə paralel olaraq Şuşa istiqamətinə irəlilədi. Artıq səhərə yaxın olduğu üçün yola yaxın bir yerdə daldalanıb axşama qədər gözləməli idi. Gündüz hərəkət etmək təhlükəli idi. Qarşısına çıxan birinci dərədə kolların arasında dincəlmək üçün yer seçdi. Dərədəki bulaqda yuyundu, su qabını doldurub doyunca içdi. Hava işıqlaşana yaxın seçdiyi yerə qayıdıb uzandı. Yalnız indi yorulduğunu, ayaqlarının ağrıdığını hiss etdi...

Qızmar günəş şüalarının yandırıcı təsirindən oyandı. Qalın kolların arasında yatmasına baxmayaraq sıx budaqların arasından süzülüb keçən şüalar gözlərini qamaşdırırdı. Yatağına quru otlardan döşəməsinə baxmayaraq bütün bədəni ağrıyırdı. Birtəhər sağ tərəfi üstə dönüb harada olmasını təyin etmək üçün dərə aşağı və üzbəüz yaşıllıqlara bürünən dağlara baxdı.

Aşağıda, dərənin yol ilə kəsişdiyi yerdə ağacların arasında Zarıslı kəndində yolçular üçün nəzərdə tutulmuş kafenin ağ dəmirlə örtülmüş damı görünürdü. "Görəsən indi orada kimsə varmı?" deyə düşündü. Axşam ora baş çəkməyi qərara aldı.

Qaraxan bu yerlərə yaxşı bələd idi, dəfələrlə yolüstü bu kafedə oturub yemək yemişdi, hətta bu gün adlarını unutsa da o zaman kafedə işləyənləri yaxşı tanıyırdı. Təkcə kafenin sahibi Ağamirzə kişini xatırlayırdı bu gün. Kürən, ortaboylu, sakit təbiətli bir kişi idi. Müştərilərlə həmişə yaxşı ünsiyyət qurmağa çalışırdı.

Daha yaxşı görmək üçün yastıq kimi istifadə etdiyi çan-

tadan durbini çıxarıb ətrafı müşahidə etdi. Turşsu-Zarıslı yolunda döngədə iki "Niva" markalı maşın göründü. Durbinlə içəridə olanları belə görmək mümkün idi. Maşınlar asta sürətlə gəlib kafenin qarşısında dayandılar. İndi onları görmək mümkün olmasa da, kafeyə gəldiklərinə əmin idi. Kafe qayanın altında yerləşdiyi üçün yuxarıdan yalnız damını görmək mümkün idi. Gecəni gözləməyə səbri çatmadı. Silahını götürüb dərənin içinə endi.

Dərə aşağı gəlib kafenin lap yaxınlığında dayandı. Üç nəfər kafenin sağ tərəfində dərənin kənarında dayanıb siqaret çəkirdi, onlardan ən yaşlısı kök, hündürboy, keçəl erməni əllərini ölçə-ölçə astadan danışır, yanındakılara nəyisə başa salmağa çalışırdı. Qaraxan onların danışığını eşitməsə də söhbətin kafe barədə olmasına əmin idi.

Artıq günəş qüruba enirdi, bir azdan bu gün də bitib tarixin bir anına dönəcəkdi. Qaraxan dağın arxasında gizlənməyə çalışan günəşə baxdı. "Əgər növbəti gün hər şey təkrar yenidən başlayacaqdısa, yeni bir günün bitməsi və ya başlaması nə qədər yaxşı hal sayıla bilər ki?..." deyə düşündü. İndi çox şey, hətta ölüm onun üçün adiləşmişdi.

Xasiyyətcə nə qədər sakit olsa da gedən proseslər ondan yan keçmədi. O sovet vətəndaşlarının ən elitar təbəqəsi sayilan müəllim idi, sovet təhsil sisteminin adlı-sanlı universitetində təhsil almışdı. Həvəslə millətlərin qardaşlığını, dinlərin puç və əfsanə olmasını, "Elmi kommunizm"i öyrənmişdi. Demək hamısı utopiya imiş, çəkdiyi əziyyətə, itirdiyi zamana heyfi gəlirdi. "Bu idimi elmi kommunizm, millətlərin qardaşlığı... İnsanların minbir əziyyətlə qurduğu güzaranı bir an içində darmadağın etmək, özlərini əsir aparmaq.., lənət olsun hamısına." Zaman keçdikcə özünə

qapıldı, daha da qaradinməz oldu, onsuz da danışmağa kimsə yox idi. Düşüncələri də keyləşmişdi, yalnız qisas haqqında düşünə bilirdi.

***

Günəşin batması ilə dərələrdə olan bürkü çəkildi, hava sərinlədi, hətta əsən sərin mehdən üşüməyə başladı. Səmanı ulduzlar bəzəsə də ay görünmürdü. Enib kafenin lap yaxınlığına gəldi. Kafenin yan pəncərəsindən həyətə içəridə yanan neft lampasından zəif işıq süzülürdü. Süzülən zəif işığın fonunda söhbət edən bayaqkı üç nəfərin yalnız siluetlərini görmək mümkün idi.

Yaxınlıqda yiyəsiz qalan ev heyvanlarının və onların ovuna çıxan vəhşi heyvanların bir-birinə qarışan ekzotik səsləri vahimə yaradırdı. Qaraxanın indiki vəziyyəti pusqya yatıb ovunu parçalamağa hazırlaşan pələngi xatırladırdı.

Söhbət edənlərdən biri içəridəkilərdən kimisə çağırdı.

– Ara, Eqişcan!...

Kafedən çıxan yarı mülki geyimli arıq, balacaboy erməni əlindəki açarı fırlada-fırlada söhbət edənlərə yaxınlaşdı və onlardan birinin tapşırığı ilə dönüb yaxınlıqda dayanan maşına oturub işə saldı. Maşının işıqları kafenin həyətini aydınlatdı. Kafedən daha bir nəfər çıxıb qapının ağzında dayandı. Çox keçmədən söhbət edənlərdən ikisi sağollaşıb maşına otrdular, maşın asta sürətlə Şuşa istiqamətinə yola düşdü. Qaraxan əsəblərini birtəhər cilovlayıb yerə tüpürdü.

– Tfu sizə, murdar it uşaqları, özlərini elə aparırlar ki, elə bil buraların sahibidirlər...

Silahını yoxladı, səsboğucunu bağlayıb çantasından iki qumbara götürdü. Kafenin arxası ilə sol tərəfə keçib qapıya yaxın bir yerdə ağacların arasında gizləndi. O, əvvəllər bu kafedə çox olmuşdu. Böyük bir ustalıqla çay daşından tikilmiş kafenin iç tərəfi kiçik mətbəx və geniş zaldan ibarət idi. Mətbəxdən bir qapı da açılırdı ki, bura həm kafenin müdirinin otağı idi, həm də anbar kimi istifadə edilirdi. Sonralar arxada anbar kimi istifadə etmək üçün daha bir otaq tikildi.

Qarşısında kafenin özü boyda hündür talvar var idi ki, hava isti olanda müştərilər burada oturub həm sərinlənər, həm də yemək yeyib çay içərdilər. Müştərilər yalnız qışda, soyuq havalarda içəridə oturardılar. Əksər hallarda pəncərələrin açıq olmasına baxmayaraq mətbəxdə bişirilən yeməyin iyi içəridə çəkilən siqaretin iyinə qarışıb havanı ağırlaşdırardı.

Münaqişə başlayandan sonra kafe fəaliyyətini dayandırdı. İndi isə hazıra nazir olan dığalar Ağamirzə kişinin min bir əziyyətlə tikib yaratdığı kafeyə sahib çıxmaq istəyirdilər. “Ay siz öləsiz...” deyə düşündü. Səbrlə onların kafedən çıxmağını gözlədi.

Çox gözləmək lazım olmadı, az sonra bayaq söhbət edən həmin hündürboy, keçəl erməni kafedən çıxdı, qapının ağzında dayanıb ətrafı müşahidə etdi. Görünür nəsə hiss edib yenidən içəri qayıtdı. Bir neçə dəqiqə keçməmişdi ki, əlində avtomat qapıda göründü. Bir-iki addım bayıra çıxıb silahı qaldırdı. Qaraxan yaxınlıqdakı qayanın arxasına sıxıldı.

– Ara, tırka!... – deyib bütün sandıqçanı ağaclığa boşaltdı. Nədənsə bu quldur azərilərə “tırk” deyirdi.

Səsə içəridəkilər əllərində silah özlərini bayıra atdılar. Nə baş verdiyini anlamadan onlar da ağaclığı atəşə tutdular. Güllələr Qaraxanın arxasında gizləndiyi qayaya dəyib özlərinə məxsus vıyıltı səsi ilə gecənin sükutunu pozurdu.

– Ara, Tiqrancan güllələri kimə atırdın, ha?...

– Ara, tırklara.., görmürsüz ki, bu qədər tırkı qırmışam?... – deyə o ağacları göstərdi.

– Ara sənə dedim axı axrıncını içmə. Ha-ha-ha.

Hər üçü kafenin giriş qapısında qəh-qəhə çəkib gülüşdülər, ermənicə zarafatlaşdılar. Qaraxan qayanın arxasından çıxıb sərrast atəşlə hər üçünü yerə sərdi. Sakitcə onlara yaxınlaşdı. Ikisi yerindəcə ölmüşdü, biri isə ağır yaralı idi. Qaraxan onların silahlarını götürüb kafeyə keçdi. Içəridəki yeməkləri torbalara yığıb arxa qapıdan çıxdı, qaranlıq dərədə gözdən itdi.

Turşsuya qocalara baş çəkib yeməkləri onlara çatdırmalı idi. Gecənin ikinci yarısında ay doğdu, ətraf sud rəngində idi. Keçilməz sıldırım qayaları maneəsiz keçmək ay işığında daha rahat idi. Üç saatdan sonra kəndə çatsa da qocaların nə ölüsü nə də dirisi evdə yox idi. Həyətdən ağır yad qoxu gəlirdi. Qapı taybatay açıq, ev darmadağın idi. Xəstə qadının yatdığı çarpayı da yox idi. “Görünür duyuq düşən dığalar onları harasa aparıblar,” deyə düşündü. Sanki daxilində nəyinsə qırıldığını hiss etdi.

Eyvana çıxdı, taxta mühəccərə söykənib dayandı. Ay işığında həyətin küncündə ocaq yerini xatırladan qaraltı diqqətini cəlb etdi. Fikirli halda həmin qaraltıya yaxınlaşdı, dəhşətdən ixtiyarsız olaraq dizləri büküldü. Qocaları soyundurub orqanlarını kəsmişdilər, əzabla vəhşicəsinə öldürəndən sonra çarpayıya bağlayıb yandırmışdılar.

Özünü saxlaya bilmədi, hönkürüb ağladı. Ömründə bir dəfə silah tutmayan bu köməksiz qocaların başına gələn müsibət sarsıtdı onu.

Zaman-zaman ermənilərin, onlara açıq-aşkar havadarlıq edən rusların, üzdə özlərini müsəlman göstərən ikiüzlü farsların vəhşi, məkrli və hiyləgər xislətini çox görmüşdü. İndi gördükləri – bu köməksiz qocaların başına gələnlər insanlığa sığmayan heyvani təəssüratın və hisslərin məhsulu idi. Qəlbində azca Allah xofu olan insan övladı belə vəhşilik edə bilməz. Bunlar vəhşidən də betər idilər. Daxilindən boğazına yığılan qəhər dolu hikkədən boğulmaq üzrə idi. Üzünü göylərə tutub bütün gücü ilə hayqırdı.

"Ey.y.y!... Nədir bu vəhşiliklər!?... Nədir bizim günahımız!?... Nədir bu millətin, bu köməksiz qocaların, körpələrin, qadınların günahı!? Əgər doğrudan da varsansa, məni görüb eşidirsənsə cavab ver."

Səsi gecənin məşum sükutunu pozdu, əks səda verib ətrafa yayıldı. Ətraf o qədər səssiz idi ki, Qaraxan öz səsindən diksindi. Sanki yuxudaydı oyandı, üsyan etdiyini anladı. Yadına ailəsi düşdü. Elə o andaca özündən asılı olmadan üzü üstə yerə düşdü. Öz dili deyil ruhunun dili ilə pıçıldamağa başladı.

"Ey uca Rəbbim!!! Hər bir şeyin hökm verəni!!! Bizi yaradan, yaşadan Allahım!!! Bağışla məni, dediklərimi günah kimi qəbul etmə, ailəmi qoru, onları yaratdığın kimi hifz elə. Onların hər birinin əvəzində məni cəzalandır. Nə günahım varsa canımla, qanımla ödəməyə hazıram. Təki başımı aşağı, gözümü kölgəli etmə, ya Rəbbim!..."

Etdiklərinə cavab gözləyirmiş kimi arxası üstə çevrilib səmaya baxdı. Ulduzlarla bəzənmiş səma heç nə olma-

yıbmış kimi lal, sakit, və təmiz idi. Bədirlənmiş ay bütün gözəlliyi ilə səmanın mütləq hakimi idi. Səma bütün çirkinlikləri yer üzünə ataraq arınmış, təmizlənmiş, füsunkar gözəlliyi ilə bərq vururdu.

Dan yeri ağarmağa başlayırdı. Kənddən çıxmalı idi, lakin qocaları bu halda qoyub gedə bilməzdi. Həyəti dolaşıb evin arxasında çökək yer tapdı. Həyətdən götürdüyü bellə çökəyi dərinləşdirdi, genişləndirdi, məzar formasına saldı. Qocaların yanmış cəsədlərini bir-bir gətirib qazdığı yerə qoydu. Dan yeri söküləndə artıq kəndlə üzbəüz meşədə idi. Taqətdən düşmüşdü, ayaqlarından daş asılmışdı elə bil, həm də gündüz hərəkət etmək təhlükəli olduğu üçün axşama qədər gözləməli idi. Bu onun məcburi istirahət zamanı idi.

## XIX fəsil

Günəşin gözlərinə düşən yandırıcı şüasının təsirindən oyandı. Dincəlmək üçün seçdiyi yer o qədər də etibarlı olmasa da qarşıdakı yamac boyu Laçından Şuşaya doğru uzanıb gedən yolun böyük bir hissəsini görə bilirdi. Yolboyu hərbi maşınlar Şuşaya tərəf düzülmüşdü. Sərt yoxuşları asta-asta irəliləyən maşınlar "Yeddi qat" yoxuşunu aşıb gözdən itirdilər. Bir müddət tənbəlcəsinə hərəkət edən ruslara məxsus maşınlara tamaşa etdi.

Dünən Turşsuda qocaların başlarına gətirilən qeyri insani hərəkətlərin təsiri hələ də keçməmişdi. Qaraxan belə hadisələrin şahidi olduqca daxilində nəyinsə qırıldığını hiss edirdi. İnsanın daxilində baş verən dəyişikliklərin

xarici görkəmində də əks etdiyini bilirdi, lakin bu dəyişikliyin hələlik ondan yan keçdiyini düşünürdü. Bəlkə də indiki halda güzgü qarşısında olsaydı baş verən dəyişiklikləri anlayardı.

Qaraxan tarix müəllimi idi və peşəsini sevirdi. Bir zamanlar hər gün erkən yuxudan oyanıb üzünü taraş edər, səliqəli geyinər, güzgünün qarşısında qalstuk bağlayıb məktəbə yollanardı. Hələ orta məktəbdə oxuduğu vaxtda müəllimlərindən belə görüb öyrənmişdi.

Xəyalən keçmişə, çox da uzaq olmayan günlərə qayıtdı, sanki əlini uzatsaydı çatardı. Qarayanız bir uşaq idi, ilk dəfə pioner qalstukunu taxdığı günü xatırladı, necə də sevinirdi. Bəlkə də bir daha belə sevinə bilməyəcəkdi. Məktəbdən evə qayıdanda qanadı olsaydı uçardı. Lakin evdə bunu adi bir hal kimi qarşıladılar, bir gün sonra elə onun özü üçün də adiləşdi pioner olmağı. Bir neçə il sonra günlərin birində komsomol təşkilatına daxil oldu. Lakin pioner olduğu qədər bir daha sevinə bilmədi.

Tez-tez valideynləri ilə birlikdə Gorusa gedərdilər, orada hər şey ucuz və bol olsa da  nədənsə, Gorusa getmək heç də onun ürəyincə olmazdı. Sonralar nə qədər çalışsa da kommunist partiyasına üzv ola bilmədi. Qonşu ermənilərdən fərqli olaraq azərbaycanlı ali təhsillilərin partiya sıralarına daxil olması çətin idi. Kənddəki çoban, traktorçu, sürücü, sağıcı, kolxozçu isə heç bir maneə olmadan partiya üzvü ola bilərdi. Azərbaycan elit kommunislərinin əksəriyyəti qeyri millətlərdən ibarət idi.

İndi kifayət qədər yaşı vardı. Uzun illər tarix müəllimi işləmiş, dünyada millətlərə, dövlətlərə xüsusən də türkdillilərə yanaşmanın ikili standartlar üzərində quruldu-

ğunu görürdü. Çar Rusiyasının və sovet imperiyasının zamanında Azərbaycana və Orta Asiya xalqlarına qarşı həmişə belə olmuşdu. Bu gün isə bu daha iyrənc formada davam edirdi...

***

Tənhalıq insanı mənfiyə doğru sürətlə dəyişə bilir. Xüsusən də daim kollektivlə işləyən, həmişə ünsiyyətdə olan adamlar bu zaman daha çox əziyyət çəkir. Müəllimlər də bu qəbildən olan adamlar sırasındadır.

Qaraxan tək olmasına baxmayaraq bəzən özünü auditoriya qarşısında olduğu kimi aparır, hansısa bir mövzunu dönə-dönə kiməsə başa salmağa çalışırdı. Və bəzən də düşdüyü real həyata qayıdıb: "Bu nədir, yoxsa mən dəli oluram?" deyə düşünürdü. Darıxırdı məktəb üçün, şagirdləri üçün, sinif otaqları üçün... Son günlər baş verən hadisələrdən sonra bezmişdi tək-tənha çöllərdə yaşamaqdan. Həyat yoldaşından, uşaqlarından xəbərsiz idi. "Görəsən indi onlar haradadırlar?" deyə düşündü. Ağlına min cür fikir gəldi...

Bu fikirləri başından uzaqlaşdırmaq məqsədi ilə hələ günorta olmasının fərqinə varmadan gizləndiyi kolların arasından çıxdı. Dərin dərəyə enib qarşıdakı yamacla Zarıslıya tərəf qalxmağa başladı.

Ərazinin yaşıllıqla örtülməsinə baxmayaraq yamac açıqlıq idi. Adda-budda, pərakəndə şəkildə bitən qaratikan kolları və çılpaq qayalar böyük bir yaşıl parçanın üzərində yamaq kimi görünür və bu cəlbedici gözəlliyə xələl gətirirdi. Əslində indi onu nə təbiətin füsunkar cazi-

bəsi, nə də çılpaq qayaların vahiməli görünüşü maraqlandırmırdı. İndi o yalnız ailəsi haqqında düşünür, onların sağ-salamat olması üçün Allaha dua edirdi. Təkcə Turşsudakı yaşlı qocaların başlarına gələn müsibəti görəndən sonra etdiyi asilik istisna idi.

Yamac boyu qalxıb qaratikan kollarının arasında oturdu. Turşsuda qocaları dəfn edib kəndi tərk edəndən sonra onu qarabaqara izləyən həddən artıq böyük və vahiməli boz canavarın dərənin o biri tayında üzbəüz oturduğu gözündən yayınmadı. Görünür talelərində bir oxşarlıq var idi, bəlkə də hər ikisi müharibənin ən böyük acısını bölüşürdülər, bəlkə də...

Yadına bir neçə il əvvəl ermənilərlə onların arasında olan münaqişə zamanı baş verən hadisə düşdü. O zaman hələ sovetlər ittifaqı dağılmasa da qərbdən əsən küləyin təsiri hiss olunurdu. Həmin gün Qaraxan kənddə deyidi. Axşamüstü kəndə qayıdan zaman Kərbəlayı Muxtarın ailəsinin başına gələnləri eşidib hadisə yerinə getmək istəsə də kəndin ağsaqqalları ona mane oldular. “Onsuz da sabah meyidləri gətirmək üçün Gorusa getməliyik,” dedilər.

Ertəsi gün iki milis idarəsinin tövsiyəsi ilə milli məsələlərin daha da pisləşəcəyini bəhanə gətirərək Kərbəlayi Muxtarın ailəsini sərhəddə təhvil verməyi məsləhət bildilər. Bir neçə ağsaqqalla birlikdə Qaraxan da sərhədə yollandı və erməni milislərindən iyirmi-otuz metr aralıda quldur dəstəsinin dayandığını gördü. Onlara Qarabağ ermənisi sovetlər ittifaqı dağılana qədər Azərbaycanın bir çox rayonlarında məsul vəzifələrdə işləyən Armenak Malxazyan başçılıq edirdi. Ömrü boyu Azərbaycanın çörəyini yeyən,

suyunu içən, havasını udan bu nankor, namussuz erməni, milislərin yanından keçib onlara yaxınlaşdı, hamını bir-bir kinli baxışlarla süzdü, Qaraxanın qarşısında dayanıb hamının eşidəcəyi səslə dedi:

– Sizin hamınızın sonu belə olacaq, sənin sonun isə bundan da betər olacaq.

Qaraxan naxələf erməninin özündən razı şəkildə dediklərindən əsəbləşsə də büruzə vermədi.

– Bunu sən edəcəksən?... Axı sən bizim itimiz olmusan, nə yedin ki, belə qudurdun!?...

Söz Armenaka güllə kimi dəysə də özünü ələ aldı, arxayınlıqla dedi:

– Az qalıb, özün hər şeyin şahidi olacaqsan.

İlk baxışda üzundə ikrah doğuran qaliblərə məxsus məchul bir istehza var idi. Bütün bunlar o qədər süni idi ki, iyrənc bir heyvana baxırmış kimi Qaraxanın əti ürpəşdi. Üzünü çevirdi, qəzəbini cilovlaya bilməyib yerində fırlandı, bütün gücü ilə ona bir şapalaq vurdu.

– Al, koppay oğlu!

Zərbəni gözləməyən Armenak səndələyib yıxıldı. Lakin tez də özünü toplayıb ayağa durdu. Arxada olan quldurlar bir-birinə qarışdı, hər iki tərəfin milisləri çaşıb qaldılar. Armenakın bir işarəsi ilə hamı sakitləşdi. Bu hadisəni orada olanların heç biri unutmamışdı. Neçə il keçməsinə baxmayaraq hazırda bir nömrəli quldur sayılan Armenak Malxazyan intiqam gününü səbirsizliklə gözləyirdi.

## XX fəsil

Malxazyan əməliyyatın bu qədər asan olacağını ağlına gətirmirdi. Buna görə də əsirləri nəzərdə tutduğu yerlərə göndərəndən sonra çox sevinirdi. Qaraxanın ailəsinin əsirlər arasında olması isə onu daha da fərəfləndirirdi. Bu "qələbəni" məxsusi qeyd etməyi qərara aldı.

O, balaca Abbası uşaqlarla birlikdə Ermənistana, qalanlarını isə Qarabağın müxtəlif istiqamətlərinə göndərdi. Əslində bu adamların onun üçün elə də bir önəmi də yox idi, təkcə Qaraxanın ailəsindən başqa. Bu ailə üçün onun xüsusi planları var idi. Elə buna görə idi ki, əsirləri aparanların üstünə özünə ən sadiq olanları təyin etdi və dönə-dönə onlara qarşı diqqətli olmalarını tapşırdı. Quldurbaşı Balasanı yanına çağırıb bir daha qəti şəkildə dedi:

– Bunları Əskəranda Kamoya verib deyərsən ki, bunlar mənim əmanətimdir, bunlar mənə məxsusdur. Anladın!?...

Balasan onun gözlərindəki qəzəbi görüb qorxudan əsdi. Malxazyanın necə qəddar olduğunu bilirdi. Bu günə qədər onun bir sözünü iki eləyənin sağ qaldığını nə eşitmiş, nə də görmüşdi.

Axşam "əmanətin" başqa əsirlərlə birlikdə Şuşa türməsində yerləşdirildiyini eşidib ora getdi. Sitarə ilə iki yeniyetmə qızını Şuşada saxlamaq olmazdı. Beynəlxalq təşkilatlar artıq bura ayaq açmışdılar. Onları Əsgəranda kimsənin xəbəri olmayan xüsusi əsirlər üçün nəzərdə tutulan sığınacağa göndərdi. Sığınacağın rəhbəri Kamo inanılmış, itaətkar həm də qəddar, qaniçən adam idi. Qaraxa-

nı tapana qədər ailəsinin orda saxlanılmalarını istəyirdi Malxazyan. Təkcə Qaraxanı tapmaq qalırdı...

Ertəsi gün eşitdiyi xəbərdən sanki damarlarında qanı dondu. Sitarənin iki yeniyetmə qızını asaraq öldürməsi onu heyrətə gətirdi. ″Canavarla yaşayan canavardan da betər olar,″ deyə düşündü. Nədənsə Qaraxanı xatırladı, ailəsinin öldüyünü öyrənsə onun necə qəddar olacağını təsəvvürünə gətirdi. Özündən asılı olmadan pıçıldadı: "İndi onu ələ keçirmək çox çətin olacaq." Sürücü Sokrat onun nə dediyini başa düşməyib başını geri çevirdi, üzündəki ifadəni görüncə yenidən irəli baxıb maşının sürətini artırdı. Son zamanlar Malxazyanın dəli kimi etdikləri hərəkətləri haqqında hamı danışırdı. İndiyə kimi yığdığı var-dövləti bir yana çıxara bilməməsi və kifayət qədər yaşlanması ona çox pis təsir edirdi.

Çopur sifəti sərt qaya daşını xatırladır, donuq baxışları buz kimi soyuq idi. Əsgərana qədər ağzını açıb bir kəlmə də danışmadı. Əsgərlər onu birbaşa Kamonun yanına apardılar. Artıq hava qaralmışdı.

Kiçik otaqda ensiz dəmir çarpayının üstündə arxası üstə uzanan gözləri sarğılı Kamo addım səslərinə dikəldi, üzündə yazıq bir görkəm var idi, sanki ölümünü hiss etmişdi. Qalın, qurumuş dodaqları tərpəndi, elə bil nəsə demək istədi, lakin səsi çıxmadı. Başını qaldırmaq istəyərkən ağrıdan ufuldayıb yenidən başını yastığa sıxdı.

Malxazyan qapının cəftəsini vurub sakit addımlarla ona yaxınlşdı. Kamo nə olacağını bilmədən təşviş içində idi. Malxazyan onun başının altındakı yastığı götürüb hər iki əli ilə ağzına sıxdı. Kamo nə qədər çabalasa da çox keçmədən haldan düşdü. Bir neçə dəqiqə sonra iti addımlarla

otaqdan çıxan Malxazyan ətrafına baxmadan həyətdə hazır dayanan maşına oturdu. Maşın sürətlə gecənin qaranlığında yox oldu.

***

İndi onun qarşısında yalnız bir məqsəd vardı ki, bu da Qaraxanı ailəsi barədə baş verən hadisələrdən xəbər tutmaqdan əvvəl əldə etmək idi. Malxazyan yaxşı bilirdi ki, ailəsinin məhvini öyrənən Qaraxan nəinki işğal olunmuş torpaqlarda həm də bütün Qafqazda çox təhlükəli olacaq. İstər evində, istərsə də səfərdə olan hər bir erməni üçün onunla üzbəüz gəlmək ehtimalı vardı. Ən azı Malxazyan belə düşünürdü, tanıdığı Qaraxan haqqında. Qaraxan isə bir tikə çörək olub çəkilmişdi göyə. Malxazyan adamlarını hər tərəfə göndərməsinə baxmayaraq nə ölüsündən, nə də dirisindən xəbər yox idi. Axtarışa çıxanları yenidən təlimatlandırmaq və sayını artırmaq lazım idi. Buna görə də o, bacardıqca tez Gorusa qayıdıb bu məsələni həll etməli idi.

Bu fikirlərin təsiri altında sürücüyə Şuşaya girmədən Kərkicahan tərəfdən Laçın yoluna çıxmaq tapşırığı verdi. Malxazyan bu yoldan tez-tez istifadə etdiyi üçün seçdi, Həm də bu yolun mənzərəsi onu həmişə valeh edirdi. Şuşanın işğalından sonra bu yolda demək olar ki, gediş-gəliş olmurdu. Maşın nərilti ilə dolanbac yolları arxada qoyub meşənin dərinliyinə doğru irəlilədikcə məşum bir qorxu ətrafı bürüməyə başladı. Sanki ağaclar qorxunc səslər çıxarıb hər addımda onların hərəkətinə mane olmağa çalışırdı.

Malxazyan nə qədər çalışsa da bu vahiməni özündən

uzaqlaşdıra bilmədi. Elə bil dolanbac yolları qalxdıqca qorxu daha da çoxalır, maşının içərisinə siraət edirdi. O özündən asılı olmadan silahını çıxarıb hazır vəziyyətə gətirdi. Sürücü Sokrat silahın hazırlıq səsinə bir anlıq özünü itirdi. Ixtiyarsız bütün bədəni əsməyə başladı, bir neçə dəfə hətta idarəetməni itirməkdən özünü zorla qurtardı. Kürəyinə tuşlanmış silahın acısını hələ də canında hiss edən Sokrat geri dönüb bərəlmiş gözlərini Malxazyanın üzünə dikdi.

– Axper, çavıtdanım! Məni öldürmə...

Malxazyan onun hədəqəsindən çıxan gözlərinə baxıb vəziyyəti anladı.

– Yola bax, axmaq oğlu axmaq!...

Lakin sözlərini bitirməyə imkan tapa bilmədi. "Niva" yolun kənarında olan daşa dəyib ağacları qıra-qıra sıldırım qayaya doğru şütüdü. Qayanın üstündə olan qocaman palıd ağacı "Niva"nı budaqları arasına alıb sıldırımdan aşağı uçmaqdan xilas etdi. Malxazyan yumaq kimi bükülüb öndəki oturacaqların arxasına sığınmışdı. Zərbədən silahı əlindən düşsə də axtarmağa cəhd etmədi. İndi onu yalnız möcüzə ölümdən xilas edə bilərdi. O isə möcüzələrə inanırdı. Maşının dayandığını görüb yavaşca qalxdı. Sükanın arxasında olan Sokratın sinəsinə ağacın yoğun budağı pərçimlənmişdi. O hələ ölməsə də ağır vəziyyətdə idi. Ağzından qan gəlirdi. Malxazyan silahını tapıb yavaş-yavaş şüşələri qırılmış maşından endi. Çətinliklə olsa da yola çıxdı. Arxasına baxmadan bir müddət yolun ortası ilə irəlilədi. Qatı qaranlıqda heç nəyi görmək olmurdu. Beləcə xeyli irəlilədi, sərt yoxuş onu tez yordu, tərlədi. Keçirdiyi həyəcandan və sərt yoxuşu qalxmaqdan bütün bədəni tə-

rin içində idi. Dincəlmək üçün yolun kənarında daşın üstündə oturdu. Həyatı film kimi gözləri önündə canlandı. Neçənci dəfə idi ki, təsadüflər onu xilas edirdi. Bu günkü isə təsadüf deyil tam möcüzə idi...

Malxazyan bir gün bu təsadüf və möcüzələrin sona çatacağını bilirdi. Ona görə də nə qədər gec deyildi şələ-şüləsini yığıb birdəfəlik buraları tərk etməyin vaxtının çatdığını düşündü. Sovet dönəmində oğurluqla yığdığı pulların bir hissəsəini Rusiya banklarında yerləşdirmişdi. Son zamanlar kiçik bir qismini isə dostunun təkidi ilə Fransa banklarına qoymuşdu. Lakin elə həmin andan səhv etdiyini anlamışdı. İndi fransız banklarındakı pullardan əlini üzsə də, rus banklarına qoyduğu pullara böyük ümidi var idi.

Əvvəllər dövlətdən qorxa-qorxa oğurladıqları pulları sonradan silah, insan və insan orqanlarının alverindən əldə etməyə başladı. Qədəri ağlasızmaz, başgicəlləndirən miqdarda olan pulların dünyasına baş vurmuşdu sanki Malxazyan. Yığdıqları bundan sonrakı bütün ömrünə bəs edərdi. Təkcə qalırdı bu xarabadan  üzüsulu uzaqlaşmaq. Əgər imkan versəydilər...

Otuz il əvvəl.., hər şey o gün baş verdi. Onun həyatı həmin gün tam olaraq üç yüz altımış dərəcə fırlandı. İyirmi üç yaşlı sovet təhsili almış, kommunist ruhlu gənc tələbə idi. Ən böyük arzusu ictimai həyata başlayan kimi partiya sıralarına daxil olmaq idi. Bu il universiteti bitirib sovet silahlı qüvvələrində xidmətdən sonra o da minlərlə sovet gənci kimi yeni və müstəqil həyata qədəm qoyacaqdı. Partiya hara göndərsəydi getməyə hazır idi. Sıravi müəllim kimi hətta döğulduğu Tuğ kəndində də işləyə bilərdi. Lakin...

Lomonosov adına MDU-nin yataqxanasındakı otağına yenicə gəlmişdi ki, qapı döyüldü. Rusiyanın Stavropol vilayətindən olan erməni əsilli tələbə yoldaşı Arsen idi. Hal-əhvaldan sonra yenidən həmişəki ambisiyalarından danışmağa başladı. Arsendən xoşu gəlməsə də gələcək üçün verdiyi vədlər onu şirnikləşdirirdi. Sonra isə hərbi xidmətdə olduğu zaman mayor Avetisyanın daha kəskin, inamlı və çevik şəkildə etdiyi söhbətlər onu türklərə (azərbaycanlılara) qarşı ən qatı millətçi kimi dəyişdi. Nə qədər dostları, yaxınları var idi, bir anda hamısı düşmənə çevrildi.

Çox keçmədi ki, mayor Avetisyanın köməkliyi ilə partiya sıralarına daxil oldu. hərbi xidməti bitirən kimi Moskva Ali Partiya məktəbinin qiyabi şöbəsinə daxil oldu və RSFSR-in partiya komitəsinin təklifi ilə Azərbaycana göndərildi. Bununla da beynəlmiləlçi Malxazyan millətçi Malxazyana çevrildi və kommunist partiyasının ən ərköyün üzvülərindən biri oldu.

Nahaqdan çox başlar kəsmişdi, çox ocaqları söndürmüşdü. Babalarının edə bilmədiklərindən beş dəfə artığını etmişdi, lakin hələ də "yuxarı"nı razı sala bilmirdi. Armenak indi anladı ki, bura çıxışı olmayan labirintdir və bu labirintdə minlərlə malxazyanlar baş sındırıb qaranlıq otaqda qara pişiyi axtaran kimi olmayan çıxış yolunu axtarıblar. Son zamanlar üzərində olan nəzarətin daha da gücləndiyini hiss edirdi. Anlayırdı ki, Sokrat ona həm sürücü, həm də ən yaxın nəzarətçi idi və indi o yoxdur. Ağlına gələn fikirdən bir anlıq sevindi, tələsik durub gəldiyi yolla geriyə, maşının yanına qayıtdı. Yolboyu bir daha ağlına gələn plan haqqında düşündü, yoxa çıxmaq üçün ən

ideal plan idi.

Ətrafda ölü bir sükut var idi. Vəhşi heyvanlara məxsus instiklə ətrafda kiminsə onun etdiklərini izlədiyini hiss edirdi. Maşına çatıb dayandı, onu ağacın budaqları arasından çıxarmaq mümkün deyildi. Yandırmaq qərarına gəldi. Zərbələrə tuş gələn "Niva"dan sızan yağ və yanacağı alışdırdı. Bir anda meşənin qaranlığı güclü alovun təsirindən işıqlandı. Daha burada qalmağın təhlükəli olduğunu düşünüb cığırla meşənin dərinliyinə irəlilədi. Nə qədər sürətlə getsə də kiminsə onun hər addımını izlədiyini hiss edirdi. Bəlkə də buköməksiz qoyub getdiyi sonra da maşınla birlikdə yandırdığı Sokratın kömək diləyən baxışları idi. Dan yeri yenicə sökülləndə dərənin dərinliyində sıldırım qayanın üstündə özü üçün dincəlməyə yer düzəltdi.

## XXI fəsil

Qaraxan dayanmadan hərəkət edirdi, Şuşa-Laçın yolunu keçib şimala tərəf getdi. Hava qaralanda Şuşa ilə eyni hündürlükdə olan Qırxqıza çıxdı. Qayanın üstündə oturub ətrafı xeyli müşahidə etdi. Bəlkə də bu qayaların hansınınsa arxasında ermənilər əsir düşərgəsi yaratmış və onun ailəsi də elə bu düşərgələrin birində saxlanılırdı. Durbini gözlərinə qaldırıb hər tərəfi diqqətlə nəzərdən keçirdi. Arxaya dönərkən bayaqkı boz qurdun iyirmi-otuz addım aralıda qayanın üstündə oturub başını dik tutaraq sinəsini qürurla irəli verdiyini gördü. Elə bil həyatda necə qürurlu olmağı Qaraxana anladırdı.

Heç olmasa bir nəfəri ələ keçirib ailəsi haqqında nəsə öyrənmək məqsədi ilə Şuşaya girmədən arxa yolla Xankəndinə tərəf üz tutdu. O buralara yaxşı bələd idi, gözləri bağlı halda istədiyi yerə gedə bilərdi.

İsa bulağına endi. Bulağın ətrafı bomboş idi, hər il bu zamanlar burada iynə atsaydın yerə düşməzdi, indi isə ulamağa heç it də yox idi. Bulaqdan su içib aşağı endi, qaranlıqda cığırı tapıb Şuşa-Kərkicahan yoluna tərəf getdi.

Yola çıxmağa az qalırdı ki, maşın səsi eşitdi. Lakin az keçmişdi ki, maşın səsi kəsildi. O sürətini artırıb yola tez çıxmağa tələsdi.

Yola çıxanda qocaman palıd ağacınından asılı qalan hələ də işıqları yanan maşını görməyə bilməzdi. Bir anlıq dayanıb ətrafı dinlədi. Kimsə yox idi. Sakit addımlarla maşına yaxınlaşdı. Sükanın arxasında sıxılıb qalan sürücünü çəkib yerə endirdi. Maşının alışma təhlükəsini nəzərə alaraq yaralını bir az aralıda otların üzərinə qoydu. Yenidən qayıdıb maşını diqqətlə yoxlamaq istəyirdi ki, yaralının qolundan tutduğunu görüb dayandı. Sürücü bütün gücünü toplayıb qırıq-qırıq, çətinliklə eşidilən səslə dedi:

– O, adamları ilə səni ax...

Sözünü sona qədər deyə bilmədi, ağzından gələn qan onu susdurdu. Qaraxan başa düşdü ki, bu hər kimdirsə onu tanıyır. Lakin nə qədər fikirləşsə də onun kim olduğunu ayırd edə bilmədi. Elə bu zaman yoldan gələn ayaq səslərini eşidib maşından bir az aralıda qalın kolların arasında gizləndi, silahını hazır vəziyyətə gətirdi.

Maşının ölgün işığında Malxazyanı tanıdı. O tələsik, ətrafa baxmadan maşına yaxınlaşdı. Alışqanla maşından axan yağ və yanacağı alışdırdı və arxasına baxmadan oranı tərk etdi. Qaraxan onu addım-addım izləməyə başladı.

***

Ən istedadlı adamlar yaradıcılığa, ən ağıllılar biznesə, ən səbirlilər isə siyasətə qoşulurlar. Qaraxan özünün bunların hansına aid olduğuna qərar verə bilmirdi. Əlbəttə o özünü heç də ağılsız və istedadsız saymırdı, kifayət qədər ağlı və istedadı olmasına şübhəsi yox idi. Lakin səbirsizliyi... Xarakterində ən zəif yeri də elə bu idi. O, səbrin insan xislətində hansı ölçüdə ola biləcəyini təsəvvürünə gətirə bilmirdi.

Təsəvvür edin ki, bir gün qonşu sənin həyətinə hücum edir, səbr edirsən. Qapını, pəncərəni qırır, damını dağıdır, yenə səbr edirsən. Həyət-bacanı sökür, mal-qaranı sürüb aparır, dözürsən. Ailəni, özünü döyür, söyür, yenə də dözürsən. İlahi!!! Bunun bir həddi olmalı deyilmi?... Bax bunun səbirsizi idi Qaraxan, nahaqdan edilən işlərə dözə bilmirdi. Bir də xəyanəti bağışlamağı, xəyanətkarla barışmağı bacarmırdı Qaraxan. Xüsusən də bu Vətənə, millətə qarşı olarsa...

İndi isə vəziyyət tam başqa idi. Qaraxan bilirdi ki, həyat hər bir insana bir dəfə verilir və ona verilən bu həyatın sonunda bəlkə də bu günə qədər olan insanların ən kasıbı idi o.

O da hamı kimi gəlmişdi bu dünyaya, hamı kimi yaşamaq, həyatda nail olduğu hər şeyə sahib olmaq istəyirdi. Lakin həyat ona qarşı o qədər sərt və acımasız oldu ki.., sonda nail olduğu nə var idisə hamısını itirdi. Bütün insani, duyğusal hisslərini, Rəbbinin ona verdiyi hər şeyi, hətta ailəsini belə itirdi.

Vəhşi təbiətdə olduğu kimi yaşamaq uğrunda mübarizə aparırdı. Burada isə ən güclülər qalib gəlib sağ qala bilir. Buranın özünəməxsus qanunları, bu günə qədər əldə etdiklərinin hamısını zorla onun əlindən qoparıb almışdı. "Qazandıqlarına" rəğmən Qaraxanı vəhşi təbiətin tam ortasında, yaşamaq uğrunda mübarizə aparanların ön cərgəsində saymaq olardı. Belə ki, onun bu dünyada əldə etdiklərindən və Rəbbinin ona verdiklərindən təkcə canı qalmışdı. Onu da əsirkəməyəcəkdi. Müdrik bir deyim yadına düşdü. "Aldığımiz nəfəsi belə geri qaytarırıqsa, demək heç bir şey bizim deyil." Əslində bu belə idi.

Müharibələr maraqların toqquşduğu və ya daxili çəkişmələri yatırmaq üçün baş verir. Əbədi müharibələr olmasa da, əbədi düşmən olur. Ermənilər süni surətdə regiona səpilmiş düşmənçilik toxumudur. Əbədi müharibə olmadığı kimi, əbədi sülh də olmur. Onun fikrincə müharibə zamanın tələbi, sülh isə həyatda romantika axtaranların ideyasıdır. Nə zamansa ermənilərlə də sülh bağlanacaqdı, lakin Qaraxan kimilər heç bir zaman onlarla barışa bilməzdi. Onun kimiləri – kəndini, torpağını, ailəsini itirənlər nə zamansa barışa bilərdilərmi?

Gec ya tez torpaq, kənd işğaldan azad ediləcəkdi, lakin ailəni... Qaraxan nifrətlə dolmuşdu. Qarşısına çıxan hər şeyi dağıtmaq, parçalamaq istəyirdi. Ondan ətrafa yalnız neqativ enerji yayılırdı. Özü də bunu hiss edirdi. Onun üçün, yaşamaq hər an təkrar olan pis vərdişə bənzəyirdi. Yenidən, əvvəllər olduğu o həyata qayıtmaq mümkünsüz idi. Yadına düşdükcə ruhunu göynədən acı xatirələr qalmışdı keçmişindən ona. Yaşamaq belə, mənasız bir oyuna bənzəyirdi.

Bir müdrik sözü xatırladı. "Vətən üçün yaşa, eşq üçün öl." Qaraxan üçün bunun heç bir əhəmiyyəti yox idi. Ölümün və yaşamağın insan həyatına diktə etdiyi və mənasız olduğu bu zaman kəsiyi ailəsinin yoxluğunda böyük bir boşluğa bənzəyirdi. Bu boşluğu gözünə düşmən kimi görünən hər kəsin əzablı ölümü doldura bilərdi. Və bu gün Malxazyan öz iyrənc ruhu ilə həmin boşluğa yuvarlanmalı idi.

Malxazyan dərin dərədə, sıldırım qayanın üstündə özü üçün düzəltdiyi yatağa uzandı. Daha yeriyə bilmirdi. Bir azdan səhərin açılması ilə onsuz da dayanmalı idi. Heç kimlə qarşılaşmasın deyə gecələr hərəkət etmək istəyirdi. İstəmirdi ki, onu tanıyan ermənilərdən biri ilə qarşılaşsın. "Axtarıb tapmayınca ölmüş biləcəklər məni. Belə olsa yaxşıdır. Qoy millətin yaddaşında qəhrəman kimi qalım." deyə düşündü. Kimsənin onu tanımadığı bir guşəyə çəkilib illər boyu yığdığı pulları rahatlıqla xərcləmək istəyirdi.

Bəzən insan hər şeyi rəqəmlərlə əlaqələndirir, pullarını, var-dövlətini hesabladığı kimi, ömrünü də rəqəmlərin üstünə düzür. Təkəbbürlük edib ölməyəcəyini zənn edir. Düşünmür ki, əbədiyyət yalnız Ona–uca Allaha məxsusdur, qalan hər şey ölümə məhkumdur. Müharibədə ölümə məhkumların biri digərinin qatilidir. Ağlına gəlməyən hər nöqtə sənə doğru uçan qurşun ola bilər.

Qaraxan Malxazyanın yatdığı yerə tərəf boylandı. Onu yuxuda ikən öldürmək istəmirdi. İstəyirdi ki, insanlıqdan uzaq bu ünsür, ölümü bütün "ləzzəti" ilə dadsın. Bir də ki, yatan, qaçan adama güllə atmağı özünə heç zaman rəva görməmişdi.

Arxada hənirti hiss edib dərhal geri döndü. Gecənin qa-

ranlığında parıldayan iki göz onun lap yaxınlığında idi. Sanki nəfəsini üzündə hiss etdi. "Sən də mənimlə eyni dərddəsən, ay yazıq! Eyni dərdlilər bir-birinə həmdərd olurlar, hətta düşmən olsalar belə. Bəlkə də hər ikimiz eyni şeyi düşünürük. Ölsəydik, canımız qurtarardı birdəfəlik."

Silahını qaldırıb iki günlük yol yoldaşına tuşladı, düşündü ki, bəlkə qorxub qaçar. Parıltılar daha da gücləndi. Canavar qəzəblənmişdi. Qolları boşaldı, heyvan olsa da iki gün idi ki, onu tək buraxmırdı. İnsan üçün ən böyük işgəncə tək qalmasıdır. Qaraxan kimi müəllim işləyən biri üçün isə bu daha da dözülməz idi. Silahını endirib daşın üstündə oturdu. Ağaran üfüqdə daha aydın görünən yalquzağın qürurlu duruşu adamı riqqətə gətirirdi.

## XXII fəsil

Böyük partlayışla bir zərrədən yaranan kainat, durmadan genişlənir. Lakin nə qədər genişlənsə də yenə insanın nəfsi qarşısında azlıq edir. Əgər yer kürəsində yaşam üçün nəzərdə tutulan ehtiyatlar bərabər bölünsəydi, hamıya kifayət edərdi. Lakin insanların acgözlüyü nəticəsində bir tərəfdə bolluq, digər tərəfdə isə aclıq və səfalət hökm sürür.

Silahını yanına qoyub torpağın üstündə bardaş qurub oturdu, qollarını dizləri üstə çarpazladı, gözlərini yalquzağa dikib xəyala daldı. İndi onlar hər ikisi göz-gözə dayanmışdılar. Qaraxan onun gözlərindəki özünə qarşı qayğı hissini aydın görürdü. Yalquzaq yerə uzandı, başını qabaq ayaqlarının üstünə qoyub, sanki öz sürü ailəsində

ən məhrəmini tapmış kimi gözlərini ona dikdi. Qaraxan, oturduğu yerdə əllərini irəli, onun bütün hərəkətlərini izləyən yalquzağa doğru uzatdı. Pıçıltı ilə: "Gəl qorxma məndən." dedi. Yalquzaq sanki nəyi isə ona başa salırmış kimi qulaqlarını şəklədi, zingildədi, yenidən başını ayaqlarının üstünə qoyub qəribə baxışlarla ona baxdı. Qaraxan bir daha onu çağırdı. Yalquzaq yenidən zingildədi, ona tərəf sürünüb bir neçə addımlığında dayandı. Bu dəfə Qaraxan ehtiyatla qalxıb ona yaxınlaşdı. Elə bil illər boyu bir-birini tanıyırmışlar kimi... Bu, tənhalıqdan qaçıb yaşayış uğrunda mübarizə aparan vəhşi təbiətin – insanla heyvanın – yaradılışın birgə qanunu idi. Yerə uzanıb əllərini yalayan yalquzağı tumarladıqca elə bil hər ikisi tənhalığı unudurdu.

Yuxudan ayılan Malxazyan kolların arasından bu səhnəni müşahidə edirdi. "Uzun illərdən sonra ata-oğul münasibətinə bənzəyir," deyə düşündü. Silahını üzünə qaldırdı. Yalquzaq nəsə duymuş kimi yerindən sıçradı. İki güllə səsi və yalquzağın zingiltisi dərənin sükutunu pozdu. Qaraxan özünə gələndə dərədən Malxazyanın silahını hazır vəziyyətdə tutduğu halda ona tərəf gəldiyini gördü. Artıq hərəkət edə bilməzdi, Malxazyanın sərrast atıcı olduğunu bilirdi. Özündən asılı olmadan çəmkirdi.

– Heyvanla nə işin var, niyə onu qorxutdun?...

Malxazyan əhvalını pozmadı, sakit səslə danışaraq bir az da yaxınlaşdı.

– Düz deyirsən, heyvanları yox, insanları qırmaq lazımdır. Yer üzündən insanların kökünü kəsmək lazımdır ki, qalan canlılar, lap elə yer kürəsinin özü də rahat nəfəs alsın.

O əlindəki “AKSU” markalı silahı hazır halda aşağı salıb ona tərəf gəlirdi. Barmağı tətiyin üstündə idi.

Qaraxan hər hansı bir yanlış hərəkətin pis nəticə verəcəyini anlayırdı. Silahı isə on addım aralıda idi, hətta üstündə olsaydı belə heç nə edə bilməyəcəyini düşündü. Belə vəziyyətdə ən yaxşısı sona qədər dözüb dayanmaq idi. Artıq hərəkət yalnız onun ziyanına ola bilərdi.

– Hə-ə Qaraxan müəllim!... Sizdə bir məsəl var e-e deyirlər. Su sənəyi suda sınar.” Sən müəllim adamsan, bunu məndən daha yaxşı bilərsən.

Qaraxan çətin durumda olduğunu anlayır, onu eşitsə də beynində vəziyyətdən çıxış yolu axtarırdı. Hiyləgər Malxazyan onun ürəyindən keçənləri hiss edirmiş kimi xəbərdarlıq etdi.

– Birdən ağlından nəsə başqa bir şey keçər ha-a.., heç belə şeylər haqqında düşünüb özünü yorma. Məni tanıyırsan, boşuna güllə atmıram.

Qaraxana beş-altı addım qalmış dayandı, gözünü ondan ayırmadan ağzını əyərək istehza ilə dedi:

– Qaraxan müəllim!!! Səni gözləyirdim, bilirdim ki, harada olsam axtarıb tapacaqsan məni. İndi sənə ən lazımlı adam mənəm. Amma, deyim ki, mənim haqqımda heç də düz fikirdə deyilsən. Sənin ailəni mən öldürməmişəm, inan ki, elə bir fikrim də olmayıb. Ömrümün çoxunu sizinlə birlikdə yaşamışam, bəlkə elə buna görədir ki, səfeh ermənilər kimi heç vaxt qadınlarla işim olmayıb, həm də düşündüyün qədər vicdansız deyiləm. Düzdür, sizin kəndin camaatını mən əsir tutmuşam, məqsədim, onların vasitəsi ilə səni tutmaq olub. Başqa cür səni tuta bilmirdim...

Qaraxan onu dinləsə də fikri başqa yerdə idi. Məntiqə

əsasən o düz deyirdi, onun yerində Qaraxan da olsaydı elə o cür edərdi. Lakin bir erməninin vicdandan danışması heç də inandırıcı deyildi. Tarix boyu onlar bunu isbat etmişdilər. Malxazyan isə danışırdı...

– O zaman xəbər göndərərdin, təslim olardım, sən də camaatı buraxardın...

– Ex-x, dəli müsürman!!! Məni bu qədər axmaq sayırsan!?... Səni tapıb nə deyərdim?... Deyərdim ki, gəl məni öldür, adamlarını qurtar?... – dayanıb hiyləgər baxışlarla onu süzdü, – arvadın da elə sən ağılda idi.., mən Əzizə tapşırdım ki, onlardan muğayat olsun, o isə Əzizin başına üç güllə vurdu...

Sanki Qaraxanı ilan vurdu, əsəbi halda Malxazyanın üstünə yeridi.

– Ey-y!... Poxlu ağzınla ailəmi murdarlama. Dilini qopararam...

Malxazyan bir neçə addım geri çəkilib silahını qaldırdı.

– Dayan!!! Bir addım da atsan...

Qaraxan dayandı, silahın üzü sərt və soyuq olur, üstünə tuşlanan silahı görüncə bir anlıq güllənin istisini bədənində hiss etdi, sinəsi göynədi. Amma nədənsə, Malxazyan atəş açmadı Qaraxanın dayandığını görüb silahı yenə də aşağı saldı.

– Qaraxan mən sözümü dedim, istəyirsən inan, istəyirsən inanma. Amma bir şeyi də unutma.., biz hər ikimiz eyni adamlarıq, eyni medalyonun ayrı üzləriyik. Bu dünyada bacardığımız tək bir şey var, o da adam öldürmək. Bəli, biz hər ikimiz qərbin dili ilə desək, killerik. Bizim üçün adam öldürmək, toyuq başı kəsməkdən rahatdır. Sakit yaşamağa haqqımız yoxdur. O qədər qan tökmüşük,

günaha batmışıq ki, onu dənizlərin suyu ilə də yuyub təmizlənmək olmaz. Bizim kimilər üçün insanın yox, heyvanın daha çox qiyməti olur, elə bayaqkı yalquzaq kimi. Fərqimiz isə bilirsən nədir? – O dayanıb Qaraxanı diqqətlə süzdü. – Yox bilmirsən. Bilsəydin, sən də mənim kimi olardın.

Qaraxan bu hiyləgər ermənini söhbətə çəkib vaxt qazanmaq, onun buraxdığı hər hansı bir səhvdən istifadə edib üstünlüyü ələ almaq istəyirdi.

– Sənin kimi, yəni necə?...

O, bığaltı gülümsəyib özündən razı halda davam etdi.

– İradəlisən, güclü adamsan, taktikada da pis deyilsən, amma ağılsızsan. Bilirsən niyə deyirəm bunu? Bax mən erməniyəm, ən elit sovet məktəblərini bitirməyimə baxmayaraq, yalnız özüm üçün işləmişəm. Həyatımda yaxın hədəflər millətimə, uzaq hədəflər isə özümə aid olub. Buna görə məndən heç kim şübhələnməyib, çünki hamı mənim kimi işləyib. Sən isə... Eh.., yazığım gəlir sənə... Haqqında hər şeyi öyrənmişəm, sən heç zaman özünü düşünmədin. Dövlət, millət, torpaq.., sonda isə hər şeyini itirdin. "El üçün ağlayan gözlər kor olar Qaraxan."

– Bəs, sən!? Sən nə qazanmısan, bədbəxt? Əslində özünə yazığın gəlməlidir... Bir ömür yaşamısan, heç olmasa bir dəfə özünə sual vermisən ki, "nəyə görə." Bu dünyaya yalnız heyvanlar məqsədsiz gəlir, məqsədsiz yaşayır və ölür. Sənin bir heyvanla fərqin yoxdursa...

– Ha-ha-ha! Sənin fərqin va-a-ar.., görürəm fərqini. Silahsız, əliyalın qarşımdasan, istəsəm səni öldürər, istəsəm də bağışlayaram. Mənim üçün heyvan qədər də qiymətin yoxdur. Məgər sən bunu anlamırsan? Əlbəttə ki, anlamaz-

san. Əllərin o qədər günahsız ermənilərin qanına batıb, o qədər günah eləmisən...

Qaraxan nə qədər özünü ələ almağa çalışsa da bacarmadı, daxilindəki nifrət vulkan kimi püskürdü.

– Günahsızları siz öldürmüsüz, nahaq qanları siz tökmüsüz və buna görə də...

Malxazyan səsini qaldırıb, onun sözünü kəsdi.

– Qaraxan, yadındadır, bir neçə il bundan əvvəl, Kərbəlayi Muxtarın ailəsinin meyitlərini təhvil verəndə... O zaman mənə vurduğun şapalağın səsi hələ də qulağımdadır. Elə bilirdin ki, yadımdan çıxıb, hər şey belə bitəcək?... O zaman Allah sənin tərəfində idi. Sən məni vurdun, mən isə sakit dayandım. Elə o zaman, orda bir hadisə də baş verdi, onu sən görə bilməzdin, nə də heç kim görmədi. O zaman sən təkəbbürlük etdin, mən isə Allaha bu günün bu şəkildə baş verməsi üçün dua etdim. O, mənim duamı qəbul etdi. Məni ucaltdı, səni alçaltdı. Səni mənə əsir etdi. Mənə yalvar.., yalvar ki, səni əzabla öldürməyim... Ailəni elə bir əzabla öldürüblər ki, eşitsən yaşamaq istəməyəcəksən.

Vəziyyətin nə qədər çətin olmasına baxmayaraq Qaraxan silahını götürmək üçün fürsət axtarırdı. Lakin Malxazyanın ailəsi haqqında deyəcəklərini eşitməsin deyə bir an içində özünü silahına tərəf atdı. Sanki bunu gözləyirmiş kimi bu anda iki güllə səsi gəldi. Malxazyan silahı endirib ona yaxınlaşdı. Güllələrdən biri Qaraxanın sağ ayağını parçalayıb, ikinci güllə isə çiynini sıyırıb keçmişdi. O, ağrıdan qıvrılıb inildəyirdi. Malxazyan asta addımlarla ona yaxınlaşdı. Bir anda hər ikisinin baxışları toqquşdu. Malxazyan özündən razı halda ona baxır, Qaraxanın göz-

lərindən isə nifrət qaynayırdı. Malxazyan ona tərəf əyildi. Ağrıdan inildəyən Qaraxan nifrətlə onun üzünə tüpürdü. Malxazyan silahı qaldırıb ona atəş açmaq istəyirdi ki, arxadan sürətlə gələn yaralı yalquzaq onun boynuna tullandı. Gözləmədiyi hücumdan özünü itirən Malxazyan silahını atıb vahimə içində qışqırmağa başladı. Həmlədən hər ikisi sıldırım qayanın üstündən aşağı yuvarlandılar. Bu dəhşətli səhnə o qədər tez və gözlənilməz oldu ki, Qaraxan hətta nə baş verdiyini bir müddət sonra anlaya bildi.

Qurdlar, yeganə heyvandır ki, sona qədər mübarizə aparır. Onu öldürmək olar, yaralı buraxmaq, yaralayanın həyatı üçün ən böyük potensial təhlükədir. Onlar sürü halında yaşayırlar, ən təhlükəlisi isə yalquzaq sayılır.

Silahına tərəf süründü, yaraları çox pis incidirdi, hər ötən dəqiqə onun əleyhinə işləyirdi. Getdikcə halsızlaşır, gözlərinə qaranlıq çökürdü, belə davam etsə qan itkisindən öləcəkdi. Kitelinin qolunu cırıb dizindən yuxarıya bağladı, bütün gücü ilə sıxdı. Qanaxma dayansa da yorğunluq və halsızlıq onu əldən salırdı. Kəskin ağrıların altında yerini rahatladı. Yatmaq istəyirdi. Özündən asılı olmadan gözləri qapandı.

Özünə gələndə bədəni od tutub yanırdı. Sağ ayağını hiss etmirdi. Göz qapaqlarından elə bil daş asılmışdı. Bütün gücünü toplayıb bədənini yerdən qaldırdı. Əllərini arxasında yerə dirəyib qalxdı. Oturub ətrafı nəzərdən keçirdi. Bu günə qədər duymadığı hisslər daxilində baş qaldırıb ona rahatlıq vermirdi. Bunların ən güclüsü isə yaşamaq hissi idi. Qəribə burası idi ki, Qaraxan bu hissi özündən uzaqlaşdırmaq istəmirdi. Yaşamaq necə də gözəl imiş, sanki bu günə qədər bunu duymamışdı.

Ayağına bağladığı parçanı boşaltdı, qanaxma dayanmışdı. Silahına söykənib qalxdı, cığıra tərəf bir addım atdı, müvazinətini saxlaya bilməyib yıxıldı. Bir daha təkrar etməyə nə gücü, nə də iradəsi çatmadı. Arxası üstə uzanıb gözlərini səmaya dikdi.

Dərin dərədən axan suyun səsi adamın ruhunu oxşasa da Qaraxan o halda deyildi. Yaxınlıqda çaqqallar uladı. Yəqin ki, qan iyini duymuşdular. O, çətinliklə silahını qaldırıb qarnının üstünə qoydu. Bütün gecəni çaqqallara yem olmasın deyə özünə keşik çəkməli idi.

Zaman keçdikcə ağrıları da azaldı. Bədəninin iyrənc bir ət parçasına çevrildiyini tədricən hiss etməyə başladı. “İlahi, bu nədir, yoxsa ölürəm. Günahımı bilmədən, hamının gözündən uzaq bir yerdə... Heç meyitimi də tapa bilməyəcəklər, qurda-quşa yem olacam, qəbrim də olmayacaq.” Son dəfə kövrəldi. Lakin bu da ötəri bir hiss imiş. Silahını qaldırıb bütün darağı boşaltmaq istədi. Gücü çatmadı, aclıq, susuzluq və qan itkisi onu əldən salmışdı.

Yenidən səmaya baxdı, ağappaq duman nazik tül kimi mavi səmanı örtürdü. Ailəsi orada idi, elə bil nazik ağ tülün arxasından ona tərəf boylanırdılar.., necə də xoşbəxt idilər. Son dəfə güc toplayıb onları səsləmək, çağırmaq istədi, bacarmadı. Həyat yoldaşı Sitarə, qızları İradə və Sona, oğlu Abbas...

Yox o səhv etmirdi, edə bilməzdi. Hə, budur onlar da Qaraxanı gördülər, necə də sevinirlər, İlahi!... Uşaqlar hoppanıb düşür, atalarına əl eləyirlər. Təkcə Sitarə qayğılı görünür...

Səmaya nazik ağ tül kimi çəkilən duman getdikcə qatılaşır və Qaraxanın ailəsi ilə ümidləri də qatı dumana qarışıb görünməz olurdu.

## Epiloq əvəzi

Deyirlər o gündən Qaraxan yoxa çıxıb. Bir daha gördüm deyən olmayıb onu, nə ölüsündən, nə də dirisindən kimsənin xəbəri olmayıb.

Bəlkə hələ də orada – dərin dərələrin birində, ya da əlçatmaz qayalarda olan kahalarda yaşayır, ya da səmadakı nazik ağ tülə bənzəyən dumanın bir ucundan tutub ailəsinin yanına qalxıb. Bəlkə də boz qurda qoşulub haqq ədalət uğrunda hələ də mübarizə aparır. Kim bilir!..

Bir də deyirlər ki, o yerlərdə çətinliyə düşənlərə kömək edən, yol azanlara yol göstərən biri var, gözlənilməz bir zamanda peyda olar, aclara yemək, susuzlara su verər, yaralıların yarasını sarıyar, işini bitirib gəldiyi kimi də qeybə çəkilər, eynilə Xızır Nəbi kimi...

# Əsirlikdən gələn səs

## *Sənədli povest*

*Mayor Nurəddin Ağayevin əziz xatirəsinə ithaf edirəm*

*"Vaxt gələcək vətəni*
*kişi kimi qorumadığınız üçün*
*arvad kimi ağlayacaqsınız…"*

*Bir müdrikin dediklərindən*

***

Hər bir insanın həyat hekayəsi var, bəzilərində bir az qəmli, digərində isə bir az nəşəli… Bu hekayələr bəzən soyuq bir külək kimi həyatımızı dondurur, bəzən də sərin meh kimi ömrümüzü oxşayır.

Yazdığım bu hekayə isə hər insanın edə biləcəyi və ya başına gələcəyi sıradan bir hekayə ya da oxuyub baş qatmaq üçün yazılan bir yazı deyil. Bu əslində həcmi kiçik olsa da bir igidlik epopeyası, qəhrəmanlıq dastanıdır.

Mayor Ağayev Nurəddini həyatda tanımaq az idi, onunla birlikdə – onun komandanlığı altında döyüşlərdə iştirak etmək və onun qollarında, gözlərinə baxa-baxa, səsini eşidərək şəhadəti qazanmaq lazım idi. Bu doğrudan da böyük bir xoşbəxtlik idi.

Təbiət bir möcüzədir, suların, yarpaqların, quşların, qayadan qopub üzüaşağı dığırlanan daşların səsi bir-birinə qarışıb özünəməxsus musiqi sədalarını yaradır. Başının üstündəki səma, ayaqların altındakı yer, udduğun hava, içdiyin su, gördüyün yamyaşıl meşə.., bir sözlə insan əli dəyməyən, onun təxəyyülündən uzaq olan hər şey... bütün bunlar yalnız saflığın təcəssümüdür. Allahın yaratdığı hər bir varlıq, insanın yaratdığından özünəməxsus saflığı ilə seçilir.

Allah, insanı yaradarkən onunla digər varlıqlar arasında fərqli cəhətlər yaratdı. İnsana beş duyğunun cəm

olduğu–eşitdiklərinin, gördüklərinin və duyduqlarının analiz edilməsi mümkün olan çox möhtəşəm qurğuların idarə edə bilmədiyini həyata keçirən beyin verdi. Və onu digər varlıqlardan fərqləndirən şüur və "mən" ilə silahlandırdı. Bu "mən" deyilən varlıq, əslində Rəbbimizin bizə bəxş etdiyi "Ruh"dur. İnsanın insan olması, onun yarandığı materiyadan yox, Rəbbi tərəfindən üfürülən ruhdan asılıdır. Üfürülən ruh bədənə daxil olan kimi nəfsə çevrilir və orqanlar vasitəsi ilə feillənir, yəni göz vasitəsi ilə görür, ayaq vasitəsi ilə hərəkət edir, qulaq vasitəsi ilə eşidir və s... Rəbbimizin bizə göndərdiyi son peyğəmbəri Rəsuli-Əkrəmdən (Allahın ona salamı və salavatı olsun) ruh haqqında soruşarkən: "Ruh qeybdir. Qeyb isə Allaha məxsusdur" demişdir.

Bəzi dindən uzaq olanlar, bunun Yaradan tərəfindən olmadığını iddia etsələr də, Ruhun incə və fövqəl bir varlıq olduğunu inkar etmirlər. Sadəcə təkəbbürlük edərək adını öz bildikləri kimi "eqo," "mən" kimi sözlərlə əvəz edirlər. Adının nə olmasından asılı olmayaraq, "Ruh" elə bir varlıqdır ki, hər hansı bir təsadüf nəticəsində yaranması mümkün deyil. Bu, dünyaya gələn hər bir fərdin vacib bir missiyanı yerinə yetirmək üçün Allah tərəfindən verdiyi əmanətidir... Əksər halda yerinə yetirdikləri missiyadan xəbərsiz olsalar belə…

İnsan qəribə məxluqdur, körpəlikdə necə də saf olur, eşitdikləri, gördükləri hər şeyi olduğu kimi qəbul edir, oxşamaq istədikləri adamların hər sözünü aksioma sayır. Onlar üçün qeyri-mümkün heç nə olmur.

Böyüdükcə–həyatı dərk etdikcə hər şey dəyişir, elə yaşayırlar ki, elə bil ölümsüzdürlər, amma yaxından baxanda anlayırsan ki, bu canlanma onların heç də ölməyəcəkləri üçün deyil, sadəcə yaşadıqları zamanın daha dərinliklərinə baş vurduqları üçündür. Anlamırlar ki, zamanın dərinliklərinə daldıqca daha çox çirkaba – günaha bulaşır və qarşıdakı sorğu-sualın ağırlığı ilə yüklənir, nəticədə isə ölmək istəmirlər.

Əksəriyyət ölümü dəhşətli bir hadisə kimi qəbul edir. Əslində isə ölüm əbədi yaradılışın davamı olaraq etdiyin əməllərin güzgüdəki inikasıdır. Rəbbi tərəfindən günahsız, pak olaraq, əbədi cənnət bəxş edilib yaradılan insan, yaşadıqca özü və ətrafı tərəfindən çirkaba bulaşan bir varlığa çevrilir, özü də bilmədən əbədi olaraq ya cənnəti, ya da cəhənnəmi qazanır.

Deməli, Allahın ən ali olaraq yaratdığı varlığın materiya tərəfi sona yetir və onun fövqündə olan nəfs – ruh ölümdən sonra düşdüyü zindandan – bədəndən azad olub əvvəlki halına – ruha çevrilir və əbədi həyata davam edir. Ruhən azad və məğrur olanlar, cismən də elə olurlar.

***

Onunla həmin gün tanış oldum, hündürboy, iricüssəli, zəhmli bir adam idi. Həmyaş olsaq da, Nurəddin müdrik, gəncliyində ağsaqqal olanlardan idi.

Bir gün əvvəl o qədər döyülmüşdüm ki, geyindiyim hərbi paltar cırılıb əynimdən çıxmışdı. Bədənimdə qan-

çır olmayan yer yox idi, dəyən şallaqlar çox yerdə dərimi də qoparmışdı. Səhər tezdən köhnə olsa da cırıq olmayan paltar verdilər. Çox keçmədi ki, iki əsgər döyə-döyə kameradan çıxarıb, uzun dəhlizlə komendatın yanına gətirdi. Dəhlizin başlanğıcında nəzarətçi saxlayıb qəti xəbərdarlıq etdi.

– Kamendata şikayət etsən dilini kəsəcəm. Aydındır?

Cavab vermədim, daha doğrusu o halda deyildim. Heç şikayət də etməyəcəkdim, axı kimdən kimə şikayət etməliydim, çaqqaldan çaqqala?... Onlar hamısı eyni idilər mənim üçün. Nəzarətçi ilə otağa daxil olduq, qapıdan sol tərəfdə həmin əsir dayanmışdı. Otağın o biri başında çiyinlərində rus paqonları olan polkovnik – komendant oturmuşdu. Gözünün ucu ilə mənə baxıb ona tərəf döndü.

– Hə, Aqayev, deyirsən ki, zabit olmamısan?... Bununla da bizi aldatmaq istəyirsən.., mən də deyirəm ki, sən zabitsən, özü də lap əlasından. Yaxın günlərdə bunu sənə sübut edəcəm, hansı hərbi məktəbi bitirdiyin haqqında dosyeni sənə şəxsən təqdim edəcəm. Görək onda nə deyəcəksən?...

O danışanda oturduğu yerdə irəliyə doğru əyilib gözlərini ona dikmişdi, sanki belə etməklə qarşısındakının heç bir hərəkətini gözdən qaçırmaq istəmirdi, sonda ayağa durub hiyləgərcəsinə gülümsədi, otaqda var-gəl edərək uzada-uzada danışmağa başladı.

– Amma hər şeyin çarəsi var. Sizdə necə deyirlər?... Əl əli, əl də qayıdıb üzü yuyar. Yəni sən mən deyəni

etsən, mən də sənə kömək edərəm. Məncə, bir-birimizi başa düşmək üçün kifayət qədər aydın danışıram.

Qarşımızda dayandı, bizi diqqətlə süzdü. Hər ikimiz sakit dayanıb onu dinləyirdik, qapının sol tərəfində bir neçə addım aralı nəzarətçi hər bir əmrə hazır vəziyyətdə dayanmışdı. Polkovnik keçib yerində oturdu. Masanın üstündəki kağıza tərəf əyilib oxudu:

– Nurəddin Yaşar oqlı Aqayev.., adını düz dedim?...

Əsir başı ilə təsdiq etdi. Türmə rəisi qalxıb onun qarşısına gəldi, çənəsindən tutub başının arxasını divara sıxdı, üzünə qəzəb dolu baxışlarla baxdı, belə etməklə elə bil bizim hər ikimizi qorxutmaq istəyirdi.

– Nədi dilini udmusan, yoxsa başın bədəninə ağırlıq edir?...

Əsir kobud şəkildə başını onun əlləri arasından çıxardı, qəzəbli baxışlarla polkovniki süzdü. İndi rinqdə olan rəqiblər kimi hər ikisi baxışları ilə bir-birini məğlub etməyə çalışırdılar. Nəhayət polkovnik gözlərini əsirdən çəkib döşəməyə baxaraq niyyətini açıqladı.

– Yaxın günlərdə qonaqlarımız olacaq, xarici jurnalistlər.., səni onlara "türk nayomniki" kimi təqdim edəcəm. Deyərsən ki.., Konyadansan, bir ildir pulla gəlib Azərbaycanda döyüşürsən. Sənin kimi yüz nəfərdən ibarət bir qrup da var orada. Nə demək istədiyimi anladın!?...

Əsir əvvəlki kimi qəzəbli baxışlarla onu süzüb xırıltılı səslə dedi:

– Başa düşdüm. Bəs əvəzində?... – polkovnik onun

sözünü bitirməyə imkan vermədi, bir neçə addım aralanıb sakit səslə dedi:

– Hə.., əvəzində… Əvəzində tezliklə əsirlikdən azad olmağına kömək edərəm. Tapşıraram, əsirlikdən azad olana qədər heç bir işgəncə verməsinlər sənə. Kifayətdir?...

Komendant bu dəfə nədənsə yerə baxaraq danışırdı, o da qarşısındakı əsir kimi irigövdəli adam idi, sifəti və bədən fiqurası tipik ermənilərə məxsus idi. Yaşlı olduğu üçün piylənən qarnı və arxası qarşısındakında ikrah hissi oyadırdı. O danışa-danışa var-gəl edir, qarnı və arxası atdığı addımlara uyğun olaraq ritmlə yırğalanırdı.

– Yox əgər əksinə etsən, onlar buranı tərk edən kimi... – o dayanıb bizə tərəf döndü, mənalı şəkildə hər ikimizi süzdü, – elə bilirəm ki, biz bir-birimizi yaxşı anlayırıq…

Əsir yenə də başı ilə razılığını bildirsə də bu dəfə polkovnik heç bir reaksiya vermədi. Üzünü nəzarətçiyə tutub dedi:

– Yaxşı.., bunu apar.

Nəzarətçi qapını açıb əsiri irəli buraxdı. Polkovnik mənə tərəf dönüb eyni təklifi etdi. Cavab vermədim. Bayaqdan Allaha yalvarırdım ki, məni döysünlər, incitsinlər, ancaq belə təklif etməsinlər, "bir əsgərin sözünü eşitməyəndə bu hala salırlarsa, indi gör komendantın dediyi ilə razılaşmasam hansı hala düşərəm," deyə düşündüm.

Polkovnik yerindən durub asta addımlarla mənə yaxınlaşdı, əlini çiynimə qoyub diqqətlə üzümə baxdı.

Bəlkə də verdiyi suala cavab axtarırdı üzümdə. Baxışlarımız toqquşdu, çox vahiməli gözləri, mərhəmətsiz sifəti var idi. Vahimədən dizlərim əsirdi, kobud barmaqları ilə sol çiynimi sıxdı, ağrıdan ufuldayıb aşağı əyildim. Sanki əli murdar bir şeyə dəyibmiş kimi geri çəkdi.

– Sən həqiqətən "nayomnik" olsaydın da, buna heç kim inanmazdı, – deyib qapını açdı, qapı ağzında dayanan əsgərlərə; – Rədd eləyin bu iti burdan, bura gətirəndə normal adam gətirin.

Elə bil əsgərlərə "fas" komandası verildi, məni kameraya qədər döyə-döyə apardılar. Axşama kimi yaralarımın göynərtisindən əzab çəksəm də həmin əsirin üzü gözlərimin önündən getmədi. Erməni polkovniki ilə etdiyi söhbəti isə unuda bilmirdim. Çox çalışdım ki, onunla bir kameraya düşüm, alınmadı. İşin sonunu gözləməkdən başqa çarəm yox idi. İki gün özümü-sözümü bilmədim. Lakin daxilən çox rahat idim, içimdən gələn bir səs onun satqın olmadığını, əsil qəhrəman olduğunu diktə edirdi.

İki gün sonra bizi səhər ertədən sıraya düzüb təbliğat maşınını işə saldılar. Yenidən hamı ilə təkbətək söhbət apardılar. İndi komendatdan başqa mülki geyimdə biri də var idi, suallar verir, hər cavabı öz aralarında analiz edirdilər. Başlıcası o idi ki, bu arada bizə qarnımızı doyuracaq qədər yemək verirdilər və işgəncə verməyi azaltmışdılar. Nəhayət ki, günorta üstü hamımızın səbirsizliklə gözlədiyi qırmızı xaç cəmiyyəti və xarici jurnalistlərdən ibarət qonaqlar gəldilər. Bizi kameralardan

çıxarıb türmənin həyətində bir sıra düzdülər. Tam təsadüfi olaraq həmin əsirlə yanaşı dayanmışdım. Elə buna görə də baş verənləri daha yaxşı müşahidə edə bilir və eşidirdim. Birdən-birə onun satqın olmayacağı barədə daxilimdə əminlik yarandı.

Gələnlər onların yanına çatanda tərcüməçi Nurəddini göstərib türk olduğunu və "nayomnik" kimi azərbaycan tərəfdən döyüşdüyünü dedi. Gələnlər bir anda onun ətrafına yığıldılar. Qadın jurnalistlərdən biri sensasion tapıntını əldən buraxmamaq üçün daha cəld tərpəndi. Tərcüməçiyə ehtiyac duymadan təmiz türk dilində danışmağa başladı.

– Pardon, pardon!... Siz Türkiyənin nərəsindənsiniz!?...

– Mən türk deyiləm, azərbaycanlıyam.

Jurnalist onun dediyini ya eşitmədi, ya da qulaqardına vurub növbəti sualı verdi.

– Benimlə türk dilində konuşa bilirsin, nə dərdin varsa bana de. Ailənlə konuşdurma söz. Numaranı biliyormusun?

– Siz məni başa düşmədiniz, mən türkiyəli deyiləm, azərbaycanlıyam, adım Nurəddindir, Nurəddin Yaşar oğlu Ağayev. Azərbaycan Respublikasının Yardımlı rayonundanam.

Jurnalist qadın çaşıb qaldı, sual dolu donuq baxışlarla tərcüməçiyə baxdı…

O gündən ona yaxın olmağa, dostlaşmağa çalışdım. Dörd ay kamera yoldaşı olduq. O əsil qəhrəman idi.

"Həmişə qəhrəman olmaq çətin məsələdir, amma həmişə əsl insan kimi qalmaq mümkündür. Qəhrəmanlar tarix yazır, tarix qəhrəmanları yaşadır." Hardansa bu sözlər yadıma düşdü, Nürəddinə dedim. O isə azca gülümsəməklə mənim "əllamə" sözlərimə cavab verdi.

– Yenə başladın əllaməlik eləməyə?...

Hər ikimiz güldük. Əsirlikdə onunla çox çətin günlərimiz keçdi. Fiziki cəhətdən güclü idi. İti baxışları, cüssəli bədəni, iri əlləri, daima ciddi olan sifəti onu heybətli göstərirdi. Onun bu halından ermənilər çəkinir, bizi az incidirdilər.

Nurəddin peşəkar zabit idi. Nəyi, necə, nə zaman və harada etmək lazım olduğunu yaxşı bilirdi. Nə qədər sorğu-suala çəksələr də zabit olduğunu sübut edə bilmədilər.

***

1991-ci ilin dekabrın şaxtalı günlərindən biri idi. Soyuq adamın iliyinə işləyirdi. Dağılmış sovet imperiyası ləng də olsa qoşunlarını müstəqillik qazanan respublikalardan geri çəkirdi. Belə günlərin birində Bakıdan rayona qayıdırdı. Artıq hava qaralamağa başlayırdı. Masallıdan Yardımlıya gedən yol gecələr xüsusən də qışda çox vahiməli olur. "Əli dərəsi"ndə İki maşının dayandığını görüb sürücüyə saxlamağı dedi. Maşınlardan biri hərbi "UAZ" idi. Gələn maşından Yaşarın düşdüyünü görən dəstəbaşı yanındakıların eşidəcəyi tərzdə dodağının altında deyindi.

– Işə düşdük də... Bu hardan gəlib çıxdı?...

Keçmiş ittifaqda, hətta kriminal aləmdə də böyük nüfuza malik olan bu adam soyğunçulara həqiqətən baş ağrısı ola bilərdi.

Qarabəniz, hündürboylu adam onlara tərəf yaxınlaşdı, hərbi "UAZ"-ın yanından keçəndə içəridə qadın və uşaqların olduğunu görüb üzünü əks tərəfə çevirdi. Bir az aralıda dayananlara tərəf bir-iki addım atıb soruşdu:

– Uşaqlar nə olub, nəsə kömək lazımdır?

– Yox, heç nə lazım deyil, sən yolundan qalma, Yaşar qardaş.

Onların üzləri tanış olsa da Yaşar heç birini tanımırdı. Geri qayıdıb, getmək istəyərkən, hərbi maşının açıq qapısından bir qadının rus dilində yalvarışla dediyi sözləri eşitdi.

– Qardaş, bizə kömək elə!... Onlar bizi soymaq istəyirlər…

Qadının dediyi sözlər qulaqlarında güllə kimi açıldı, dərhal geri dönüb qətiyyətlə bayaqkı adama səsləndi.

– Ey, səninləyəm! Burax onları.

– Kimi deyirsən, qardaş!?...

Bayaq onunla danışan adam sünii təəccüblə cavab verdi. Bir anın içində dərədə hər şey bir-birinə qarışdı. Hamı dönüb bu qətiyyətli adama baxdı. Yaşar əllərini paltosunun cibinə salıb daha qətiyyətlə dedi:

– Bir daha təkrar etməyəcəm, sən məni yaxşı tanıyırsan, ya indicə bunları azad edəcəksən, ya da...

Dəstəbaşı Yaşarı tanıdığı üçün onun xasiyyətini də

yaxşı bilirdi, əsəbləşməsin deyə dərhal sözünü kəsib təklifini etdi.

– Qardaş, indi bir rusa görə sənin sözünü yerə salmayacam ki, sadəcə olaraq bu “sarıqulaqlar” yüz illərdi bizim milləti talayıblar. Mən də düşündüm ki, məqam düşmüşkən bunlardan qisasımızı alaq. Onu da sən qoymursan. Bəlkə, maşında yanıbalalı bir sarı ceyran var, onu verək sənə razılaşaq, nə deyirsən?...

O bir anlıq dayandı, təklif onu daha da qəzəbləndirmişdi, üstündə silah olsaydı, düşünmədən onları güllələyərdi. Qəzəbdən titrəyən, boğuq və xırıltılı səsi dərəni bürüdü.

– Hələ ki, əlimi qanınıza batırmamışam, küçüklərini də götür rədd ol burdan. Millətin qisasını alana bir bax... Mənə tarix dərsi keçmə. Bəlkə qadınları görüb kişiləşmisən?...

Dərəyə dərin sükut çökdü, soyğunçular Yaşarın silahlı ola biləcəyindən, rayonda və ətrafda olan hörmətindən çəkinib geri addım atdılar. Maşına doğru gedən dəstəbaşı açıq-aydın etirazını bildirdi.

– Yaxşı, yaxşı, təhqirə keçmə. Biz getdik, amma bunu unutma, qalsın qırmızı qulluğunda, sonra görüşərik...

Yaşar ona cavab vermədi, bir az aralıda onu gözləyən maşına tərəf getdi. Polkovnik ona yaxınlaşıb diqqətlə süzdü, əlini irəli uzadıb özünü təqdim etdi.

– Vladimir Osipoviç. Təşəkkür edirəm. Sən Allah tərəfindən göndərilən xilasedici mələksən. Sənin bu yaxşılığını heç zaman unutmayacam…

Yaşar ona doğru uzanan əli tutdu.

– Yaşar Ağayev. Buna görə mənə təşəkkür etmək lazım deyil. İnsanlıqdan xəbəri olan hər kəs bundan daha artığını edərdi.

Polkovnik yenə nə isə demək istədi, Yaşar imkan vermədi, hərbi paltarda olan azərbaycanlı sürücüyə tərəf döndü.

– Bu çaqqalları tanıyırdın?

– Belə də… bir neçə dəfə rayonda pastlaşmışam.

– Hara aparırsan bunları?

– Bakıya... Rusyetə yola salacam, bron yerləri var.

– Yolda hər itə-qurda maşın saxlama. Qarşıda yenə saxlayan olsa deyərsən ki, mənim qonaqlarımdır.

– Çox sağ ol, qardaş! Bizi əməlli rüsvayçılıqdan qurtardın...

Yaşar ona baxmadan maşına oturdu. Maşın döngəni burulub gözdən itdi.

Polkovnik onun kim olduğunu praporşikdən soruşdu. Yardımlı rayonundan olan Muradov Yaşarı çox yaxşı tanıyırdı. O, Yaşar haqqında geniş şəkildə polkovnikə danışdı. Polkovnik yolboyu tez-tez başını tutub fikirli halda öz-özünə deyirdi:

– Allahım!!!... Bu qədər uzun hərbi xidmətdən sonra başıma belə bir rüsvayçılığın gələcəyini təsəvvür edə bilməzdim. Bundan sonra yalnız bir istəyim var səndən. Onun mənə, mənim ailəmə etdiyinin kiçik bir hissəsini qaytarmaq üçün ömrümdə heç olmasa bir dəfə şans ver mənə.

Bakı vağzalında polkovnik ailəsini kupedə yerləşdirib aşağı endi. Perronda dayanıb qatarın son fitini gözləyirdilər. Polkovnik özü ilə danışırmış kimi son dediklərini bir neçə dəfə təkrar etdi. Sonra isə qatarın fitini gözləmədən uzun illər bir hərbi hissədə xidmət etdiyi praporşik Muradovu bağrına basıb vidalaşdı.

***

Hər tərəf yaşıllıq idi, elə bil təbiət hər kəsi heyran etsin deyə üstünə yaşıl örpəyini çəkmişdi. Nurəddin bütün gecəni yatmasa da gözləri önündə açılan füsünkar mənzərənin əsirinə çevrilmişdi. Bu elə bir mənzərə idi ki, baxanları bir daha baxmağa məcbur edir, canından ruhunu alırdı.

Gecə nisbətən sakit keçsə də arabir eşidilən silah səsləri məşum sükutu pozur, tufandan öncəki sakitliyi xatırladırdı. Səhər tezdən duran kimi təbiətin göz oxşayan gözəlliyinin əsirinə döndü. Elə bil sehirli nağıllar aləmində idi. Bu gün yer kürəsinin bir parçası olan Qarabağ tam fərqli bihuşedici gözəlliyə malik idi. Dağlıq ərazilərdə təbiətin gözəlliyi düzənliyə nisbətən daha tez nəzərə çarpır.

Hələ də bayaqkı duyğuların təsiri altında otağına qalxdı. Rəhbərlik etdiyi bölük hazırda ehtiyatda idi. Çox çəkmədi ki, mövqelərdən gələn xəbər hamını sarsıtdı. Düşmən Qırmızıkənd üzərinə hücuma keçmişdi. Dərhal "çıxışa" komandası ilə tam hazır vəziyyətdə

olan bölük həyətdə düzüldü.

Dəqiqələr sürətlə bir-birini əvəz edirdi. Təcili kəndin müdafiəçilərinin köməyinə getmək lazım idi. Bölük komandirinin əmri ilə kəndin yaxınlığında maşınlardan enib iki dəstəyə bölündülər. Ümumi əməliyyata kapitan Nurəddin Ağayev rəhbərlik edirdi. O, ikinci dəstəyə rəhbərliyi İlqar Ağayevə tapşırdı. Düşmənin sayı və gücü məlum olmadığı üçün kəndin kənarında mövqeləndilər.

Lakin kəndin müdafiəçilərinin düşmənlə qeyri-bərabər döyüş apardığını görüb kapitan Ağayevin əmri ilə bölük, zəncir şəklində düzülüb bir neçə istiqamətdən kəndə daxil oldu.

Düşmənin qüvvəsi haqqında heç bir məlumatları olmadan kəndə girməyin təhlükəli olduğunu bilsələr də bunu etməli idilər. Komandir kiçik bir dəstə ilə kəndi iki hissəyə bölən dərəni keçib mərkəzə tərəf irəlilədi. Düşmən dəstələrinin qarşıda ikimərtəbəli binanın arxasında mövqeləndiyindən xəbərsiz idilər. Hər küçə uğrunda qızğın döyüş gedirdi. Qeyri-bərabər döyüşdə otuz beş nəfər itki verən düşmən azğınlaşmışdı. Qorunmaq üçün nə bir daş, nə də bir qaya vardı, kəndə hər tərəfdən güllə yağışı yağırdı. Üzbəüz düşmən mövqelərindən artilleriya və tanklar vasitəsi ilə atəş açmağa başladılar. Nurəddin nə qədər tədbirli olsa da iyirmi bir nəfər şəhid verdilər. Bir az əvvəl gördüyü təbiətin füsunkar gözəlliyindən əsər-əlamət yox idi. Silahların səsi yaralı insan və heyvanların səsinə qarışıb məşum

bir vahimə yaradırdı.

Həmin döyüşdə kapitan Ağayev iki yerdən yaralanıb çoxlu qan itirdi. Huşsuz halda uzanıb qalan komandir, özünə gələndə iki əsgərinin onu döyüş meydanından çıxarmaq istədiyini gördü. Bu zaman qarşıda düşmənin tankini gördü. Çox çəkmədi ki, partlayan mərminin güclü dalğası onu və əsgərlərini yerə sərdi. Partlayışın təsirindən yaddaşını itirdi. Fenomen yaddaşa malik olan kapitan Ağayev sonralar nə qədər çalışsa da əsgərlərin adlarını xatırlaya bilmədi.

Gözləri önündə güclü işıq, qulaqbatıran səs, partlayışın yaratdığı güclü dalğa… Özünə gələndə ağır-ağır nəfəs alır, lakin heç nə görmür, heç nə eşitmirdi. Ağır dərəcəli “kantuziya” almışdı. Qulaqlarından və burnundan qan gəlsə də ölmədi. Əsgərləri yanında şəhid olmuşdu. Bir anlıq ona elə gəldi ki, o da əsgərləri ilə birlikdə şəhid olub. Yenidən huşunu itirdi.

İkinci dəfə özünə gələndə hardasa yataqda olduğunu anladı. Gözləri görmədiyinə görə ürəyi sıxılırdı. Bir müddət sonra görmə qabiliyyəti bərpa olsa da qulaqlarında yalnız uğultu var idi. Ağ xalatlı həkimlər və tibb bacıları otaqda fırfıra kimi fırlanırdılar. Düşündü ki, ya Qusar, ya da Lənkəran tərəfdədir. Birdən iki çarpayı aralıda sarışın, orta yaşlı bir həkimin dayanıb ona diqqətlə baxdığını gördü. Onun boynundan gümüş xaç asılmışdı. Daxilində, hardasa lap dərinlikdə nəyinsə qırıldığını hiss etdi. Yaşamaq ümidi kəsildi. “Kaş əsir düşməkdənsə ölərdim.” – deyə düşündü.

Bəli, o gündən heç zaman əsirliyi qəbul etməyən kapitan Ağayev əsir düşdü və elə o andan məşəqqətli əsir həyatı başladı. Bir neçə gün sonra yenidən həmin həkimin bir az aralıda dayanıb ona baxdığını gördü. "Bu "sarıqulaq" hər kimdirsə məni tanıyır. Zabit olduğunmu ermənilərə desə vəziyyətim heç də yaxşı olmayacaq," deyə düşündü. Bir müddət keçəndən sonra palatada kimsənin olmadığını görən həkim ona yaxınlaşdı. Elə bil kimdənsə çəkinirdi, tez-tez qapıya baxıb asta səslə Nurəddindən soruşdu.

– Mənə bir nəfəri xatırladırsan. De görüm kimsən?

– Ağayev Nurəddin. On gün əvvəl rayondan Bakıya gəlirdim, yolda "ablava"ya düşdüm, yığıb gətirdilər cəbhəyə.

Həkim aralıda olan stulu çəkib onun yanında oturdu. Nurəddinin bir neçə il öncə onu soyğunçuların əlindən xilas edən Yaşar Ağayevə bənzədiyini görüb heyrətlənmişdi. Allah onun bir neçə il öncə etdiyi duanı qəbul etmişdi. Həmin günləri, Yaşarı və etdiyi duanı xatırladı.

– Ağayev, sən haralısan?

– Yardımlı rayonundan.

– Yardımlıdan? – Nəyisə xatırlayırmış kimi bir anlıq duruxdu, sonra fikirli halda soruşdu. – Yaşar Ağayevi tanıyırsan?

Nurəddin fikrə getdi, atasının nəinki Azərbaycanda, hətta bütün İttifaqda böyük hörməti olduğunu bilirdi. Lakin milliyətcə rus olan bu hərbi həkimin onun atasını haradan tanıması təəccüblü idi. Həkim qarşısındakının

çətin durumunu anlayırdı, hər necə olsa da o indi əsir idi və Vladimir Osipoviçin onu əsirlikdən azad etmək kimi səlahiyyəti yox idi. Yaşarın ona və ailəsinə etdiyi yaxşılığın əvəzini yalnız oğlunu əsirlikdən azad etməklə qaytarmaq mümkün idi. O isə bunu bacarmırdı. Üstəlik ermənilərin onların arasındakı əlaqədən xəbərdar olmaları nə Nurəddinə, nə də həkimə yaxşı heç nə vəd etmirdi. Yox o nə mümkün idisə, etməli idi. Həkim gülümsündü, Nurəddinə tərəf əyilib pıçıltı ilə:

– Zabit olduğunu boynuna alsan səni əzabla öldürəcəklər.

Həkim fikirli halda palatadan çıxıb otağına getdi. "Nurəddin üçün nə edə bilərdi? Bir neçə il bundan öncə Nurəddinin atası Yaşarın onun üçün etdiklərinin əvəzini çıxa biləcəkdimi? "- düşündü və ötən günlərin cazibəsi onu ağuşuna aldı.

İttifaq dağılandan sonra iki il işsiz qaldı. Düzdür aylıq maaş alırdı, lakin bilirdi ki, bir müddət belə olması yaxşı heç nə vəd etmir. Bir neçə ay öncə onu Ermənistana, oradan da Xankəndidə olan hərbi hospitala sıravi həkim kimi göndərdilər. İlk dəfə hərbi xidmətə SSRİ-nin cənub sərhədlərindən birində – Azərbaycan SSR-in Yardımlı rayonunun Çayüzü kəndindəki "Komendatura"-nın tərkibində olan kiçik klinikada başladı. Dövlət sərhədinin mühafizəsi "KQB"-nin tərkibində idi. Azərbaycanda on altı illik xidməti müddətində yerli əhaliyə uyğunlaşmışdı, bu millətə böyük hörməti vardı, xüsusən də xidmətinin son günündə baş verən ha-disə-

də Yaşarın etdiklərindən sonra... İndi isə ermənilərin arasında idi və bu millətin necə də ikiüzlü, qorxaq, yaltaq olduğunu hər addımda görə bilirdi. Bəlkə də Allah bu millətlərin xüsusiyyətlərini öyrənsin deyə onun bu qısa ömründə hər iki millətlə qarşılaşdırmışdı. Valodya çox istəyirdi ki, Nurəddinə kömək etsin. "Hətta kiçik köməyi dəysəydi, özünü xoşbəxt hiss edəcəkdi." -deyə düşündü.

Lakin Nurəddinə heç cür kömək edə bilmirdi. Saniyələr daqiqələrlə, dəqiqələr saatlarla, saatlar isə günlərə dönsə də hələ ki ona heç bir kömək edə bilmirdi. Ermənilərin ona bir xətər toxunduracağından qorxub öz adamı kimi təqdim edə bilmirdi. Düşündü ki, hospitalın rəisi ilə danışıb onu bir müddət müalicə məqsədi ilə burada saxlatdırsın. Əlbəttə hospitalın rəisi onun sözünü yerə salmayıb bəlkə də Nurəddini hər hansı bir yolla azad etdirəcəkdi, özünü isə çirkli oyunlarına qatacaqdı. Bu oyunlardan ən populyarı əsirlərin orqanlarının çıxarılması idi ki, buradakı həkimlərin əksəriyyəti belə çirkin işlərlə məşğul idilər. Valodya son anda fikrindən daşındı.

Ən optimal variant kimi "Qızıl xaç" cəmiyyətinin siyahısına saldırıb, onların vasitəsi ilə tezliklə azad etdirmək olardı. Ertəsi gün bu işlə ciddi olaraq məşğul olmağa başladı.

Çox keçmədi ki, həkim Vladimir Osipoviçin bir azərbaycan əsiri üçün etdklərinin üstü açıldı. Gec də olsa ermənilər bu barədə komandanlığa məruzə etdilər və həkimi tezliklə mərkəzə çağırdılar. Onun üçün bəlkə də daha pis olacaqdı, əgər "KQB"-nin gizli agenti olmasaydı.

***

Hər şey dəyişir, ətrafında canlı, cansız nə varsa dəyişməyə məhkumdur. Bu gün gördüklərinin eynisini sabah görmək mümkün deyil. Hər an bir-birini əvəz edən sevincli və kədərli anlar.., bəd və xoş xəbərlərin birinin digərini əvəz etməsi…

Dəyişməyən təkcə zamandır. Hər gün hər bir insana ayrılan saniyələr hamıya eyni sayda verilir. Bunun dəyişməzliyinin ən böyük səbəbinin kökündə dərk edə bilmədiyimiz fövqəl bir varlıq dayanır. Əgər verilən zamana insanlar nəzarət edə bilsəydilər yəqin ki, onun da bölgüsündə qeyri-bərabərliyə yol verilərdi. Bunu bilən uca Allah zamanın bölgüsünü özündə saxladı və bununla da insanlara qarşı ən böyük lütf etmiş oldu.

Ömür saniyələrin toplumu olan illərlə hesablanır. İllər silsilə şəklində aylara, həftələrə, günlərə və s. bölünür. İnsan üçün yeknəsək və darıxdırıcı olmasın deyə aylar birləşərək ilin dörd fəslini yaradır. Rəbbi tərəfindən sevə-sevə yaradılan insanın rahatlığı üçün hər şey dəqiq hesablanıb yaradılmışdır. Heç bir nöqsan tapmaq mümkün deyil. Bunun insan ağlının məhsulu olması mümkünsüzdür və insan istəsə belə bu nizama müdaxilə edə bilməz. Nizamın pozulması həyatda hər şeyin sonu olması demək idi.

Nurəddin bunların hamısını olduğu kimi anlayır və qəbul edirdi. Onun əhatə olunduğu cəmiyyət də bunu təsdiq edirdi.

Bu gün düşmən əsirliyində, həddən artıq qan itirib halsız vəziyyətdə olmasına baxmayaraq qandalla dəmir çarpayıya bağlanmışdı. İndi o əsir idi, heç bir hüququ olmayan əsir. Erməni əsirliyində olmağın nə demək olduğunu ancaq orada olanlar bilir.

İndi yalnız xəyalları var idi, ondan heç zaman ayrılmayan xəyalları.., kimsənin müdaxilə edə bilmədiyi xəyalları. Onun ən çox sevdiyi də elə xəyal aləmi idi. Çünki əsirlər yalnız bu xəyallarda istədiyinə nail olur, həyatı istədiyi kimi yaşaya bilir. Özündən asılı olmadan növbəti dəfə xəyal aləminə səyahət etdi.

***

Hərb sənətinə həvəs ona irsən keçmişdi. Babası Qələmirzə Ağayev İkinci Dünya müharibəsində sovet ordusu sıralarında zabit olmuş, bir neçə dəfə yaralanmışdı. Müharibədən sonra milis orqanlarında işləyib mayor rütbəsində təqaüdə çıxmışdı. Babanın şərəflə getdiyi yol bütün nəsil üçün örnək oldu...

1988-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəbə daxil oldu. 1993-cü ilin əvvlində Sverdlovck (Yekatrinburq) Ali Hərbi-Siyasi Tank və Artilleriya məktəbində oxuyarkən Azərbaycan Müdafiə Nazirliyinin dəvəti ilə Bakıya gəldi və könüllü olaraq döyüş bölgəsinə – Tərtərə bölük komandiri olaraq göndərildi. Az vaxtda şəxsi heyət və komandanlıq qarşısında böyük hörmət qazandı, hamının sevimlisinə çevrildi. Döyü-

şü ağılla, planlı şəkildə idarə etmək, qüvvələri düzgün paylamaq və yerləşdirmək, ən əsası isə düşmənin zəif yerlərini vaxtında aşkar edib qəfil zərbə endirmək, döyüşdə onun ən sevimli taktikası idi.

Çox keçmədi ki, növbədənkənar olaraq hərbi rütbə aldı. Döyüş bölgəsində il yarım olmasına baxmayaraq artıq kapitan idi.

Əsirlikdə onun ömrünün "beşinci fəsli" başladı və bu həkim Vladimir Osipoviçin yoxluğunda daha da qabarıq şəkildə, açıq-aşkar hiss olunurdu.

"Beşinci fəsil"... bu sadəcə hamının hər il gördüyü ilin sıralanmış fəsillərindən biri deyil. İlin dörd fəslindən daha fərli olur bu fəsil. "Beşinci fəsil"də zaman da fərli olur. Bir günü həftə, həftəsi ay, ayı il, ili bir qərinə qədər uzun olur. Bu minlərlə, milyonlarla insanların sırasından yalnız birinin görə biləcəyi bir fəsildir "ömrün beşinci fəsli."

Əsasən öz evində – vətənində özünü güvəndə sayır insan. "Torpaq güclü olur" deyimi də elə buna görədir. Lakin bu deyim ümumilikdə belə olsa da, "beşinci fəsil"də tam başqa cür olur. Bu fəsildə zaman, məkan mənasını itirir, fərqli olur.

Bütün bunları onun özündən yaxşı kimsə bilə bilməzdi. Hami kimi o da bir ömür yaşadı... Yox, əsla. Onun yaşadığı ömür heç də hamının yaşadığı sıradan bir ömrə bənzəmir. Axı onun yaşadığı ömrün içində yalnız onun dərk edə biləcəyi və kimsəyə arzulamadığı, sonsuzluğa qədər uzanan boz bulanıq haşiyə – "Beşinci fəsil" vardı.

***

Bir gün əvvəl "Qırmızı xaç" cəmiyyəti gəlmişdi, onu da siyahıya aldılar. Bir az arxayınlaşdı, bu siyahıya düşənləri nə qədər incitsələr də, öldürmürdülər.

Yarasına dəyən rezin dubinkanın nəfəs kəsən ağrısından huşunu itirdi. Özünə gələndə geniş həyətdə asfalt döşənmiş meydançada olduğunu gördü. Vladimir Osipoviçin yoxluğunda ilk gününün belə keçməsi ömründə "beşinci fəslin" başlanmasına işarə idi.

Hər gün eyni suallar, eyni ssenarilər.., döymək istəyəndə bəhanə lazım deyildi. Hər kəsi döymək üçün bir bəhanə vardı. Onun üçün döyülmək bəhanəsi…

– Əsgərə oxşamırsan, Ağayev. De görüm hansı vəzifədə idin? Rütbən nə idi?...

Hərbi texnikanın, şəxsi heyətin sayını və minalı sahələrin yerini soruşurdular. Hər gün, hər dəfə eyni suallar. Verdiyi cavabları əzbərləmişdi…

Belə günlərin birində yenidən hamını düzmüşdülər, bir neçə nəfər eyni vaxtda üstünə hücum çəkdi. Nə qədər çalışsa da özünü müdafiə edə bilmədi, əsəbindən yerə çöküb hönkür-hönkür ağladı.

Mühafizə rəisi ona yaxınlaşdı, kinayə ilə gülümsündü.

– Niyə ağlayırsan? Özü yıxılan ağlamaz. Taleyinlə barış. Hələ çox belə şeylər görəcəksən. Bu harasıdır ki?...

Nurəddin başını qaldırıb ona nifrətlə baxdı, baxışları od püskürürdü:

– Adam düşmənçilik də etsə kişi kimi edər, kiminlə deyirsiniz təkbətək çıxmağa hazıram.

Arıq, sümükləri görünən əsirin dediyi sözlər mühafizə rəisinin xoşuna gəlmədi. Dərhal erməni dilində hərbi geyimdə olan bədheybətin birini çağırdı.

– Ara, Karo! Bura gəl, – əsiri göstərib astadan onunla erməni dilində nəsə danışdı, Nurəddinə tərəf döndü, üzündə hiss olunacaq dərəcədə arxayınlıq vardı. Erməniyə işarə edib dedi.–Özünə çox güvənirsən deyəsən. Bununla bacararsan?

Nurəddinin hirsi hələ də soyumasa da cavab vermədi. Əsirləri dairəvi şəkildə böyük meydançanın ortasına yığdılar. Zabit onun əllərində olan qandalı açdı. Nurəddin bir anlıq özünü azadlıqda hiss etdi. Qamətini düzəldib əvvəllər əsgərlərinin qarşısında sıra düzülüşündə olduğu kimi başını dik tutdu. Qandalların sıxdığı biləklərini ovxaladı. Mühafizə rəisi ona yaxınlaşdı.

– Döyülsən, səni güllələyəcəyəm. Razılaşdıq?

Nurəddin cavab vermədi, son bir neçə ayda çox zəifləmişdi, lakin ən zəif halında belə, iki-üç Karo kimisinin öhdəsindən gələ biləcəyinə əmin idi. Erməni əsgəri kitelini soyundu, isinmə hərəkətləri edirmiş kimi əllərini yelləyə-yelləyə meydanın ortasında gəzməyə başladı. Getdikcə sürətini artırıb dairəvi meydanda ortada dayanan Nurəddinin ətrafında fırlanmağa başladı. Ətrafda nə qədər mülki və hərbi geyimdə erməni var idisə hamısı türk erməni qarşıdurmasına tamaşa etmək üçün toplanmışdı. Görünür belə "yarışlar" tez-tez baş verirdi

burada.

Nurəddin zəifləməsinə baxmayaraq fiziki cəhətdən güclü idi. Sverdlovski şəhərində Hərbi məktəbdə oxuduğu zaman əlbəyaxa döyüş üzrə dəfələrlə məktəb birincisi olmuşdu. Əlləri yanında meydanda cövlan edən erməni əsgərini sadəcə hiss edirdi. Sərbəst dayanmasına baxmayaraq, bütün diqqəti onda idi.

Sanki əsgər təhlükəni hiss etmişdi, dövrə vurmasına baxmayaraq, yaxınlaşmağa risk eləmirdi. Ətrafa yığılan və getdikcə artan ermənilər "Ka-ro, Ka-ro" deyib səs-səsə verdilər. Onların alqışları Karonu ürəkləndirdi və o Nurəddinə hücum etdi. Əslində buna hücum demək olmazdı, iki addımdan sonra Nurəddinin sərt üzünü gözləri önündə gördü. Elə bil daşdan yonulmuşdu sifəti, daş kimi soyuq baxışları canına qorxu saldı. Bir anlıq geri qayıtmaq istədi. Lakin gec idi, istəsəydi də qayıda bilməyəcəkdi. Nurəddinin kiçik toxunuşundan ayaqları bir-birinə dolaşdı və üzü üstə asfalt döşəmənin üstünə yıxıldı. Dərhal uğultu kəsildi, bir anda hər tərəf sükuta büründü. Özünə gələn əsgər asfalt döşəmənin üstündə çabalayaraq qaçmağa çalışırdı. Nurəddin sakitcə dayanıb bu mənzərəni seyr edirdi. Təəccüb içində olan mühafizə rəisi irəli gəlib qollarına qandal vurdu, Karo hələ də asfaltın üstündə çabalayırdı. Nurəddini əsirlərdən ayırıb işgəncə otağına apardılar. İki saatdan sonra huşsuz halda sürüyüb kameraya gətirdilər.

***

Əsirlərdən dörd nəfərini daş yığmaq üçün Ağdama apardılar. Maşınları yükləyib Samvel Babayanın anadan olduğu kəndə – Xocavənd rayonunun Mıçmına kəndinə gətirdilər. Burada gələnlərdən başqa on iki nəfər əsir var idi. O gündən sonra bir müddət Nurəddin də həmin əsirlərlə birlikdə bu kənddə qaldı və Samvel Babayan üçün tikilən parnik və fermalarda işlədi.

Ermənilər Qarabağın işğal olunan kənd və rayonlarında olan tikinti materiallarını hər tərəfdən daşıyıb bu kəndə gətirirdilər.

Vəziyyətləri bir az düzəlsə də əsir üçün hər tərəfdə eyni olur. Ən əsası o idi ki, bura gələn kimi onlara ayaqqabı verdilər. Əsir düşəndən bəri ayaqyalın idi. Üç ay belə keçdi.

Adi günlərin birində tikintidə işlədikləri zaman yaxınlıqda iki maşın dayandı. Maşından düşənlər – bir qadın və üç kişi dayanıb bir müddət onların işinə tamaşa etdilər. Sonra isə kənara çəkilib nəzarətçi ilə nə barədəsə danışmağa başladılar. Az sonra nəzarətçi Nurəddini yanına çağırıb gələnlərlə birlikdə qarşıdakı evə getməsini dedi. Geniş dəhlizdən keçib zala daxil oldular. Nurəddin içəri girən zaman ayaqqabılarını çıxarsa da gələnlərin heç biri belə etmədi. Geniş zala keçib divarboyu qoyulan divanın üstündə oturdular. Bir az sonra nəzarətçi də gəldi. Erməni dilində yenə nəsə danışdıqdan sonra gələnlərin ən cavanı üzünü Nurəddinə tutub azərbaycan dilində dedi:

– Hə, cavan oğlan! İndi sən bizimlə gedəcəksən, bir daha bura qayıtmayacaqsan,– nəzarətçiyə baxdı,– apar onu yoldaşları ilə son dəfə görüşsün.

Nəzarətçi ilə evdən çıxdılar, içəridəki erməni öz dilində nəzarətçiyə nəsə dedi. Nurəddin üçünsə elə də böyük fərqi yox idi. "Bu kənd olmasın, başqa bir kənd olsun. Əsir hər yerdə əsir deyilmi?..." lakin birdən birə ağlına gələn fikir onu kövrəltdi. İlahi! O, öz vətənində əsir idi. İnsan üçün bundan da böyük rəzalət ola bilərdimi?...

Maşına minəndə qollarını arxada qandalladılar. Çox yorğun olduğu üçün oturan kimi gözləri qapandı. Bir də maşın dayananda oyandı. İkimərtəbəli evin həyətində maşından endilər. Geniş həyət tamamilə üzüm çardağı ilə örtülmüşdü. Həyətin bir küncündə kiçik damda əlləri və ayaqları zəncirli, üzünü tük basmış, üst-başından çirk tökülən bir nəfər var idi. O qapının taxtalarının arasından gələnləri diqqətlə süzürdü. Görünürdü ki, uzun zaman əsirlikdə olanlardan idi.

Nurəddin sonrakı iki gündə onun qonşu azərbaycan kəndindən olan Vəli kişi olduğunu, ara qarışandan sonra ermənilər tərəfindən ailəsi ilə birlikdə tutulub bura gətirildiyini, bir müddət sonra həyat yoldaşının dünyasını dəyişdiyini öyrəndi. Vəli kişi insanlıqdan çıxmışdı. Çöl-bayırda kiminsə qarşına çıxsaydı vəhşi heyvandan seçilməzdi. Onun bura düşməsi səbəbini özü iki gecə müddətində danışdı.

İki gün yerə atılmış köhnə döşəyin üstündə yatdı.

Yeməyini də pis vermirdilər. Əsir düşdüyü müddətdə ilk dəfə idi ki, həm yatmağı, həm də yeməyi normal oldu.

***

Vəli kişi uzun illər idi ki, bu kəndlərdə Sovet sədri işləmişdi. Bütün günü  at belində günün altında olduğu üçün qapqara qaralmışdı. Buna görə də adının əvvəlinə sifətinin rəngini də əlavə edib Qara Vəli olmuşdu. hamı ona Qara Vəli deyə müraciət edərdi. İstər erməni, istərsə də azərbaycanlı əhali heç kim ondan narazı ola bilməzdi. Haqqına desək heç kim də onun bir sözünü iki eləməmişdi, bu vaxta qədər. Heç kimə pisçilik etməmişdi, heç kim də ondan narazı ola bilməzdi.

Lakin birdən-birə dəyişən zamanın tərsinə dönüşü baş verdi. İllərlə qazanılan hörmət-izzət bir anın içində yoxa çıxdı. Qarışan zamanın axınında qaranlıq bir boşluq yarandı və Vəli kişi kimi bir-birinə "qardaş" olanların əksəriyyəti bu qaranlıq boşluğa yuvarlandı.

Ermənilər kəndləri işğal edən zaman hamı kimi onlar da kəndi tərk edib meşədə gizləndilər. Lakin çox keçmədi ki, ermənilərin pusqusuna düşdülər. Bir neçə gün hamı ilə birlikdə Xankəndi yaxınlığında xüsusi təcridxanada qaldıqdan sonra qonşu kənddən olan ermənilərdən Levon və Tiqran qardaşları Vəli kişini tanıdıqları üçün onunla həyat yoldaşını çətinliklə olsa da, xüsusi şərtlər altında evlərində saxlamaq üçün hərbi komen-

dantı razı sala bildilər.

Çox keçmədi ki, həyat yoldaşı dünyasını dəyişdi. O gündən Vəli kişinin də həyatı tamamilə dəyişdi. Ayda bir dəfə komendaturadan gəlib onu yoxlayırdılar. Döyüşlərin birində ev sahibi Levon öldü, oğlu isə yaralanıb əsir düşdü. O gündən Tiqran Vəli kişinin düşməninə çevrildi. O gündən Vəli kişini zəncirləyib həyətdəki it damına saldılar.

Qardaşı oğlunun əsir düşdüyündən bir il keçməsinə baxmayaraq heç bir xəbər tuta bilmirdi. Tiqran bütün kanallarını işə salsa da nəticə yox idi. Demək olar ki, hər həftə Levonun qəbrini ziyarət edirdi. Hər dəfə də qardaşının narazı baxışları altında əziyyət çəkirdi. Bundan əlavə son zamanlar yuxuda da rahatlıq tapa bilmirdi. Keşişlə məsləhətləşdikdən sonra qardaşının il mərasiminə bir həftə qalmış qəbri üstündə türkün qurban kəsilməsinə qərar verdi. Bu uzun illər idi ki, bir ənənəyə çevrilmişdi və bu ənənəni pozmaq olmazdı.

Tiqranın ağlına ilk olaraq Vəli kişi gəlsə də, keşişin məsləhəti planını alt-üst etdi. Kəsilən qurban Levondan gənc və sağlam olmalı idi.

Elə həmin gün əsirlərin üstündə nəzarətçi işləyən qonşusu Rubenlə görüşüb məsələni həll etdi. Mərasimə iki gün qalmış Nurəddini gətirib həyətdəki damlardan birinə saldılar.

Həyətdə keşişlə və Rubenlə söhbət etdikləri zaman Vəli kişi bu xəstə ruhlu insanların planını anlamışdı. Elə həmin gecə bu barədə Nurəddinə məlumat verdi.

İki gündən sonra iyirmiyə yaxın erməni həyətə yığıldı. Səhər tezdən müsiqi sədaları kəndi bürüdü. Nurəddini və Vəli kişini də yemək masasının yanına gətirdilər. Günortaya yaxın hamılıqla Levonun basdırıldığı qəbristanlığa gəldilər.

Nurəddin Vəli kişinin məsləhəti ilə özünü hər şeydən xəbərsiz aparsa da, uyğun məqamı gözləyirdi. Dünən gecə ermənilərin məqsədindən xəbər tutandan sonra ürəyinin hər döyüntüsü yaxınlaşan əcəlin ayaq səslərini xatırladırdı ona. Gecə ərzində bir an da olsa gözlərinə yuxu getmədi. Arada ani olaraq gözlərinə yuxu getdisə də, bir neçə saat sonra başına gələcək müsibəti yuxuda görüb diksindi. Bütün gecəni elə hey özü ilə danışdı.

“İlahi bu necə sərsəmilikdir. Bunlar harada yaşayırlar, hansı əsrdə ilişib qalıblar, nə ilə qidalanırlar... Dünyanın kosmosda yurd saldığı bir zamanda bunlar adamdan qurban kəsirlər... Necə də insanlığa yaraşmayan, iyrənc vərdişləri var... Tüpürüm sizin vərdişlərinizə, tüpürüm sizin insanlığınıza, millətinizə... Xain köpəklər, elə bilirsiz ki, sabah hər şey düşündüyünüz kimi olacaq? Nurəddin sakitcə uzanacaq, siz də onun başını kəsəcəksiniz? Sizin axırınıza çıxmasam ölməyəcəm.” Bütün gecəni deyindi, nə qədər çalışsa da yata bilmədi. Səhər tezdən Vəli kişi onun üzünə baxanda edama gedən adamın nişanələrini görüb nigaran halda başını buladı.

– Özünü ələ al, sənin üzünə baxan hər kəs məsələdən hali olduğunu anlayacaq, bu sənin heç də xeyrinə olma-

yacaq. Heç olmasa nə etdiyini anlayırsanmı!?

Nurəddin başını aşağı saldı.

– Əsəblərim yerində deyil Vəli dayı. Nə qədər çalışsam da özümü ələ bilmirəm.

***

İki saatdan sonra qəbiristanda idilər. Tiqran maşından beli götürüb dərəyə yaxın bir yeri nişanladı, Nurəddinin yanına gəlib əllərini açdı və kənardan nişanladığı yeri göstərib orada tez bir qəbir qazmasını dedi. Dərənin o biri tərəfində əli silahlı əsgər dayanmışdı. Görünür onun qaçmasını ehtimal edib əvvəldən işlərini ehtiyatlı tutmuşdular.

Nurəddin qəbrini qazsa da, erməniləri gözdən qoymurdu. Onlara ən yaxın bir anda bel ilə bir neçəsini şil-küt etmək istəyirdi. Hələ ki, gözlədiyi məqam yetişməmişdi. Necə oldusa, ermənilərin arasında qaça-qaç düşdü. Levonun qəbrinin üstündə olanlar bir-birinə qarışıb ucadan mübahisə edərək ona tərəf gəlməyə başladılar. Onu yarımçıq qazılmış qəbirdən çıxarıb tələsik Levonun qəbrinin üstünə aparmaq istəyirdilər.

Bu zaman Nurəddinlə ermənilərin arasında gərgin bir dartışma başlandı, bu əməlli-başlı ölüm-dirim mübarizəsi idi. Nurəddin beş-altı erməninin əhatəsində olsa da onlara asanlıqla təslim olmaq fikrində deyildi.

Sanki birdən-birə möcüzə baş verdi. Nurəddinin gücünün tükəndiyi bir anda qəbiristanın kənarında iki maşın – bir "UAZ" və bir "Niva" dayandı. Maşından

düşən zabitlər onlara yaxınlaşdı. Gələnlər Levon və adamları ilə xeyli mübahisə etdilər. Səsləri qəbiristanlığı bürüdü. Sonra zabitlərdən biri çiynindəki silahdan bir neçə dəfə göyə atəş açdı. Nəhayət ki, Levonla gələnlər məğlub olduqlarını qəbul edib geri addım atdılar. Hərbçilər Nurəddini "UAZ"a mindirib geri qayıtdılar.

Yarı yolda onu "UAZ"dan düşürüb təcridxanaya gedən "Ural"a mindirdilər. Təcridxananın qarşısında maşın dayandı, içəridəki zabit ikimərtəbəli binaya daxil oldu. Az sonra binadan çıxıb maşına yaxınlaşdı və Nurəddini hələ də yük yerində görüb söyüş və təhqirlə maşından düşməsini tələb etdi.

Heç kimin gözləmədiyi anda bir göz qırpımında maşından tullanıb zabitin qarşısına düşən Nurəddin ona tutarlı bir şapalaq vurdu. Gözləmədiyi zərbədən yerə yıxılan zabit tez də durub binaya tərəf qaçdı. İki gün sonra "Qırmızı xaç" cəmiyyəti siyahıda olanların hamısının Şuşa türməsinə yığılmasını və orada görüş olacağını bildirdi.

Yenicə özünə gələn Nurəddini də başqa əsirlərlə birlikdə Şuşa türməsinə apardılar. Burada ömrünün "Beşinci fəsli" bütün çılpaqlığı ilə özünü göstərdi.

***

Kameranın kiçik nəfəsliyindən süzülən işıq, kainatda olan "Süd yolu"na bənzəyirdi. Bu "Süd yolu," bəzi xalqlarda Ağ yol, qədim zamanlarda həcc ziyarətinə gedənlər arasında Məkkə yolu, türklərdə Saman yolu kimi

tanınsa da, kamerada olan əsirlər üçün Azadlıq yolu idi.

Kiçik kamerada sıxlıq idi, səkkiz nəfər bir-birinə pərçim olunub yatırdılar. İçəridə olan danışıqlardan qısa zamandan sonra ermənilər xəbər tuturdu. Deyilən hər bir sözün dəhşətli sorğu-sualı olurdu. Hamı bir-birindən şübhələnirdi. Lakin heç kimi günahlandırmaq olmurdu. Satqını tezliklə tapmaq lazım idi. Amma necə? Ağlına gələn üsul işə yaradı.

Həmin gecə yata bilmədi, hamı yatandan sonra bir kağız parçasına "Rəis bunlar duyuq düşüb məni öldürmək istəyirlər." yazıb qapının arasından çölə atdı. Keçib yerində uzandı. Səhər açılan kimi satqını kameradan çıxarmışdılar.

Kamera yoldaşlarına bu barədə danışanda hamılıqla ona əhsən dedilər. Bir müddət sonra kamera yoldaşları ilə birlikdə həmin satqınla rastlaşdılar. "Xain xoflu olar" deyib atalar. Satqın onu görən kimi, "Onlar məni öldürmək istəyirlər." – deyə qışqıra-qışqıra ermənilərin yanına qaçdı.

***

Onun üzərində xüsusi nəzarət var idi. Bir neçə dəfə qaçış haqqında düşünsə də artıq bunun mümkünsüz olduğunu qəbul etmişdi. Hətta əsirlərin arasında da ona nəzarət edənlərin olduğunu duymuşdu. Bəxtiyarın yerinin dəyişdrilməsindən sonra demək olar ki, heç kimlə yaxınlıq etmirdi. Təkbaşına "qaçış planı" hazırlayıb uyğun məqamı gözləyirdi. Lakin…

Bir gün səhər tezdən əsgərlərin səs-küyü altında siyahı ilə çağırdılar, dustaq daşıyan maşınlara doldurub naməlum istiqamətə apardılar. Sonradan məlum oldu ki, "Qırmızı xaç" cəmiyyətinin vasitəsilə güya dəyişmək üçün Yerevan türməsinə aparıblar onları. Azərbaycanda–işğal olunmuş ərazilərdə əsirlikdə çəkdikləri "toya getməli" imiş demə. Şuşa ilə Yerevanın əvəzlənməsi əsirlərin həyatında yeni bir dövrün başlanmasına səbəb oldu. İndi "beşinci fəsil" tam mənasında əsirlərin həyatında özünü göstərirdi. Nurəddin rus dilində yaxşı bildiyi üçün ermənilər və ruslar əsirlərin dindirilməsi zamanı tərcüməçi kimi ondan tez-tez istifadə edirdilər. Elə buna görə idi ki, özünə verilən işgəncələrdən əlavə, o biri əsirlərin də işgəncələrinin şahidi olurdu. Əksər hallarda isə onların əvəzinə döyülürdü də…

Ulu öndər H.Əliyevin ad günü münasibəti ilə Rusiyanın Xarici İşlər Naziri Primakovun vasitəçiliyi ilə əsirlərin dəyişdirilməsi olmalı idi. Bir neçə gün ərzində əsirləri sorğu-sual edib "Qırmızı Xaç" cəmiyyətinin iştirakı ilə dəyişmək üçün siyahıya daxil edirdilər. "Qırmızı Xaç" cəmiiyyətinin Ermənistandakı nümayəndəsinin təkidi ilə ermənilərin ürəyincə olmasa da, Nurəddinin siyahıya salındı. Çünki ilk növbədə uzun müddət əsirlikdə olanları yazırdılar. Ümumi olaraq altmış yeddi nəfər əsir dəyişdirilməli idi. Bir neçə dəfə aldatdıqları üçün əsirlərin əksəriyyətinin inamı qalmamışdı ermənilərə. Lakin son iki-üç gündə verilən işgəncələrin nisbətən azalması, Rusiya Xarici İşlər Nazirliyinin nü-

mayəndələrinin – başda Primakov olmaqla, – xarici jurnalistlərin və "Qırmızı Xaç" cəmiyyətinin nümayəndələrinin iştirakı ilə olduğu üçün az da olsa inanmaq olardı. Səhərin açılması ilə altmış yeddi nəfəri Yerevan aeroportuna gətirdilər. Dünyanın hər yerindən ermənipərəst jurnalistlər hamısı axışıb gəlmişdilər. Rus dilini bildiyi üçün elə ondan başladılar. Bir rus jurnalisti ona yaxınlaşdı.

– Bağışlayın, özünüzü təqdim edin…

– Nurəddin Yaşar oğlu Ağayev.

– Nə zaman əsir düşmüsünüz?...

– İki il on gün əvvəl, – 1994-cü il aprelin iyirmi yeddisində.

Jurnalistlər bir anlıq çaşıb qaldılar, təəccüblə onun dediklərini təkrar etdilər…

– İki il on gün əvvəl?...

Nurəddin başı ilə onların dediklərini təsdiqlədi. Orada olan əsirlər ilk dəfə idi ki, ermənipərəst jurnalistlərin gözlərində ermənilərə qarşı nifrəti açıq-aydın oxudular. Sual verən jurnalist qulaqlarına inanmırmış kimi öz-özünə bir daha təkrar etdi.

– İki il on gün… Uzun müddətdir. Bəs… – bir anlıq susdu sualı necə verəcəyini düşündü. Elə bil erməniləri tanımırdı, ya da onlarla əlbir olan özləri deyildi. – Bəs bu müddətdə heç sizinlə maraqlanan olmadı ki? Burada əsirlikdə olduğunuz müddətdə üstünüzdə olanları nəzərdə tuturam.

İlk dəfə idi ki, Nurəddin cavab verməkdən çəkinirdi.

Belə jurnalistlərin araqarışdıran olduğunu yaxşı bilirdi. Daxilindən gələn səs susmasını, suallara cavab verməkdən yayınmasını desə də bacarmadı.

– Bu sualı dostlarınız olan ermənilərə versəniz daha düzgün olar.

– Başa düşmədim. Sizin əsirlikdə uzin müddət qalmağınıza səbəb biz jurnalistlərik ki, sən belə düşünürsən?

– Mən demədim ki, sizsiniz səbəbkar, dedim ki, onlardan soruşsanız daha doğru olar.

Orta yaşlı jurnalist, qadın cildinə girmiş ifritəyə bənzəyirdi. Milliyətcə rusa oxşamasa da rus dilini yaxşı bilirdi, həm də ki, ermənilər arasında xüsusi hörmətə malik olması aşkar hiss olunurdu. O, aralıda dayanan erməni mühafizəçilərin diqqətini cəlb eləmək üçün səsini daha da qaldırdı. Lakin geniş zala daxil olan Primakov və rusiyalı nümayəndələrin onlara tərəf gəldiyini görüncə yenidən heç nə olmamış kimi intervüsünə davam etdi.

Nurəddin bu jurnalist qadını öncədən də tanıyırdı. Qadın ermənipərəst mövqeyi ilə digərlərindən seçilir və həmişə ara qatmaqla məşğul olaraq özünü ermənilərə sevdirməyə çalışırdı. Nəticədə əsirlərə onun qarşısında və çox zaman onun bilavasitə iştirakı ilə işgəncə verilir, o isə bütün bunlardan zövq alırdı. Rusiya nümayəndə heyətinin gəlməsi bu dəfə ona planlarını həyata keçirməyə imkan vermədi. Arzusu ürəyində qalan jurnalist qadının üzünün mimikasında narazılığı əks olunmuşdu. O, yenə də əvvəlki kimi pravakasiyalı suallarından

əl çəkmək fikrində deyildi.

– Əsirlikdə olduğunuz zaman sizinlə beynəlxalq konvesiyaya uyğun olaraq rəftar olunduğunu bilirik. Biz apardığımız davamlı yoxlamalarla həmişə bunun şahidi olmuşuq. Azadlığa hansı təəssüratla gedirsiniz? Doğmalarınıza, qohumlarınıza, sizə dəyməyə gələnlərə erməni xalqı haqqında nə deyəcəksiniz?

Rusiyalı nümayəndələrin olduğu üçün ermənilərin heç nə edə bilməyəcəyi məlum idi. Həm də üç ilə yaxın bir müddətdə daxilində yığılıb qalan nifrət vulkanı püskürməli idi.

– And içirəm ki, çox qısa müddətdən sonra yenidən cəbhəyə qayıdacam, son nəfəsimə, son damla qanıma qədər ermənilərlə mübarizə aparacam. Bütün şəhidlərimizin qisasını onlardan alacam. Biz əsirlərə verilən hər bir zülmə görə erməni əsgərləri cavab verəcəklər…

Adamla dolu olan böyük zala sükut çökdü, elə bil qurbağa gölünə daş atıldı. Təyyarənin gecikməsindən istifadə edən ermənilər məqam tapıb Nurəddini son dəfə döydülər. Hətta ermənipərəst jurnalist qız da əlindəki yumrulanmış kağızla onun başına vurdu. Bir azdan altmış yeddi əsirin sonuncu dörd nəfəri Nurəddini təyyarəyə xərəkdə aparırdılar.

Əsirlikdən azad olandan sonra bir ildən çox hospitallarda müalicə olundu.

***

Oğlunun əsir düşdüyüdən sonra Yaşar kişi bir az qa-

radinməz, bir az da əsəbi olmuşdu. Onun bu halı bütün yaxınlara, qohum-qonşulara, tanış-bilişlərə də sirayət etmişdi. Nurəddin bu elin çırağını söndürməmişdi, özü ilə aparıb zülmətdə qoymuşdu camaatı elə bil. Hər kəs bildiyi kimi, bacardığı qədər onun dərdini daşımağa çalışırdı. Lakin Nurəddinin dərdi heç də daşınası dərd deyildi.

Yaşar kişi hər gecə yatmaq adı ilə hamıdan əvvəl yatağına girər, hamı yatandan sonra isə qalxıb həyətə enər, kətilin üstündə oturar, saatlarla gözlərini bir nöqtəyə dikib düşünərdi. Belə vaxtlarda siqareti siqaretin oduna yandırardı. Bütün "kanallarını" işə salsa da, oğlunun nə ölüsündən, nə də dirisindən xəbər verən yox idi.

Oğlu əsirlikdə olduğu müddətdə ata "oğul" deyib bütün cəbhəni dolandı, gördüm deyən olmadı, yorulub evə qayıtdı. Çox çəkmədi ki, Nurəddinin "Şəhidlik kağızı" gəldi qapıya. Dərdinə həmdərd olmaq üçün gələn qohum-qardaşa üzünü tutdu:

– O kağızı bir də mənı göstərməyin. Nurəddin sağdır, bir gün qayıdacaq, mən buna əminəm. Bu gün başsağlığına gələnlərə isə deyirəm, tələsməyin, gözaydınlığına gələcəksiniz bu qapıya, İnşə-Allah.

Gələnlər üçün həmişə gəldikləri ev idi. Gecə yarısına kimi həyətdə samovar qaynadıb çay içdilər, sonra isə dağılıb getdilər. Yaşar kişi isə yenə də yata bilmədi. Daxilində, ürəyinin lap dərinliyində bir səs əminliklə deyirdi: "Darıxma ata! Mən qayıdacam. Mütləq qayıdacam." Bu Nurəddin idi, onun səsi idi. Bu ailənin ilkinin

səsi idi. Yox!... O səhv edə bilməzdi, oğlunun səsini kiminsə səsi ilə dəyişik sala bilməzdi.

Həmişə olduğu kimi yenə də qardaşlar bir araya gəlib dərdləşirdilər.

– Axı necə ola bilər ki, "Şəhidlik kağızı" gəlsin, amma…

Fikrini bitirməyə, sözünün dalını deməyə ürəyi gəlmədi, yaxşı ki, qardaşı yanında idi, onu bu vəziyyətdən çıxardı.

– Mən əminəm ki, nəsə anlaşılmazlıq olub, yəqin ki, tezliklə aydınlıq gətirərlər…

– Bilirsən, qardaş! Ürəyim çox sakitdir, bəlkə də bu, onun itkisiylə barışa bilməməyimdən irəli gəlir. Daxilimdə bir səs Nurəddinin sağ-salamat olduğunu deyir...

Yenidən susdular, əslində heç birinin deyiləsi sözü yox idi, sadəcə araya çökən dəhşətli sükutu qovmaq üçün idi bu söhbət.

Bəzən insan sükutun içindəki dəhşəti duymadan dincəlməyə, düşünməyə sakit bir guşə axtarır. Bəzən də sükutun qulaqbatıran səssizliyindəki dəhşətdən qorxur, ondan qaçır. Umumiyyətlə həyatda hər nə varsa qədərincə olsa daha yaxşı olur. Birinin digərindən çox və ya az olması, nizamın pozulması deməkdir və bu da gələcək üçün təhlükədir.

Dərk edəndə ki, dünya nizam üstündə qərar tutub, nəzarətsiz deyil, bunu anlamaq o qədər də çətin olmur. Vay o günə ki, bu nizamın əksinə bir addım atıla, ya da buna cəhd edilə.., o zaman Allahın bizə göndərdiyi ki-

tabdan ayə ilə üz-üzə olursan. “Mən cinləri və insanları yalnız mənə ibadət etsinlər deyə yaratdım.” İlahi! Kiçik bir cümlədə olan məna yükünə, onun dərinliyinə diqqət elə. İnsanın insan olaraq formalaşmasına tək bu ayə kifayət edər, əgər ağıl sahibləri dərk edə bilsələr...

Yaşar kişinin bunları dərk etmək üçün yetərincə yaşı və həyat təcrübəsi var idi. Müdrik bir deyim heç zaman yadından çıxmırdı. “Sirrini elə açsan, alçalarsan, sirrini göyə (Allaha) açsan, ucalarsan.” Dərdinin nə qədər ağır olmasına baxmayaraq, Yaşar kişi onu kiminləsə bölməyə çalışmır, sirr olaraq ürəyinə salırdı. Lakin bu dərdi ürəyində saxlaya bilmədi. Bu dərd onu yedəyinə alıb bütün cəbhəni dolandırdı, daha da ağırlaşdı, dağlar qədər ağır oldu. Çəkə bilmirdi bu dərdi. Necə də ağır olurmuş övlad – oğul dərdi. Nurəddin dərdi, bir dağa dönüb onu sıxırdı. Son iki il onu iyirmi il qocaltdı. Saqqalında, başında bir dənə də olsun qara tük qalmadı. Ən yaxın həmdərdi kiçik qardaşı Elşad və qaynı Ağayev Aydın idi.

Gecəni diri gözlü açdığı günlərin birində həyətdə oturub mənasız baxışlarla bir-birinə söykənib sıra ilə düzülən dağlara baxırdı. Elə bil, özü də bir qaya parçası idi və heç nə düşünə bilmirdi. Bayaqdan qapıda dayanan hərbi komissarlığın gizirini görsə də yerindən qalxıb nə istədiyini, niyə gəldiyini soruşmurdu.

Təqaüdünü gözləyən gizir, hansı xəbərlə bu qapıya gəldiyini düşünüb ürəyində özünü qınamağa başladı. “Ay xeyirsiz insan! Bu gün-sabah rədd olub gedirsən

pensiyaya, sənin harana yaraşır ki, belə bir bəd xəbərlə gəlmisən camaatın qapısına. İndi vurub baş-gözünü dağıtsalar, var-yoxuna söysələr düz eləmirlər ki?"

Lakin gözlədiyinin tam əksi oldu. Həyətdə Yaşar kişidən başqa kimsə gözə dəymirdi. Yaşar kişinin üzü ona tərəf olsa da, elə bil onu görmürdü. Anlaqsız halda bələtdən keçib onun yanına gəldi. Yalnız bundan sonra ev yiyəsi onun gəldiyini gördü və yavaşca ayağa qalxdı. Asta addımlarla həyət qapısına tərəf yönəldi, elə bil gizirin məqsədini anlamışdı.

Boş küçədə xeyli gedəndən sonra dönüb arxasınca gələn gizirə gözünün ucu ilə baxdı.

– Gəl görüm, sözlü adama oxşayırsan…

– Yox, ay qağa... Nə sözüm olacaq ki? Şükür Allaha özün hər şeyi yaxşı bilirsən…

Hər ikisi susdular. Yaşar kişi gizirin ürəyindən keçənləri hiss edirmiş kimi üstünə çox getmədi. "Müharibə vaxtı hərbi komissarlığın nümayəndəsi qapıya niyə gəlir ki?..." deyə düşündü. Hərbi komissarlığa çatana qədər heç biri danışmadı. Komissarlığın həyətində yük yeri tentlə örtülmüş maşında tabut olduğunu görəndə Yaşar kişinin qəlbi titrədi, özünü tabutun üstünə atmaq, səsi gəldikcə qışqırmaq istədi. Lakin bacarmadı. Anlamadığı bir hiss onda daxili arxayınlıq yaradır, içindəki harayı boğurdu. Onun fikrincə, "hər şeydə səhv etmək olar, övladdan başqa. Hətta şüursuz heyvanlar belə, balalarını qoxusundan tanıyırlar. İnsanlar övladlarına adi gözlə yox, ruhunun gözü ilə baxdıqları üçün tanıyırlar

onu. Sakit və təmkinli səslə:

– Nurəddin!!! Oğlum!!! – dedi və susdu, deməyə söz tapa bilmədi. Lakin daxilən nə qədər rahat olsa da, anlamadığı bir hissin təsirindən göz yaşlarına hakim ola bilmədi. Göz yaşları yanaqlarından çənəsinə doğru axdı.

***

Hərbi maşın həyət qapısında dayananda o qədər adam var idi ki, iynə atsalar yerə düşməzdi. Deyərdin ki, qəsəbədə adam qalmayıb. Hamı qəhrəman şəhidlə vidalaşmağa gəlmişdi. Tabutu geniş həyətdə yerə qoydular. Kişilər ağlayır, qadınlar üz-gözünü cırır, saçlarını yolurdu. Gənclərdən ibarət bir qrup Şəhidlər xiyabanında məzarın qazılması üçün getdilər. Hərbi komissar tabutun açılmamasında qərarlı idi. Molla da onun tərəfində idi.

– Ay bala, axı niyə başa düşmürsüz? Bu şəhiddir, onu yumasan da təmizdir, pakdır. Bir də ki, onu yuyub gətiriblər, kəfəni açmağa nə ehtiyac var ki!?...

Hamı sakitcə dayanıb mübahisənin necə bitəcəyini gözləyirdi, camaat arasında xüsusi hörməti olan Aydın dayı qətiyyətlə kəfənin açılmasını tələb edirdi.

– Komissar, sən dövlət adamısan, molla da din adamı... Sizin hər ikiniz bu millət və camaat arasında böyük hörmətə malik adamlarsınız. Amma biz də göydən düşməmişik, nə də yad deyilik, açın son dəfə vidalaşaq, bağlansın bu söhbət. Lazım olacaq bir dəfə də yuyarıq,

molla burda, biz burda… Niyə özümüzü çətinliyə salırıq?...

Komissar mübahisəyə son qoymaq üçün Aydının qoluna girib camaatdan kənara apardı.

– Qardaş müharibədir, bəlkə parça-parçadır, bir neçə gün düşmən tərəfdə qalıb, pis vəziyyətdə ola bilər, buna görə açmaq istəmirik. Niyə başa düşmürsən? İstəmirik hamı görsün, sabah hərənin ağzından bir avaz gələndə neyləyəcəyik?...

– O, müqəddəsdir, hansı vəziyyətdə olursa olsun bizə qəbuldur.

Nəhayət komissar bu inadkar dayının təklifi ilə razılaşdı.

– Heç nə. O zaman mən gedirəm, aparın otaqların birində açın. Molla da burdadır. Nə lazım olsa soruşun…

Otaqdan hamını çıxardılar. İçəridə molla, Yaşar, əmilər və Aydın dayı qaldılar. Molla əllərini sinəsi bərabərinə qaldırıb dua oxudu və işarə ilə kəfənin açılmasını bildirdi. Aydın dizləri üstə cənazənin baş tərəfində oturmuşdu. "Bismilləh!" deyib ehtiyyatla, səliqə ilə kəfəni açdı. Elə bil otağa gül qoxusu yayıldı. Aydın nə gördüsə, özündən asılı olmadan "Həmd olsun Allaha!" deyib dikəldi. Bu səhnəni görən hər kəs yerində donub qaldı. Xəbər bir anda hər tərəfə yayıldı, hamının üstündən ağır yük götürüldü elə bil. İndi üzlərdəki donuq ifadə sevinclə qarışmışdı... Tabutdakı Nurəddin deyildi. Tabutu bağlayıb yenidən hərbi komissarlığa qaytardılar.

***

Nurəddindən bir xəbər olmasa da, ən azı həyatda olmağına ümid çox idi. Hamı gedəndən sonra həyətdəki kətilin üstündə oturub baş verənləri tək-tək analiz etməyə başladı Yaşar kişi. Artıq neçə ay idi ki, oğlundan xəbər tutmayan ata baş verən hadisələrin hansının xeyirli, hansınınsa ziyanlı olmasını da seçə bilmirdi. Bu gün baş verənlər isə təkcə onun üçün deyil, Nurəddini sevənlərin hamısı üçün həyatın ən böyük sürprizi idi.

Həmin gün qəsəbədə bir səssizlik hökm sürürdü. Elə bil hamı yatmışdı, uzun qışdan sonra hələ də oyanmamışdılar. Günortaüstü ildırım sürəti ilə bir xəbər yayıldı. Tozlu yolla var gücü ilə ayaqyalın bir uşaq qaçır və şad xəbərin yayılması üçün səsi gəldikcə qışqırırdı.

– Nurəddin gəlir, Nurəddin gəlir!... Gözünüz aydın olsun!

Deyirlər ki, belə xəbərlər - şad, xüsusən də bəd xəbər - çox sürətlə yayılır. Lakin yayılan xəbərə ətrafdan reaksiya gəlmirdi.

Çox qəribə, anlaşılmaz bir vəziyyət yaranmışdı. Eşidən qohum-qonşu dərhal oğrun-oğrun onların həyətinə boylanır, Yaşar kişini və ya ən azı ev adamlarından birini görüb xəbəri onların dilindən eşidib dəqiqləşdirmək istəyirdilər.

"Carçı" isə öz işində idi, dağın döşü ilə aşağı enib körpüyə tərəf getdikcə sanki əzbərlədiyi sözləri cır səsi ilə qışqıraraq təkrar edirdi.

– Nurəddin gəlir, Nurəddin gəlir!... Gözünüz aydın olsun!

Körpünün o biri tayında gözlərini qıyıb carçını tanımaq üçün yaxınlaşmasını gözləyən Tapdıq kişi diqqətlə baxırdı. Nə qədər çalışsa da tanıya bilməyəcəyini düşünüb çağırdı.

– Ay uşaq, yaxın gəl görüm, nə deyirsən!? – Lakin uşağın onu eşitməyib yenidən işinə davam etdiyini görüncə səsini daha da qaldırdı.

Qəsəbədə bir saat əvvələ nisbətən tam fərqli bir canlanma yaranmışdı. Qonşular bütün işlərini buraxıb çəpər üstü müzakirəyə başlamışdılar. Onsuz da son zamanlar zəif eşidən Gülüş nənə həyətdə səs-küylə oynayan uşaqların qarasınca deyindi.

– Ay bala, sakit olun görək ətrafda nə baş verir də?...

Qonşu həyətdə Nabatı görüb deyinməyini kəsdi və cəld ora yaxınlaşdı. Nurəddinin gəlmə xəbəri qəsəbəni əməlli-başlı canlandırsa da, hələlik kimsə ürək eləyib onların qapısına getmirdi.

Çox çəkmədi ki, Adəmin zurnasının səsi bütün qəsəbəni bürüdü. Körpünün üstündə yığılan bəzənmiş maşın karvanı Masallıya, qəhrəman oğlu Nurəddini qarşılamaq üçün yola düşdü. Adəmin dəstəsi də karvana qoşuldu.

Axşama yaxın böyük bir maşın karvanı dağların döşü ilə rayon mərkəzinə tərəf qalxırdı. Adəmin dəstəsi də xeyli böyümüşdü. Masallıda Adəmi tanıyan bütün musiqiçilər Nurəddinin gəldiyini eşidib hərə ifa etdiyi

musiqi alətini götürüb onlara qoşulmuşdu. Nağara, kaman, tar, saz, klarnet – əməlli-başlı ansambl yaranmışdı. Elə bil toy idi, hamı çalıb oynayırdı.

Axşamın alatoranlığında Yaşar kişinin darvazasının lap yaxınlığında iki nəfər – Böyükkişi ilə Rəfail müəllim dayanıb söhbət edirdi. Onlardan biri Bakıdan, digəri isə yaxın kənddən xəbəri eşidib gözaydınlığına gəlmişdilər. Böyükkişi əllərini göyə açıb zikr elədi və emosional bir tərzdə yenicə tanış olduğu Rəfail müəllimə dedi:

– Yol uzun, imtahan çətin, dünya yorucu, insanlar kobud və təkəbbürlü... Elə hey mən, mən, mən deyə hay-küy salırlar. Sanki, hər şeyin sahibi bunlardır. Anlamırlar, başa düşmürlər ki, hər şeyin sahibi var. Mənsəb sahibi olanlar özlərini fövqəl varlıq sayır, insan olduğunu unudurlar. Elə buna görə də, uca Allah qəzəbləndi bütün işlərini kənara qoyub yerə endi, indi hər şey qaydasına düşəcək, nizamlanacaq.

– Əstəxfurullah de qardaş, tövbə elə!!!… Məgər uca Allah bizi tərk edib? Biz həmişə onun nəzarətindəyik. Rəbbimiz kainatı, kainatda olan bütün canlıları, sonra isə Adəmi yaratdı və onunla bəşəriyyətin bünövrəsini qoydu. Adəm yaradıldığına görə Rəbbinin qarşısında, bütün yaradılış isə Allahın hökmü ilə onun qarşısında səcdə etdi. Əfsus ki, bütün yaradılışa nisbətdə yalnız İblis və ona uyan Adəm oğulları bağladıqları əhdə xilaf çıxdılar və ziyana uğrayanlardan oldular. Əlbəttə ki, haqqı başa düşən və səbr edənlərdən başqa - deyə Rəfail müəllim dedi.

Həyətdə isə görünməyən şadyanalıq var idi, geniş həyətdə masalar düzülüb, ağsaqqallar çay içərək bir-biri ilə söhbət edir, cavanlar isə məclisdəkilərə qulluq edirdilər. Həyətin aşağı tərəfində əmlik quzular qurban kəsilir, kabab çəkmək üçün yer hazırlanırdı. Nəinki bu evdə, hətta bu mahalda da çoxdan idi ki, belə gur məclis olmurdu. Musiqiçilər sanki bir-biri ilə yarışırdılar.

Bu ilki bahar da başqa bir təmtəraqla gəlmişdi, hər şey insana ecazkar və möcüzəli görünürdü. Nurəddinin əsirlikdən gəlişi həyata yeni bir nəfəs vermişdi. Hamı onunla birlikdə şəkil çəkdirməyə can atırdı. Qapının qarşısında fotoqraflar və kameramanlar düzülüb onun həyətə çıxışını gözləyirdi.

Nurəddin isə evdə, doğmalarının əhatəsində idi…

**son**

# Mündəricat

Redaktordan.................................................................3

213-cü gün..................................................................16

Əsirlikdən gələn səs.........................................................169

# SƏFDƏR EMİNOV

# "213-CÜ GÜN"

İMZA

NƏŞRLƏR EVİ

**Direktor: Səbuhi Aslan**

**Dizayner: Veys Əliyev**

**Korrektor: Ləman Əliyeva**

Çapa imzalanmışdır: 17.02.2023
Ofset çapı. Əla növ kağız
Tiraj: 500
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru